# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## SƏKSƏN ALTINCI KİTAB

## MART 2018 - MAY 2018

AZƏRNƏŞR
BAKI - 2019

# İLHAM
# ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2019

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**

**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2019, 392 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının Türkiyə Respublikasına və Böyük Britaniyaya səfəri, həmçinin İran İslam Respublikası Prezidentinin ölkəmizə səfəri zamanı bu ölkələrin dövlət və hökumət rəhbərləri ilə enerji və qeyri-neft sektoruna, kənd təsərrüfatına aid bağlanan müqavilələr, təhsil, mədəniyyət sahəsində anlaşma və hərtərəfli əməkdaşlıq məsələlərinin müzakirəsinə dair materiallar toplanmışdır. Azərbaycan Prezidentinin bütün görüş və danışıqlarında Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli yolları prioritet məsələ kimi qaldırılır ki, bu da hər bir cilddə öz əksini tapır.

Kitabda, həmçinin aprel ayında keçirilən Azərbaycan Respublikası Prezident seçkilərinin yekunlarına dair Mərkəzi Seçki Komissiyasının və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin yeni seçilmiş Prezidentin təsdiq edilməsi və rəsmən elan edilməsi iclasının protokolu, eyni zamanda, böyük səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Əliyevin Andiçmə mərasimində geniş nitqi oxucuların ixtiyarına verilmişdir.

**ISBN 978-9952-8100-7-3**

**Я $\frac{0801000000}{\text{М} - 651(07) - 2019}$** **ББК - 32**

© Azərnəşr, 2019

# BƏRDƏ RAYONUNDA PAMBIQÇILIĞIN İNKİŞAFINA DAİR RESPUBLİKA MÜŞAVİRƏSİNDƏ* İŞTİRAK

*26 mart 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə martın 26-da Bərdə Mədəniyyət Mərkəzində pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsi keçirilmişdir.*

*Mədəniyyət Mərkəzinin foyesində ölkəmizdə pambıqçılığın inkişafı ilə əlaqədar ulu öndər Heydər Əliyevin əsasını qoyduğu ənənələrin yenidən dirçəldilməsinə həsr olunmuş fotostend nümayiş etdirildi.*

*Dövlət başçısı respublika müşavirəsində giriş nitqi ilə çıxış etdi.*

---

* Azяrbaycan Respublikasынын Prezidenti Илham Яliyevin sяdrliyi ilя Bяrdяdяki Mяdяniyyяt Mяrkяzindя pambыqчылыьын inkiшafы mяsяlяlяrinя dair respublika mцшavirяsində Bяrdя Rayon Иcra Hakimiyyяtinin baшчысы Vidadi Иsayev, «MKT Иstehsalat Kommersiya» Mяhdud Mяsuliyyяtli Cяmiyyяtin baш direktorunun mцavini Rюvшяn Hяsяnov, Tяrtяr Rayon Иcra Hakimiyyяtinin baшчысы Mцstяqim Mяmmяdov, Bilяsuvar rayonundan fermer Fazil Musayev, Aьcabяdi Rayon Иcra Hakimiyyяtinin baшчысы Шahin Mяmmяdov, «Azяrpambыq» Mяhdud Mяsuliyyяtli Cяmiyyяtin baш direktor яvяzi Zakir Яzimov, Saatlы rayonundan fermer Nizami Mяmmяdov, Azяrbaycan Meliorasiya vя Su Tяsяrrцfatы Aчыq Sяhmdar Cяmiyyяtinin sяdri Яhmяd Яhmядzadя чыхыш etdilяr.

## Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi

Biz bugünkü müşavirədə Azərbaycanda pambıqçılığın gələcək inkişafı ilə bağlı danışacağıq. Bildiyiniz kimi, 2016-cı ildən başlayaraq, Azərbaycanda pambıqçılığa çox ciddi dövlət dəstəyi göstərilir və nəticələr də göz qabağındadır. Qısa müddət ərzində pambıqçılığın sürətli inkişafına nail ola bilmişik. Demək olar ki, biz pambıqçılığı Azərbaycanda bərpa edirik.

2016-cı ildə Sabirabad şəhərində, keçən il isə martın sonunda Saatlı şəhərində müşavirələr keçirilmişdir. Bu müşavirələrdə verilən tapşırıqlar yerinə yetirilir. Biz bu tapşırıqların yerinə yetirilməsi nəticəsində gözəl nailiyyətlərə çata bilmişik. Bu gün isə pambıqçılığa dair 3-cü müşavirə Bərdə şəhərində keçirilir. Bərdənin pambıqçılıqda çox böyük ənənələri vardır. Ötən əsrin 70–80-ci illərində Bərdə Azərbaycanın ən çox pambıq tədarük edən rayonlarından biri idi. Bərdəlilər yaxşı bilirlər ki, ulu öndər Heydər Əliyev bu sahəyə çox ciddi diqqət göstərirdi və dəfələrlə Bərdədə olmuşdu. Bərdədə pambıqçılıqla bağlı dəfələrlə zona müşavirələri keçirilmişdi. O illərdə Bərdədə pambığın tədarükü 120 min tona çatmışdı.

Bərdə uğurla inkişaf edir. Mən Prezident kimi, dəfələrlə Bərdə rayonunda olmuşam. Bu mənim Prezident kimi, Bərdəyə 6-cı səfərimdir. Bütün səfərlərdə verilən tapşırıqlar və onların icrası nəticəsində biz Bərdə rayonunda çox ciddi sosial-iqtisadi inkişafa nail ola bilmişik. Rayon uğurla inkişaf edir, abadlıq-quruculuq işləri geniş vüsət alıbdır. Bərdə şəhəri gözəlləşir. Kəndlərdə də infrastruktur, yol infrastrukturu yaradılır. Bir neçə yol layihəsi icra edilibdir. Dünən biz bir kənd yolu layihəsinin açılışını qeyd etdik. Yeni yol layihəsinin icrası ilə bağlı əlavə tədbirlər görüləcəkdir. Digər infrastruktur layihələri uğurla icra edilir. Bərdədə qazlaşdırılma 100 faizə yaxınlaşır və demək olar ki, kəndlərin hamısı artıq qaz şəbəkəsi ilə təmin edilibdir. Bir neçə kənd qalıb ki, oraya da qazın verilməsi nəticəsində Bərdədə vətəndaşlar təbii qazla 100 faiz təmin olunacaqlar.

Elektrik enerjisi ilə bağlı heç bir problem yoxdur. Digər məsələlər öz həllini tapır, sosial infrastruktur yaradılır, bir çox məktəblər tikilibdir. Qarabağ bölgəsində birinci «ASAN xidmət» Mərkəzi də məhz Bərdədə yaradılıbdır. Digər sosial yönümlü layihələr icra edilib, Olimpiya İdman Kompleksi, Müalicə Diaqnostika Mərkəzi, uşaq xəstəxanası tikilibdir. Yəni bərdəlilər bütün bu işləri yaxşı bilirlər, bu işlərin fəal iştirakçılarıdırlar. Dövlət tərəfindən bundan sonra da Bərdə rayonunun inkişafına böyük diqqət göstəriləcəkdir. O cümlədən Bərdədə kənd təsərrüfatının inkişafı ilə bağlı əlavə tədbirlərin görülməsi nəzərdə tutulur.

Əlbəttə ki, kənd təsərrüfatının inkişafında pambıqçılıq xüsusi əhəmiyyət daşıyır. Təsadüfi deyil ki, keçən əsrin 70–80-ci illərində Azərbaycanda məhz pambıqçılığa çox böyük diqqət göstərilirdi və o vaxt əkin sahələrinin 22 faizi pambıqçılığa ayrılmışdı. Əlbəttə ki, ondan sonrakı dövrdə biz daha çox ərzaq təhlükəsizliyi məsələləri ilə məşğul olmağa başladıq və pambıqçılığın əkin sahələri azaldı. Biz bu gün bu barədə danışacağıq. Ancaq son 2 il ərzində pambıqçılığın bərpası istiqamətində görülən işlər bir daha onu göstərir ki, bu sahənin çox böyük gələcəyi – zəhmətkeşlər, fermerlər üçün çox böyük gəliri, ölkə iqtisadiyyatı üçün isə böyük faydası vardır.

Qeyd etdiyim kimi, ötən əsrin 70-ci illərində Azərbaycanda pambıqçılığın sürətli inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. O, 1969-cu ildə hakimiyyətə gələndə Azərbaycanda 300 min ton pambıq tədarük edilirdi. Onun dövründə bu rəqəm 3 dəfə artmışdı və 1981-ci ildə Azərbaycanda 1 milyon ton pambıq yığılmışdı. Heydər Əliyev Azərbaycandan gedəndən sonra hər bir sahədə olduğu kimi, pambıqçılıqda da tənəzzül yaşandı və 1990-cı ildə Azərbaycanda pambığın tədarükü 1 milyondan 500 min tona düşdü. Müstəqillik dövründə isə pambıqçılıq, demək olar ki, məhv olub gedirdi. Bunun bir neçə səbəbi vardır. Əlbəttə, onu da etiraf etməliyik ki, müstəqilliyimizin ilk illərində bizim ciddi maddi imkanlarımız

yox idi. Azərbaycan çox ağır vəziyyətdə idi. Xüsusilə anti-milli hakimiyyət – AXC–Müsavat cütlüyünün yarıtmaz və xəyanətkar fəaliyyəti nəticəsində ölkəmiz, demək olar ki, dağılırdı. Həm iqtisadi, həm siyasi, həm hərbi böhran ölkəmizi çətin vəziyyətə salmışdı. Hakimiyyətə gəlmiş təcrübəsiz adamlar, ümumiyyətlə, iqtisadiyyat haqqında heç bir biliyə malik deyildilər, o cümlədən kənd təsərrüfatının inkişafı ilə bağlı heç bir iş görülmürdü. Ümumiyyətlə, Azərbaycanda yaşanan xaos, anarxiya, hərc-mərclik imkan vermirdi ki, ölkəmiz inkişaf etsin. Yalnız 1993-cü ildən sonra – xalq ulu öndərə üz tutaraq, onu hakimiyyətə dəvət edəndən sonra bütün sahələrdə olduğu kimi, kənd təsərrüfatında da inkişaf dövrü başlanmış, islahatlar aparılmışdır. Hesab edirəm ki, o vaxt kənd təsərrüfatının inkişafı ilə bağlı ən önəmli qərar kənd təsərrüfatında işləyənlərin vergilərdən azad edilməsi idi.

Müstəqilliyimizin ilk illərində ölkə qarşısında o qədər ciddi problemlər durmuşdu ki, pambıqçılığa həm maddi cəhətdən, həm vaxt baxımından diqqət ayırmaq prioritet məsələ deyildi. Ölkə çox ciddi çağırışlarla üzləşmişdi, böyük təhlükələr mövcud idi. Ötən əsrin 90-cı illərində sabitliyin bərpası, Azərbaycana böyük həcmdə investisiyanın cəlb edilməsi, Azərbaycanı hərtərəfli inkişaf etdirmək üçün əsas vasitə kimi neft strategiyamızın uğurlu icrası – bütün bunlar idi prioritet məsələlər.

Digər tərəfdən, biz ciddi şəkildə bazar iqtisadiyyatına keçidə başlamışdıq və hesab edilirdi ki, bazar iqtisadiyyatı hər şeyi özü tənzimləyəcək. O cümlədən kənd təsərrüfatı ilə bağlı olan məsələləri də bazar iqtisadiyyatı prinsipləri tənzimləyəcək və həll edəcəkdir. Əlbəttə, bu yanaşmada böyük həqiqət var, amma eyni zamanda – pambıqçılığın tənəzzülə uğramasının timsalında biz bunu görürük – əgər ciddi dövlət dəstəyi olmasa kənd təsərrüfatı inkişaf edə bilməz. Nəinki Azərbaycanda, bütün başqa ölkələrdə də. Biz bilirik ki, hətta kənd təsərrüfatının inkişafında böyük uğurlar qazanmış aparıcı dövlətlər də kənd

təsərrüfatına ciddi subsidiyalar, dotasiyalar verirlər, dövlət dəstəyi göstərilir, bir çox hallarda proteksionist tədbirlər görülür. Hər bir ölkə çalışır ki, öz bazarını qorusun. Əlbəttə, biz də Azərbaycanda kənd təsərrüfatının inkişafına çox ciddi dövlət dəstəyi göstəririk.

Son illər ərzində biz kənd təsərrüfatının inkişafı, xüsusilə ərzaq təhlükəsizliyi məsələləri ilə bağlı çox böyük nailiyyətlərə imza atmışıq. Bizim son illər ərzində əsas vəzifəmiz ərzaq təhlükəsizliyi məsələləri idi. Çünki sovet vaxtında Azərbaycanda pambıq, üzüm, meyvə-tərəvəz istehsal olunurdu, ancaq əsas ərzaq məhsulları başqa respublikalardan gəlirdi. Ona görə də ilk növbədə, daxili tələbatı yerli məhsullarla təmin etmək üçün işləyirdik, çalışırdıq, investisiyalar qoyulurdu. Hesab edirəm ki, ərzaq təhlükəsizliyi məsələlərinin həllində çox ciddi uğurlara nail olmuşuq.

Bu gün biz ərzaq təhlükəsizliyini şərtləndirən əsas sahələr üzrə ya özümüzü tam təmin edirik, ya da ki, bu hədəfə çox yaxınıq. Ət istehsalı təxminən 100 faizə yaxındır, Azərbaycan özünü ətlə təmin edir. Süd istehsalı təqribən 80–85 faizdir. Toyuq əti istehsalı yaxın 1-2 ilə 100 faizə çatacaq və böyük ixrac potensialı yaradılacaqdır. Yumurta istehsalı – biz indi nəinki özümüzü təmin edirik, həm də ixrac edirik. Yəni bu sahələr prioritet idi.

Texniki bitkilər diqqətdən kənarda qalmışdı. Yenə də demək istəyirəm, bunun bir neçə səbəbi var idi. Bu səbəblərdən biri də o idi ki, elə hesab olunurdu fermerlər özləri bilər nə əkər, nə biçər. Bu sahəyə böyük dövlət dəstəyi göstərilmirdi. O ki qaldı pambıqçılıqla məşğul olan özəl şirkətlərə, onlar da lazımi səylər göstərməmişlər, pambıqçılığa lazımi səviyyədə fikir verməmişlər, lazımi həcmdə sərmayə qoymamışlar və tədricən Azərbaycanda pambıqçılıq məhv olmuşdur. Statistik göstəricilərə baxsaq görərik ki, 2015-ci il pambıqçılıq tarixində ən acınacaqlı il olmuşdur. Cəmi 18 min hektarda pambıq əkilmişdir və cəmi 35 min ton pambıq tədarük edilmişdir.

2015-ci ilin sonlarından etibarən biz bu məsələ ilə ciddi məşğul olmağa başladıq. Qeyd etdiyim kimi, 2016–2017-ci illərdə müşavirələr keçirildi. 2017-ci ildə pambıqçılığın inkişafı ilə bağlı Dövlət Proqramı qəbul edildi, biz bu işlərlə planlı şəkildə məşğul olmağa başladıq və bu gün gözəl nəticələr haqqında danışa bilərik. 2 il ərzində Azərbaycanda pambığın tədarükü 35 min tondan 207 min tona çatıbdır. Yəni 2 il ərzində pambıq yığımını 6 dəfə artıra bilmişik. Bu da son hədd deyil. Bu gün biz gələcəkdə pambıq tədarükünü artırmaq üçün görüləcək işlər barədə danışacağıq.

Biz dövlət xətti ilə böyük həcmdə müasir texnika almışıq – 500-ə yaxın pambıqyığan kombayn, xarici texnika, qoşqular, Azərbaycanda istehsal olunan traktorlar. Dünən Bərdədə olan texnikanın da bir hissəsinə baxış keçirdim. Bu məqsədlər üçün böyük vəsait ayrılır. Gübrə ilə təminat yaxşılaşır. Bu sahəyə də böyük diqqət göstərilir. Azərbaycan dövləti bu sahəni də, demək olar ki, öz üzərinə götürüb, gübrələr 70 faiz güzəştlə verilir. Amma əldə edilmiş uğurlara baxmayaraq, biz daha da yaxşı işləməliyik, gübrələrin keyfiyyəti daha da yaxşı olmalıdır.

Son illər meliorasiya sahəsində böyük layihələr icra edilib, on minlərlə hektar torpaqda meliorativ tədbirlər görülübdür. O cümlədən Bərdə və digər rayonlarda bu sahəyə çox böyük vəsait ayrılıb və digər kompleks tədbirlər görülübdür. Pambıqçılığın inkişafı ilə bağlı mərkəzləşdirilmiş idarəetmə sistemi yaradılıb, Prezident Administrasiyası, yerli icra orqanları, şirkətlər, fermerlər, zəhmətkeşlər artıq bir nöqtəyə vuraraq, yaxşı nəticələrə imza atıblar. 2 il ərzində əldə edilmiş rəqəmlər bunun ən yaxşı göstəricisidir.

Pambıqçılıq əməktutumlu sahədir. Biz pambıqçılığın inkişafı ilə bağlı on minlərlə yeni iş yeri yaratdıq. Bütövlükdə son illərdə pambıqçılıqla məşğul olan insanların sayı 200 minə yaxınlaşır. Bu insanların böyük əksəriyyəti işləmirdi, ancaq bu gün işlə təmin olunurlar. Əlbəttə, bu, xüsusən bölgələrdə işsizliyin aradan qaldırılması istiqamətində çox ciddi sosial

sahədir. Mən əvvəlki çıxışlarımda da qeyd etmişəm, bu gün də qeyd etmək istəyirəm ki, bizim üçün pambıqçılığın inkişafında əldə edilmiş nəticələr arasında məhz sosial amil ön plandadır. İş yerlərinin yaradılması əsas vəzifəmizdir və biz buna nail ola bilmişik.

Pambıqçılıq çox gəlirli sahədir və yaxşı gəlir gətirir. Pambıqçılıq ixrac yönümlü sahədir. İxrac üçün bazarları axtarmağa ehtiyac qalmır, birjalarda satılır. Pambıqçılıq emal sənayesinə böyük təkan verir. İndi pambıqtəmizləmə zavodları işləyir. Onların daha da böyük səmərə ilə işləməsi haqqında danışacağıq. Ancaq bu sahəyə də təkan verildi. Bunun yerli istehsala böyük dəstəyi oldu. Çünki biz indi özümüz pestisid istehsal edirik, Azərbaycanda heç vaxt pestisid istehsal olunmurdu. Keçən ildən başlayaraq, pestisid istehsal etməyə başlamışıq. Bu il Sumqayıtda böyük Gübrə zavodu fəaliyyətə başlayacaq. Özümüzü gübrələrlə təmin edəcəyik. Artıq Azərbaycanda suvarma texnikasının istehsalı təşkil olunub. Bu texnikanın istifadəsi nəticəsində biz məhsuldarlığı artıra bilərik. Mingəçevir şəhərində Yüngül Sənaye Parkı yaradılıbdır. Mən bu barədə əvvəlki müşavirələrdə sözümü demişəm, fikirlərimi bildirmişəm. Bütün lazımi tapşırıqlar verilibdir. Bu ilin fevral ayında Mingəçevirdə Yüngül Sənaye Parkının 2 yeni müəssisəsi fəaliyyətə başlayıbdır. O müəssisələrdə 700-dən çox insan işləyir və 20 min ton iplik istehsal olunacaqdır. Bu da əvvəlki dövrdə istehsal olunan ipliyin, demək olar ki, yarısıdır. Əgər Azərbaycanda pambıqçılıq sürətlə inkişaf etməsəydi, bu müəssisələrə də ehtiyac qalmazdı. Çünki bu fabriklər ancaq daxili xammal əsasında uğurla fəaliyyət göstərə bilər.

Yəni görün pambıqçılığın ölkə iqtisadiyyatı üçün nə qədər böyük faydası var – məşğulluq ölkəmizə valyuta gətirir, qeyri-neft sektorunu, qeyri-neft sənayesini inkişaf etdirir, yerli istehsala təkan verir, nəinki pambıqçılıq rayonlarında, digər rayonlarda da iş yerləri yaradır. Azərbaycan bu gün pambıqçılıqla bağlı inkişaf templərinə görə dünyada lider ölkədir. İnanmıram

dünyada ikinci ölkə tapılsın ki, 2 il ərzində pambıq tədarükünü 6 dəfədən çox artıra bilsin.

Biz bütün bunlara məqsədyönlü tədbirlər nəticəsində nail olmuşuq. Bir daha demək istəyirəm ki, əgər pambıqçılığa dövlət dəstəyi göstərilməsəydi, biz buna nail ola bilməzdik, 2015-ci ildə 35 min ton, bu il bəlkə də 20 min ton pambıq yığılardı-yığılmazdı, bu da bəlli deyil. Beləliklə, pambıqçılıq tamamilə məhv olub gedəcəkdi. Biz isə buna imkan vermədik. Pambıqçılığı qoruduq və bərpa etdik.

Bugünkü müşavirədə həm görülmüş işlərlə bağlı məlumatlar səsləndiriləcək, həm də görüləcək işlərdən danışacağıq. Qeyd etməliyəm ki, növbəti illərdə bizim əsas vəzifəmiz məhsuldarlığı artırmaq olacaqdır. Çünki keçən ilin təcrübəsi göstərir ki, böyük irəliləyiş vardır. 2016-cı ildə təqribən 90 min tona yaxın pambıq yığılmışdır, keçən il 207 min ton. Baxmayaraq ki, böyük həcmdə məhsul götürmüşük, ancaq bir hektardan məhsuldarlıq lazımi səviyyədə deyil. Bərdə rayonunda çox yaxşı səviyyədədir, 26 sentnerdən çoxdur. Lakin bəzi rayonlarda çox aşağıdır. Bunun səbəbləri təhlil edilir və edilməlidir ki, buraxılan nöqsanlara gələcəkdə yol verilməsin, məhsuldarlıq daha da yüksək olsun.

## YEKUN NİTQİ

Giriş nitqimdə qeyd etdiyim kimi, biz qısa müddət ərzində Azərbaycanda kompleks tədbirlər nəticəsində pambıqçılığın sürətli inkişafına nail ola bilmişik. İndi əsas vəzifə ondan ibarətdir ki, bu müsbət dinamikanı saxlayaq, bunu artıraq və pambıqçılığın gələcək inkişafı ilə bağlı əlavə addımlar ataq. Bu il 22 rayonda pambıq əkiləcək və ümid edirəm ki, bütün bu rayonlarda məhsuldarlıq daha da yüksək olacaqdır.

Bugünkü çıxışlarda yüksək məhsuldarlıq olan rayonların icra başçıları, fermerlər görülən işlər haqqında məlumat verdilər. Onların sözləri və gördükləri işlər göstərir ki, yüksək məhsuldarlığı əldə etmək mümkündür. Əgər hansısa təsərrüfatda

hektardan 55, 50, 40, 35 sentner məhsul götürülürsə, demək, bu mümkündür. Çalışmalıyıq ki, bütün rayonlarda məhsuldarlıq daha da artsın.

Məhsuldarlıqla bağlı bəzi problemlər var və bu problemlər aradan qaldırılmalıdır. Bu problemlər haqqında bugünkü çıxışlarda da məlumat verildi. Elə etməliyik ki, bütün bu qüsurlar, çatışmazlıqlar ciddi təhlil olunsun və biz bunu edirik. Gələcəkdə bu səhvlərə yol verilməməlidir və bundan sonra Azərbaycanda pambıqçılığın inkişafı yalnız məhsuldarlığın artırılması hesabına təmin edilməlidir. Müsbət təcrübə öyrənilməli və geniş tətbiq edilməlidir. Mənfi təcrübə də ciddi təhlil edilməli və gələcəkdə səhvlərə yol verməmək üçün ciddi tədbirlər görülməlidir. Keçən il orta məhsuldarlıq 15,2 sentner olubdur. Əlbəttə, bu bizi qane edə bilməz. Bu çox aşağı göstəricidir. Baxmayaraq ki, qeyd etdiyim kimi, qısa müddətdə – 2 il ərzində biz pambıq tədarükünü 6 dəfə artıra bilmişik və bu gün 200 min tondan çox pambıq təhvil vermişik, məhsuldarlıq, əlbəttə ki, bizi heç cür qane edə bilməz. Əgər biz orta məhsuldarlığı 20 sentner səviyyəsində təmin edə bilsəydik, biz keçən il 270 min ton pambıq götürə bilərdik.

Məndə olan cədvəldə həm yüksək, həm də aşağı məhsuldarlıqla seçilən rayonların adları vardır. Bəzi məlumatları təqdim etmək istərdim. Məhsuldarlığa görə 1-ci yerdə Tərtər rayonudur – 27 sentner, çox yaxşı göstəricidir. 2-ci yerdə Bərdə rayonu – 26,3 sentner, 3-cü yerdə Biləsuvar – 21,8 sentner, 4-cü yerdə Ağcabədi – 21,5 sentner, 5-ci yerdə Ağdam rayonu – 20,6 sentner və 6-cı yerdə Cəlilabad rayonudur – 20 sentner. Bütün başqa rayonlarda məhsuldarlıq 20 sentnerdən aşağı olub – təqribən 18, 15, 13 sentner. Amma elə rayonlar da var ki, məhsuldarlıq 10 sentnerdən də aşağı olmuşdur. Mən onların adlarını çəkmək istəyirəm ki, onlar həm nəticə çıxarsınlar, həm də gələcəkdə öz işlərini daha düzgün qursunlar. Beləliklə, aşağıdan 1-ci yerdə Neftçala rayonudur – 8,2 sentner, sonra Hacıqabul – 8,3, Samux – 8,8, Ucar – 9,3, İmişli – 9,7 sentner. Mən məhsuldarlıq 10 sentnerdən aşağı olan rayonların adlarını çəkdim. Digər

rayonlarda 10 sentnerdən çoxdur. Ancaq bu da, əlbəttə ki, bizi heç cür qane edə bilməz. Ona görə bir daha demək istəyirəm, növbəti dövrdə məhsuldarlığa ciddi diqqət göstərilməlidir və biz çatışmayan bütün məsələləri aradan götürməliyik. Hesab edirəm ki, bu mümkündür, sadəcə olaraq, işlər düzgün qurulmalıdır. Onu da qeyd etməliyəm ki, biz cəmi 3-cü ildir pambıqçılıqla ciddi məşğuluq. Əlbəttə, indi torpaqların seçilməsi, aqrotexniki tədbirlərin görülməsi, suvarma ilə, gübrələrlə, pestisidlərlə, onların keyfiyyəti ilə bağlı olan problemlər də vardır. Ona görə çox düzgün təhlil aparılmalıdır ki, gələcəkdə bu səhvlərə yol verilməsin.

Biz növbəli əkin sistemi tətbiq etməliyik. Bu, taxılçılığın inkişafına da ciddi təkan verəcəkdir. Emal müəssisələrinin gücünü artırmalıyıq. Hazırda yeni pambıqtəmizləmə zavodları tikilir. Bu çox müsbət haldır. Əminəm ki, gələcəkdə pambığın tədarükü daha da artacaq, bizə yeni emal müəssisələri lazım olacaqdır. Bununla bərabər, bu gün fəaliyyətdə olan pambıqtəmizləmə zavodlarının mütləq əksəriyyəti sovet vaxtından qalan müəssisələrdir. Onlar artıq köhnəlib. Düzdür, fəaliyyət göstərirlər, ancaq lazımi səmərə ilə işləmirlər. Ona görə biz gərək emal sənayesini də tədricən yeniləşdirək. Yeni pambıqtəmizləmə zavodlarının tikintisi keyfiyyətə də, məhsuldarlığa da müsbət təsir göstərəcəkdir.

Burada qeyd olundu, bir daha demək istəyirəm ki, fermerlərə keyfiyyətli gübrələr verilməlidir. Keçən mövsümdə gübrələrin keyfiyyəti ilə bağlı bəzi problemlər olmuşdu. Dövlət bu böyük sahəni, demək olar ki, öz üzərinə götürübdür – gübrələrin 70 faizinin pulunu dövlət ödəyir. Ancaq elə gübrələr gətirilməlidir ki, onların keyfiyyəti yüksək səviyyədə olsun və müvafiq qurumlar bu il bu məsələyə ciddi nəzarət etməlidir.

Bəzi çıxışlarda texnika ilə bağlı fikirlər səsləndirildi. Əlbəttə ki, biz özümüzü texnika ilə tam təmin edə bilməmişik. Bunun da təbii səbəbləri vardır. Biz cəmi 2 ildir ki, texnika alırıq. Özü də hamımız yaxşı bilirik ki, son 2 il ərzində dövlət büdcəmizin

xərcləri ilə bağlı çox ciddi işlər aparılır. Yəni biz lazım olmayan xərcləri ixtisar etmişik. Büdcə gəlirlərimizi sabit vəziyyətdə saxlamaq üçün, əlbəttə ki, biz hər bir xərcə xüsusi diqqətlə baxırıq. Baxmayaraq ki, neftin qiyməti son 2 il ərzində çox aşağı səviyyədə idi, bu il də hələ tam bərpa olunmayıb, kənd təsərrüfatı texnikasına çox böyük vəsait ayrılıbdır. Əgər büdcə xərclərinə nəzər salsaq görərik ki, bu texnikanın alınması üçün doğrudan da böyük vəsait ayrılıbdır – son 2 il ərzində 300 milyon manatdan çox. Onun da böyük hissəsi pambıqçılıq texnikasıdır. Fermerlər yaxşı bilirlər ki, biz pambıqçılıqda dünyanın ən qabaqcıl texnikasını alırıq. Əvvəlki dövrdə 370 pambıqyığan kombayn alınmışdır, bu il də əlavə 100 pambıqyığan kombayn alınacaqdır. Lazım olarsa, biz gələcəkdə də texnikanın alınması ilə məşğul olacağıq. Ancaq məlumat üçün bildirmək istəyirəm ki, keçən il, ümumiyyətlə, 10 min ədədə yaxın texnika alınmışdısa, bunun 5700-ü pambıqçılıq üçün alınmışdır. Bu il pambıqçılıq üçün yenə də 3000 ədəddən çox texnika alınacaqdır. Ümumiyyətlə, texnikanın alınması üçün bu il dövlət büdcəmizdə 160 milyon manat vəsait nəzərdə tutulub, bunun 118 milyon manatı pambıqçılıq texnikasına xərclənəcəkdir. Yəni bu rəqəmlər özlüyündə göstərir ki, biz pambıqçılığa nə qədər böyük diqqət göstəririk. Digər kənd təsərrüfatı sahələrinə də diqqət göstərilir, o sahələrin səmərəliliyini artırmaq üçün texnika alınır və alınacaqdır. Ona görə biz, necə deyərlər, hələ təzə başlamışıq və elə etməliyik ki, texnika ilə bağlı növbəti illərdə bir dənə də problem olmasın.

Toxumlar haqqında burada təkliflər səsləndirildi. Bu çox ciddi məsələdir, fermerlər bunu yaxşı bilirlər. Toxumlardan, onların keyfiyyətindən çox şey asılıdır. Fermerlərə daha keyfiyyətli toxumlar verilməlidir və bu sahəni stimullaşdırmaq lazımdır. Razıyam ki, yerli toxum növləri də yetişdirilməlidir və biz bu məsələ ilə məşğul olacağıq.

Keçən il pestisidlərin keyfiyyəti bəzi hallarda lazımi səviyyədə deyildi və məhsuldarlığa da bunun çox mənfi təsiri olmuş-

dur. Ona görə bu il bu sahəyə çox ciddi nəzarət olmalıdır və ancaq yüksəkkeyfiyyətli pestisidlər gətirilməlidir. Nəzərə alsaq ki, artıq Azərbaycan özü bu sahədə yerli istehsala start verib, əminəm ki, bu sahədə bundan sonra problem olmayacaqdır.

Əlbəttə ki, pambıqçılığın inkişafı və məhsuldarlığın artırılması üçün suvarmanın xüsusi rolu vardır. Bugünkü çıxışda qeyd olundu ki, bu sahədə nə qədər böyük işlər görülür. Ümumiyyətlə, bu gün infrastruktur layihələri arasında suvarma, demək olar ki, ön plandadır. İlk növbədə ona görə ki, digər infrastruktur layihələri – elektrik enerjisi, təbii qaz, yol infrastrukturu, içməli su layihələri, demək olar, başa çatır, eyni zamanda, ona görə ki, bu sahə bilavasitə kənd təsərrüfatının inkişafına təsir göstərir. Keçən il 100 min hektar torpağın yeni su təminatını təşkil etmişik. Bu il ən azı 100 min hektar suvarılmayan torpaqlara su verilməlidir və bunun böyük hissəsi pambıqçılığa aiddir. Bu sahədə artezian, subartezian quyularının qazılması, kanalların çəkilişi, meliorativ tədbirlərin yaxşılaşdırılması istiqamətində işlər görülür. Bu il kanalların tikintisi ilə bağlı mənim tərəfimdən bir neçə sərəncam imzalanıbdır. Gələcəkdə bu işləri davam etdirəcəyik və pambıq yalnız yararlı, yaxşı suvarılan torpaqlarda əkilməlidir.

Əlbəttə, biz müasir irriqasiya sistemlərini tətbiq etməliyik. Dünyada bu sahədə olan qabaqcıl təcrübə öyrənilməlidir. Əlbəttə, ənənəvi üsullar var, ancaq bu gün bu sahədə inkişaf o qədərdir ki, biz ən qabaqcıl texnologiyaları Azərbaycana gətirməliyik. Kənd təsərrüfatı sahəsində böyük uğurlar qazanmış ölkələrin təcrübəsi tətbiq olunmalıdır ki, biz sudan səmərəli şəkildə istifadə edək. Keçən il Neftçala Sənaye Məhəlləsində Pivot Suvarma Sistemləri zavodunun açılışı oldu. Mən giriş sözümdə qeyd etdim, pambıqçılığın sənaye sahəsinin inkişafına da çox böyük təsiri vardır. Biz bunu görürük. Əgər biz kənd təsərrüfatı ilə ciddi məşğul olmasaydıq, bu zavod da Azərbaycanda qurulmazdı. Pivot hazırda suvarma sahəsində ən qabaqcıl texnologiyadan biridir, amma təkcə bu deyil. Ona görə

bu sistemin Azərbaycanda istehsalı, əlbəttə, çox müsbət haldır və həm özəl şirkətlər, həm də dövlət pivot sistemləri alıb quraşdırmalıdır. Ancaq biz suvarma ilə bağlı digər üsullardan da istifadə etməliyik, o cümlədən damcılı suvarma sistemləri də geniş tətbiq edilməlidir.

Pestisidlər zavodunun açılışını qeyd etdik. Bu, Sumqayıt Kimya Sənaye Parkında açılmış bir zavoddur. Əminəm ki, bu zavodun istehsal gücü daxili tələbatı tam ödəyəcək, hətta ixrac potensialı da yaranacaqdır. Əlbəttə, keyfiyyətə də ciddi nəzarət olunacaqdır. Elə etməliyik ki, dövlət öz dəstəyini göstərərək, pestisidləri alıb fermerlərə təqdim etsin.

Pivot sistemləri tətbiq edərkən biz məhsuldarlığı qısa müddət ərzində ciddi şəkildə artıra bilərik. Yəni indi təhlil və qabaqcıl beynəlxalq təcrübə göstərir ki, pivot altında olan pambıq sahələrində hektardan 35–40 sentner pambıq götürmək olar, rahat götürmək olar, bəlkə daha da çox. Mən aşağı həddi deyirəm. Ona görə əgər biz Azərbaycanda pivot sistemləri geniş tətbiq etsək – biz bunu edəcəyik – bu özlüyündə məhsuldarlığa çox ciddi müsbət təsir göstərəcəkdir.

Bir daha qeyd etməliyəm ki, pambıqçılıq ancaq intensiv üsullarla inkişaf etməlidir. Biz torpaq fondumuza çox ciddi yanaşmalıyıq. Biz indi böyük aqroparklar yaradırıq, 40-dan çox aqropark yaradılır. Onların böyük hissəsi heyvandarlıq üzrədir, eyni zamanda, bitkiçilik sahəsini əhatə edir. Bu aqroparklara 100 min hektardan çox torpaq ayrılıbdır. Biz torpaq fondumuza çox böyük səmərə, ehtiyat və diqqətlə yanaşmalıyıq. Biz nəinki pambıqçılığı, kənd təsərrüfatının bütün sahələrini ancaq intensiv üsullarla inkişaf etdirməliyik.

Qeyd etdiyim kimi, pambıqçılığın işsizliyin aradan qaldırılmasına böyük dəstəyi vardır. Biz bunu keçən il gördük. Qeyd etdiyim kimi, 200 minə yaxın insan işə cəlb edilib. Bu il də ən azı bu qədər insan işə cəlb edilməlidir və əlbəttə ki, zəhmətkeşlərin iş şəraiti lazımi səviyyədə təşkil olunmalıdır. Tarla düşərgələrinin içməli su ilə, nəqliyyatla təminatı lazımi

səviyyədə olmalıdır. Həm tədarükçü şirkətlər, həm də yerli icra orqanları bu sahəyə xüsusi diqqət göstərsinlər.

Burada qeyd edildi, dövlət tərəfindən ayrılan subsidiyaların çox böyük təsiri olub, 10 qəpik subsidiya böyük dəstəkdir. Pambığın satınalma qiymətini tədricən artırmışıq, 41 qəpikdən 60 qəpiyə qaldırmışıq. Biz bunu ona görə edirik ki, vətəndaşlar daha çox pul qazansınlar. Bizim əsas məqsədimiz bundan ibarətdir. Əlbəttə, pambıq ixrac yönümlü məhsuldur və ölkəyə valyuta gətirir. Ancaq əgər biz ümumi valyuta gəlirlərimizi nəzərə alsaq, pambıqdan əldə olunan gəlir onun cüzi faizini təşkil edir. Bu, maliyyə baxımından o qədər də böyük əhəmiyyət daşıyan sahə deyil. Ona görə pambıqçılığın inkişafı bizim üçün ilk növbədə, sosial amildir, sosial sahənin gücləndirilməsidir. Yəni işsizliyin aradan qaldırılması istiqamətində bunun çox böyük faydası vardır. Bu subsidiyaların verilməsi, alış qiymətinin artırılması yenə də bizim sosial siyasətimizi göstərir. Biz istəyirik ki, vətəndaşlar daha da çox pul qazansınlar. Tarlalarda işləyən o vətəndaşlar, əlbəttə ki, fermerlər daha çox pul qazansınlar və onların rifah halı yaxşılaşsın.

Məhsul yığımı vaxtında aparılmalıdır. Biz keçən il ilin sonuna qədər pambıq yığırdıq. Sonra soyuqlar düşdü, yağışlar yağdı, məhsulun bir hissəsi tarlalarda qaldı. Ona görə yığım vaxtında aparılmalı və işlər elə təşkil edilməlidir ki, burada ləngimələr olmasın.

Qəbul məntəqələri, pambıqtəmizləmə zavodları fasiləsiz elektrik enerjisi ilə təmin olunmalıdır. Keçən il biz buna, demək olar ki, nail olduq. Bu il də bu sahəyə çox ciddi diqqət göstərilməlidir.

Ölkəmizdə geniş vüsət alan kənd yollarının salınması öz növbəsində, kənd təsərrüfatının inkişafına da müsbət təsir göstərir. İlk növbədə, bu layihələr kəndlərdə yaşayan vətəndaşların rahatlığı üçün icra edilən layihələrdir. Keçən il 500-dən çox kənddə layihələr icra edilib, bu il isə ən azı 600 kəndin yolu yenidən

salınacaqdır. Bu da özlüyündə kənd təsərrüfatının inkişafına ciddi təkan verəcəkdir. İtkiləri minimuma endirmək lazımdır.

Əlbəttə, kadr hazırlığına ciddi fikir verilməlidir. Qeyd etdiyim kimi, son illər ərzində – 2016-cı ilə qədər pambıqçılıq tənəzzülə uğradığı üçün bu peşəyə yiyələnmək istəyənlərin də sayı çox az idi. Bu sahə, demək olar ki, ciddi kadr təminatı ilə dəstəklənmirdi. Ona görə indiki şəraitdə Azərbaycan Dövlət Aqrar Universitetində pambıqçılıq ixtisasının yaradılması məqsədəmüvafiq sayıla bilər. Bu, nəzərə alınsın və eyni zamanda, texniki peşə məktəblərində də bu sahəyə xüsusi diqqət göstərilsin. Azərbaycanda pambıqçılığın böyük gələcəyi vardır. Bizə hazırlıqlı mütəxəssislər, müasir texnologiyaları bilən kadrlar lazımdır.

Mən keçən il Saatlı rayonunda keçirilmiş müşavirədə qeyd etmişdim ki, Mingəçevir Yüngül Sənaye Parkının açılışı gözlənilir. Bu ilin fevralında bu parkda birinci zavodlar, fabriklər işə düşdü. Bu, böyük sənaye kompleksi olacaq, Mingəçevir şəhərində işsizliyin aradan qaldırılmasına kömək edəcəkdir. İndi 2 fabrikdə 700-dən çox insan işləyir. Növbəti dövrdə yeni fabriklərin yaradılması nəzərdə tutulur. İndi hazırlıq işləri gedir. Qısa müddət ərzində 2 böyük İplik fabriki işə düşüb. Mən bunu qeyd etdim, bir daha demək istəyirəm ki, bu fabriklər 20 min ton iplik istehsal edir. Fabriklər açılana qədər Azərbaycanda iplik istehsalı 24 min ton idi. 6 fabrik fəaliyyət göstərirdi. Bu 2 fabrik, demək olar ki, onun yarısını təmin edir. Bu da ixrac yönümlü məhsuldur. Biz indi pambığı mahlıca, mahlıcı isə ipliyə çeviririk və ixrac edirik, eyni zamanda, daxili istehsalda bundan istifadə edirik. Yeni iplik fabriklərinin tikintisinə ehtiyac olacaq, çünki bizdə pambıq istehsalı artacaq. Biz elə etməliyik ki, tədarük edilən bütün pambıq, ondan hazırlanan mahlıc Azərbaycanda emal olunsun, ipliyə və ondan sonra hazır məhsula çevrilsin. Biz bu işlərə əlavə dəyər qataraq, həm minlərlə yeni iş yeri yaradacaq, həm də daha yüksək qiymətə rəqabətqabliyyətli məhsul ixrac edəcəyik. Yəni biz artıq bu işin

ortasındayıq. İplik fabriklərinin emal gücü 44 min tondur. Bu çox yaxşı göstəricidir, amma daha da artmalıdır. Ondan sonra bununla paralel olaraq, hazır məhsulun istehsalı da nəzərdə tutulmalıdır.

Bax, görün pambığın istehsalı ölkəmizə nə qədər böyük xeyir verir, valyuta, yeni texnologiyalar gətirir, nəinki pambıq yetişdirilən rayonlarda, hətta Mingəçevir şəhərində də iş yerləri yaradılır. Çünki bu fabriklər dünyanın ən qabaqcıl texnologiyaları əsasında fəaliyyət göstərir.

Keçən il olduğu kimi, bu il də bütün aidiyyəti qurumlar, mərkəzi, yerli icra orqanları, tədarükçü şirkətlər, fermerlər, zəhmətkeşlər bir komanda kimi fəaliyyət göstərməlidirlər. Mövsüm ərzində mövcud olan, yəni qarşıya çıxacaq problemlər dərhal öz həllini tapmalıdır və elə etməliyik ki, biz bu mövsümü maksimum səmərə ilə başa vuraq.

Mən əmək resursları ilə bağlı rəqəmləri səsləndirdim. 200 minə yaxın insan bu işlərə cəlb edilib. Rayonlarda əmək resurslarını müəyyənləşdirmək, onları bu işlərə dəvət etmək üçün yerli icra orqanları işləməlidir, məlumat verilməlidir. Yəni hər gün pul qazanmaq üçün pambıqçılıq çox əlverişli bir sahədir və rayonlarda əmək resurslarımızın təhlili ciddi aparılmalıdır. Çünki son illər ərzində Azərbaycanda artan iqtisadi fəallıq nəticəsində on minlərlə yeni iş yeri yaradılıb, o cümlədən özəl sektorda. Çünki indi dövlət özəl sektora çox böyük dəstək verir.

Keçən il iqtisadi sahədə sabitləşmə ili olmuşdur, bu il isə inkişaf ilidir. Bu ilin iqtisadi göstəriciləri ürəkaçandır. 2 ay ərzində qeyri-neft sənayesi 8 faizdən çox, qeyri-neft sektoru 2,3 faiz, kənd təsərrüfatı 3,4 faiz artıb, o cümlədən bitkiçilik 40 faizdən çox artıbdır. Ona görə bu iqtisadi fəallıq, əlbəttə ki, özəl sektorda iş yerlərinin yaradılmasına xidmət göstərir. Pambıqçılıqda və kənd təsərrüfatının digər sahələrində çox fəal işlər aparılır. Orada da yeni iş yerləri yaradılır. Artıq bir neçə ildir ki, mənim təşəbbüsümlə dövlət tərəfindən yaradılmış ictimai işlərə vətəndaşlar cəlb olunurlar. Mənə dünən verilən məlumata görə, təkcə Bərdə şəhərində yüzlərlə insan ictimai işlərə cəlb olunub,

digər şəhərlərdə də mənzərə təxminən eynidir. Ona görə biz əmək resurslarımızı bilməliyik. Həm mərkəzi, həm də yerli icra orqanları bunun təhlilini aparmalıdır. Biz gələcək iqtisadi inkişafımızı, o cümlədən əkin sahələri ilə bağlı, ümumiyyətlə, iqtisadi sahə ilə, sənaye sahəsi ilə bağlı planlarımızı əmək resurslarımızın düzgün təhlilinin aparılması üzərində qurmalıyıq.

Bizdə demoqrafik dinamika çox müsbətdir, əhali artır. Yaxın gələcəkdə 10 milyon səviyyəsinə çatacaq. Bu bizim böyük üstünlüyümüzdür və biz əmək resurslarımızdan səmərəli şəkildə istifadə etməliyik. O cümlədən builki mövsümdə bu sahəyə ciddi fikir verilməlidir.

Bir sözlə, mən əminəm ki, keçən il əldə edilmiş nəticələrin müsbət və mənfi tərəfləri bu il ciddi təhlil olunacaq. Bu il biz daha da yaxşı nəticələrə çatacağıq, məhsuldarlıq, pambığın tədarükü artacaq və pambıqçılığın inkişafı bundan sonra da sürətlə gedəcəkdir. Bu işlərdə sizə uğurlar arzulayıram.

Bildiyiniz kimi, bir müddət bundan əvvəl mənim təşəbbüsümlə Azərbaycanda yeni orden təsis edilmişdir – «Əmək» ordeni. Bu təşəbbüsü mən pambıqçılığa həsr olunmuş birinci müşavirədə irəli sürmüşdüm. Orden təsis edilib və artıq təltif olunanlar vardır. Bu ordenin 3 dərəcəsi vardır. Bu gün bu mərasimdə keçən il pambıqçılığın inkişafında fərqlənən fermerlərə birinci dərəcəli «Əmək» ordenini mən şəxsən təqdim etmək istərdim.

* * *

*Sonra kənd təsərrüfatının inkişafında xidmətlərinə görə fermerlər Fatma Hüseynovanın, Tofiq İsmayılovun və Fazil Musayevin 1-ci dərəcəli «Əmək» ordeni ilə təltif olunması barədə Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 dekabr tarixli Sərəncamı oxundu.*

*Prezident İlham Əliyev fermerlər Fatma Hüseynovaya, Tofiq İsmayılova və Fazil Musayevə 1-ci dərəcəli «Əmək» ordenlərini təqdim etdi.*

**F a t m a H ü s e y n o v a:** Mənim əməyimə verilən bu qiymət bütün sabirabadlıların əməyinə verilən qiymətdir. Mən keçən il hektardan 55 sentner məhsul götürmüşəm. Çalışacağam ki, bu il daha yüksək məhsul əldə edim. Təşəkkür edirəm, cənab Prezident, çox sağ olun.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Bu, 1-ci dərəcəli «Əmək» ordeni «Sosialist Əməyi Qəhrəmanı»na bərabərdir. Sizin əməyinizi dövlət sovet dövründə də qiymətləndirib, müstəqil Azərbaycan dövləti də. Təbrik edirəm.

**F a t m a H ü s e y n o v a:** Çox sağ olun. Allah mənə nəsib etdi ki, «Sosialist Əməyi Qəhrəmanı» döş nişanını ulu öndər Heydər Əliyev yaxama taxdı. Allah bunu da nəsib etdi ki, bu ordeni mənə ulu öndərimizin davamçısı – Siz təqdim etdiniz. Sağ olun.

**T o f i q İ s m a y ı l o v:** Möhtərəm cənab Prezident, ötən il 40 hektar sahədə pambıq əkmişdim, hektardan 52 sentner pambıq tədarük etmişəm. Bu il artıq 50 hektarda əkmişəm, çalışacağam daha çox məhsul götürüm.

**İ l h a m Ə l i y e v:** Çox yaxşı. Sağ olun. Təbrik edirəm.

**F a z i l M u s a y e v:** Çox sağ olun, cənab Prezident.

**İ l h a m Ə l i y e v:** Təbrik edirəm.

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Kemerovo şəhərinin ticarət mərkəzində çoxsaylı insan tələfatına səbəb olmuş yanğın barədə xəbəri dərin kədər hissi ilə qarşıladım.

Sizə, həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verir, xəsarət alanların tezliklə sağalmasını arzu edirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 mart 2018-ci il*

## BONA DEA BEYNƏLXALQ HOSPİTALIN AÇILIŞI MƏRASİMİ

*27 mart 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva martın 27-də Bakının Nizami rayonu ərazisində Bona Dea Beynəlxalq Hospitalın açılışı mərasimində iştirak etmişlər.*

*Azərbaycan Prezidenti hospitalın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Bona Dea Beynəlxalq Hospitalın baş icraçı direktoru Faiq Əliyev və baş həkimi Musa Abbasov dövlət başçısına və xanımına bu tibb müəssisəsi barədə məlumat verdilər. Bildirildi ki, hospital tibbi avadanlığına və texniki təchizatına görə dünyada bu sahədə ən müasir standartlara cavab verən az sayda müalicə ocaqlarından biridir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva hospitalda yaradılan şəraitlə tanış oldular.*

*Məlumat verildi ki, bina stasionar və diaqnostik hissələrdən ibarətdir. Stasionar hissə yeddimərtəbəli, diaqnostik hissə isə dördmərtəbəlidir. Hospitalda ürək-damar cərrahiyyəsi, invaziv-kardiologiya, mama-ginekologiya, neonatologiya, pediatriya, təcili tibbi yardım, reanimasiya, süni mayalanma, ümumi cərrahiyyə, ortopediya-travmatologiya, neyrocərrahiyyə, qulaq, burun və boğaz xəstəlikləri, göz xəstəlikləri, urologiya, anesteziologiya, daxili xəstəliklər, qastroenterologiya, nevrologiya, şüa diaqnostikası, tibbi laboratoriyalar, onkologiya, stomatologiya, qan bankı, fizioterapiya-reabilitasiya, mərkəzi sterilizasiya kimi bütün əsas tibbi xidmət sahələri fəaliyyət göstərəcəkdir. Hospital 206 çarpayılıq, təcili tibbi yardım şöbəsi isə 12 yerlikdir.*

*Dövlət başçısı və xanımı burada çalışan xarici həkimlərlə görüşdülər, onlarla söhbət etdilər.*

*Hospitalda ümumilikdə 850 nəfərdən ibarət tibbi heyətin işləyəcəyi nəzərdə tutulur. Onlardan 22 həkim və 30 orta tibb heyəti Avropadan dəvət olunmuş yüksəkixtisaslı mütəxəssislərdir. Bu mütəxəssislər dünyada öz sahələri üzrə məşhur olan tanınmış tibb işçiləridir. Burada çalışan tibb mütəxəssisləri arasında ABŞ, Kanada, Avstraliya, Almaniya, İtaliya, Fransa, Belçika, Niderland, Xorvatiya, Serbiya, Yunanıstan, İspaniyadan olan yüksək peşəkar həkimlər vardır.*

*Pediatriya və neonatologiya şöbəsində azyaşlıların müalicəsi üçün hər cür şərait yaradılıb. Burada ümumi pediatriya, genetik konsultasiya, pediatrik nevrologiya, kardiologiya və cərrahiyyə xidmətləri göstəriləcək. Şöbədə eyni zamanda, qabaqcıl laparoskopik prosedurlar da icra olunacaqdır.*

*Hospitalın şüa diaqnostika-radiologiya şöbəsi də ən müasir tibbi avadanlıqlarla təchiz olunub. Rentgen, MRT, kompüter tomoqrafiya və ultrasəs müayinəsi avadanlığının quraşdırıldığı şöbə çoxmetodlu diaqnostik və müdaxiləvi vizualizasiya xidmətlərini təklif edir. Burada xəstələrə rəqəmsal radioqrafiya, rəqəmsal flüoroskopiya və digər xidmətlər də göstəriləcəkdir.*

*Diqqətə çatdırıldı ki, müəssisənin kliniki laboratoriya şöbəsi bütün xəstələri həftənin və sutkanın istənilən vaxtı hərtərəfli müayinələr və qan bankı xidmətləri ilə təmin edir. Burada müxtəlif laborator müayinələr aparmaq üçün dünyanın aparıcı şirkətlərinin istehsalı olan və ən müasir standartlara cavab verən avadanlıqlar quraşdırılıb. Bu avadanlıqlar laborator müayinələri yüksək keyfiyyət və dəqiqliklə, həmçinin qısa müddətdə icra etməyə imkan yaradır. Laboratoriyanın məlumat sistemi xəstəxananın məlumat sistemi ilə əlaqəlidir. Kliniki kimyəvi laboratoriyada tamamilə avtomatlaşdırılmış nəzarət sistemi mövcuddur.*

*Son illərdə ölkəmizdə həyata keçirilən dövlət siyasətində səhiyyə sisteminin təkmilləşdirilməsi və inkişafı əsas yerlərdən birini tutur. Ən mühüm məqamlardan biri odur ki, Azərbaycan və-*

*təndaşlarının hərtərəfli tibbi xidmətlə təmin edilməsi, gələcəyimiz olan uşaqların sağlam yetişməsi istiqamətində icra edilən layihələr dövlət başçısının daim diqqət və nəzarətindədir. Vətəndaşların məhz ölkəmizdə yüksək səviyyəli tibbi xidmətlərdən yararlanması ilə bağlı çox mühüm işlər görülür.*

*Bu gün Azərbaycanda səhiyyənin inkişafına, bu sahədə əsaslı islahatların aparılmasına Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da mühüm töhfələr verir. Fondun dəstəyi ilə ölkəmizdə çoxlu sayda tibb ocaqları inşa olunub, mövcudları isə müasir səviyyədə yenidən qurulubdur. Bu layihələrin icrası zamanı səhiyyə müəssisələri dünyanın aparıcı şirkətlərinin müasir tibbi avadanlıqları ilə təchiz olunur.*

*Bildirildi ki, Bona Dea Beynəlxalq Hospitalında helikopterlərin enməsi üçün meydança da yaradılıbdır.*

*Hospitalın ən müasir tələblərə cavab verən konfrans zalında müxtəlif toplantılar, iclas, görüş, müşavirə və digər tədbirlər təşkil etmək, həmçinin peşəkar həkimlərin gənc mütəxəssislərə təlimlər keçmələri üçün də hər cür şərait mövcuddur. Ümumi tutumu 145 yerlik olan bu zalda cərrahi əməliyyatları birbaşa izləmək mümkündür.*

*Dövlət başçısı konfrans zalında hospitalda çalışan xarici həkimlərlə söhbət etdi.*

**İ l h a m Ə l i y e v:** Siz burada güclü tibb mərkəzi qurmağa kömək edirsiniz. Sizi Bakıda görməyə çox şadam. İndi bizim yüksək səviyyəli avadanlığımız və həkimlərimiz vardır. Bizə lazım olan məhz budur – avadanlıq və tibbi xidmət. Mənə məlumat verildi ki, siz regionda, düşünürəm, ən yaxşı tibb mərkəzlərindən birini, bəlkə də ən yaxşısını yaratmağa kömək etmək üçün xəstəxana ilə sıx şəkildə işləyirsiniz.

*Azərbaycan Prezidentinə və xanımına məlumat verildi ki, palatalarda xəstələrin müalicəsinin yüksək səviyyədə təşkili üçün bütün zəruri şərait yaradılıb. Tibb müəssisəsinin qarşısına qoyduğu əsas məqsədlərdən biri də xəstələri səhiyyənin yüksək*

*standartları ilə təmin etməklə yanaşı, müalicənin bütün mərhələləri üzrə innovasiyaların tətbiqidir. Bu məqsədlə burada quraşdırılan və İKT-nin yeniliklərinə əsaslanan qurğular xəstələrin müalicəsinin yüksək səviyyədə təmin olunmasına imkan verir.*

*Hospitalın əməliyyat bloku da texniki təminatına görə mövcud olan bütün dünya standartlarına tam cavab verir. Tibb müəssisəsində 10 əməliyyatxana, 2 angioqrafiya otağı yaradılıb. Ümumilikdə burada fəaliyyət göstərən Cərrahiyyə Xidmətlər Klinikasında laparoskopik prosedurlar, açıq cərrahiyyə və digər cərrahi əməliyyatlar aparılacaqdır.*

*Beynəlxalq hospitalın ürək-damar cərrahiyyəsi şöbəsi ən müasir qeyri-invaziv və invaziv diaqnostik avadanlıqlarla təchiz edilib. Burada açıq ürək cərrahiyyəsini yerinə yetirmək mümkündür. Bundan başqa, şöbədə ürək çatışmazlığı, anadangəlmə ürək xəstəliyi cərrahiyyəsi və digər əməliyyatlar yerinə yetirilir. Əməliyyatxanada quraşdırılan avadanlıqlar bu sahədə dünyanın aparıcı şirkətlərinin məhsullarıdır. Hospitalda ümumilikdə 70-dən artıq tibbi avadanlıq inteqrasiya olunub ki, bu da vahid mərkəzdən idarəetmənin təmin edilməsinə şərait yaradır.*

*Tibb müəssisəsinin ümumi reanimasiyası 28, neonatoloji reanimasiyası 10, kardioloji reanimasiyası isə 8 çarpayılıqdır. Xəstələrin rahatlığı üçün reanimasiya otaqları bir-birindən ayrı təşkil olunub. Bu şöbədə də tibbin son nailiyyətlərinə əsaslanan avadanlıqlar quraşdırılıb. Bir sözlə, hospitalın bütün şöbələrində quraşdırılmış son model tibb avadanlıq və qurğuları xəstələrə yüksək səviyyədə tibbi xidmət göstərməyə imkan verir, onların müayinə və müalicəsini, profilaktik işləri müasir tələblər səviyyəsində qurmaq üçün geniş şərait yaradır. Xəstəxanada ən müasir səviyyədə prenatal diaqnostik avadanlıq vardır. Hospital Avropanın məşhur tibbi və paramedikal heyəti ilə işləyir, aparıcı tibb institutları ilə əməkdaşlıq edir. Burada fəaliyyət göstərən aptekdə bütün dərmanlar elektron reseptdən istifadə edilərək, həkimin cavabdehliyi altında*

*təyin olunur, qapalı və nəzarət edilən avtomatlaşdırılmış paylanma kabinetlərində paylaşdırılır.*

*Xəstəxanadakı tibbi avadanlıq ABŞ, Almaniya, Yaponiya, İtaliya, Fransa, İngiltərə, İsveç, Belçika və İspaniyanın aparıcı şirkətlərinin istehsalıdır. Onların arasında «Getinge Group», MAQUET, «Siemens», «Drager», «Hill-Room», «Olympus», «Aesculap», «Karl Storz», «Sirona», «Agoko», «Abbott», «BioMerieux», «B.Braun», «Swisslog», ZEISS və s. müasir tibbi avadanlığın istehsalı üzrə ixtisaslaşan tanınmış şirkətlərin məhsulları vardır. Bu avadanlıqlar müayinəni dəqiqliklə yerinə yetirməyə, müalicə işini yüksək səviyyədə qurmağa imkan yaradır.*

*Tibb ocağında texnoloji yeniliklər tətbiq olunub. Burada yaradılan pnevmopoçtla müxtəlif şöbələrə, o cümlədən qəbul və laboratoriya şöbələrinə analiz nümunələri, xəstələr üçün isə dərmanlar göndərmək mümkündür. Hospital tibbi xidmətlər üzrə dünyada ən nüfuzlu keyfiyyət və təhlükəsizlik standartları olan JCI standartlarına uyğun layihələndirilib və qurulubdur. Tibbi heyətin və xəstələrin qidalanması üçün müəssisənin mətbəxində müasir avadanlıq quraşdırılıb, yeməkxanada lazımi şərait yaradılıbdır.*

*Diqqətə çatdırıldı ki, hospitalın binasının ümumi sahəsi 40 min kvadratmetrə yaxındır. Havalandırma, yanğından mühafizə və videomüşahidə sistemləri binanın bütün ərazisini əhatə edir. Tibb ocağı fasiləsiz elektrik enerjisi ilə təmin olunur. Binada 2500 kilovoltluq UPS dəstəyi, 7000 kilovoltluq transformator quraşdırılıbdır.*

*Ölkəmizdə səhiyyənin müasirləşdirilməsi istiqamətində son illər icra olunan layihələrin tərkib hissəsi kimi, yeni hospitalın istifadəyə verilməsi də vətəndaşların sağlamlığının təmin edilməsi, profilaktik tədbirlərin görülməsi, müayinə və müalicənin yüksək səviyyədə təşkil olunması işinə yeni imkanlar açır.*

*Bona Dea Beynəlxalq Hospitalda yaradılan şəraitlə tanışlıqdan sonra dövlət başçısı və xanımı tibb ocağının kollektivi ilə görüşdülər.*

**İ l h a m Ə l i y e v:** Mən sizi ürəkdən salamlayıram və təbrik edirəm. Bu gün Bakıda gözəl xəstəxana açılır. Bu çox əlamətdar hadisədir. Xəstəxana çox gözəl təəssürat bağışlayır, həm xarici görünüşü, həm də daxili tərtibatı ən yüksək səviyyədədir. Burada ən müasir avadanlıqlar quraşdırılıb. Əminəm ki, xəstəxanada vətəndaşlara çox yüksək tibbi xidmət göstəriləcəkdir.

Mən xəstəxana ilə tanış olarkən gördüm ki, çox böyük işlər görülüb. Bütün işlər ən yüksək səviyyədə təşkil edilib. Bu xəstəxana xarici mütəxəssislərin dəstəyi ilə ərsəyə gəlib. Əminəm ki, burada çalışan həkimlər, tibbi heyət xəstələrə yüksək xidmət göstərəcəklər. Mənə verilən məlumata görə, burada 800-dən çox iş yeri, həkimlər, tibbi heyət üçün gözəl şərait yaradılıbdır.

Bu xəstəxananın açılması ölkəmizin ümumi inkişafının göstəricisidir. Ancaq sürətli inkişaf edən ölkələrdə belə gözəl tibb ocaqları yaradılır. Hesab edirəm ki, bu xəstəxana nəinki Azərbaycanın, hətta regionun ən qabaqcıl xəstəxanalarından biri olacaq, bəlkə də birincisi olacaqdır. Ümid edirəm ki, gün gələcək, turistlər Azərbaycana həm də tibbi xidmət almaq üçün gələcəklər. Yəni bu xəstəxanada yaradılan şərait belə imkanları təmin edir. Burada Azərbaycan vətəndaşlarına yüksək tibbi xidmət göstəriləcək. Ölkəmizə gələn qonaqlar da, əminəm ki, bu imkanlardan istifadə edəcəklər.

Son illərdə Azərbaycanda 600-dən çox tibb müəssisəsi tikilib və əsaslı təmir edilibdir. Biz səhiyyə sisteminin maddi-texniki bazasını yüksək dərəcədə gücləndirə bilmişik. Təkcə bu il 6 şəhərdə yeni xəstəxana tikiləcək. Beləliklə, Azərbaycanın hər bir şəhərində ən yüksək tibbi şərait yaradılır. 600-dən çox xəstəxananın, tibb müəssisəsinin yaradılması, əlbəttə ki, böyük vəsait tələb edir. Azərbaycan dövləti bu vəsaiti ayırır.

Səhiyyə sisteminin təkmilləşdirilməsi bizim üçün prioritet məsələdir. Çünki insan sağlamlığı hər bir cəmiyyət, hər bir dövlət üçün əsas məsələdir. Son illər ərzində görülmüş işlər nəticəsində insanların ömrü uzanır və bu, gözəl göstəricidir. Bu gün

Azərbaycanda istənilən xəstəlik müalicə oluna və onun diaqnostikası aparıla bilər. Yəni diaqnostik müayinə, müalicə – bütün bunlar kompleks şəkildə təmin edilir. Bir məsələni də xüsusi olaraq diqqətə çatdırmaq istəyirəm. Bir neçə ildir ki, Azərbaycanda dövlət tərəfindən pulsuz tibbi müayinə həyata keçirilir. Hər il 5 milyon Azərbaycan vətəndaşı bu xidmətdən istifadə edir. Bir neçə il bundan əvvəl mənim təşəbbüsümlə bu məsələ öz həllini tapmağa başlamışdır. Hazırda növbəti tibbi müayinə davam edir.

Beləliklə, Azərbaycanda sosial sahənin əsas istiqaməti olan səhiyyənin inkişafı üçün çox böyük işlər görülür. Xəstəxanalar tikilir, avadanlıq ən müasir standartlara cavab verir, tibbi xidmətin səviyyəsi artır və belə gözəl əsərlər yaradılır. Həmçinin bu xəstəxanada müalicə prosesində xarici mütəxəssislər də iştirak edəcəklər. Mənə məlumat verildi ki, burada Avropadan, digər ölkələrdən yüksək biliklərə malik olan mütəxəssislər işləyəcəklər. Mən çıxışımın qalan hissəsini ingilis dilində davam etdirəcəyəm.

Mən Azərbaycan dilini başa düşməyənlərə, xüsusilə də əcnəbi qonaqlarımıza müraciət etmək, belə dərin təəssürat doğuran tibb mərkəzinin yaradılmasına verdikləri töhfəyə görə onlara minnətdarlığımı bildirmək istərdim. Artıq qeyd etdiyim kimi, düşünürəm ki, bu, təkcə Azərbaycanda deyil, regionda ən yaxşı tibb mərkəzidir. Yəqin ki, vaxt gələcək biz tibbi turizmin də Azərbaycana gəlməsinin şahidi olacağıq. Ölkəmizə gələn turistlərin sayı ildən-ilə artır. Ümidvaram ki, bizə tibbi məqsədlər üçün gələn turistlər də olacaqdır.

Şadam ki, bu xəstəxanada əcnəbi və yerli mütəxəssislərin fəaliyyətlərinin çox mühüm vəhdəti vardır. Həmçinin düşünürəm ki, xəstəxananın ən mühüm fəaliyyət sahələrindən biri yerli tibbi heyətin hazırlanması və təlimi olacaqdır. Fikrimcə, müalicə, diaqnostika və təlimin vəhdəti bu xəstəxananı çox xüsusi edəcəkdir. Əlbəttə, zənnimcə, digər ölkələrdən olan qonaqlarımızın, yüksək səviyyəli mütəxəssislərin bu prosesdə fəal iştirakı daha çox pasiyent cəlb edəcəkdir.

Tanışlıq zamanı mən bildirdim ki, biz hazırda Bakıda müasir avadanlıqlarla təchiz olunmuş və çox yüksək tibbi xidmət göstərən dünya səviyyəli tibb mərkəzinin olması ilə bağlı Azərbaycan əhalisini məlumatlandırmalıyıq. Burada hər növ müalicə, ən mürəkkəb əməliyyatlar həyata keçiriləcək və bu, Azərbaycan xalqının mənafeyinə xidmət edəcəkdir.

Belə böyük xəstəxananın yaradılması, həmçinin ölkəmizin sürətli inkişafını əks etdirir. Biz sosial sahəyə, xüsusilə səhiyyə sahəsinə çox böyük diqqət ayırırıq. Son illər ərzində biz yüzlərlə yeni xəstəxana və tibb mərkəzini tamamilə yenidən qurmağa və tikməyə müvəffəq olmuşuq. Lakin bu, nadir tibb mərkəzidir.

Tanışlıq məndə çox dərin təəssürat yaratdı. Düşünürəm ki, burada olanların hamısı mənə göstərildi. Beynəlxalq və yerli komandamızı bu nailiyyət münasibətilə təbrik edirəm və uğurlar arzulayıram. Əminəm ki, buraya müalicə üçün gələnlər evlərinə sağlam qayıdacaqlar. Təşəkkür edirəm.

**Herviq Flirakers** *(Bona Dea Beynəlxalq Hospitalın İdarə Heyətinin üzvü):* Mənim adım Herviqdir. Mən Bona Dea Beynəlxalq Hospitalın İdarə Heyətinin üzvüyəm. Təntənəli açılış münasibətilə bizə baş çəkdiyinizə görə Sizə və xanımınıza təşəkkürümüzü bildirmək istərdik.

Siz ən müasir mərkəz, nadir avadanlıqlar gördünüz. Lakin biz həmçinin xəstəxanada fəaliyyət göstərmək üçün ən müasir və analoqu olmayan komanda yaradırıq. Müxtəlif akademik institutlar və sənaye tərəfdaşlarımızla beynəlxalq əməkdaşlığımız sayəsində ən yüksək səviyyəli səhiyyə xidmətini Bakıya gətirə və yeni tibbi texnologiyaları təqdim edə biləcəyik. Biz Sizə komanda olaraq təminat veririk ki, bütün bunlar Azərbaycan xalqının sağlamlığına xidmət edəcəkdir.

* * *

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva hospitalın təcili tibbi yardım şöbəsi ilə də tanış oldular.*

*Məlumat verildi ki, təcili tibbi yardım şöbəsi də ən müasir səviyyədə qurulub. Şöbə xəstələrin rahat və təcili daşınmasına imkan verən nəqliyyat vasitələri ilə təmin edilib. Təcili tibbi yardım şöbəsi Azərbaycanda ilk dəfə olaraq «Mercedes-Benz» markalı ən yeni model 2 reanimobil və 1 transportyor avtomobili ilə təchiz edilib. Azərbaycanın istənilən regionunda operativ və fasiləsiz təcili tibbi yardım göstərmək üçün briqada qısa müddət ərzində özünü çağırış yerinə çatdırmaq iqtidarındadır.*

*Hospitalla tanış olan dövlət başçısı və xanımı tibb ocağının kollektivinə uğurlar arzuladılar.*

## İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ HƏSƏN RUHANİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*28 mart 2018-ci il*

*Azərbaycan Respublikasına rəsmi səfərə gələn İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin martın 28-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda İran Prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran İslam Respublikasının Prezidenti Həsən Ruhanini qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi İran Prezidentinə raport verdi.*

*Prezident İlham Əliyev və Prezident Həsən Ruhani Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*İran Prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*İranın və Azərbaycanın Dövlət himnləri səsləndirildi.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Həsən Ruhaniyə, İran nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında prezidentlərin qarşısından keçdi.*

*Azərbaycan Prezidenti İlham Əliyev və İran Prezidenti Həsən Ruhani rəsmi foto çəkdirdilər.*

## İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ HƏSƏN RUHANİ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*28 mart 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin martın 28-də rəsmi qarşılanma mərasimindən sonra təkbətək görüşü olmuşdur.*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab Prezident, Azərbaycana xoş gəlmisiniz! Sizi görməyimə çox şadam. Əminəm ki, səfər çox uğurlu olacaq, İran–Azərbaycan dostluq və qardaşlıq əlaqələri inkişaf edəcək. Bizim aramızda çox sıx əlaqələr mövcuddur. Bütün sahələr üzrə çox yaxşı əməkdaşlıq edirik. Siyasi, iqtisadi, mədəni, enerji, nəqliyyat – bütün sahələrdə yaxşı nəticələr var və bu gün imzalanacaq sənədlər əlaqələrimizin inkişafına yeni təkan verəcəkdir. Bizim görüşlərimiz müntəzəm olaraq keçirilir. Görüşlər zamanı əldə edilmiş razılaşmalar, verdiyimiz tapşırıqlar yerinə yetirilir. Bunun nəticəsində bu gün İran–Azərbaycan əlaqələri ən yüksək zirvəyə çatıbdır. Bir daha xoş gəlmisiniz!

**H ə s ə n R u h a n i:** Çox şadam, cənab Prezident! Biz bu Novruz bayramı günlərində Sizin ölkənizin və xalqınızın qonağıyıq. Regionun iki böyük milləti, iki böyük xalqı ortaq tarix və mədəniyyətə sahibdir. Ortaq məqsədlər də müəyyənləşdirilib ki, qarşıdakı hədəflərə nail olunsun. Çox sevinirəm ki, hər dəfə Sizinlə görüşürük. Bunun şahidi oluruq ki, iki ölkənin əlaqələrində inkişaf əldə etmişik. Ötən bir neçə ildə biz 10 dəfə görüşmüşük, yəni üzbəüz görüşmüşük. Bu da göstərir ki, iki ölkənin əlaqələri səmimiyyətə söykənir. Keçmişdə razılaşdığımız məsələlər bu gün öz töhfəsini verir və sabah da biz bir neçə açılışın şahidi olacağıq. Budəfəki səfərimizdə də əldə

edəcəyimiz razılaşmalar qətiyyətlə deyə bilərəm ki, iki ölkənin əlaqələrinin inkişafına xidmət edəcəkdir. Biz Azərbaycanın təhlükəsizliyini və suverenliyini öz təhlükəsizliyimiz və suverenliyimiz hesab edirik. İki dövlət, iki millət və iki xalqın iradəsi ilə biz bu əlaqələri daha da inkişaf etdirəcəyik. Zati-alinizin və xalqınızın qonaqpərvərliyinə görə bir daha təşəkkür edirəm.

**İ l h a m  Ə l i y e v:** Sağ olun.

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*28 mart 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin martın 28-də təkbətək görüş başa çatdıqdan sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz! İlk növbədə, Sizi və bütün qardaş İran xalqını Novruz bayramı münasibətilə təbrik etmək istəyirəm, İran xalqına xoşbəxtlik, firavanlıq arzulayıram.

Sizin səfəriniz çox böyük əhəmiyyət daşıyır. Biz son 4 il ərzində 10 dəfə görüşmüşük və hər bir görüşün böyük mənası, əhəmiyyəti vardır. Bu illər ərzində İran–Azərbaycan əlaqələri ən yüksək zirvəyə çatıbdır. Məsələləri dostluq, qardaşlıq şəraitində müzakirə edirik. Əldə edilmiş razılaşmalar icra olunur.

Biz bu gün məhdud tərkibdəki görüşdə bu barədə danışdıq. Bir daha demək istəyirəm ki, əldə edilmiş bütün razılaşmalar icra olunur və bu, ölkələrimizi bir-birinə daha da yaxın edir. Biz siyasi, iqtisadi, mədəni, enerji, nəqliyyat – bütün sahələrdə uğurlu əməkdaşlıq edirik. Bu əməkdaşlığın gözəl nəticələri vardır. Bu günə qədər bir çox ikitərəfli sənədlər imzalanıbdır. Onlar icra edilir. Bu gün də imzalanacaq sənədlər əməkdaşlığımız üçün yeni imkanlar açacaq. İmzalanacaq sənədlər, o cümlədən Xəzər dənizində birgə işləməyimizi, Astara–Rəşt dəmir yolunun tikintisini nəzərdə tutan və digər

sənədlər, əlbəttə ki, ölkələrimizi bir-birinə yaxınlaşdırmaq üçün xüsusi əhəmiyyət daşıyır.

Əsas məsələ ondadır ki, biz səmimi əməkdaşlıq edirik. Bizim aramızda çox sıx əlaqələr vardır. Dövlətlərarası əlaqələr sağlam zəmində qurulur. Qarşılıqlı inam var və nəticələr də bu amillərin bariz təzahürüdür.

Mən bir daha Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Əminəm ki, səfər çox uğurlu olacaq və İran–Azərbaycan əlaqələrinin inkişafı üçün yeni imkanlar açılacaqdır.

**H ə s ə n R u h a n i:** Cənab Prezident, mən və məni müşayiət edən nümayəndə heyəti çox şadıq ki, bu gün və sabah Sizin və dost, qardaş Azərbaycan xalqının qonağıyıq. Bu günlər bizim üçün şadlıq günləri və Novruz bayramıdır ki, bu da qardaş xalqların ortaq bayramıdır.

Zati-aliləri, sizin dövlətinizə və bütün Azərbaycan xalqına uğurlar arzulayıram. İnşallah, İran və Azərbaycan xalqlarını qarşıda xoş günlər və aylar gözləyir. Çox şadam ki, ötən illər ərzində Sizinlə birlikdə keçirdiyimiz görüşlərin, habelə nazirlərin, müştərək Komissiyanın və səfirlərin gördüyü işlərin səmərəli nəticələrinin şahidiyik. Əməkdaşlığımız təkcə iki ölkənin deyil, həm də bütün bölgənin xeyrinədir. Şimal–Cənub dəhlizi çərçivəsində Rəşt–Astara dəmir yolunun çəkilişi istiqamətində tərəfdaşlığımız qiymətcə sərfəli, rahat və qısa yol olmaqla, hər iki dövlət və eləcə də bölgə ölkələri, hətta Afrika, Asiya qitələri üçün də faydalı olacaqdır. Bu onun göstəricisidir ki, əməkdaşlığımız bölgə və dünyanın mənafeyinə xidmət edir. Xəzər dənizində başladığımız yeni əməkdaşlıq o mənanı daşıyır ki, Allahın verdiyi bu nemətdən, yəni Xəzər dənizinin sahilyanı ölkələrə verdiyi töhfəsindən maksimum dərəcədə bəhrələnək.

Əslində qərarın qəbul edilməməsinin nəticəsidir ki, böyük bir sərvət istifadəsiz qalıbdır. Biz nə əmək resurslarının, nə pulun, nə sərmayənin, nə də sərvətin istifadəsiz qalmasının tərəfdarı deyilik. Biz qarşılıqlı səylər və əməkdaşlıq yolu ilə bu sərmayədən yararlana bilərik və hər iki xalq onun şahidi ola bilər

ki, Xəzər dənizi inkişaf, sülh və dostluq dənizidir. Bu dəniz qardaşlıq əlaqələrimizi daha da gücləndirir. Qarşılıqlı sərmayə qoyuluşu və sabah açılışı olacaq bəzi layihələr onu göstərir ki, hər iki dövlət münasibətlərimizin genişləndirilməsi istiqamətində addımların atılmasında, ikitərəfli və çoxtərəfli əlaqələrimizin inkişaf etməsində qərarlıdır. İki ölkə arasında elm, mədəniyyət, ali təhsil sahələrində əlaqələrin genişləndirilməsinin və turizmin inkişafının tərəfdarıyıq. Bölgədə və dünyada sülhün və təhlükəsizliyin təmin olunmasında oxşar və yaxın baxışlarımız vardır. Biz bu baxışlardan istifadə etmək və bölgədə, həmçinin dünyada möhkəm sülhün və təhlükəsizliyin bərqərar olduğunu görmək arzusundayıq. Arzu edirəm ki, siyasət, iqtisadiyyat, mədəniyyət sahələrində, eləcə də regional və beynəlxalq əlaqələr müstəvisində günbəgün münasibətlərimizin inkişafının şahidi olaq.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*28 mart 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin iştirakı ilə martın 28-də geniş tərkibdə görüş başa çatdıqdan sonra sənədlərin imzalanması mərasimi keçirilmişdir.*

*«Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə İran İslam Respublikasının Qadın və Ailə Məsələləri üzrə vitse-prezidentliyi arasında Əməkdaşlıq haqqında İcra Proqramı»nı Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova və İran İslam Respublikası Prezidentinin Ailə və Qadın Məsələləri üzrə müavini Məsumə İbtikar imzaladılar.*

*«Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə İran İslam Respublikasının İdman və Gənclər Nazirliyi arasında gənclər və idman sahələrində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun 2018–2019-cu illər üzrə İcra Planı»nı Azərbaycan Respublikasının Gənclər və İdman naziri Azad Rəhimov və İran İslam Respublikasının İdman və Gənclər naziri Məsud Sultanifər imzaladılar.*

*«Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə İran İslam Respublikasının Mədəniyyət və İslami İrşad Nazirliyi arasında 2018–2021-ci illər üçün Mədəniyyət və İncəsənət üzrə Mübadilə Proqramı»nı Azərbaycan Respublikasının Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev və İran İslam Respublikasının Mədəniyyət və İslami Əlaqələr Təşkilatının sədri Əbuzər İbrahimi-Türkman imzaladılar.*

*«Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə İran İslam Respublikasının Səhiyyə, Müalicə və Tibbi Təhsil Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumuna dair Fəaliyyət Proqramı»nı Azərbaycan Respublikasının Səhiyyə naziri Oqtay Şirəliyev və İran İslam Respublikasının Səhiyyə nazirinin müavini İrəc Hərirçi imzaladılar.*

*«Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə İran İslam Respublikasının Neft Nazirliyi arasında Xəzər dənizində müvafiq blokların birgə işlənilməsi haqqında Anlaşma Memorandumu»nu Azərbaycan Respublikasının Energetika naziri Pərviz Şahbazov və İran İslam Respublikasının Neft naziri Bijən Namdar Zəngənə imzaladılar.*

*«Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə İran İslam Respublikasının Sənaye, Mədən və Ticarət Nazirliyi arasında sənaye sahəsində əməkdaşlığın möhkəmləndirilməsi haqqında Anlaşma Memorandumu»nu Azərbaycan Respublikasının İqtisadiyyat naziri Şahin Mustafayev və İran İslam Respublikasının Sənaye, Mədən və Ticarət naziri Məhəmməd Şəriətmədari imzaladılar.*

*«Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə İran İslam Respublikasının İqtisadi İşlər və Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycan Respublikasının İqtisadiyyat naziri Şahin Mustafayev və İran İslam Respublikasının İqtisadiyyat və Maliyyə naziri Məsud Kərbasian imzaladılar.*

*«Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında İran İslam Respublikası ərazisində Astara–Rəşt dəmir yolu hissəsinin tikintisinin maliyyələşdirilməsi haqqında Saziş»i Azərbaycan Respublikasının İqtisadiyyat naziri Şahin Mustafayev və İran İslam Respublikasının İqtisadiyyat və Maliyyə naziri Məsud Kərbasian imzaladılar.*

# İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ HƏSƏN RUHANİ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*28 mart 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Həsən Ruhani martın 28-də sənədlərin imzalanması mərasimindən sonra mətbuata bəyanatlarla çıxış etmişlər.*

## Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!
Hörmətli qonaqlar!
Xanımlar və cənablar!

İlk növbədə, cənab Prezident, Sizi bir daha Azərbaycanda səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz! Fürsətdən istifadə edərək, bütün İran xalqını bu yaxınlarda qeyd etdiyimiz Novruz bayramı münasibətilə ürəkdən təbrik etmək istəyirəm, qardaş İran xalqına sülh, əmin-amanlıq, rifah arzulayıram.

Novruz bayramı bizim müştərək bayramımızdır. Həm İranda, həm Azərbaycanda bu bayram geniş qeyd edilir. Bu bir daha onu göstərir ki, xalqlarımız bir-birinə nə qədər bağlıdır, bir-birinə nə qədər yaxındır. Bizi tarix, ortaq mədəniyyət birləşdirir. Bu gün İran–Azərbaycan dövlətlərarası münasibətlər bu möhkəm tarix və mədəni köklər üzərində uğurla qurulur və inkişaf edir.

Prezident cənab Ruhani ilə bugünkü görüş son 4 il ərzində bizim 11-ci görüşümüzdür. Bu rəqəm özlüyündə bir göstəri-

cidir. Mən son 4 il ərzində 4 dəfə İrana səfər etmişəm, bu isə cənab Həsən Ruhaninin Azərbaycana üçüncü səfəridir. Biz beynəlxalq tədbirlər çərçivəsində də görüşmüşük və bütün görüşlərin böyük mənası, əhəmiyyəti vardır. Görüşlər zamanı əldə etdiyimiz razılaşmalar icra edilir, yaxşı nəticələr verir. Son 4 il ərzində bir çox önəmli sənədlər imzalanıb ki, bu sənədlər İran–Azərbaycan əlaqələrinin hərtərəfli inkişafına böyük təkan veribdir.

Biz beynəlxalq arenada da fəal əməkdaşlıq edirik, bir-birimizi daim dəstəkləyirik. BMT, İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində daim bir-birimizə dəstək göstəririk.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn norma və prinsipləri əsasında həll olunması ilə bağlı İran daim Azərbaycanın haqlı mövqeyini dəstəkləyir və beynəlxalq təşkilatlarda öz səsini qəbul edilmiş qətnamələrə verir. Buna görə biz İrana çox minnətdarıq. Azərbaycan da bütün beynəlxalq məsələlərdə daim İranın yanındadır.

Biz iqtisadi sahədə əməkdaşlığı dərinləşdiririk, qarşılıqlı sərmayə qoyuluşu prosesi başlanmışdır və sabah keçiriləcək biznes-forumda bu məsələ ilə bağlı təqdimat göstəriləcəkdir. İran Azərbaycana, Azərbaycan İrana sərmayə qoyur və bu sərmayə qoyuluşu hər iki tərəfin maraqlarına xidmət edir. Əminəm ki, bu səfərdən sonra – biz bu gün bu barədə də danışmışıq – əlavə sərmayə qoyuluşunun təşkili nəzərdə tutulacaqdır. Ticarət dövriyyəsinin gələcəkdə artırılması istiqamətində bu gün müvafiq qurumlara tapşırıqlar verildi və ümid edirəm ki, biz bunun şahidi olacağıq.

Bu gün bir çox sənədlər imzalandı, onların arasında iki sənədi xüsusilə qeyd etmək istərdim. Bunlar Xəzər dənizində birgə işləməyimizlə və Astara–Rəşt dəmir yolunun tikintisi ilə bağlı olan sənədlərdir. Bu sənədlər tarixi əhəmiyyət daşıyır. Çünki bu sənədlərin reallaşması nəticəsində həm Xəzər dənizində, həm də nəqliyyat sahəsində bizim əməkdaşlığımız daha

da yüksək pilləyə qalxacaq və eyni zamanda, bu, regional əməkdaşlığa da çox müsbət təsir göstərəcəkdir.

Biz energetika sahəsində uğurlu əməkdaşlıq edirik. Son illər ərzində imzalanmış sənədlər, xüsusilə «Xudafərin» və «Qız qalası» hidroqovşaqlarının işlənməsi, Ordubad və Marazad Su-Elektrik stansiyalarının tikintisi ilə bağlı olan sənədlər elektroenergetika sahəsində əməkdaşlığı dərinləşdirir. Bu gün biz qərara gəldik ki, çoxtərəfli əməkdaşlıq formatını energetika sahəsində də inkişaf etdirək.

Ümumiyyətlə, demək istəyirəm ki, bizim əlaqələrimiz təkcə ikitərəfli formatla məhdudlaşmır, biz artıq üçtərəfli, dördtərəfli əməkdaşlıq formatı çərçivəsində uğurla fəaliyyət göstəririk. Azərbaycan, İran, Rusiya prezidentlərinin iki görüşü, Bakıda və Tehranda Azərbaycan, İran, Türkiyə Xarici İşlər və digər nazirlərinin görüşü, bu yaxınlarda Bakıda keçirilmiş Azərbaycan, İran, Gürcüstan, Türkiyənin Xarici İşlər nazirlərinin birinci görüşü – bütün bu görüşlər regional əməkdaşlığa, sabitliyə, sülhə dəstək verir. Bu gün bizim ölkələrimiz regional formatda da uğurlu əməkdaşlıq apararaq, ümumi işimizə çox böyük töhfə verirlər.

Biz nəqliyyat sahəsində böyük uğurlara imza atmışıq. Keçən il mən İranda səfərdə olarkən biz Azərbaycandan İrana birinci qatarın keçməsini qeyd etdik. Astaraçay üzərində tikilmiş körpü vasitəsilə birinci qatar İrana qədəm qoymuşdur. Bu gün isə biz Astara–Rəşt dəmir yolunun tikintisi ilə bağlı çox önəmli və tarixi əhəmiyyəti olan sazişi imzaladıq. Əminəm ki, Şimal–Cənub nəqliyyat dəhlizinin çatışmayan hissəsi – Astara–Rəşt dəmir yolu qısa müddət ərzində tikiləcək və beləliklə, bütün Avrasiya regionu üçün yeni imkanlar açılacaqdır. Şimal–Cənub nəqliyyat dəhlizi bizim və qonşu ölkələrin birgə səyləri nəticəsində artıq reallaşır. Bununla paralel olaraq, biz artıq Cənub–Qərb nəqliyyat dəhlizinin yaradılması ilə bağlı fəal işlərə başlamışıq və gələcəkdə Şimal–Cənub və Şərq–Qərb nəqliyyat dəhlizləri birləşəcək. Bizim ölkələrimiz bu istiqamətdə çox önəmli rol oynayırlar. Tam

məsuliyyətlə deyə bilərəm ki, Astara–Rəşt dəmir yolunun tikintisi ilə bağlı bu gün imzalanan saziş tarixi əhəmiyyətə malikdir və hesab edirəm ki, gələcək illərdə hər kəs bunu görəcək.

Biz hərbi sahədə də uğurlu əməkdaşlıq edirik və hərbi-texniki sahədə əməkdaşlıq dərinləşir. Təhlükəsizlik sahəsində daim məsləhətləşmələr aparılır və bu məsələ daim diqqət mərkəzindədir.

Bu yaxınlarda – 2 həftə bundan əvvəl Azərbaycanda qəbul edilmiş qərara əsasən, İran vətəndaşları Azərbaycanda vizaları aeroportlarda alacaqlar. Artıq bu proses başlanmışdır, sadələşdirilmiş viza rejimi həm bizim dostluğumuzu əks etdirir, həm də turistlərin axınını şərtləndirir. Hər il Azərbaycandan yüz minlərlə insan İrana səfər edir və şadam ki, son müddət ərzində İrandan da Azərbaycana gələn turistlərin sayı artır. Əgər 2016-cı ildə 240 min İran vətəndaşı gəlmişdisə, keçən il bu rəqəm 360 minə çatmışdır. Yəni burada, əlbəttə, bir çox amillər rol oynayır – ilk növbədə, İran–Azərbaycan dostluq, qardaşlıq münasibətləri, bizim çox güclü tarixi əlaqələrimiz, siyasi əlaqələrimiz və bu gün biz dünyada çox müsbət qonşuluq nümunəsi göstəririk. Bu amillər böyük rol oynayır, eyni zamanda, sərbəst gediş-gəliş rejimi turistlərin axınını şərtləndirir.

Biz bu gün digər sahələrdəki əməkdaşlıq haqqında da fikir mübadiləsi apardıq. Bu günə qədər həll olunmayan məsələlər haqqında da çox müzakirə apardıq, o cümlədən bank sektorunda və digər sahələrdə əməkdaşlıq üçün gələcəkdə addımlar atılmalıdır. Ancaq son 4 il ərzindəki birgə fəaliyyətimiz göstərir ki, biz nə qərar qəbul etmişiksə, onu da icra edirik və bunun nəticəsində bu gün İran–Azərbaycan əlaqələri ən yüksək səviyyədədir.

Mən bir daha, hörmətli Prezident, Sizi və nümayəndə heyətinizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Əminəm ki, səfərin çox gözəl nəticələri olacaqdır. Sağ olun.

## İran Prezidenti Həsən Ruhaninin bəyanatı

Cənab Prezident İlham Əliyev!

Azərbaycan Respublikasının dövlət rəsmiləri!

Qonşu, dost və qardaş Azərbaycan xalqı!

Şadıq ki, 2 gün ərzində – bu gün və sabah sizin qonağınızıq. Şadıq ki, sizə – mehriban Azərbaycan xalqına Novruz bayramı təbriklərimizi çatdırırıq. Bu bayram iki xalqı və bu bölgənin xalqlarını birləşdirən bayramdır. Eləcə də səmimi qəbula görə Azərbaycan dövlətinə və xalqına səmimi təşəkkürümü bildirirəm.

Bu gün imzalanan rəsmi sənədlər xoş məram, etimad, qarşılıqlı ehtiram, müştərək mənafe və mehriban qonşuluq əlaqələri sayəsində gerçəkləşibdir. İllər boyu əməkdaşlıq üçün potensial və imkanlar mövcud olubdur. Bu imkanlar hər iki xalqın mənafeyinə xidmət edibdir. İki ölkə arasındakı qarşılıqlı etimad indi daha da artıb, müştərək işlər isə çoxalıbdır. İki xalq və iki dövlət şahid olublar ki, əməkdaşlıq nə qədər faydalı və bəhrəlidir. Bu gün belə qərara gəlmişik ki, bu əməkdaşlıq tellərini daha da möhkəmləndirək. Bu əməkdaşlıq bu gün və sabah üçün deyil, bəlkə də iki ölkənin tarixi üçün yadda qalacaq əməkdaşlıq olacaqdır.

Möhtərəm Azərbaycan Prezidentinin qeyd etdiyi kimi, bu gün imzalanan sənədlər də tarixi sənədlərdir. İki xalqın mənafeyinə, bütün bölgənin və eləcə də bütün dünyanın xeyrinə ola biləcək sənədlərdir. Tranzit məsələsinə gəldikdə isə, Şimal–Cənub dəhlizi İranın cənub bölgəsinin sularını, Fars körfəzini, Oman dənizini və Hind okeanını, həmçinin avtomobil yolu və dəmir yolu vasitəsilə Qafqaz, Mərkəzi Asiya, Rusiya, eləcə də Şimali və Şərqi Avropa ilə birləşdirir. Bu onu göstərir ki, Şimal–Cənub nəqliyyat dəhlizi nə qədər böyük əhəmiyyət daşıyır. İki ölkənin Rəşt–Astara dəmir yolu barəsində qərarı dövlətlərimizin bu layihəyə nə qədər böyük əhəmiyyət verdiyinin göstəricisidir. Xəzər dənizində bizim çoxlu birgə mənafelərimiz vardır. Biz gərək elmi, iqtisadi, ticari,

gəmiçilik, balıqçılıq, turizm sahələrində əməkdaşlıq etməklə, maksimum səmərə əldə edək. Bu gün Xəzər dənizinin mənbələrindən və yataqlarından qarşılıqlı istifadədə əməkdaşlığımız xalqlarımızın mənafeyinə geniş xidmət etmiş olar.

Hər iki xalq və başqa xalqlar da bu əməkdaşlıqdan faydalana bilərlər. İki dövlətin qarşılıqlı sərmayə qoyuluşu barədə qərarları, həm Astara (Azərbaycan)–Astara (İran) layihəsinə, həm də sabah açılışı olacaq avtomobil istehsalı müəssisəsinə sərmayə qoyuluşu göstərir ki, ölkələrimizin geniş əməkdaşlıq üçün güclü iradəsi vardır. Gələcəkdə dərman istehsalı, səhiyyə və enerji mübadiləsi sahələrində əməkdaşlığımızı genişləndirə bilərik. Enerji, turizm sahələrinə və digər sahələrə kapital qoyuluşu ilə əlaqədar əməkdaşlıq edə bilərik. Bu onu göstərir ki, qarşılıqlı mənafe və ortaq proqramların icrası müstəvisində birgə addımlar ata bilərik. İki Prezidentin və iki dövlətin bu gün qəbul etdiyi qərarların icrası üçün ciddi səylər göstərilməlidir. Banklar arasında əməkdaşlıq qarşımızda duran əsas məsələlərdən biridir. İki ölkənin müştərək Komissiyası çalışmalıdır ki, bu sahədə əməkdaşlıq yaxşılaşsın. Biz iqtisadiyyat, həmçinin maliyyə və pul mübadiləsi sahələrində əlaqələrimizi genişləndirə bilərik. İkinci məsələ yaxşı ticari əlaqələrin qurulmasıdır. Yəni azad ticarətin bərqərar olması üçün belə qərara gəlindi ki, müştərək Komissiya fəaliyyətini gücləndirsin. Bununla da iqtisadiyyat və ticarət sahələrində əlaqələrimizi genişləndirə bilək. Turizm sahəsində yaxşı addımlar atılıbdır. İndi onun şahidiyik ki, hər iki tərəfdən yüz minlərlə insan bir-birinin ölkəsinə səfər edir. Bu da göstərir ki, bölgədə böyük və tarixi olan iki ölkə arasında yaxın əlaqələr vardır.

Regional və siyasi müstəvidəki məsələlər, həmçinin elm, texnologiya sahəsində əməkdaşlıq üçün hər iki ölkənin iradəsi mövcuddur. Bu fikirdəyik ki, bölgədəki məsələlər siyasi yolla həllini tapmalıdır. Biz bu qənaətdəyik ki, Yəməndəki problem siyasi yolla tənzimlənməlidir və hərbi yolla həll olunmamalıdır. Belə düşünürük ki, Suriya məsələsi də siyasi vasitələrlə həll

yollarını tapmalıdır. Bununla əlaqədar bölgədəki ölkələrin göstərdiyi səylərlə bağlı Azərbaycanın və İranın baxışları eynidir. Biz belə düşünürük ki, Qarabağ problemi də siyasi yolla tənzimlənməlidir. Azərbaycan və Ermənistan dövlətlərinin səyi ilə biz bölgədə möhkəm sabitliyin bərqərar olmasının şahidi olmaq istəyirik. Biz şadıq ki, bu müstəvidə diplomatik səylər göstərilir. Bizim üçün əhəmiyyətlidir ki, ölkələrin ərazi bütövlüyü və bölgənin coğrafiyası dəyişməz qalsın. Dünya ictimaiyyətinin hörmətlə yanaşdığı beynəlxalq prinsiplər məsələnin həlli üçün alətə çevrilməlidir. Bizim bugünkü iclasda və gələcək üçün istəyimiz müştərək mənafelərimizin, dövlətlərimiz və dünya üçün Azərbaycan və İran xalqları arasındakı əlaqələrin və iki dost dövlət arasındakı səmimi münasibətlərin gücləndirilməsidir.

Diqqətinizə görə təşəkkür edirəm.

## AZƏRBAYCAN–İRAN BİZNES-FORUMU

*Heydər Əliyev Mərkəzi*

*29 mart 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Həsən Ruhani martın 29-da Heydər Əliyev Mərkəzində keçirilən Azərbaycan–İran biznes-forumunda iştirak etmişlər.*

*Azərbaycan Prezidenti İlham Əliyev İran Prezidenti Həsən Ruhanini qarşıladı.*

*Biznes-forumdan əvvəl Neftçala Sənaye Məhəlləsi və burada yaradılan «Azərmaş» ASC və «İran Xodro» şirkətinin birgə layihəsi olan Avtomobil zavodu barədə videoçarx nümayiş olundu.*

**E m i n A x u n d o v** *(Avtomobil zavodu ilə videobağlantıda «Azərmaş» ASC-nin İdarə Heyətinin sədri):* Möhtərəm cənab Prezidentlər!

Sizi Neftçala Sənaye Məhəlləsində «Azərmaş» ASC və «İran Xodro» şirkətlərinin birgə yaratdıqları «Xəzər» Avtomobil zavodundan salamlamaqdan böyük şərəf hissi duyuruq.

Dəyəri 15 milyon ABŞ dolları və səhmlərinin 75 faizi «Azərmaş» ASC-yə, 25 faizi isə «İran Xodro» şirkətinə məxsus olan Avtomobil zavodunda İran İslam Respublikasının və Avropanın aparıcı ölkələrinin müasir texnologiyaları əsasında müxtəlif avtomobil modelləri istehsal olunacaqdır. Bu avtomobillər «Made in Azerbaijan» brendi altında həm yerli, həm də xarici bazarlara çıxarılacaqdır.

**H a ş e m  Y e k k e  Z a r ə** *(«İran Xodro» şirkətinin baş icraçı direktoru)*: Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevi və İran İslam Respublikasının Prezidenti cənab Həsən Ruhanini salamlayıb hörmət və ehtiramımı bildirirəm. İftixar hissi ilə qeyd edirəm ki, bu gün «Xəzər» avtomobil istehsalı müəssisəsi açılır. Bu müəssisə ilkin mərhələdə – ildə 10 min avtomobilin istehsalı ilə işə başlayacaq. Sonrakı fazada avtomobillərin istehsalının 15 minə çatdırılması planlaşdırılır. Yaxın gələcəkdə isə 50 min avtomobilin istehsalı nəzərdə tutulubdur. İstehsal olunan avtomobillər yerli və xarici bazarlarda satılacaqdır. Bu avtomobillər qabaqcıl texnologiya və «Avro-5» standartlarına uyğundur. İnşallah, Azərbaycanda bu avtomobillərin satışı həyata keçiriləcəkdir. Belə qərara gəlmişik ki, bu avtomobil hissələrinin istehsalını da təşkil edək və Azərbaycanın özəl sektorunun sərmayə qoyuluşu ilə bununla əlaqədar şirkət yaradaq. Burada buraxılacaq avtomobillər Azərbaycanda hazırlanacaq hissələrin hesabına istehsal olunacaqdır.

**E m i n  A x u n d o v:** Möhtərəm cənab Prezidentlər, «Xəzər» Avtomobil zavodunu işə salmaqla, bizə böyük şərəf vermiş olarsınız.

* * *

*Prezident İlham Əliyev və Prezident Həsən Ruhani «Xəzər» Avtomobil zavodunun açılışını bildirən düyməni basdılar.*

*Dövlət başçılarına videoçarx əsasında bu müəssisənin fəaliyyəti və istehsal prosesi barədə məlumat verildi.*

*Zavodda istehsal edilmiş ilk avtomobil nümayiş olundu. Bildirildi ki, avtomobil beynəlxalq təhlükəsizlik standartlarına tam uyğundur.*

*Sonra Şimal–Cənub və Cənub–Qərb beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması ilə bağlı görülən işlərdən bəhs edən videoçarx nümayiş olundu. Videoçarxda İran ərazisində Azər-*

*baycan Dəmir Yollarının Astara terminalı haqqında məlumat verildi.*

*Daha sonra biznes-forum işə başladı.*

*Dövlət başçıları forumda nitq söylədilər.*

**Azərbaycan Prezidenti İlham Əliyevin nitqi**

Hörmətli cənab Prezident Həsən Ruhani!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Prezident Ruhaninin Azərbaycana rəsmi səfəri başa çatır. Tam əminliklə demək olar ki, səfər çox uğurlu keçib və səfərin çox gözəl nəticələri vardır.

İran–Azərbaycan dostluq, qardaşlıq əlaqələri bu gün ən yüksək zirvədədir. Dünən keçirdiyimiz danışıqlar, aparılan müzakirələr bunu bir daha təsdiq edir. Biz həm siyasi, həm iqtisadi, həm də bütün başqa sahələrdə çox fəal əməkdaşlıq edirik. Biz Prezident Ruhani ilə müntəzəm olaraq görüşürük. Son 4 il ərzində biz 11 dəfə görüşmüşük. Bu rəqəm özlüyündə onu göstərir ki, biz nə qədər sıx əməkdaşlıq edirik və bizim aramızda nə qədər qarşılıqlı inam vardır. Bu da təbiidir. Çünki bizim xalqlarımız əsrlərboyu bir yerdə yaşamış, yaratmışlar. Bizi birləşdirən ortaq tarix, mədəniyyət bugünkü əlaqələrimiz üçün əsas amildir. Bu əlaqələrin bu gün belə sürətlə inkişaf etməsi bizi çox sevindirir.

Siyasi əlaqələr belə yüksək səviyyədə olduğu halda, biz istənilən iqtisadi və nəqliyyat layihələrini icra edə bilərik və bunu edirik də. Biz verdiyimiz bütün tapşırıqlara şəxsən nəzarət edirik. Mən şadam ki, bu tapşırıqları yerinə yetirən hökumətlərarası birgə Komissiyanın üzvləri, bütün vəzifəli şəxslər öz vəzifə borclarını şərəflə yerinə yetirirlər. Bu gün İran–Azərbaycan əlaqələri nəinki iki ölkə üçün, region üçün və deyə bilərəm ki, dünya üçün böyük əhəmiyyətə malikdir. Çünki bizim təşəbbüsümüzlə reallaşan layihələr bütün bölgə üçün, Avrasiya qitəsi üçün böyük əhəmiyyət daşıyır.

Biz dünən ticarət əlaqələrinin inkişafı ilə bağlı geniş fikir mübadiləsi apardıq. Hesab edirik ki, ticarət əlaqələrinin indiki səviyyəsi bizim əlaqələrimizin səviyyəsini əks etdirmir. Ona görə də bu biznes-forumda iştirak edən iş adamlarına tövsiyəm budur ki, daha da sıx əməkdaşlıq aparmalıyıq. Ticarət dövriyyəsinin artırılması üçün praktiki addımlar atılmalıdır. Ümid edirəm ki, gələcək illərdə bizim qarşılıqlı ixracımız da artacaq. Buna nail olmaq üçün imkanlar vardır.

Əlbəttə, qarşılıqlı sərmayə qoyuluşu məsələlərinə də böyük diqqət göstərilir. Bu gün bu kiçik təqdimatda qarşılıqlı sərmayə qoyuluşunu əks etdirən 2 önəmli layihə göstərildi – Neftçalada «İran Xodro» və Azərbaycan şirkətinin birgə müəssisəsi və İranda Azərbaycan sərmayəsi ilə yaradılan yük terminalı. Qarşılıqlı sərmayələrin qoyuluşu üçün ilk növbədə, gözəl münasibətlər və qarşılıqlı maraqlar olmalıdır. Bunlar var və gündən-günə möhkəmlənir. Biz bu iki layihənin timsalında görürük ki, burada qarşılıqlı maraqlar tam təmin olunur. Əminəm ki, həm Avtomobil zavodunun gələcək fəaliyyəti uğurlu olacaq, həm də yük terminalı Şimal–Cənub nəqliyyat dəhlizinin inkişafı üçün önəmli rol oynayacaqdır.

Hesab edirəm ki, biz digər sahələrdə də qarşılıqlı sərmayə qoyuluşu haqqında ciddi düşünməliyik və bunu edirik. Dünən həm məhdud tərkibdə, həm də nümayəndə heyətlərinin tam tərkibi ilə keçirilmiş görüşdə bu məsələlər müzakirə olundu. Qarşılıqlı sərmayə qoyuluşu üçün əlavə istiqamətlər müəyyən edilməkdədir. Tam əminliklə deyə bilərəm ki, Şimal–Cənub nəqliyyat dəhlizi də İran və Azərbaycan tərəflərinin çox ciddi səyləri hesabına reallaşır. Biz qonşu ölkələrlə bu məsələləri daim müzakirə edirik. Son 2 il ərzində görülən işlər bu yolun açılmasına əsas zəmin yaratmışdır. Kiçik təqdimatda göstərildi ki, 2016–2017-ci illərdə bu dəmir yolunun çatışmayan hissəsi Azərbaycan ərazisində inşa edildi, Astaraçay üzərində körpü salındı. Mən keçən il İranda səfərdə olarkən ilk sınaq qatarı Azərbaycandan İran ərazisinə keçdi. Bu gün isə artıq yük

terminalı inşa edilir və dünən tarixi bir sənəd imzalandı. Astara–Rəşt dəmir yolunun tikintisi ilə bağlı müqavilə imzalandı. Bu müqavilə Şimal–Cənub nəqliyyat dəhlizinin reallaşmasında xüsusi rol oynayacaqdır. Beləliklə, biz qitələri birləşdirərək, həm iqtisadi mənfəət götürəcəyik – çünki bizim ərazimizdən keçən tranzit yüklər on milyon tonlarla ölçüləcək – eyni zamanda, biz bölgədə yeni bir əməkdaşlıq formatını yaradırıq. Bunu artıq yaratmışıq, çünki biz indi nəinki ikitərəfli formatda, üçtərəfli və dördtərəfli formatlarda fəal əməkdaşlıq edirik. 2016-cı ildə Bakıda, 2017-ci ildə isə Tehranda Azərbaycan, İran, Rusiya prezidentlərinin görüşləri keçirilmişdir. Bu görüşlərin çox böyük əhəmiyyəti vardır. Görüşlərdə həm siyasi, həm iqtisadi, həm nəqliyyat, həm enerji məsələləri müzakirə edilmişdir. Hesab edirəm ki, 3 ölkənin iş adamları da mövcud olan imkanlardan istifadə etməlidirlər.

Azərbaycan–İran–Türkiyə üçtərəfli əməkdaşlıq formatı artıq neçə ildir ki, fəaliyyət göstərir və bu yaxınlarda Bakıda yeni, dördtərəfli əməkdaşlıq formatı da reallaşıb – Azərbaycan, İran, Gürcüstan və Türkiyə. Burada, əlbəttə ki, həm regional təhlükəsizlik, əməkdaşlıq, siyasi məsələlər, qarşılıqlı dəstək müzakirə olunur, eyni zamanda, iş adamları üçün, bir daha demək istəyirəm, geniş imkanlar açılır.

Nəqliyyat sahəsində Astara–Rəşt dəmir yolunun tikintisi, gələcəkdə Şimal–Cənub nəqliyyat dəhlizinin fəaliyyətə tam başlaması nəticəsində minlərlə, bəlkə də on minlərlə yeni iş yeri açılmalıdır və bu iş yerlərini sahibkarlar açmalıdırlar. Ticarət dövriyyəsi əminəm ki, həm ikitərəfli, həm çoxtərəfli formatda kəskin artacaqdır. Energetika sahəsində biznes imkanları genişlənir. Dünən cənab Prezidentlə biz bunu geniş müzakirə etdik və nazirlərə də müvafiq göstərişlər verildi ki, tezliklə elektroenergetika sahəsində bizim planlarımız reallaşsın. Bu, tam realdır və əminəm ki, biz buna nail olacağıq.

Böyük turist axını gözlənilir. Onsuz da hər il Azərbaycandan İrana, İrandan Azərbaycana yüz minlərlə insan səyahət edir.

Dəmir yolu açılandan sonra təkcə yüklər yox, sərnişinlər də daşınacaq. Ona görə də turizm infrastrukturuna böyük investisiyalar qoyulmalıdır. Mən həm Azərbaycan, həm İran iş adamlarına müraciət edərək, onları bu işlərə dəvət edirəm. Həm İranda, həm də Azərbaycanda qarşılıqlı sərmayə qoyuluşu, turizm infrastrukturuna, hotellərin tikintisinə, digər turizm infrastrukturuna qoyulacaq sərmayə əminəm ki, batmayacaq, əksinə, yaxşı gəlir gətirəcəkdir.

Biz dünən Xəzər dənizindəki blokların işlənməsi haqqında Anlaşma Memorandumu imzaladıq. Bu da tarixi əhəmiyyətli qərardır. Ümumiyyətlə, cənab Prezident Ruhaninin Azərbaycana hər bir səfəri böyük əhəmiyyət daşıyır və mənim İrana səfərlərim də həmçinin. Bu səfərlər çərçivəsində bir çox sənədlər imzalanmışdır və onların hamısı reallaşır. Deyə bilərəm ki, elə bir məsələ yoxdur ki, biz qərara gələk və onun nəticəsini görməyək. Bu səfər də tarixi səfərdir. Çünki bu səfər zamanı iki tarixi sənəd imzalandı – Xəzər dənizindəki bloklarla və Astara–Rəşt dəmir yolunun tikintisi ilə bağlı sənəd. Biz dünən cənab Prezidentlə bu günə qədər həll olunmayan məsələlər ətrafında da fikir mübadiləsi apardıq. Bizim bütün görüşlərimiz çox səmərəli və məhsuldardır. Hansı məsələlər hələ ki, həll olunmayıb, o məsələləri biz daim diqqətdə saxlayırıq. Həll olunmayan məsələlərin siyahısına baxdıqda görürük ki, indi bir çox məsələlər o siyahıdan çıxarılıb. Çünki onlar öz həllini tapıbdır.

Həllini gözləyən məsələlərdən biri də bank və maliyyə sektorlarındakı əməkdaşlıqdır. Dünən müvafiq göstərişlər verildi. Əminəm ki, növbəti görüşə qədər bu məsələ də öz həllini tapacaqdır. Ticarət dövriyyəsinin artırılması, energetika sahəsində birgə fəaliyyətimiz – bu, növbəti dövrdə gündəlikdə duran əsas məsələlərdir.

Əlbəttə, biz çox şadıq ki, son vaxtlar İrandan olan iş adamları Azərbaycana, Azərbaycan iqtisadiyyatına daha böyük maraq göstərirlər. Biz iranlı qardaşlarımızı görməyimizə həmişə şadıq. Onlar Azərbaycanda həm investor, yəni sərmayə qoyan,

həm də podratçı kimi, uğurla fəaliyyət göstərə bilərlər. Bu fəaliyyət üçün bütün imkanlar vardır. Əsas xalqlarımızın birliyi, dövlətlərarası münasibətlərin ən yüksək səviyyədə olması və bizim təşəbbüsümüzlə reallaşan layihələrin gələcək imkanlarıdır. Biz bölgəmizdə yeni reallıq yaradırıq. İran–Azərbaycan əlaqələri artıq regional təhlükəsizlik, sabitlik, əməkdaşlıq üçün önəmli amilə çevrilibdir. Bunu biz etmişik, özü də qısa müddət ərzində.

Mən bir daha həmkarıma, cənab Həsən Ruhaniyə Azərbaycana göstərdiyi diqqətə, xoş münasibətə görə minnətdarlığımı bildirmək istəyirəm. Əminəm ki, səfərin çox gözəl nəticələri olacaqdır və biz hamımız bunun şahidi olacağıq. Sağ olun.

## İran Prezidenti Həsən Ruhaninin nitqi

Çox şadam ki, Novruz bayramı günlərində mən və məni müşayiət edən nümayəndə heyəti mehriban qonşu və qardaş Azərbaycan xalqının qonağıdır. Bu günlər həm Novruz günləri, həm də həzrəti Əlinin doğum günü ərəfəsinə təsadüf edir. Bizim Əli ibn Talibə olan məhəbbətimiz və Novruza olan baxışımız xalqlarımızın dini, tarixi adət-ənənələri baxımından nə qədər yaxın olduğunu göstərir. İki xalqın bir-birinə olan bağlılığı, qardaşlığı bizim dostluğumuz, yoldaşlığımız, əməkdaşlığımız və gələcək fəaliyyətimiz üçün möhkəm əsas olmaqla, xalqlarımızın xeyrinə və bölgənin mənafeyinə xidmət edir. Baxıb görürəm ki, soyuq qışda yaşıllıq toxumunu səpəriksə və baharı xatırlayarıqsa, baharda nə qədər çəmənliyin, gülzarlığın olacağını müşahidə edə bilərik.

Mənim Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevlə ilk görüşüm 2013-cü ilin qışında olub. Bu gün bizim 11-ci görüşümüz isə 2018-ci ilin baharında keçirilir. Əminliklə müşahidə edirik ki, o soyuq qış ayında bir-birimizlə görüşdüyümüz zaman elə sözlər dedik və qərarlar qəbul etdik ki, həmin baharı görək. Bu gün iki xalq arasında bahar, yaşıllıq

və çiçəklənən əlaqələrin şahidiyik. Yalnız sərhəd şəhərləri, sərhəd bölgələri iki ölkə arasında səmimi münasibətlərin inkişafının şahidi deyil, təkcə Azərbaycan və İran xalqları buna sevinmir, bizim əlaqələrimiz bütün bölgənin və dünyanın xeyrinədir. Bizim əməkdaşlıqla bağlı nailiyyətlərimiz bölgə və dünya üçün konstruktiv olacaqdır. Biz bu gün iki xalq və iki dövlət arasında ən yaxşı əlaqələrin şahidiyik.

Mən ötən illəri xatırlayıram, cənab Prezidentlə keçən illəri yada salıram. Bu diyara, bu torpağa ilk səfərim 30 il əvvəl olubdur. Keçmiş Sovet İttifaqı dövründə bura səfər etmişəm. Sonra indiki Prezidentin atası, mərhum Prezident Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycana bir neçə səfər etmişəm. Son illərdə Azərbaycana etdiyim səfərlər zamanı həm sizin ölkənizin inkişafının və həm də iki xalqın və iki dövlətin bağlılığının, çiçəklənməsinin şahidi olmuşam. Azərbaycana budəfəki səfərimdə tarixi əhəmiyyət daşıyan qərarların qəbuluna nail olduq. Bu qərarlar gələcək illərdə iki ölkənin xalqları üçün daha aydın olacaqdır. O gün ki, yüklər Bəndər Abbas limanından, ya İmam limanından və ya Çarbahar limanından gəmilərdən vaqonlara yüklənəndə və bu qatar İranın cənub suları bölgəsindən İranın şimalına, yəni Astaraya çatanda və sonra Azərbaycan ərazisindən Gürcüstana, Rusiyaya, Türkiyəyə istiqamətlənəndə, Şimali və Şərqi Avropaya yönələndə və yaxud da ki, Çin tərəfə istiqamət alanda, o gün daha aydın olacaqdır ki, Şimal–Cənub nəqliyyat dəhlizinin və Rəşt–Astara dəmir yolunun çəkilişinə dair qəbul etdiyimiz qərar iki ölkə arasındakı əlaqələrə nə qədər təsir edib. Siz tacirlər, sahibkarlar bu günü aydın görür və sabah görəcəksiniz ki, yüklər nə qədər tez, nə qədər ucuz, asan və təhlükəsiz şəkildə bölgə ölkələrinə çatdırılacaqdır. Biz dünyadakı rəqabətdə qabaqcıl mövqe tutmaq istəyiriksə, onun bircə yolu ucuz və qısa olan nəqliyyat istiqamətidir. Başqa digər tarixi qərarımız və bununla bağlı imzaladığımız sənədlə bütün dünyaya göstərmək istədik ki, Xəzər dənizi dostluq və əməkdaşlıq dənizidir. Xəzər dənizində

bir-birimizlə əməkdaşlıq etməklə, Allah-Taalanın bizə bu dəniz vasitəsilə bəxş etdiyi sərvətlərdən iki xalqın xeyrinə istifadə etməliyik və ondan yararlanmalıyıq. O gün ki, bağladığımız müqavilələr istifadə üçün hazır olacaq, sərmayəçilər Xəzərə inkişaf və istehsal üçün gələcək, neft və qaz kəmərlərə vurulacaq, onda dünən qəbul etdiyimiz tarixi qərarın gələcək illər üçün faydası aydınca bilinəcəkdir. Tarixboyu bizim imkanlarımız olub və bu gün istifadə üçün qəbul etdiyimiz qərarlar 10–15 il bundan əvvəl də mövcud olubdur. Zənnimcə, iki dövlətin iradəsi və şəxsən Azərbaycan Prezidenti cənab İlham Əliyevin mövqeyi və İran rəhbərlərinin qərarları göstərdi ki, biz istifadəsiz qalmış imkanlardan necə yararlana bilərik.

Bizə keçmişdən və peyğəmbərin məsumlarından qalan rəvayətlərdə deyilir ki, əgər yaşamaq üçün ev tikmək istəyirsinizsə, ilk növbədə, ətrafınızdakı qonşulara baxın. Yaxşı qonşu sizin onunla qonşuluğunuzu qiymətləndirəcək. O vaxt sizin eviniz təhlükəsiz və asayişdə olacaqdır. Beləliklə, sizin də qonşunuzla münasibətləriniz sakit və rahat olacaq. Əgər qonşunun qapısı açılarsa və siz orada gül-çiçək görərsinizsə, qonşunun bağçasından ləzzət alacaqsınız. Əgər sizin qonşunuzun dediyi sözlər dostcasına deyilirsə, siz də rahat olarsınız. Biz Azərbaycanın yanındayıq. İran təhlükəsiz olarsa, Azərbaycan da təhlükəsiz olacaqdır. Azərbaycan inkişafda olarsa, İran da inkişafda olacaqdır. Biz o vaxt iki ölkənin iqtisadi inkişafına nail ola bilərik ki, dost olaq və bir-birimizin yanında olaq. İki dövlətin bütün işləri sizlər üçündür, iki xalq üçündür, iş adamları üçündür, siz sahibkarlar üçündür. Sizlər dostluq və məhəbbət torpağından ən yaxşı məhsulu yığa bilərsiniz. Hər şey sədaqətdən başlanır. Bir-birimizə sadiq olaq, qardaş olaq, dost olaq. Ola bilər ki, mən sizinlə bir iclasda, ticarətdə, Allah eləməmiş, sizi aldatmış olam və ondan xeyir götürəm. Amma bu xeyir sonuncu xeyir olacaqdır və bitəcəkdir. Əgər hər ikimiz bir-birimizi fikirləşsək, düşünsək, qarşılıqlı mənafemizi güdsək,

bu ticarət davamlı olacaqdır. Biz gərək faydalı münasibətlər barədə düşünək. Siz də fayda götürün, biz də fayda götürək.

İstehsalına başladığımız avtomobillər həm sizin, həm də bizim iftixarımızdır. Hər kəs ki, bu avtomobili alacaq, ona əyləşəcək, hər ikimizə duaçı olacaqdır. Mümkündür ki, keyfiyyətsiz bir avtomobil istehsal olunsun, adam aldanaraq, onu alsın. Amma davamı olmayacaqdır. İşi gərək sağlam əsasda, sədaqət və diqqətlə görəsən və ilk növbədə, düzgünlüyə əsaslanasan. Hər istehsal edilən məhsulun yaxşı olmasına səy göstərməli və gələcəkdə ondan yararlanmağa çalışmalıyıq. Bu işdə düzgünlük başlıca şərtdir.

İki ölkə arasında enerji, neft, qaz, neft-kimya sahələrində yaxşı imkanlara malikik. Siz sahibkarlar hər iki ölkədə bu sahədə fəal ola bilərsiniz. Biz son illər hətta kənd təsərrüfatı sahəsində də əməkdaşlıq etməyə başlamışıq və bu işi inkişaf etdirməliyik. Biz müxtəlif sahələrdə də əməkdaşlıq edə bilərik. Səhiyyə, dərman istehsalı, qabaqcıl texnologiya, elm sahələrində də bir-birimizin yanında ola bilərik. Bizim alimlər, şairlər, ziyalılar tarixboyu bizi qardaşlığa, dostluğa və əməkdaşlığa dəvət ediblər. Avtomobil istehsalından daha vacib, Xəzər dənizindəki əməkdaşlıqdan daha mühüm, Rəşt–Astara yolundan daha önəmli, Şimal–Cənub, Cənub–Qərb dəhlizlərindən daha mühüm dostluqdur, qardaşlıqdır, bir-birini fikirləşməkdir. Bizim üçün əhəmiyyət daşıyan odur ki, günbəgün qardaşlıq münasibətlərini daha çox hiss edək. Hiss edək ki, bir kökdənik, tarixboyu bir sudan, bir torpaqdan bəhrələnmişik. Hiss edək ki, bizim mədəniyyətimizin bir mənşəyi vardır, bizim dinimiz, inancımız bir yerdən qaynaqlanıb. Onu qəbul edək ki, yalnız dostluqla, qardaşlıqla, sədaqətlə öz xeyrimizə və bölgənin xeyrinə çalışmalıyıq. Biz təhlükəsizlik və sabitlik istəyirik. Bu ancaq dostluqla mümkündür. Azərbaycanın təhlükəsizliyi bizim təhlükəsizliyimiz, Azərbaycanın inkişafı İranın inkişafıdır. Biz bütün varlığımızla kamil qardaşlıq istəyirik. Biz bir ailənin üzvləriyik. Bu bölgədə bir-birimizin yanında olmalıyıq.

İmkanlardan istifadə etməliyik. Elektrik enerjisindən, energetika sahəsindən bəhrələnməliyik. Siz elektrik enerjisinə ehtiyac duyduqda, biz bu elektrik enerjisini sizə ötürə bilərik. Biz buna ehtiyac duyduqda isə siz öz növbənizdə, bizə yardım göstərə bilərsiniz. Bu əlaqələr ikitərəfli, çoxtərəfli münasibətlərə çevrilə bilər və o zaman etibarlı şəbəkəyə sahib ola bilərik. Bu şəbəkə dayanıqlı və etibarlı şəbəkə olacaqdır. Ehtiyac duyduğunuz gün biz sizin yanınızda, biz ehtiyac duyduqda isə siz bizim yanımızdasınız. Biz iki ölkə arasında bütün sahələrdə əlaqələri genişləndirəcəyik. Bank işi iki ölkə arasında əlaqələrdə çatışmazlıqlardan biridir. Hələ bu məsələdə lazımi nəticəyə gələ bilməmişik. Mən Azərbaycan dövlətindən, şəxsən qardaşım cənab İlham Əliyevdən xahiş edirəm, gələcək görüşlərimizdə bir-birimizə bu sözləri demək imkanını qazanaq ki, şükür Allaha, bank məsələsi də öz həllini tapdı.

Biz ticarət sahəsində yeni mexanizmlərə ehtiyac duyuruq. Bizim yeni tariflərə, azad ticarətə ehtiyacımız vardır. Bu gündən bu işə başlamalıyıq. İki ölkənin müştərək Komissiyası bu məsələni həll etməlidir. Mövcud olan çatışmazlıqlar aradan qaldırılmalıdır. Sərhədyanı bölgələr arasında əlaqələr günbəgün yaxşılaşmalıdır. Hava nəqliyyatı, dəmir yolu nəqliyyatı, yerüstü nəqliyyat sahəsində əlaqələrimiz genişlənməlidir. Xalqlarımız bir-biri ilə yaxından görüşmək imkanı qazanmalıdır, bir-birilərinin mədəniyyətindən, qədim abidələrindən, bir-birilərinə olan məhəbbətdən zövq almalıdırlar.

Biz xalqlarımızı bir-biri ilə görüşmək zövqündən məhrum etməməliyik. Siz bilirsiniz ki, bir iranlı Azərbaycana gəldikdə, onun hissləri Azərbaycanın onun üçün ikinci vətən olduğunu əks etdirir. Siz də İrana gələndə İran haqqında eyni hissləri keçirirsiniz. Biz mədəni sahədə bir-birimizlə əməkdaşlıq etməliyik. Biz Rəhman islamı istəyirik, islam dini rəhmət dinidir. Biz Allahın adını Rəhmanı-Rəhimlə çəkirik. Biz namazı Allahın Rəhmanı-Rəhimi ilə başlayırıq. Biz Allahı rəhmli, bağışlayan bilirik. Allah-Taalanın rəhmətindən böyük rəhmət

yoxdur. «Ey Rəbbimiz, Sənə iman gətirdik. Bizi bağışla, bizə rəhm elə. Sən mərhəmətlilərin ən mərhəmətlisisən!». Ən böyük məhəbbətlər Allah tərəfindəndir. Bir-birimizlə qarşılaşanda Allah-Taalanın bu əzəmətini aramızdakı əlaqələrimizdə görməliyik, hiss etməliyik. İslamda dostluq, səmimiyyət, rəhman və rəhmət vardır, islamda təhdid yoxdur, islamda terror yoxdur, islamda zorakılıq yoxdur. Biz o islamı qəbul edirik ki, bizim peyğəmbərimiz, Əli-Murtuza, bizim imamlarımız və peyğəmbərin səhabələri o yolu getmişlər və biz də həmin yolu gedirik.

Xoşbəxtlikdən, iki dövlətin yalnız mədəni, siyasi və regional məsələlərə dair baxışları bir-birinə yaxın deyil, eyni zamanda, bir çox hallarda mövqemiz eynidir. Biz beynəlxalq təşkilatlarda, regional məsələlərdə bir-birimizin yanındayıq, bir-birimizə dəstək veririk. Biz ikitərəfli əlaqələrimizi inkişaf etdirəcəyik. Biz üç, dörd və çoxtərəfli regional məsələləri də düşünürük. Qardaşım İlham Əliyevin müdrikliyi, eləcə də iki dövlətin müdrik yanaşması sayəsində əlaqələrimizin günbəgün inkişafının şahidi olacağıq. Siz iş adamlarını dəvət edirəm ki, Azərbaycanda və İranda bütün imkanlardan yararlanaraq, ticarətdə, sərmayə qoyuluşunda, Xəzərdə, turizmin inkişafı üçün sərmayə qoyuluşunda, elm, idman, təhsil ocaqları ilə bağlı əlaqələrin genişlənməsi sahəsində bir-birinizin yanında olasınız. Onda heç vaxt dostluqdan, səmimiyyətdən zərər görmərik.

Yaşasın qardaşlığımız və məhəbbətimiz! Yaşasın Azərbaycan! Yaşasın İran!

* * *

*Sonra Azərbaycan Prezidenti İlham Əliyev və İran Prezidenti Həsən Ruhani çay süfrəsi arxasında söhbət etdilər.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran İslam Respublikasının Prezidenti Həsən Ruhanini vətəninə yola saldı.*

## BEYNƏLXALQ MEMARLAR İTTİFAQININ PREZİDENTİ TOMAS VONİERİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 mart 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 29-da Beynəlxalq Memarlar İttifaqının prezidenti Tomas Vonierin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Beynəlxalq Memarlar İttifaqının prezidenti Bakıda gördükləri inkişaf və gözəlliyin onlarda dərin təəssürat hissi yaratdığını qeyd etdi və paytaxtımızın arxitekturasını uğurla himayə etdiyinə görə Prezident İlham Əliyevə minnətdarlığını və təbriklərini çatdırdı. Tomas Vonier bildirdi ki, səfərin əsas məqsədi Beynəlxalq Memarlar İttifaqının Bakıda keçirilən büro iclasında iştirak etməkdir. O vurğuladı ki, Beynəlxalq Memarlar İttifaqının bu tədbirin Bakıda təşkili ilə bağlı 134 üzv ölkədən Azərbaycanı seçməsi rəhbərlik etdiyi qurumun ölkəmizə verdiyi böyük önəmin göstəricisidir.*

*Bakının gözəl şəhər olduğunu bildirən Tomas Vonier həmkarlarının ilk dəfə burada olduqlarını və gördüklərindən heyran qaldıqlarını vurğuladı. Bakı bulvarının, şəhərdəki işıqlandırmanın xüsusi gözəlliyə malik olduğunu qeyd edən qonaq bütün bu inkişaf proseslərinin təcrübə mübadiləsi baxımından böyük maraq doğurduğunu diqqətə çatdırdı.*

*Dövlətimizin başçısı Bakının xeyli sayda tarixi abidələrə malik qədim bir şəhər olduğunu qeyd edərək, bütün bunların milli sərvətimizin bir hissəsini təşkil etdiyini vurğuladı. Prezident İlham Əliyev bu baxımdan UNESKO-nun Dünya İrs Siyahısına daxil edilmiş İçərişəhərin böyük memarlıq dəyərinə malik olduğunu bildirdi. Dövlət başçısı qeyd etdi ki, əsas məqsəd bu*

*tarixi irsi qorumaqla bərabər, yeni inşa edilən müasir binaların şəhərin tarixi hissəsi ilə həmahəngliyini təmin etməkdən ibarət idi. Bu məqsədə, demək olar ki, nail olduğumuzu qeyd edən Prezident İlham Əliyev şəhər əhalisinin daha yaxşı həyat şəraitinin və istirahətinin təmin edilməsinin də əhəmiyyətini vurğuladı, Bakıda ictimai zonaların yaradılması ilə bağlı böyük işlərin görüldüyünü nəzərə çatdırdı. Bakı bulvarının inkişafına toxunan Prezident İlham Əliyev bu tarixi arxitektura nümunəsinin 100 il bundan öncə inşa edildiyi zaman uzunluğunun 3,5 kilometr olduğunu bildirərək, hazırda bulvarın uzunluğunun 16 kilometrə çatdığını, əhalinin və qonaqların ən sevimli istirahət yerlərindən birinə çevrildiyini məmnunluqla vurğuladı.*

*Beynəlxalq Memarlar İttifaqının nümayəndə heyətinin ölkəmizə səfərinin önəmini qeyd edən Prezident İlham Əliyev qonaqların şəhərimizin inkişafı ilə bağlı rəylərinin öyrənilməsi, eyni zamanda, onların ölkəmizlə daha yaxından tanış olmaları üçün yaxşı imkan yaratdığını bildirdi.*

*Beynəlxalq Memarlar İttifaqının Prezidenti Tomas Vonier Azərbaycan Prezidentinin birbaşa himayəsi altında Bakıda həyata keçirilən inkişaf proseslərinin bir nümunə olduğunu qeyd etdi. Quruma üzv ölkələrdən olan memarların Bakıya səfəri zamanı çox şey öyrənə biləcəklərinə ümid etdiyini deyən Tomas Vonier paytaxtımızın bu baxımdan uğurlu məkan olduğunu bildirdi. Bakının tarixi irsin müasirliklə uzlaşdırılmasının gözəl nümunəsi olduğunu qeyd edən qonaq vurğuladı ki, əfsuslar ki, belə gözəlliklərə malik olan şəhər haqqında dünyada bir o qədər də geniş məlumat yoxdur. Tomas Vonier rəhbərlik etdiyi qurumun «Əhəmiyyətli memarlıq və mədəni irsə malik şəhərlərdə turizmin təsiri» adlı Beynəlxalq Forumun 2019-cu ildə Bakıda keçirilməsinin bu baxımdan əhəmiyyətli olacağını qeyd etdi.*

## ATƏT-in DEMOKRATİK TƏSİSATLAR VƏ İNSAN HAQLARI BÜROSU MİSSİYASININ RƏHBƏRİ KORİN YONKER İLƏ GÖRÜŞ

*30 mart 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 30-da ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu missiyasının rəhbəri xanım Korin Yonkeri qəbul etmişdir.*

*Söhbət zamanı Azərbaycanda qarşıdan gələn Prezident seçkilərinin keçirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev seçkilərin demokratik, seçki qanunvericiliyinə uyğun şəkildə keçiriləcəyinə, ədalətli və şəffaf olacağına və Azərbaycan xalqının iradəsini əks etdirəcəyinə əminliyini ifadə etdi.*

## BELARUS RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ VLADİMİR SEMAŞKONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Belarus Respublikası Baş Nazirinin müavini, hökumətlərarası birgə Komissiyanın həmsədri Vladimir Semaşkonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Belarus arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi, əlaqələrimizin daha da möhkəmləndirilməsi üçün yaxşı imkanların olduğu bildirildi.*

*Söhbət zamanı əməkdaşlığın yeni istiqamətlərinin müəyyənləşdirilməsinin vacibliyi vurğulandı, ölkələrimiz arasında ticarət dövriyyəsinin daha da artırılmasının zəruriliyi qeyd edildi.*

*Belarus Respublikası Baş Nazirinin müavini Gəncə Traktor zavodunda 10 mininci traktorun yığılmasının əlamətdar bir hadisə olduğunu vurğulayaraq, Azərbaycan ilə Belarusun bu birgə məhsulunun üçüncü ölkələrə ixrac edilməsi imkanlarının araşdırılmasının önəmini qeyd etdi.*

*Dövlət başçısı öz növbəsində, bunu əlamətdar hadisə kimi qiymətləndirərək, regionlara səfəri zamanı fermerlərin Azərbaycan–Belarus birgə məhsulu olan traktorların keyfiyyətindən razılıq etdiklərini vurğuladı və bu məhsulun ixracı üçün yaxşı imkanların olduğunu diqqətə çatdırdı.*

## TÜRKİYƏ RESPUBLİKASININ ƏDLİYYƏ NAZİRİ ƏBDÜLHƏMİD GÜLÜN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Türkiyə Respublikasının Ədliyyə naziri Əbdülhəmid Gülün başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Nazir Əbdülhəmid Gül Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, hüquq-mühafizə orqanları, o cümlədən Ədliyyə nazirlikləri arasında sıx əməkdaşlığın ikitərəfli əlaqələrimizin daha da genişləndirilməsi işinə töhfə verdiyi bildirildi.*

*Söhbət zamanı Azərbaycan ilə Türkiyə arasında bütün səviyyələrdə qarşılıqlı səfərlərin önəminə toxunularaq bildirildi ki, Türkiyə Respublikasının Ədliyyə naziri Əbdülhəmid Gülün Azərbaycana bu səfəri də ölkələrimiz arasında əməkdaşlığın möhkəmləndirilməsi işinə xidmət edəcəkdir.*

*Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.*

**EKVADOR RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MARİA FERNANDA ESPİNOZA QARSES İLƏ GÖRÜŞ**

*3 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Ekvador Respublikasının Xarici İşlər naziri xanım Maria Fernanda Espinosa Qarsesi qəbul etmişdir.*

*Maria Fernanda Espinosa Qarses Ekvador Respublikasının Prezidenti Lenin Morenonun salamlarını Prezident İlham Əliyevə çatdırdı və Bakıda keçirilən «Qoşulmama Hərəkatı» çərçivəsində nazirlər konfransında iştirakından məmnunluğunu ifadə etdi. Qonaq Azərbaycanın misli görünməmiş dərəcədə inkişafa nail olduğunu qeyd edərək, ölkəmizin beynəlxalq aləmdə çox mühüm bir mövqeyə malik olmasının önəmini vurğuladı. O qeyd etdi ki, Ekvador Azərbaycan ilə ikitərəfli münasibətləri möhkəmləndirməkdə maraqlıdır. İqtisadi əməkdaşlığı diqqətə çatdıran Maria Fernanda Espinosa Qarses Ekvadorun da neft ixrac edən ölkə olduğunu vurğuladı və bir çox sahələrdə əməkdaşlığımızın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu bildirdi.*

*Dövlətimizin başçısı Ekvador Respublikasının Xarici İşlər naziri Maria Fernanda Espinosa Qarsesin «Qoşulmama Hərəkatı» çərçivəsində nazirlər konfransında iştirakının önəmini qeyd edərək, bu səfərin əlaqələrimizin perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını bildirdi. Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığa toxunan Prezident İlham Əliyev BMT Təhlükəsizlik Şurasına üzvlüyə səsvermə zamanı Ekvadorun ölkəmizə göstərdiyi dəstəyi yüksək qiymətləndirdi. Dövlət başçısı ölkələrimiz arasında əməkdaşlığın genişləndiril-*

*məsi üçün yaxşı potensialın olduğunu bildirdi və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığımızın möhkəmləndirilməsinin vacibliyini qeyd etdi.*

*Söhbət zamanı iki ölkə arasında qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulandı, ticarət, sərmayə qoyuluşu və digər sahələrdə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi ətrafında fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev Ekvador Respublikasının Prezidenti Lenin Morenonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Ekvador Prezidentinə çatdırmağı xahiş etdi.*

**MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLFƏTTAH ƏS-SİSİYƏ**

Hörmətli cənab Prezident!

Misir Ərəb Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Misir arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin hərtərəfli inkişafı yolunda birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Misir xalqının rifahı naminə fəaliyyətinizdə daim uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 aprel 2018-ci il*

# FƏLƏSTİN DÖVLƏTİNİN XARİCİ İŞLƏR NAZİRİ RİAD ƏL-MALİKİ İLƏ GÖRÜŞ

*4 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Fələstin Dövlətinin Xarici İşlər naziri Riad əl-Malikini qəbul etmişdir.*

*Nazir Riad əl-Maliki Fələstin Dövlətinin Prezidenti Mahmud Abbasın salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Riad əl-Maliki İstanbulda keçirilən İslam Əməkdaşlıq Təşkilatının Qüds məsələsinə dair fövqəladə Zirvə toplantısında Azərbaycan Prezidentinin iştirakının çox əhəmiyyətli olduğunu qeyd etdi və bu tədbirdə göstərilən dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Qonaq Bakıda keçirilən «Qoşulmama Hərəkatı» nazirlər konfransının önəmini vurğuladı və bu tədbirdə iştirakından məmnunluğunu ifadə etdi.*

*Dövlətimizin başçısı Fələstinin Xarici İşlər naziri Riad əl-Malikinin Bakıda keçirilən tədbirdə iştirakının önəmini qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanın hər zaman Fələstin Dövlətinin və Fələstin xalqının yanında olduğunu vurğuladı, İstanbulda keçirilən Zirvə toplantısında ölkəmizin iştirakını bu həmrəyliyin nümayişi kimi dəyərləndirdi.*

*Prezident İlham Əliyev Mahmud Abbasın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Fələstin Prezidentinə çatdırmağı xahiş etdi.*

## İORDANİYA HAŞİMİLƏR KRALLIĞININ İNFORMASİYA VƏ KOMMUNİKASİYA ÜZRƏ DÖVLƏT NAZİRİ MƏHƏMMƏD ƏL-MOMANİ İLƏ GÖRÜŞ

*4 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də İordaniya Haşimilər Krallığının İnformasiya və Kommunikasiya üzrə Dövlət naziri Məhəmməd əl-Momanini qəbul etmişdir.*

*Məhəmməd əl-Momani İordaniya kralı II Abdullah ibn Hüseynin Prezident İlham Əliyevə və Azərbaycan xalqına salamlarını və ən xoş arzularını çatdırdı. Qonaq qeyd etdi ki, ölkəsi Prezident İlham Əliyevin liderliyinə, Azərbaycana və Azərbaycan xalqına dərin rəğbət hissi ilə yanaşır. İordaniyada ölkəmizin əldə etdiyi uğurların maraqla izlənildiyini qeyd edən Məhəmməd əl-Momani Azərbaycanın mühüm beynəlxalq tədbirlərə ev sahibliyi edən nümunəvi ölkə olduğunu bildirdi.*

*İordaniya kralı ilə Azərbaycan Prezidenti arasında olan şəxsi dostluq əlaqələrinin ikitərəfli münasibətlərimizdə böyük rolunu qeyd edən Məhəmməd əl-Momani İordaniya kralı tərəfindən Azərbaycanla həm siyasi, həm də iqtisadi sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı göstərişlər verildiyini bildirdi. Azərbaycanın «Qoşulmama Hərəkatı» nazirlər konfransına ev sahibliyini yüksək qiymətləndirən İordaniya Haşimilər Krallığının İnformasiya və Kommunikasiya üzrə Dövlət naziri Məhəmməd əl-Momani bu tədbirə dəvətə görə minnətdarlığını ifadə etdi.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev İordaniya kralı II Abdullah ibn Hüseynlə şəxsi dostluq*

*əlaqələrinin iki ölkə arasında münasibətlərin inkişafına töhfə verdiyini vurğuladı. İordaniyanın Azərbaycana dost ölkə olduğunu deyən dövlətimizin başçısı ölkələrimiz arasında siyasi sahədə yaxşı münasibətlərin olduğunu qeyd etdi, iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi, o cümlədən ticarət dövriyyəsinin artırılması və investisiya imkanlarından istifadə edilməsinin vacibliyini vurğuladı. Azərbaycanın mühüm beynəlxalq tədbirlərin keçirildiyi bir məkana çevrildiyini məmnunluqla qeyd edən Prezident İlham Əliyev «Qoşulmama Hərəkatı» nazirlər konfransının əhəmiyyətinə toxundu və Azərbaycanın «Qoşulmama Hərəkatı»na qarşıdan gələn sədrliyi illərində ölkələrimizi maraqlandıran məsələlərlə bağlı uğurlu əməkdaşlıq həyata keçiriləcəyinə ümidvar olduğunu bildirdi.*

*Prezident İlham Əliyev İordaniya kralı II Abdullah ibn Hüseynin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İordaniya kralına çatdırmağı xahiş etdi.*

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN XARİCİ İŞLƏR ÜZRƏ DÖVLƏT NAZİRİ ƏNVƏR QARQAŞIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Birləşmiş Ərəb Əmirliklərinin Xarici İşlər üzrə Dövlət naziri Ənvər Qarqaşın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət naziri Ənvər Qarqaş Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti şeyx Xəlifə bin Zaid əl-Nəhəyyanın salamlarını dövlətimizin başçısına çatdırdı. Bakıda keçirilən «Qoşulmama Hərəkatı» nazirlər konfransının önəminə toxunan Ənvər Qarqaş dövlətimizin başçısı ilə bundan əvvəl keçirilən görüşü məmnunluqla xatırlatdı. Ölkələrimiz arasında əlaqələrə toxunan Birləşmiş Ərəb Əmirliklərinin Xarici İşlər üzrə Dövlət naziri Azərbaycanda turistlər üçün viza rejiminin sadələşdirilməsini yüksək qiymətləndirərək, bunun ölkəsindən xeyli sayda turistlərin Azərbaycana gəlməsi işinə böyük təkan verdiyini vurğuladı.*

*Dövlətimizin başçısı Bakıda keçirilən «Qoşulmama Hərəkatı» nazirlər konfransında Birləşmiş Ərəb Əmirliklərinin Xarici İşlər üzrə Dövlət naziri Ənvər Qarqaşın iştirakının önəmini qeyd etdi. Prezident İlham Əliyev ölkələrimiz arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini bildirdi, BƏƏ-dən Azərbaycana gələn turistlərin sayının ildən-ilə artmasını məmnunluqla vurğuladı. Dövlət başçısı Azərbaycanda turizmin inkişafı sahəsində görülən işlərə toxunaraq, viza rejiminin daha da sadələşdirilməsi istiqamətində əlavə addımların atılmasının nə-*

*zərdə tutulduğunu vurğuladı və BƏƏ-dən gələn turistlərin təkcə Bakıya deyil, regionlara da səfər etmələrinin önəmini qeyd etdi.*

*Görüş zamanı iki ölkə arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev şeyx Xəlifə bin Zaid əl-Nəhəyyanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə çatdırmağı xahiş etdi.*

## HİNDİSTAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ SUŞMA SVARACIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Hindistan Respublikasının Xarici İşlər naziri xanım Suşma Svaracın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Hindistan Respublikasının Xarici İşlər naziri Suşma Svaracın «Qoşulmama Hərəkatı» nazirlər konfransında iştirakının əhəmiyyətinə toxunaraq, səfərin ikitərəfli münasibətlərimizin perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını bildirdi.*

*Bakıda keçirilən «Qoşulmama Hərəkatı» çərçivəsində nazirlər konfransının əhəmiyyətinə toxunan Suşma Svarac Hindistanın bu təşkilatın təsisçi üzvü olduğunu vurğuladı və tədbirdə iştirakından məmnunluğunu ifadə etdi. Ölkələrimiz arasında tarixi əlaqələrin mövcud olduğunu qeyd edən Suşma Svarac bu gün də ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini bildirdi və ticarət dövriyyəsinin böyük həcmdə artmasını əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirdi. O, ölkəsində genişmiqyaslı iqtisadi islahatların həyata keçirildiyini qeyd edərək, bu sahədə Hindistanın böyük potensiala malik olduğunu diqqətə çatdırdı. Nazir ölkəsinin Bakı–Tbilisi–Ceyhan layihəsində iştirakının önəmini vurğuladı və eyni zamanda, digər sahələrdə də əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu bildirdi. Hindistanlı nazir ölkəsinin Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən Şimal–Cənub və Cənub–Qərb beynəlxalq*

*nəqliyyat dəhlizi layihələrində əməkdaşlıq etməkdə maraqlı olduğunu vurğuladı.*

*Ticarət dövriyyəsinin artmasından məmnunluğunu ifadə edən dövlətimizin başçısı ölkələrimizin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, sərmayə qoyuluşu, ticarət, nəqliyyat, turizm sahələrində əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsinin zəruriliyini qeyd etdi. Bakı–Tbilisi–Ceyhan qlobal layihəsində Hindistanın iştirakından məmnunluğunu bildirən Prezident İlham Əliyev gələcəkdə Hindistanın digər şirkətlərinin Azərbaycan iqtisadiyyatında investor kimi iştirak edəcəyinə ümidvar olduğunu bildirdi.*

## DÜNYA TURİZM TƏŞKİLATININ BAŞ KATİBİ ZURAB POLOLİKAŞVİLİ İLƏ GÖRÜŞ

*4 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Dünya Turizm Təşkilatının baş katibi Zurab Pololikaşvilini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Zurab Pololikaşvilini Dünya Turizm Təşkilatının baş katibi vəzifəsinə seçilməsi münasibətilə təbrik etdi və ona işində uğurlar arzuladı. Dövlətimizin başçısı Azərbaycanın Dünya Turizm Təşkilatı ilə ənənəvi uğurlu əməkdaşlıq həyata keçirdiyini vurğulayaraq, Zurab Pololikaşvilinin ölkəmizə səfərinin əlaqələrin daha da möhkəmləndirilməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.*

*Azərbaycan Prezidenti ilə görüşündən qürur hissi keçirdiyini qeyd edən Dünya Turizm Təşkilatının baş katibi Zurab Pololikaşvili rəhbərlik etdiyi qurumun və özünün fəaliyyətinə Azərbaycanın verdiyi dəstəyə görə minnətdarlığını bildirdi.*

*Söhbət zamanı Azərbaycanda son illər turizmin sürətlə inkişaf etdiyi, ölkəmizə gələn xarici qonaqların sayının durmadan artdığı məmnunluqla qeyd olundu. Bakıda və regionlarda turizmin inkişafı üçün yüksək səviyyədə infrastrukturun yaradılması istiqamətində genişmiqyaslı işlərin həyata keçirildiyi vurğulandı, əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## «QOŞULMAMA HƏRƏKATI»NIN NAZİRLƏR KONFRANSININ AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*Bakı Konqres Mərkəzi*

*5 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 5-də Bakı Konqres Mərkəzində keçirilən «Davamlı inkişaf naminə beynəlxalq sülh və təhlükəsizliyin təşviq edilməsi» mövzusunda «Qoşulmama Hərəkatı»nın nazirlər konfransının açılışı mərasimində iştirak etmişdir.*

*Nazirlər konfransında «Qoşulmama Hərəkatı»nda iştirak edən, həmçinin Hərəkat yanında müşahidəçi statusu almış dövlətlərin və beynəlxalq təşkilatların nümayəndələri, xüsusi qonaq qismində dəvət olunan ölkə və təşkilatların təmsilçiləri olmaqla, ümumilikdə 800-dən artıq şəxs iştirak edir. Əsas məqsədi beynəlxalq hüquqa hörmət əsasında dünyada sülh, təhlükəsizlik və inkişafa yardım etmək olan «Qoşulmama Hərəkatı» müasir dünyada öz aktuallığını daha da artırır. Hərəkat daxilində razılaşdırılmış mövqe BMT Baş Assambleyası çərçivəsində qərarların qəbuluna təsir baxımından əhəmiyyətli rola malikdir. Azərbaycan Respublikası da «Qoşulmama Hərəkatı»nın Xarici İşlər nazirlərinin toplantısına və 2019-cu ildə Bakıda keçiriləcək Zirvə görüşünə ev sahibliyi, 2019–2022-ci illərdə «Qoşulmama Hərəkatı»na sədrlik etməklə, onun məqsəd və məramlarının təşviq olunmasına, beynəlxalq sülhün, təhlükəsizliyin və əməkdaşlığın güclənməsinə əsaslı töhfəsini verir.*

*«Qoşulmama Hərəkatı»nın 2019-cu ildə Bakıda keçiriləcək 18-ci Sammitinin böyük rəmzi mənası vardır. Belə ki, Avropa qitəsi*

*1989-cu il Belqrad Sammitindən 30 il sonra «Qoşulmama Hərəkatı»nda iştirak edən ölkələrin dövlət və hökumət başçılarının görüşünə yenidən ev sahibliyi edəcəkdir. Bununla da Azərbaycan «Qoşulmama Hərəkatı»nın ruhuna və prinsiplərinə sadiq olduğunu bir daha bütün dünyaya nümayiş etdirəcəkdir. Azərbaycan «Qoşulmama Hərəkatı»na 2011-ci ildə tamhüquqlu üzv olub. Onu da deyək ki, «Qoşulmama Hərəkatı»nda 120 dövlət iştirak edir. 17 dövlət və 10 beynəlxalq təşkilat isə «Qoşulmama Hərəkatı» yanında müşahidəçi statusuna malikdir.*

*Konfransdan əvvəl birgə foto çəkdirildi.*

*«Qoşulmama Hərəkatı»na sədrlik edən Venesuela-Bolivar Respublikasının Xarici İşlər üzrə Xalq Hakimiyyəti naziri Xorxe Arreasa Monserrat çıxış etdi:*

– Sabahınız xeyir, cənab Prezident İlham Əliyev!

Xarici İşlər nazirləri, nazirlər, nümayəndələr, səfirlər, zatialiləri!

Biz Azərbaycan Respublikasına, Azərbaycan Prezidentinə və Azərbaycan Respublikası Hökumətinə «Qoşulmama Hərəkatı»nın 18-ci nazirlər konfransında yüksək qonaqpərvərliyə görə minnətdarlığımızı ifadə etmək istərdik. Ötən dövrdə əldə olunmuş nailiyyətləri, milli və beynəlxalq vəziyyəti, o cümlədən «Qoşulmama Hərəkatı»nın rolunu qiymətləndirmək bu gün bizim üçün vacibdir. Bundan əlavə, Azərbaycanın bu tədbirə ev sahibliyini və 2019-cu ildə sədr ölkə olacağını nəzərə alaraq, mən Venesuela-Bolivar Respublikası Prezidentinin salamlarını çatdırmaq istəyirəm. Prezident Nikolas Maduro hər zaman «Qoşulmama Hərəkatı»na dəstək verib. O, Azərbaycana sədrlik fəaliyyətində uğurlar arzulayır və Prezident İlham Əliyevə xüsusi salamlar göndərir.

Zati-aliləri Prezident Əliyev, nazirlər, nümayəndə heyətlərinin rəhbərləri, bacılar və qardaşlar!

2016-cı ilin sentyabrında keçirilən tarixi sammitdə «Qoşulmama Hərəkatı»nın sədrliyini qəbul edərkən, biz birlik və müxtəliflik əsasında üzvlüyü təmin etmək, həmçinin üzv ölkələr arasında

həmrəyliyi gücləndirmək, bu mühüm hərəkatın canlandırılması prosesində irəliləyişə nail olmaq üçün 3 əsas hədəfi müəyyənləşdirdik. İl yarımdan sonra bu gün biz qarışıqlıq, qeyri-müəyyənlik və başqa ölkələrin suverenliyi üçün problemlər yaratmaq istəyən bəzi ölkələrin yürütdüyü siyasət nəticəsində daha da ciddiləşən bir çox çağırışlarla üzləşirik. Bu, sülh və beynəlxalq həmrəyliyə ziddir. Bəşəriyyət çox dinamik və mürəkkəb vəziyyətlə üz-üzədir. Çünki bəzi ölkələrin yürütdüyü siyasət getdikcə daha da eqoist və qərəzli olur. Halbuki reallıqda kompleks yanaşma olmalı, eyni zamanda, dialoq və həmrəylik ruhu hökm sürməlidir. Bu proses razılaşdırılmış addımlar üçün səmərəli siyasi platforma olan «Qoşulmama Hərəkatı»nın strukturunun gücləndirilməsi istiqamətində irəliləməlidir ki, qərarlar beynəlxalq səviyyədə müsbət təsir, sözün əsl mənasında, həqiqi təsir göstərə bilsin. Bizim bərabərlik, ölkələrin daxili işlərinə qarışmamaq, ərazi bütövlüyü prinsiplərini, bütün mədəniyyətlər, dinlər və sivilizasiyalara hörmət, insan haqları və fundamental azadlıqlar, o cümlədən sülh hüququ və inkişaf hüququna hörməti bir daha təsdiqləməyimiz bu gün hər zaman olduğundan daha vacibdir. Bizim üçün əsas məsələ davamlı inkişafa nail olmaqdan ötrü sülh və beynəlxalq təhlükəsizliyin təbliğidir. Bu bizim apardığımız müzakirələrdə olduqca böyük əhəmiyyət kəsb edir. Biz birlikdə BMT Nizamnaməsinin əsas prinsiplərini rəhbər tutaraq, beynəlxalq sülh və təhlükəsizliyi, o cümlədən insan haqlarının inkişafını gücləndirmək arzusundayıq. Ona görə də «Qoşulmama Hərəkatı» sülh və inkişafın olduğu, daha ədalətli, daha bərabər beynəlxalq nizamı qura biləcəyimiz bir dünyanın yaradılmasında çox mühüm rol oynamalıdır. Bu mənada 2 il bundan əvvəl dövlət və hökumət başçılarının qəbul etdiyi Dayanıqlı İnkişaf Məqsədləri bizə həqiqətən, inklüziv olan, dəyişə bilən yanaşmanın olduğu və heç kimin arxada qalmadığı fərqli bir inkişaf modelini təmin etmək üçün əsas verir.

*Nazir Xorxe Arreasa Monserrat çıxışında nüvə silahlarının yayılmamasına dair qəbul olunan sazişin əhəmiyyətini vurğula-*

*dı, bununla bağlı çağırışların bəşəriyyətin qorunması istiqamətində atılmış konkret addım olduğunu nəzərə çatdırdı və nüvə silahına malik ölkələri sülh və beynəlxalq təhlükəsizliyi gücləndirməyə çağırdı. O, bütün üzv ölkələrin sülh yolunda və «Qoşulmama Hərəkatı»nın tam canlandırılması istiqamətində birlikdə addımlamalı olduğunu deyərək, Hərəkatın dünyada gedən mənfi təzahürlərin qarşısının alınmasında böyük rol oynadığını bildirdi və konfransın işinə uğurlar arzuladı.*

*Sonra «Qoşulmama Hərəkatı»nın Venesuelanın Marqarita şəhərində keçirilən sonuncu sammitindən ötən müddətdə dünyasını dəyişən prezidentlərin və liderlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.*

*Dövlətimizin başçısı açılış mərasimində nitq söylədi.*

## Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

Təşəkkür edirəm, cənab sədr!

Xanımlar və cənablar, hörmətli qonaqlar!

Mən «Qoşulmama Hərəkatı»nın nazirlər konfransının iştirakçılarını salamlayıram və bu mühüm tədbirə ev sahibliyi etməyimizə icazə verdiyinə görə təşkilata təşəkkürümü bildirmək istəyirəm.

Yarım əsrdən çoxdur ki, «Qoşulmama Hərəkatı» bəşəri dəyərlərin təbliği ilə məşğuldur. Dünyanın ən böyük təşkilatlarından olan «Qoşulmama Hərəkatı» dünyada sabitlik, sülh və təhlükəsizliyin bərqərar olmasında vacib rol oynayır. «Qoşulmama Hərəkatı» beynəlxalq hüquq normalarına, ərazi bütövlüyü prinsiplərinə, bütün üzvlərin suverenliyinə və müstəqilliyinə sadiqdir.

Azərbaycan «Qoşulmama Hərəkatı»nın nisbətən yeni üzvüdür. Biz bu ailəyə 2011-ci ildə qəbul olunduq, dərhal təşkilatın və onun üzvlərinin dəstəyini hiss etməyə başladıq. Bu dəstək Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçilməsi proseduru zamanı nümayiş olundu. Bu, 2011-ci ildə, ölkəmizin

təşkilata qəbul olunması ilə eyni ildə baş verdi və biz tərəfdaşlarımızın güclü dəstəyini hiss etdik. Bu o qədər də asan məsələ deyildi, çünki bizim güclü rəqiblərimiz var idi və həmin rəqiblər təşkilatımıza üzv olmayan ölkələr idi. Seçilməyimiz üçün 16 raund tələb olundu və biz 155 dövlətin dəstəyi ilə qeyri-daimi üzv seçildik. «Qoşulmama Hərəkatı»nın və İslam Əməkdaşlıq Təşkilatının dəstəyi bizim ən mötəbər beynəlxalq quruma üzv seçilməyimizdə həlledici rol oynadı.

Bu bir daha bizim gücümüzü nümayiş etdirir. Onu nümayiş etdirir ki, birlikdə olanda nailiyyətlərimiz çox ola bilər. Bu, üzv dövlətlər arasında həmrəyliyin təzahürüdür. Bu eyni zamanda, təşkilatımızın imkanlarının göstəricisidir. BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmiş Azərbaycan 2 il ərzində orada təşkilatımızın bütün üzvlərini təmsil etdi. Bəyan etdik ki, biz uzun illərdir bir çox hallarda pozulan ədalət və beynəlxalq hüququ müdafiə edəcəyik.

Azərbaycan beynəlxalq hüququn və ədalətin pozulmasının şahidi olub və bunu öz üzərində hiss edib. 25 ildən artıqdır ki, ölkəmizin ərazisinin bir hissəsi – Azərbaycanın tarixi torpağı olan Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayon Ermənistanın işğalı altındadır. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal edilib. Bu işğal nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Ermənistan tərəfindən bizim xalqa qarşı etnik təmizləmə siyasəti həyata keçirilib. Ermənistan azərbaycanlılara qarşı Xocalı soyqırımını törədib. Həmin soyqırımı dünyanın 10 dövləti tərəfindən tanınıb. Ümidvaram ki, üzv dövlətlər də bu məsələni müzakirə edəcək və insanlığa qarşı olan həmin cinayətlə bağlı mövqelərini bildirəcəklər. Xocalı soyqırımı nəticəsində 613 günahsız insan, o cümlədən 106 qadın və 63 uşaq vəhşicəsinə işgəncəyə məruz qalıb və qətlə yetirilib. Minlərlə insan yaralanıb və ya itkin düşüb. Bu, insanlığa qarşı olan bir cinayətdir.

Təəssüf ki, işğal bu günə qədər davam edir. Fürsətdən istifadə edərək, «Qoşulmama Hərəkatı»nın üzv dövlətlərinə, bu ailəyə

təşəkkürümü bildirirəm ki, təşkilatımızın Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi qətnamədə münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə dəstək ifadə edilib. Biz bu dəstəyə görə çox minnətdarıq. Digər təşkilatlar da oxşar qətnamələr qəbul ediblər.

BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edib ki, orada Ermənistan qoşunlarının Azərbaycanın ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılması tələb olunur. Təəssüf ki, həmin qətnamələr həyata keçirilməyib, çünki icra mexanizmi mövcud deyil. İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası, ATƏT və digər aparıcı təşkilatlar Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasını tələb edən qətnamə və qərarlar qəbul ediblər, lakin onlar icra olunmayıbdır.

Təəssüflər olsun ki, beynəlxalq hüququn kobud şəkildə pozulması və ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımına baxmayaraq, bu ölkə sanksiyalara məruz qalmayıb. Münaqişənin əvvəlində Ermənistana qarşı sanksiyalar tətbiq edilsəydi, düşünürəm ki, münaqişə çoxdan öz həllini tapmış olardı. Yəni biz münaqişənin beynəlxalq hüquq normaları, Azərbaycanın suverenliyi və sərhədlərinin toxunulmazlığı prinsipinə əsasən həllinin tərəfdarıyıq.

İşğal olunmuş ərazilər tamamilə viran edilib. ATƏT faktların toplanması məqsədilə oraya 2 dəfə faktaraşdırıcı missiya göndərib və onların hesabatlarına əsasən, bizim bütün tarixi abidələrimiz, məscidlərimiz, məzarlıqlarımız və muzeylərimiz erməni vandalları tərəfindən dağıdılıbdır. Bu bizim mədəniyyətimizə qarşı olan cinayətdir. Azərbaycan ərazisinin işğalına son qoyulmalıdır və yalnız ondan sonra regionda sülh bərqərar oluna bilər.

Ermənistan ölkədə ksenofobiya bəsləyir, bu bir monoetnik dövlətdir. Orada heç bir başqa millət yaşamır və Ermənistan əhalisinin 99,9 faizi ermənilərdən ibarətdir. Bu ölkədə yaşayan azərbaycanlılar və digər millətlərin nümayəndələri orada etnik təmizlənməyə məruz qalıblar.

Ermənistandan fərqli olaraq, Azərbaycan mədəniyyətlərarası, sivilizasiyalararası və dinlərarası dialoqun dünya səviyyəsində tanınmış mərkəzlərindəndir. Biz multikulturalizm mərkəzlərindən biriyik. Azərbaycanda multikulturalizm dövlət siyasətidir. 2016-cı il ölkəmizdə «Multikulturalizm ili» elan edilmişdi. Biz multikultural dəyərləri, dinlərarası sülh və əməkdaşlığı təbliğ edən çoxsaylı beynəlxalq tədbirlər təşkil etmişik. BMT Sivilizasiyalar Alyansının Qlobal Forumu, Dünya Dini Liderlərinin Forumu, Bakıda mütəmadi qaydada təşkil olunan Mədəniyyətlərarası Dialoq Forumu və təşkil etdiyimiz digər beynəlxalq tədbirlər multikulturalizmə öz töhfəsini verir.

Biz 10 il əvvəl «Bakı prosesi»nin təşəbbüskarı olduq. Bizim təşəbbüsümüzə əsasən, İslam Əməkdaşlıq Təşkilatına və Avropa Şurasına üzv ölkələrin dövlət rəsmiləri Bakıya dəvət edildi. Azərbaycan hər iki təşkilata üzv olan nadir dövlətlərdəndir. Bu iki təşkilatın toplam olaraq 100-dən artıq üzvü var və bizim məqsədimiz onları bir araya gətirərək, mədəniyyətlərarası dialoq, etnik və dini zəmində gərginliyin azalması, dünyada ksenofobiya hallarının ciddi şəkildə müzakirə olunması, habelə qarşılıqlı anlaşma üçün platformanın yaradılması idi.

Bizim təşəbbüsümüz bundan ibarət idi və o, BMT tərəfindən dəstəkləndi. Artıq «Bakı prosesi» özünün onilliyini qeyd edir. Bu, misilsiz beynəlxalq platformadır ki, müsəlman dünyasını və Avropa dövlətlərini birləşdirir, bütün ölkələr üçün açıqdır və məqsəd müxtəlif dövlətlər, müxtəlif dinlər və etnik qrupların nümayəndələri arasında daha yaxşı anlaşma yaratmaqdır.

Azərbaycan özünün tarixi ilə qürur duyur. Müxtəlif dinlərin nümayəndələri ölkəmizdə əsrlərboyu sülh və ləyaqət şəraitində yaşayıblar. Bu gün bizim tarixi abidələrimiz həmin mədəni müxtəlifliyi özündə əks etdirir. Bizim gücümüz mədəni müxtəlifliyimizdədir. Multikulturalizmin alternativi yoxdur. Onun alternativi ayrı-seçkilik, ksenofobiya və islamofobiyadır. Hesab edirəm ki, bu məsələlər müzakirə edilməlidir və Azərbaycan bu dəyərlərin təşviqində öz vacib rolunu oynamaqda davam edəcəkdir.

Dövlətimiz nisbətən gəncdir. Biz 26 ildir ki, müstəqilik. Biz müstəqilliyimizi 1991-ci ildə bərpa etmişik.

Bu il biz müsəlman aləmində ilk demokratik respublika olan, Azərbaycan xalqının azadlıq və demokratiya arzusunun təzahürü olmuş Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini qeyd edəcəyik. Deyə bilərəm ki, 100 il əvvəl respublikada fərman qəbul olunaraq, qadınlara səs vermək hüququ verilib. Bu, 100 il əvvəl azadlıq səviyyəsini nümayiş etdirən mühüm addım olub. Hazırda biz demokratiya, insan hüquqları dəyərlərinə, azadlıqlara sadiqik. Lakin müstəqil ölkə kimi, biz cəmi 26 ildir ki, mövcuduq. Bu illər də, xüsusən ilk vaxtlarda asan olmayıbdır. Ölkəmizdə çətin problemlər, Ermənistanın işğalı, daxili çətinliklər, siyasi böhran, vətəndaş müharibəsi, iqtisadi tənəzzül müşahidə olunubdur. Bununla belə, bütün çətinliklərdən çıxa bilmişik və hazırda çox sürətli iqtisadi inkişafı nümayiş etdiririk. İqtisadi inkişaf müstəqilliyimizin əsasını təşkil edir. Aydın şəkildə anlayırıq ki, biz iqtisadi baxımdan güclü olmalıyıq, digər ölkələrdən və ya maliyyə mərkəzlərindən asılı olmalı deyilik. Yalnız bu halda biz müstəqil siyasət yürüdə bilərik və Azərbaycan bundan fərəhlənir. Buna görə biz diqqətimizi iqtisadi gündəliyimizə yönəltmişik və güclü iqtisadiyyat yaratmışıq. Bu gün Azərbaycan özünü təmin edən ölkədir. Biz bir çox ölkələrə yardım göstəririk. Məlumat vermək istərdim ki, biz üzv dövlətlərdən olan tələbələrə universitetlərimizdə təhsil almaları üçün təqaüdlər ayırmaq qərarını qəbul etmişik.

Son 15 il ərzində iqtisadi inkişafımız çox sürətli olubdur. Ümumi daxili məhsul 3,2 dəfə artıbdır. Fikrimcə bu, dünya rekordudur. Eyni zamanda, biz insan kapitalına böyük sərmayələr yatırmışıq. Azərbaycanda savadlılıq səviyyəsi 100 faizə yaxındır. Son 15 il ərzində biz 3100-dən artıq məktəb və 600-dən çox xəstəxana tikmişik, yaxud təmir etmişik. Əhalimizin, demək olar ki, yarısı, yəni 5 milyon vətəndaş hər il xəstəxanalarımızda ödənişsiz tibbi müayinədən keçir. Ömür uzunluğu artır. Buna görə xalqımızın sosial müdafiəsi siyasətimizin əsas

istiqamətlərindən biridir. Mən dəfələrlə bəyan etmişəm ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşları, onların rifahı, sağlamlığı, təhlükəsizliyi dayanır. Biz insanlarımıza daha yaxşı şəraitlərin təmin edilməsi üçün əlimizdən gələni edirik. Bunun üçün biz güclü, şaxələndirilmiş iqtisadiyyata malik olmalıyıq.

Son 15 il ərzində Azərbaycanın əldə etdiyi nailiyyətlərdən biri yoxsulluğun və işsizliyin kəskin azalmasıdır. Yoxsulluq səviyyəsi 49 faizdən 5,4 faizə düşüb, işsizlik 5 faiz səviyyəsindədir. Biz həmçinin nəzərə almalıyıq ki, son 15 il ərzində Azərbaycan əhalisi 1,5 milyon nəfər artıbdır. Buna görə yeni iş yerlərinin açılması bizim üçün daimi prosesdir. Əlbəttə, bunun üçün bizə maliyyə ehtiyatları, münbit sərmayə mühiti lazımdır. Son 15 il ərzində biz ölkəmizə 230 milyard dollardan artıq vəsaiti birbaşa sərmayə kimi cəlb edə bilmişik. İqtisadi nəticələrimiz dünyanın aparıcı maliyyə, o cümlədən iqtisadi təsisatlarının hesabatlarında da yer alır. Davos Dünya İqtisadi Forumu ölkələrin rəqabətqabliyyətliliyi baxımından Azərbaycanı 35-ci yerdə qərarlaşdırıb. İnklüziv inkişaf indeksinə görə Azərbaycan inkişaf edən ölkələr sırasında 3-cü yerdədir.

Bir sözlə, Azərbaycan xalqının əldə etdiyi bütün nailiyyətlər bizim siyasətimiz sayəsində olubdur. Biz bunları hər hansı digər dəstək olmadan əldə etmişik. Diqqətimizi milli maraqlara aid olan, strateji əhəmiyyət daşıyan məsələlərə yönəldirik. Ötən 26 il ərzində göstərdik ki, inkişafa sadiqsinizsə, həqiqətən müstəqilsinizsə və insanların taleyi öz əllərindədirsə, bu halda siz böyük nəticələr əldə edə bilərsiniz.

Azərbaycan humanitar nöqteyi-nəzərdən, həmçinin marşrutların yaradılması baxımından regional inkişafda mühüm rol oynayır. Ölkəmiz qitələrin birləşdirilməsində, qarşılıqlı surətdə faydalı əməkdaşlıq platformasının qurulmasında mühüm rola malikdir. Bildirmək istərdim ki, qitələr arasında dəmir yolu bağlantısının qurulmasında səylər göstəririk. Bu gün Şərq–Qərb dəmir yolu dəhlizi ölkəmizin və qonşularımızın səyləri sayəsində artıq istismar olunur. Biz bu layihələri qonşularımızla birgə həyata

keçiririk, çünki marşrutları yaratdıqda, ilk öncə, sizin qonşularla, sonra isə region ölkələri ilə yaxşı münasibətləriniz olmalıdır. Buna görə Şərq–Qərb üzrə daşımalar dəhlizi artıq reallıqdır. Ötən ilin oktyabr ayında Bakıda bu dəhlizin açılışı oldu. Bu dəhliz vasitəsilə Asiyadan Avropaya və geriyə malların daşınmasına sərf olunan vaxt baxımından, ən azı 2 həftəyə qənaət olunur. Bununla belə, bu bizim göstərdiyimiz səylərin yalnız bir hissəsidir. Digər mühüm layihə Şimal–Cənub dəhlizidir. Region ölkələrinin səyləri sayəsində, həmçinin bu dəhliz də reallığa çevrilir. Azərbaycan bu dəhlizlərin yaradılmasına böyük sərmayələr yatırır və Şərq–Qərb, eləcə də Şimal–Cənub dəhlizlərinin fəal iştirakçısıdır. Beləliklə, biz açıq dənizə çıxışı, eləcə də beynəlxalq bazarlarla birbaşa əlaqəsi olmayan Azərbaycan kimi ölkəni Avrasiyanın daşımalar qovşağına çevirə bildik. Hazırda biz digər layihə – Cənub–Qərb dəhlizi üzərində çalışırıq. Bunun sayəsində Asiya ölkələri öz mallarını Cənubi və Mərkəzi Avropaya çatdıra biləcəkdir.

Azərbaycan bir çox mühüm beynəlxalq tədbirləri təşkil edib. Onların sırasında siyasi və iqtisadi forumları, müxtəlif konfransları qeyd etmək olar. Lakin mən 2 tədbiri xüsusi qeyd etmək istərdim. Çünki bəhs etdiyim region üçün onların mədəniyyətlərarası dialoq, müxtəlif millətlərin, ölkələrin və dinlərin nümayəndələri arasında əməkdaşlıq və qarşılıqlı anlaşma baxımından çox böyük mənası vardır. 2015-ci ildə Azərbaycan ilk Avropa oyunlarını Yay Olimpiya oyunları səviyyəsində keçirdi. 2017-ci ildə isə biz IV İslam Həmrəyliyi oyunlarını təşkil etdik. Beləliklə, 2 il ərzində eyni şəhərdə biz Avropa dövlətlərinin, eləcə də islam ölkələrinin oyunlarını keçirdik. Bu da dünyanın bütün xalqları arasında mədəniyyətlərarası dialoqa, qarşılıqlı anlaşmaya verilən töhfə idi.

Azərbaycan «Qoşulmama Hərəkatı»nın yeganə üzvüdür ki, «Ekspo–2025»ə öz namizədliyini irəli sürüb. Bu addımın özü göstərir ki, fikrimizcə, biz belə mühüm qlobal tədbiri keçirməyə qadirik. Müstəqilliyini cəmi 26 il öncə bərpa etmiş ölkə üçün, hesab edirəm ki, həmin tədbir qazandığımız nailiyyətləri və

həqiqi olaraq, müstəqil olduğunuz təqdirdə əldə edilə biləcək nəticələri nümayiş etdirmək fürsəti olardı. Əgər siz heç bir tərəfdən asılı deyilsinizsə, bir çox nəticələri əldə edə bilərsiniz. Namizədliyimizə gəldikdə isə üzv dövlətlərin dəstəyinə ümid edirəm və bu, həmrəyliyimizin növbəti təzahürü olacaqdır. Biz bir-birimizi dəstəkləməliyik. Qarşımızda, demək olar ki, oxşar çağırışlar, problemlər dayanır. Keçmişimiz də müəyyən dərəcədə oxşardır. Hamımız öz həyatımızı müstəqil sürməyi arzulayırıq, istəmirik ki, kimsə bizdən nə etməyi tələb etsin, işlərimizə müdaxilə etsin, bizə diktə etsin. Bunun üçün isə biz güclü olmalıyıq. Biz yalnız birlikdə olduqda güclü ola bilərik.

Mən bütün qonaqlarımıza bizimlə olduqlarına görə təşəkkürümü bildirmək istəyirəm və konfransın işinə uğurlar arzulayıram. Sağ olun.

## SERBİYA RESPUBLİKASI BAŞ NAZİRİNİN BİRİNCİ MÜAVİNİ VƏ XARİCİ İŞLƏR NAZİRİ İVİTSA DAÇİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 5-də Serbiya Respublikası Baş Nazirinin birinci müavini və Xarici İşlər naziri İvitsa Daçiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Serbiya Respublikası Baş Nazirinin birinci müavini və Xarici İşlər naziri İvitsa Daçiçin «Qoşulmama Hərəkatı» çərçivəsində nazirlər konfransında iştirakının əhəmiyyətinə toxundu. İkitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyini bildirən dövlətimizin başçısı vurğuladı ki, Serbiya Azərbaycan üçün dost və tərəfdaş ölkədir. Ölkələrimiz beynəlxalq təşkilatlarda bir-birini dəstəkləyir. Serbiya Baş Nazirinin birinci müavini və Xarici İşlər nazirinin səfərinin ikitərəfli münasibətlərin perspektivlərinin müzakirəsi üçün də yaxşı imkan yaratdığını bildirən Prezident İlham Əliyev əlaqələrimizin bundan sonra da inkişaf edəcəyinə əminliyini vurğuladı.*

*Serbiya Baş Nazirinin birinci müavini və Xarici İşlər naziri İvitsa Daçiç Serbiya Prezidenti Aleksandr Vuçiçin salamlarını dövlətimizin başçısına çatdırdı. Azərbaycanın Serbiya üçün dost ölkə olduğunu qeyd edən İvitsa Daçiç əlaqələrimizin uğurla inkişaf etdiyini nəzərə çatdırdı.*

*Dövlətimizin başçısı Serbiya Prezidenti Aleksandr Vuçiçin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Serbiya Prezidentinə çatdırmağı xahiş etdi.*

## NEPAL FEDERATİV DEMOKRATİK RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ PRADİP KUMAR QYAVALİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 5-də Nepal Federativ Demokratik Respublikasının Xarici İşlər naziri Pradip Kumar Qyavalinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Xarici İşlər naziri Pradip Kumar Qyavali Nepal Prezidenti xanım Bidhya Devi Bhandarinin və Baş Nazir Kxadqa Prasad Şarma Olinin salamlarını dövlətimizin başçısına çatdırdı. «Qoşulmama Hərəkatı»nın nazirlər konfransının yüksək səviyyədə təşkili və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən Nepalın Xarici İşlər naziri konfransın açılışı mərasimində Prezident İlham Əliyevin nitqinin böyük maraqla qarşılandığını bildirdi.*

*Əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu vurğulayan Nepalın Xarici İşlər naziri turizm, kənd təsərrüfatı və digər sahələrdə əlaqələrin qurulmasının əhəmiyyətini qeyd etdi.*

*İkitərəfli əlaqələrin məmnunluq doğurduğunu, iqtisadi, turizm və digər sahələrdə əməkdaşlıq əlaqələrinin qurulması üçün imkanların mövcudluğunu qeyd edən Prezident İlham Əliyev bildirdi ki, ölkələrimiz BMT çərçivəsində də uğurlu əməkdaşlıq edir.*

*Dövlət başçısı «Qoşulmama Hərəkatı»nda həmrəyliyin daha da gücləndirilməsinin əhəmiyyətini vurğuladı.*

*Prezident İlham Əliyev Nepal Prezidenti və Baş Nazirinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Nepalın dövlət və hökumət başçılarına çatdırmağı xahiş etdi.*

## VENESUELA-BOLİVAR RESPUBLİKASININ XARİCİ İŞLƏR ÜZRƏ XALQ HAKİMİYYƏTİ NAZİRİ XORXE ARREASA MONSERRATIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 5-də Venesuela-Bolivar Respublikasının Xarici İşlər üzrə Xalq Hakimiyyəti naziri Xorxe Arreasa Monserratın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı Azərbaycan ilə Venesuela arasında ikitərəfli münasibətlərin uğurlu inkişafından məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev Venesuela Prezidenti Nikolas Maduronun ölkəmizə səfərini və beynəlxalq təşkilatlar çərçivəsində keçirdikləri görüşləri xatırladaraq, səmərəli müzakirələrin aparıldığını vurğuladı.*

*Dövlət başçısı ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlıq üçün yaxşı imkanların olduğunu bildirdi, ticarət və investisiya qoyuluşu sahələrində əməkdaşlığın genişləndirilməsinin vacibliyini qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanın və Venesuelanın həm BMT-də, həm də «Qoşulmama Hərəkatı» çərçivəsində uğurla əməkdaşlıq etdiklərini vurğuladı.*

*Venesuela-Bolivar Respublikasının Xarici İşlər üzrə Xalq Hakimiyyəti naziri Xorxe Arreasa Monserrat Prezident Nikolas Maduronun salamlarını dövlətimizin başçısına çatdırdı. O, Venesuelanın Azərbaycanla əlaqələri genişləndirməkdə maraqlı olduğunu ifadə edərək, ölkəsinin Azərbaycanda səfirliyinin açılmasının planlaşdırılmasını bu niyyətin göstəricisi kimi dəyərləndirdi.*

*Dövlətimizin başçısı Prezident Nikolas Maduronun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Venesuela Prezidentinə çatdırmağı xahiş etdi.*

## KOREYA XALQ DEMOKRATİK RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ Rİ YONQ-HONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 5-də Koreya Xalq Demokratik Respublikasının Xarici İşlər naziri Ri Yonq-honun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Koreya Xalq Demokratik Respublikasının «Qoşulmama Hərəkatı» çərçivəsində nazirlər konfransında yüksək səviyyədə təmsil olunmasının önəmini vurğuladı. Prezident İlham Əliyev Koreya Xalq Demokratik Respublikasının Xarici İşlər nazirinin ölkəmizə səfərinin ikitərəfli münasibətlərimizlə bağlı məsələlərin müzakirəsi üçün də yaxşı imkan yaratdığını qeyd etdi. Azərbaycanın «Qoşulmama Hərəkatı» çərçivəsində nazirlər konfransına böyük əhəmiyyət verdiyini bildirən Prezident İlham Əliyev gələn ildən ölkəmizin bu mühüm quruma sədrlik edəcəyini və təşkilat çərçivəsində həmrəyliyin möhkəmləndirilməsi işində səylərini əsirgəməyəcəyini vurğuladı.*

*Koreya Xalq Demokratik Respublikasının nümayəndə heyəti ilə görüşə görə minnətdarlığını ifadə edən Xarici İşlər naziri Ri Yonq-ho Azərbaycanın təşkilatın növbəti sammitinə ev sahibliyi, həmçinin quruma sədrlik edəcəyi münasibətilə təbriklərini çatdırdı. Koreya Xalq Demokratik Respublikasının Xarici İşlər naziri vurğuladı ki, Azərbaycanın təşkilata sədr seçilməsi «Qoşulmama Hərəkatı» üzvlərinin ölkəmizə olan etimadının və Azərbaycanın beynəlxalq aləmdəki yüksək nüfuzunun göstəricisidir.*

## BMT BAŞ ASSAMBLEYASININ 72-ci SESSİYASININ SƏDRİ MİROSLAV LAYÇAK İLƏ GÖRÜŞ

*5 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 5-də BMT Baş Assambleyasının 72-ci sessiyasının sədri Miroslav Layçakı qəbul etmişdir.*

*Prezident İlham Əliyev Miroslav Layçakın «Qoşulmama Hərəkatı» çərçivəsində nazirlər konfransında iştirakının önəmini qeyd etdi. Dövlət başçısı ölkəmizin «Qoşulmama Hərəkatı»nın gənc, eyni zamanda, çox fəal üzvü olduğunu bildirdi.*

*BMT Baş Assambleyasının 72-ci sessiyasının sədri Miroslav Layçak Azərbaycana hər səfərindən sonra ölkəmizdəki böyük inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını qeyd etdi. O, Azərbaycana «Qoşulmama Hərəkatı» təşkilatına sədrliyi dövründə uğurlar arzuladı. Miroslav Layçak ölkəmizin BMT çərçivəsində fəal roluna görə təbriklərini çatdırdı, Azərbaycanın mədəniyyətlərarası və dinlərarası dialoqa, həmçinin beynəlxalq terrorizmlə mübarizə sahəsinə verdiyi dəstəyin dünyada yüksək qiymətləndirildiyini bildirdi.*

*Prezident İlham Əliyev Azərbaycanın mühüm tədbirlər təşkil etdiyini vurğulayaraq, ölkəmizin beynəlxalq əməkdaşlıq işinə böyük töhfə verdiyini nəzərə çatdırdı. «Bakı prosesi»nə və digər təşəbbüslərə BMT-nin verdiyi dəstəyə görə minnətdarlığını bildirən dövlətimizin başçısı bu yaxınlarda ölkəmizdə mühüm beynəlxalq məsələlərin müzakirə olunduğu Qlobal Bakı Forumunun keçirildiyini və BMT-nin Baş katibi Antonio Quterreşin bu tədbirə müraciət ünvanladığını məmnunluqla xatırlatdı. Prezident İlham Əliyev bildirdi ki, ölkəmizin təşkil*

*etdiyi beynəlxalq tədbirlər əməkdaşlığın və sabitliyin möhkəmləndirilməsi işinə yönəlibdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, miqrasiya və iqlim dəyişikliyi problemləri və BMT qarşısında duran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## RUSİYANIN TASS İNFORMASİYA AGENTLİYİ BAŞ DİREKTORUNUN BİRİNCİ MÜAVİNİ MİXAİL QUSMANA MÜSAHİBƏ

*5 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 5-də Rusiyanın TASS informasiya agentliyi baş direktorunun birinci müavini Mixail Qusmana müsahibə vermişdir.*

**S u a l: Cənab Prezident İlham Heydər oğlu, Sizinlə görüşmək imkanına görə çox sağ olun. Biz Sizinlə Azərbaycanda Prezident seçkilərinə bir neçə gün qalmış görüşürük. Bu 5 ilə yaxın müddət çox tez keçdi. Düşünürəm ki, Sizin üçün bu illər bəlkə də bir an kimi keçdi. Amma hər halda, bu son 5 ilin Sizin üçün, ölkəniz üçün nə ilə əlamətdar olduğunu bir neçə kəlmə ilə deyərdiniz, hərçənd, bunu bir neçə kəlmə ilə ifadə etmək yəqin ki, çətindir.**

**C a v a b:** Mənim fikrimcə, əsas məsələ ondan ibarətdir ki, bu illər ərzində Azərbaycan uğurlu inkişafını davam etdirib. Ölkəmizin sosial-iqtisadi inkişafı ilə bağlı çoxsaylı proqramlar həyata keçirilib. Nəzərdə tutduqlarımızın hamısı yerinə yetirilib. Bizim nailiyyətlərimiz beynəlxalq strukturlar tərəfindən də qiymətləndirilir. Davos Dünya İqtisadi Forumunun son hesablamalarına əsasən, Azərbaycan qlobal rəqabətqabliyyətliliyinə görə 35-ci yeri tutur. Elə həmin Davos Forumunun inklüziv inkişaf indeksinə görə isə biz inkişaf etməkdə olan ölkələr arasında 3-cü yeri tuturuq. Bizdən irəlidə yalnız 30 inkişaf etmiş ölkə və 2 inkişaf etməkdə olan ölkə vardır. Yəni mən düşünürəm ki, Davos Dünya Forumunun verdiyi bu qiymət bizim nəyə nail olduğumuzu hər şeydən yaxşı nümayiş etdirir. Biz iqtisadiyyatın yüksək dərəcədə şaxələndirilməsinə nail

olmuşuq, yüz minlərlə yeni iş yeri yaradılıb, Azərbaycanda işsizlik təxminən 5 faiz səviyyəsindədir. Yoxsulluğu da xeyli azalda bilmişik. Bu gün yoxsulluq göstəricisi 5,4 faiz həddindədir. Bütün bunlar bizim son illərdə həyata keçirdiyimiz və sanballı səmərə vermiş sosial-iqtisadi siyasətin nəticəsidir.

**S u a l: Siz iqtisadiyyat barədə danışdınız və bu çox vacibdir. Amma hər halda, tarix baxımından Azərbaycan gənc ölkədir. Əslində inkişaf etmiş siyasi sistemə malik olan bir dövlət kimi, Azərbaycanın hələ 30 yaşı da yoxdur. Siz Azərbaycanda hansı siyasi islahatları uğurlu hesab edirsiniz və siyasi inkişaf üçün, ölkədə siyasi islahatlar üçün daha nə etmək lazımdır?**

**C a v a b:** Şübhəsiz, bu mövzu daim bizim fəaliyyətimizin gündəliyindədir və mən dəfələrlə açıq bəyan etmişəm ki, siyasi sistemdə islahatlar aparılmadan iqtisadi sahədə davamlı inkişafa nail olmaq mümkün deyil. Son dövrdə bu istiqamətdə çox iş görülüb. Azərbaycan dünya üçün açıq ölkədir. Ölkəmizdə bütün demokratik təsisatlar mövcuddur, mətbuat azadlığı tam təmin edilir. Azərbaycan internetin azad olduğu ölkədir. İnternet istifadəçilərinin sayı artır və əhalinin təxminən 80 faizinə yaxınlaşır. Toplaşma azadlığı, siyasi fəaliyyət azadlığı da tam təmin edilir. Biz Avropa Şurasının artıq təcrübəli üzvü kimi, cəmiyyətimizin daha da demokratikləşməsinə dair öz üzərimizə öhdəliklər götürmüşük və zənnimcə, bunun öhdəsindən inamla və uğurla gəlirik. Hərçənd əlavə səylər tələb edən məsələlər də var və biz bu istiqamətdə işləyirik. Biz siyasi islahatların və nailiyyətlərin səviyyəsini çox sağlam düşüncə ilə qiymətləndiririk. Hesab edirik ki, müstəqilliyin 26 ili ərzində bizim tariximiz, Azərbaycanın gənc müstəqil dövlət kimi təşəkkülü, ölkəmizin coğrafi yerləşməsi və bizim regionda mövcud olan və yarana biləcək risklər nəzərə alınmaqla, mümkün olan maksimum işlər görülübdür.

Bizim hələ inkişaf etdirməli olduğumuz istiqamətlər sırasında ictimai nəzarətin gücləndirilməsini qeyd etmək istərdim.

Mən bu barədə dəfələrlə fikrimi söyləmişəm və vətəndaşları dəyişikliklərin həyata keçirilməsinə nəzarət məsələsində daha fəal olmağa çağırmışam. Ona görə ki, Azərbaycanda sosial-iqtisadi inkişaf, infrastrukturun inkişafı baxımından çox işlər görülür və bəzən ictimai nəzarətin yetərincə olmaması pozuntulara və nəzərdə tutulan planların ləngiməsinə gətirib çıxarır. Bundan əlavə, biz Azərbaycanın demokratikləşməsi istiqamətində də fəaliyyətimizi davam etdirəcəyik. Biz açıq ölkəyik. Biz bu yolu şüurlu şəkildə seçmişik və həm siyasi, həm də iqtisadi islahatların inkişafını davam etdirəcəyik.

**S u a l: İlham Heydər oğlu, Siz Azərbaycanın iqtisadiyyatda qazandığı uğurların ekspertlər tərəfindən yüksək qiymətləndirilməsindən danışanda, əlbəttə, bu ilk növbədə, Azərbaycanın iqtisadi müstəqilliyinin nəticəsidir. Bu iqtisadi müstəqilliyin təməli Azərbaycan Prezidenti, ümummilli lider Heydər Əlirza oğlu Əliyev tərəfindən qoyulub. Lakin belə demək ədalətli olardı ki, tam iqtisadi müstəqillik, sözün həqiqi mənasında, son 5 ildən bir qədər artıq müddətdə qazanılıb. Bununla əlaqədar Siz sosial-iqtisadi inkişafın hansı istiqamətlərini daha prioritet hesab edirsiniz? Sizin fikrinizcə, Azərbaycan hansı sahələrdə daha böyük uğurlar qazanıb, hansı istiqamətləri isə hələ inkişaf etdirmək lazımdır?**

**C a v a b:** Bəli, siz tamamilə haqlısınız. Bizim fəaliyyətimizin başlıca istiqamətlərindən biri iqtisadi müstəqilliyin tam təmin edilməsi olub, bu, siyasi müstəqilliyin əsasıdır. Ona görə ki, əgər ölkə iqtisadi cəhətdən asılıdırsa, onda müstəqil siyasət həyata keçirməkdə böyük çətinliklərlə üzləşə bilər və çox vaxt üzləşir də. Buna görə də bu bizim fəaliyyətimizin başlıca istiqaməti olub və bu gün Azərbaycan iqtisadi baxımdan özünü tamamilə təmin edən və heç bir iqtisadi çətinliyi olmayan ölkədir. Bir neçə rəqəm səsləndirə bilərəm: son 15 ildə Azərbaycan iqtisadiyyatı 3,2 dəfə artıb, zənnimcə, bu, dünya rekordudur. Çox böyük investisiya layihələrinə baxmayaraq,

bizdə xarici borcun sabitləşdirilməsi üzrə də iş aparılıb. Bu gün xarici borc ümumi daxili məhsulun təxminən 20 faizinə bərabərdir. Mən qarşıdakı illərdə bu borcun xeyli azaldılması barədə göstərişlər vermişəm. Azərbaycanın valyuta ehtiyatlarının həcmi ümumi daxili məhsulun həcminə bərabərdir. Başqa sözlə desək, biz istəsək bir neçə gün və ya bir neçə ay ərzində bütün borcları ödəyə bilərik. Azərbaycanın maliyyə vəziyyəti kifayət qədər sabitdir və bizim həyata keçirdiyimiz investisiya layihələri, əlbəttə ki, əlavə mənfəət gətirəcək. Onu da qeyd etməliyəm ki, son 15 ildə Azərbaycan iqtisadiyyatına 230 milyard dollardan artıq sərmayə qoyulubdur.

**S u a l: Bunlar xarici sərmayələrdir?**

**C a v a b:** Bunun yarısı xarici, yarısı daxili sərmayələrdir. Bu da həm Azərbaycan dövlətinin, həm də Azərbaycanın özəl sektorunun fəal investisiya siyasətinə dəlalət edir. Buna görə də bütün bunlar bu gün tamamilə təmin olunmuş iqtisadi müstəqilliyin əsasını təşkil edir.

Son illərin sanballı uğurları arasında bizim enerji sektorunda nailiyyətlərimizi də qeyd etmək istərdim. Biz elektrik enerjisini idxal edən ölkədən onu ixrac edən ölkəyə çevrilmişik. Yaxın keçmişdə qazı da idxal edirdik, indi qazın ixracatçısına çevrilmişik. Bizim həyata keçirdiyimiz iri neft-qaz layihələri böyük maliyyə resurslarını akkumulyasiya etməyə imkan verir. Biz həm ölkə daxilində, həm də regional miqyasda nəqliyyat infrastrukturuna çox fəal şəkildə sərmayə qoymuşuq, bununla da gələcəkdə davamlı inkişaf üçün təməl yaratmışıq.

Hələ görülməli işlərə gəldikdə isə iqtisadiyyatın şaxələndirilməsi siyasətinin davam etdirilməsini, neft-qaz amilindən müəyyən dərəcədə asılılığın azaldılmasını və qeyri-neft sektorunda ixracın artırılmasını qeyd etmək istərdim. Məhz bu istiqamətlərdə fəal iş aparırıq. Son 2-3 ilin nəticələri çox sanballıdır. Biz qeyri-neft sektorunda ixracı 20–30 faiz artırmışıq və gələcəkdə bu məsələ ən prioritet mövzulardan biri olacaqdır.

Qeyd etməliyəm ki, bəzi ölkələrdən fərqli olaraq, biz daim yeni iş yerləri yaradılması üzərində çalışırıq. Son 15 ildə 1 milyon 400 min iş yeri yaradılıb. Lakin bu illər ərzində Azərbaycan əhalisinin sayı 1 milyon 500 min nəfər artıb. Zənnimcə, bu da iqtisadi artımın indikatorudur. Buna görə iqtisadiyyatımız bizim demoqrafiyanı daim qabaqlamalıdır. Mən hökumətin qarşısında bu vəzifəni qoymuşam və biz bu istiqamətdə işləyirik.

Buna görə yeni istehsalatların, əhalinin daha artıq sayı üçün nəzərdə tutulan sosial infrastrukturun yaradılması qarşıdakı illərdə əsas prioritet olacaqdır.

**S u a l: Xəritəyə baxanda görünür ki, Azərbaycan, belə deyək, dünyanın heç də ən sakit regionunda yerləşmir, onun yaxınlığında və ya ondan azacıq uzaqda müxtəlif münaqişələr baş verir və düşünürəm ki, bu, müəyyən qədər narahatlıq doğurur, ölkənin müdafiə qabiliyyətini möhkəmlətməyi zəruri edir. Bilirəm ki, ordunun möhkəmləndirilməsi üçün çox iş görülməsi barədə Siz özünüz də dəfələrlə danışmısınız. Bu gün Azərbaycanın müasir silahlarla təchiz olunmuş müasir ordusu vardır. Ölkənin həqiqətən, Siz demişkən, etibarlı şəkildə müdafiə olunması, bu istiqamətdə möhkəmlənməsi üçün daha hansı işlərin görülməsini vacib hesab edirsiniz?**

**C a v a b:** Bəli, siz haqlısınız. Biz bu məsələni daim diqqət mərkəzində saxlayırıq və ölkəmizin hərbi potensialının möhkəmləndirilməsi əsas prioritetlərdən biridir. Bu istiqamətdə çox iş görülüb. Müxtəlif reytinqlər tərtib edən beynəlxalq ekspertlərin və təşkilatların hesablamalarına görə, bu gün Azərbaycan Ordusu dünyanın ən yaxşı təchiz olunmuş və döyüş qabiliyyətli 50 ordusu sırasına daxildir. Biz silahların yenilənməsi prosesini praktiki olaraq, başa çatdırmışıq. Ordumuz həm hücum, həm də müdafiə xarakterli ən müasir, yüksək dəqiqliyə malik texnoloji silahlarla təchiz olunub. Biz silahları ən yaxşı istehsalçılardan alırıq və bu silahlar bizə özümüzü yetərincə inamlı hiss etmək imkanı verir. Təbii ki, təkcə

silahlanma sayəsində güclü ordu yaratmaq olmaz. Buna görə ordumuzun döyüş qabiliyyətinin artırılması, intizamın möhkəmləndirilməsi üçün çox iş görülüb. Əlbəttə, çoxsaylı təlimlər və treninqlər bizdə hələlik mövcud olan çatışmazlıqları göstərir. Biz Silahlı Qüvvələrin maddi-texniki bazasını xeyli möhkəmlətmişik. Bizim bütün hərbi bazalarımızın və hərbi şəhərciklərimizin 80 faizindən çoxu əslində yenidən inşa edilib. Qarşıdakı illərdə biz maddi-texniki baza ilə bağlı prosesi tam başa çatdıracağıq. Təbii ki, qarşıdakı illərdə biz hərbi quruculuq işi ilə fəal məşğul olacağıq. Silahların alınması məsələsinə gəldikdə, bu iş daha böyük seçim əsasında daha konkret aparılacaq, müvafiq məsələlərin həlli üçün həyata keçiriləcəkdir. Bununla paralel olaraq, təqribən 10 il bundan əvvəl mənim təşəbbüsümlə Azərbaycanda Müdafiə Sənayesi Nazirliyi yaradılıb. O vaxta qədər biz hərbi məhsullar istehsal etmirdik. Bu gün isə belə məhsulları nəinki istehsal edir, həm də ixrac edirik. Azərbaycanda 1000-dən çox adda hərbi təyinatlı məhsul istehsal edilir. Bu məhsullar beynəlxalq standartlara uyğundur və bizim bir sıra göstəricilər üzrə idxaldan asılılığımızı azaldır, həmçinin yaxşı ixrac potensialı yaradır və Azərbaycan silah ixrac edən ölkəyə çevrilir.

**S u a l: Bəzi qonşularınızdan fərqli olaraq, Azərbaycan tarixən multimilli ölkə olub və bu gün də belədir. Azərbaycanda təkcə iri milli diasporların sayı 10-dan çoxdur, azsaylı xalqları da nəzərə alsaq, belə diasporlar onlarcadır. Sizin fikrinizcə, bu millətlərarası həmrəyliyi, sülhü dəstəkləmək, bu diasporların bir-biri ilə xoş qarşılıqlı münasibətlərdə yaşamaları üçün nə iş görülür və Siz bu fəaliyyəti nə dərəcədə gərəkli hesab edirsiniz?**

**C a v a b:** Bilirsinizmi, tarixən iş elə gətirib ki, Azərbaycan həmişə mədəniyyətlərarası, dinlərarası dialoqun yüksək səviyyəsi ilə fərqlənən ölkə olub. Məsələn, əvvəllər multikulturalizm kimi terminlər yox idi, lakin bu həmişə bizim həyat normamız olub. Müstəqillik illərində biz bu müsbət meyilləri nə-

inki qoruyub saxlamağa, həm də onları möhkəmlətməyə nail olmuşuq. Bu gün ölkəmizdə yaşayan bütün xalqlar, bütün konfessiyaların nümayəndələri özlərini rahat, ölkəmizin layiqli vətəndaşları kimi hiss edir və həqiqətən də belədir. Mən dəfələrlə demişəm, bizim müxtəlifliyimiz bizim sərvətimizdir. Azərbaycanın etnik və dini müxtəlifliyi bizim böyük sərvətimizdir, biz onu çox yüksək qiymətləndiririk və bu müsbət meyillərin möhkəmlənməsi üçün nə lazımdırsa edirik.

Azərbaycanın daxilində millətlərarası, konfessiyalararası münasibətlər sahəsində heç bir potensial problem yoxdur. Biz bu istiqamətdə dövlət siyasətini həyata keçiririk. Bu da çox vacibdir ki, cəmiyyət bu siyasəti tamamilə dəstəkləyir. Biz bu müsbət meyillərin regionda da, dünyada da yayılması üçün fəal iş aparırıq. Ona görə ki, biz vakuumda yaşamırıq. Təbii ki, dünyanın istənilən nöqtəsində baş verən, millətlərarası münasibətlərdə gərginliklərlə, mürəkkəbliklərlə bağlı olan proseslər potensial təhlükə mənbəyidir. Buna görə bizim təşəbbüsümüzlə çoxsaylı beynəlxalq tədbirlər keçirilib – Bakı Humanitar Forumu, Dünya Mədəniyyətlərarası Dialoq Forumu, BMT Sivilizasiyalar Alyansının Qlobal Forumu. Bu il biz «Bakı prosesi»nin 10 illiyini qeyd edirik. Azərbaycanın təşəbbüsü ilə başlanmış bu prosesin mahiyyəti, qısaca desək, İslam Əməkdaşlıq Təşkilatının üzvləri olan ölkələrlə Avropa Şurasının üzvləri olan ölkələr arasında məhz mədəniyyətlərarası, dinlərarası, sivilizasiyalararası dialoq səylərini əlaqələndirməkdən ibarətdir. Biz bunu bu istiqamətdə uğurlarımızı nümayiş etdirmək üçün deyil, müsbət meyillərin möhkəmlənməsi üçün edirik. Zənnimcə, qısa şəkildə şərh etsək, millətlərarası, dinlərarası həmrəyliyin belə yüksək səviyyəsinə necə nail olmağımız onunla bağlıdır ki, biz bu barədə yalnız danışmırıq, həm də bu istiqamətdə düşünürük və fəaliyyət göstəririk. Əgər dünyada belə yanaşma üstünlük təşkil etsə, bu zəmində problem olmayacaqdır.

**S u a l: Siz konfessiyalararası sülh barədə danışdınız. Bu doğrudan da belədir. Mən canlı şahid olmuşam ki, Novruz bayramı günlərində məscidlər dolu olur, pravoslavların Pasxa bayramında pravoslavlar rus kilsəsinə gəlir, sinaqoqda həmişə yəhudi dininə etiqad edən insanlar olur. Azərbaycan dünyəvi dövlətdir, lakin eyni zamanda, müsəlman ölkəsidir. Sizin üçün sirr deyil ki, bəzi radikal islamçı qruplaşmaların inkişaf etməsi qorxusu vardır. Azərbaycan üçün bu təhlükə – radikal qruplaşmaların buraya soxulması təhlükəsi nə dərəcədə ciddidir? Siz buna qarşı mübarizə aparmağı nə dərəcədə zəruri hesab edirsiniz və bunu necə etmək olar?**

**C a v a b:** Bilirsinizmi, potensial baxımdan bütün müsəlman ölkələrində belə təhlükə vardır. Əsas məsələ hökumətin, cəmiyyətin buna necə münasibət bəsləməsi, cəmiyyətin vəziyyəti, onun bu ideyanı qəbul edib-etməməsidir. Buna görə biz çoxdan başa düşmüşük ki, radikalizmin ixracına qarşı təkcə inzibati və ya hər hansı başqa tədbirlər vasitəsilə mübarizə aparmaq kifayət deyil. Biz bu cür təhlükəli ideyaların, necə deyərlər, həyat məkanını məhdudlaşdırmalı idik və buna nail olduq. Biz bu məkanı özümüzün fəal hərəkətlərimizlə məhdudlaşdırmalıyıq. Azərbaycanın dünyəvi dövlət kimi fasiləsiz uğurlu inkişafının başlıca qarantı ilk növbədə, təhsildir. Bu gün Azərbaycanda savadlılıq səviyyəsi 100 faizə yaxındır. Təhsil məsələlərinə çox böyük diqqət yetirilir. Bunu demək kifayətdir ki, bizim büdcəmizdə 2 əsas xərc maddəsi var – müdafiə və təhsil. Müdafiənin səbəbləri aydındır. Təhsil isə məhz onun üçündür ki, Azərbaycan vətəndaşlarının gələcək nəsilləri savadlı olsun və radikalizmdən qoruna bilsinlər. İkinci mühüm amil sosial-iqtisadi inkişaf məsələsidir. Biz görürük ki, çoxsaylı sosial-iqtisadi problemlər – yoxsulluq, işsizlik, ümidsizlik olan yerdə radikalizm və ekstremizm ideyaları özünə dəstək tapır, savadsız adamlar düşünürlər ki, xilas yolu elə bundan ibarətdir. Buna görə belə təbliğata qarşı mübarizənin mühüm amilləri, zənnimcə, təhsil,

üstəgəl iqtisadi və sosial inkişafdır. Dediyim kimi, Azərbaycanda işsizliyin və yoxsulluğun səviyyəsi dünyada ən aşağı göstəricilərdən biridir. Əlbəttə, fəal dövlət siyasəti və milli mənlik şüuru ideyalarının, bizim keçmişimizlə bağlı ideyaların, gələcək planlarımızın təbliği – bütün bunlar potensial təhlükələrə qarşı fəal mübarizə aparmağımıza kömək edir. Deməliyəm ki, ölkəmizin daxilində cəmiyyətin radikallaşması ilə bağlı potensial risklər yoxdur. Biz sadəcə, özümüzü kənardan mənfi və təhlükəli təsirlərdən həm inzibati, həm də sosial-iqtisadi və ideoloji xarakterli tədbirlərlə qorumalıyıq.

**S u a l: Azərbaycan çoxvektorlu xarici siyasət yürüdür. Hamı görür ki, Azərbaycanın xarici siyasi mövqeləri ilbəil möhkəmlənir. Bir neçə il bundan əvvəl Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi buna sübutdur. Siz necə hesab edirsiniz, xarici siyasətin bu istiqamətlərini nə dərəcədə inkişaf etdirmək lazımdır? Sizin fikrinizcə, hansı sahələrdə bəzi ləngimələr, çatışmazlıqlar var və bu gün xalqların siyasi ailəsində Azərbaycan özünü necə hiss edir?**

**C a v a b:** Çox rahat və inamlı hiss edir. Düşünürəm ki, xarici siyasət sahəsində biz mümkün olan maksimuma çatmışıq. Sizin qeyd etdiyiniz kimi, bir neçə il bundan əvvəl Azərbaycan 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi. Bu, Birləşmiş Millətlər Təşkilatının üzvlərinin mütləq əksəriyyəti deməkdir. Bu onu göstərir ki, biz qısa müstəqillik dövründə dünyaya özümüzü böyük hörmət sahibi olan etibarlı ölkə kimi göstərə bilmişik. Biz xarici siyasətdə həmişə öz milli maraqlarımızı əsas götürmüşük və bu gün də belədir. Xarici siyasət daxili siyasətin davamıdır. O, daxili problemlərin həllinə kömək edir. Əlbəttə, mövqemiz həmişə belə olub ki, biz tərəfdaşlarımızla əlaqələrimizi qarşılıqlı faydalı əməkdaşlıq vasitəsilə möhkəmlətməliyik və əməkdaşlıq yolu ilə daha sıx ünsiyyətə və qarşılıqlı anlaşmaya nail olmalıyıq. Düşünürəm ki, bunu edə bilmişik. Biz öz xarici siyasətimizi lap

əvvəldən elə planlaşdırmamışıq ki, o, çoxvektorlu və ya hamı üçün məqbul olsun. Bizim ənənəvi tərəfdaşlarımızla prinsipial xarakterli bir sıra məsələlər barəsində fikir ayrılıqları az deyil. Lakin bu, münasibətlərin başlıca strateji xarakterini, bu münasibətlərin həm bizim üçün, həm də tərəfdaşlarımız üçün əhəmiyyətini görməyə və nəticəyə yönəlməyə mane olmur.

Deməliyəm ki, biz beynəlxalq arenada böyük etimad qazanmışıq və bizimlə razılaşmaya bilərlər. Lakin düşünürəm ki, bizə hörmət edir və etimad bəsləyirlər. Bir daha deyirəm, bizim milli maraqlarımız ondan ibarətdir ki, bütün ölkələrlə münasibətlərimiz yaxşı olsun, lakin bu, hansısa birtərəfli güzəştlər hesabına deyil, məhz konkret nəticələrə yönəlmiş səmərəli əməkdaşlıq siyasəti nəticəsində əldə edilməlidir. Məncə, bunun nəticəsi ondan ibarətdir ki, Azərbaycan həm müsəlman dünyasında çox güclü mövqeyə malikdir, həm də Avropa strukturlarında fəal iştirak edir və öz mənafelərini qoruyur. Bizim qonşularla çox sıx, mehriban münasibətlərimiz var, onlar da bizə yaxşı münasibət bəsləyirlər. Buna görə də bizim xarici siyasətimizdə hələ yaxşılaşdırılmalı və ya düzəliş edilməli olan istiqamətlər qalmayıb. Məncə, əsas vəzifə bu müsbət inkişaf vektorunu qoruyub saxlamaqdır. Bu, regional sabitliyin möhkəmləndirilməsinə şərait yaradacaqdır.

**S u a l: Siz Azərbaycan Respublikasının Rusiya Federasiyası ilə münasibətlərinin strateji xarakter daşıması barədə dəfələrlə danışmısınız. Rusiya Prezidenti Vladimir Vladimiroviç Putin də bu barədə danışıb, özü də dəfələrlə. Rusiyada seçkilər keçirildi. Bu vəzifəyə seçilməsi münasibətilə Rusiya Prezidentini ilk təbrik edənlərdən biri də Siz oldunuz. Ekspertlərin çoxu Rusiya Prezidenti ilə Sizin münasibətlərinizin xüsusi etimada əsaslandığını deyirlər. Siz dəfələrlə görüşmüsünüz. Bununla əlaqədar, Siz Rusiya–Azərbaycan, Azərbaycan–Rusiya münasibətlərinin bugünkü vəziyyətini necə qiymətləndirirsiniz? Daha nə etmək lazımdır, bu sahədə nə kimi çətinliklər vardır? Digər**

**tərəfdən, bu münasibətlərin inkişafı üçün iki liderin belə şəxsi əlaqələrini Siz nə dərəcədə vacib hesab edirsiniz?**

**C a v a b:** Şübhəsiz, hər hansı dövlətlərarası münasibətlərdə, xüsusən qonşu, çoxillik tarixi əlaqələri olan ölkələr arasında münasibətlərdə liderlərin şəxsi əlaqəsi həmişə mühüm rol oynayır. Əlbəttə, Prezident Vladimir Vladimiroviç Putin ilə bizim şəxsi münasibətlərimiz ölkələrimizin ikitərəfli münasibətlərinin uğurlu inkişafı üçün mühüm amillərdən biridir. Bizim tez-tez baş tutan görüşlərimiz, ikitərəfli və çoxtərəfli formatda əlaqələrimiz ikitərəfli münasibətlərin, qarşılıqlı anlaşmanın möhkəmlənməsinə şərait yaradır. Sizin qeyd etdiyiniz kimi, bizim aramızda çox etimadlı münasibətlər var, bizdə qapalı mövzular yoxdur və bizim müdaxiləmizi tələb edən hər hansı məsələlər yarandıqda hökmən zəngləşirik və ya görüşürük və tabeliyimizdə olanlardan kiminsə yol verdiyi qüsurları tənzimləyirik. Bizim ikitərəfli münasibətlərin bu çox vacib amili dövlətlərarası əməkdaşlıqda mühüm rol oynayıb və yenə oynayır. Düşünürəm ki, çox cəhətdən bizim etimada əsaslanan şəxsi münasibətlərimiz və ölkələrimizin bir-biri üçün vacib olmasını anlamağımız sayəsində biz əməkdaşlığımızı strateji tərəfdaşlıq səviyyəsinə çatdırmağa nail olmuşuq. Bunu Rusiya da bəyan edir, Azərbaycan da.

Biz bir sıra məsələlər üzrə çox sıx qarşılıqlı əlaqə saxlayırıq. İqtisadi sahədə əmtəə dövriyyəsi artır, nəqliyyat, energetika sahələrində birgə layihələr həyata keçiririk. Humanitar əməkdaşlıq çox geniş sahədir. Azərbaycanda təhsilin rus dilində olduğu 300-dən çox məktəb vardır. Azərbaycanın dövlətə məxsus bütün ali məktəblərində rus dilində fakültə vardır. Nisbətən yaxın vaxtlarda Bakıda Rusiyanın 2 aparıcı ali məktəbinin – Moskva Dövlət Universitetinin və Seçenov adına Tibb Universitetinin filialları açılıb. Bu da bizim humanitar əməkdaşlığımızın mühüm amilidir. Demək istəyirəm ki, münasibətlərimiz tamdəyərlidir və düşünürəm ki, qonşular və dostlar arasında münasibətlər belə olmalıdır.

**S u a l: Bizdə beynəlxalq gündəliyə aid daha bir məsələ vardır. Bu, Xəzər məsələsidir. Azərbaycan Xəzəryanı ölkədir. Burada digər Xəzəryanı ölkələrin – Rusiya, Türkmənistan, Qazaxıstan və İranın da maraqları vardır. Bilirəm ki, Xəzərin statusu, Xəzərin təkindən istifadə edilməsinin bəzi şərtləri barədə danışıqlar aparılır. Bu danışıqlar hansı mərhələdədir və Siz bu inkişafın perspektivini necə təsəvvür edirsiniz?**

**C a v a b:** Məncə, Xəzər dənizinin hüquqi statusunun qəti müəyyən edilməsi məsələsində əhəmiyyətli fakt odur ki, biz düzgün istiqamətdə irəliləyirik. Qiymətləndirmə və təhlil tələb edilən bütün məsələlərdə meyilləri nəzərə almaq lazımdır. Yəni bu məsələyə dair qarşılıqlı anlaşmaya nail olmaq meyli hiss olunur və deməliyəm ki, görülməli olan işlərin çox hissəsi artıq yerinə yetirilib. Düşünürəm ki, bütün Xəzəryanı dövlətlər tərəfindən bundan sonra da nümayiş etdiriləcək xeyirxah iradə bu məsələni tənzimləməyə və Xəzər dənizinin statusu məsələsinə bir növ nöqtə qoymağa imkan verəcəkdir. Bununla bərabər, qeyd etməliyəm ki, Xəzər dənizinin statusunun tənzimlənməmiş qalması məsələsi Xəzəryanı dövlətlərin əməkdaşlığının istər çoxtərəfli, istərsə də ikitərəfli formatına əsla təsir göstərmir. Hər halda, Azərbaycana aid problem yoxdur.

Bizim bütün Xəzəryanı ölkələrlə çox sıx, səmimi, real məzmunlu və çox yüksək etimad səviyyəsinə əsaslanan münasibətlərimiz vardır. Ona görə düşünürəm ki, bütün Xəzəryanı ölkələrin şərik çıxdığı bu yanaşma – Xəzərin statusu məsələsini – qonşularla münasibətlərin gündəliyində bir saylı məsələ hesab etmək əvəzinə, qüvvələrimizi bu gün həll edilməsi mümkün və lazım olan məsələlər üzərində cəmləşdirməliyik. Bununla da biz həmin məsələnin tənzimlənməsi üçün zəmin yaratmış olarıq. Hesab edirəm ki, beynəlxalq problemlərlə bağlı bütün başqa məsələlərdə olduğu kimi, burada da beynəlxalq hüququn, bu tipli məsələlərin tənzimlənməsində mövcud beynəlxalq praktikanın prinsipləri və tərəflərin xeyirxah iradəsi ilə bağlı

məsələlər əsas götürülməlidir. Ona görə də hesab edirəm ki, bu istiqamətdə görülmüş işlər təqdirəlayiqdir. Bu məsələnin bəzi istiqamətləri üzrə irəliləmək üçün planlarımız vardır. Düşünürəm ki, lap yaxın vaxtlarda biz yaxşı nəticələr görəcəyik.

**S u a l: İlham Heydər oğlu, əlbəttə, Sizdən soruşmaya bilmərəm ki, Dağlıq Qarabağ ətrafında vəziyyət necə inkişaf edir. Mən başa düşürəm, bu məsələ yəqin ki, daim Sizin diqqətinizdədir, Prezident kimi peşəkar fəaliyyətinizdə bu sual vardır. Minsk qrupu işləyir, nazirlər görüşür, hərdənbir müxtəlifformatlı ali səviyyəli görüşlər baş verir. Amma hər halda, məndə belə təsəvvür yaranıb və əslində güman edirəm, bütövlükdə ekspert cəmiyyəti də bu fikirdədir ki, vəziyyət dairə boyunca hərəkət edir. Vəziyyət sanki donma mərhələsindədir. Bu vəziyyət Azərbaycan üçün nə dərəcədə məqbuldur? Bununla əlaqədar hər hansı irəliləyiş gözləmək olarmı və bu ağrılı vəziyyətin, nəhayət, sona çatması üçün hansı addımlar atılmalıdır?**

**C a v a b:** Şübhəsiz, indiki vəziyyət istər Azərbaycan, istərsə də dünya birliyi üçün məqbul deyil. Xüsusən ona görə ki, vasitəçilik missiyası mandatına malik olan, Minsk qrupunun həmsədrləri olan ölkələr – Rusiya, Fransa və ABŞ dövlət başçıları səviyyəsində birgə bəyanatlarında dəfələrlə bildiriblər ki, status-kvo qəbuledilməzdir və o dəyişməlidir. Biz bu mövqeyə tamamilə şərikik və belə bəyanatları çox düzgün hesab edirik. Lakin biz konkret fəaliyyət gözləyirik. Bəyanatlar vacibdir, lakin bizə bu məsələnin tənzimlənməsi lazımdır. Məsələnin tənzimlənməsi üçün bütün hüquqi mexanizmlər mövcuddur. BMT Təhlükəsizlik Şurası 20 ildən çox bundan əvvəl erməni qoşunlarının işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. Bu qətnamələr öz qüvvəsini saxlayır və onlar yerinə yetirilməlidir. Lakin Ermənistan onları yerinə yetirməkdən imtina edir.

Təəssüf ki, bu imtinaya görə Ermənistana qarşı heç bir sanksiya tətbiq edilməyibdir.

Digər beynəlxalq təşkilatlar da buna oxşar qərarlar və qətnamələr qəbul ediblər. ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası, «Qoşulmama Hərəkatı» və digər təşkilatlar oxşar qətnamələr qəbul ediblər. Ermənistan həmin qətnamələri yerinə yetirmir. Azərbaycan torpaqlarının işğalı davam edir. İşğal nəticəsində 1 milyondan çox azərbaycanlı öz torpağında məcburi köçkün, qaçqın vəziyyətinə düşüb. Bizim şəhərlərimiz dağıdılıb, insanlarımız öz yurdlarından qovulubdur. Bizə qarşı etnik təmizləmə həyata keçirilib. Bütün bunlar faktlar və materiallarla sübut edilib. Belə materiallar kifayət qədərdir. Lakin məsələnin tənzimlənməməsinin başlıca səbəbi ondan ibarətdir ki, Ermənistan status-kvonu dəyişmək istəmir. Ermənilər sözdə danışıqlar aparmaq arzusunu bildirir, əslində isə danışıqları imitasiya etməklə məşğul olur və əllərindən gələni edirlər ki, siz demişkən, hər şey dairə boyunca təkrarlansın və bu prosesin sonu olmasın. Bu isə istər bizim üçün, istərsə də dünya birliyi üçün qəbuledilməzdir. Buna görə də BMT Təhlükəsizlik Şurasının qətnamələrinin Ermənistan tərəfindən tezliklə yerinə yetirilməsi, Azərbaycan ərazilərinin işğaldan azad edilməsinə tezliklə başlanılması – axı təkcə Dağlıq Qarabağ deyil, həm də Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətinə heç bir aidiyyəti olmayan və olmamış 7 Azərbaycan rayonu da işğal altındadır – münaqişənin mərhələli tənzimlənməsində birinci addım olmalıdır və münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında həll edilməlidir.

**S u a l: Siz Azərbaycanın beynəlxalq fəaliyyəti, beynəlxalq fəallığı, iri forumlar, tədbirlər keçirilən məkana çevrilməsi barədə danışdınız. Belə hallarda Azərbaycan bu tədbirlərin təşəbbüsçüsü kimi çıxış edib, iştirakçıları dəvət edibdir. Yəni beynəlxalq təşkilatlar, beynəlxalq təsisatlar öz görüşləri üçün Azərbaycanı özləri seçirlər, belə nümunələr çoxdur. Məsələn, hazırda Rusiya–Amerika**

**münasibətlərində hamı fikir verib ki, Rusiyanın və Birləşmiş Ştatların Baş Qərargah rəisləri – ABŞ Birləşmiş Qərargahlarının rəisi general Danford və Rusiya Baş Qərargahının rəisi, ordu generalı Gerasimov 2 dəfə Bakıda görüşüblər. Bu Sizin razılığınızla onların seçimi idi. Mənə belə gəlir ki, bu da Azərbaycanın dünya arenasında nüfuzunun möhkəmlənməsinin çox mühüm göstəricisidir. Sizin fikrinizcə, Azərbaycanın, onun paytaxtı Bakının bundan sonra da ən aktual problemlər üzrə çoxtərəfli və ya ikitərəfli görüşlər üçün bir məkan olması nə dərəcədə vacibdir?**

**C a v a b:** Bəli, siz haqlısınız, Azərbaycan həm regional, həm də qlobal əməkdaşlıq məkanına çevrilir. Biz də Rusiya və ABŞ ordularının Baş Qərargah rəislərinin görüşlərinin Bakıda keçirilməsi təklifini həm bizə hörmət və etimad əlaməti kimi, həm də Azərbaycanın düzgün qurulmuş xarici siyasətinin daha bir elementi kimi qiymətləndiririk. Azərbaycan dünya birliyi tərəfindən çox etibarlı tərəfdaş, dost ölkə kimi qəbul edilir. Ölkəmiz beynəlxalq, regional və qlobal əməkdaşlığı təkcə bəyan etmir, həm də bu işdə konkret mühüm addımlar atır. Biz artıq çoxlu sayda iri beynəlxalq tədbirlər, beynəlxalq forumlar, idman tədbirləri – birinci Avropa oyunları, IV İslam Həmrəyliyi oyunlarını təşkil edən ölkəyik. Bu oyunlar arasında cəmi 2 il vaxt keçdi. Bu da bizim imkanlarımızı, habelə dünyanın bizə münasibətini nümayiş etdirir. Ona görə ki, İslam Əməkdaşlıq Təşkilatı və Avropa Şurası 100-dən çox ölkəni birləşdirir. Bu, dünya birliyinin yarıdan çoxu deməkdir. Bunlar əslində dünyanın aparıcı ölkələridir. Əlbəttə, biz buna öz əməyimiz, öz siyasətimiz sayəsində və Bakının dünya xəritəsində çox məşhur şəhərə çevrilməsi nəticəsində nail olmuşuq.

Onu da deməliyəm ki, son vaxtlar bizə çoxlu turistlər gəlir. Son 3 ildə turizm çox inkişaf edib. Bütün bunlar bizim həyata keçirdiyimiz fəaliyyətin nəticəsidir. Azərbaycan sabit ölkədir, Azərbaycan xalqı öz qonaqpərvərliyi ilə məşhurdur, ölkəmizdə

işləmək, istirahət etmək üçün hər cür şərait yaradılıb. Düşünürəm ki, əlbəttə, gələcəkdə belə tədbirlər daha çox olacaqdır. Biz öz tərəfimizdən həmişə çalışırıq ki, sıx əməkdaşlıq etdiyimiz ölkələrin də arasında yaxşı işgüzar münasibətlər olsun. Biz bu regionda yaşayırıq. Bu regionda baş verən bütün hadisələr istər-istəməz bizə də müəyyən dərəcədə təsir edir. Ona görə də çalışmalıyıq ki, özümüz üçün riskləri beynəlxalq əməkdaşlıq vasitəsilə minimuma endirək. Əgər biz dünyanın aparıcı ölkələri arasında gərginliyin azaldılması işinə hər hansı bir kiçik töhfə verə biliriksə, əlbəttə, gələcəkdə də bunu edəcəyik.

**S u a l: İlham Heydər oğlu, bilirsinizmi, Azərbaycanı sevən insanlar, onun uğurlarını izləyənlər Azərbaycanın sosial-iqtisadi sahədə, siyasi inkişafda qazandığı nailiyyətlərə görə sevinməyə bilməzlər. İndi seçkilər ərəfəsində Siz ötən beşilliyə nəzər salaraq, deyə bilərsinizmi bu illər ərzində ən çətin iş nə olub? Elə hallar olubmu ki, gecələr yuxunuz ərşə çəkilib, Sizə elə gəlib ki, nə isə alınmır və daha nə etmək lazımdır? Axı hər halda, seçkilər ərəfəsində Siz bundan sonrası barədə də düşünürsünüz.**

**C a v a b:** Səmimi deyim ki, yuxusuz gecələr tələb edəcək dərəcədə narahatlıq doğuran bir məsələni xatırlamaqda çətinlik çəkirəm, elə ciddi çətinlikləri yada sala bilmirəm. Əlbəttə, işdə elə məqamlar olur ki, müəyyən məyusluq keçirirsən, çünki təlimatlar və tapşırıqlar lazımınca yerinə yetirilmir. Lakin bütövlükdə bu illər ərzində bizim bütün işlərimiz plan üzrə gedib. Ona görə mən lap əvvəldən bunu əsas götürmüşəm ki, dövlətin davamlı inkişafı yalnız atılmalı addımların ardıcıllığı, onların prioritetləri düzgün planlaşdırılmış olduqda mümkündür və onlar nəticəyə yönəldilməlidir. Biz həmişə populizmdən, populist ritorikadan uzaq olmuşuq. Bəzən hətta çalışmışıq ki, özümüzü o qədər də nümayiş etdirmədən, sadəcə, ölkənin uğurla inkişaf etməsi üçün lazım olan işi görək. Bir daha deməliyəm ki, bizim daxili inkişafla bağlı məsələlər sarıdan heç

bir çətinliyimiz olmayıb və düşünürəm ki, olmayacaqdır. Vaxtaşırı olaraq, narahatlıq doğuran məsələlər yalnız regional vəziyyətlə bağlı olub: regionda vəziyyətin kəskinləşməsi bizim vətəndaşlara, ölkəmizə necə mənfi təsir göstərə bilər və bizim vətəndaşları və ölkəni risk təhlükəsindən qorumaq üçün nə etmək lazımdır. Zənnimcə, hər hansı çətinliklər barədə danışmalı olsaq, bu nümunəni göstərə bilərdim, o da yalnız o mənada ki, bu amillər bizdən asılı deyil. Bizim qərarlarımızdan və hərəkətlərimizdən asılı məsələlərlə əlaqədar heç bir çətin məqam yadıma gəlmir. Bir daha deməliyəm ki, hər işimiz plan üzrə gedib və yolun əvvəlində verdiyimiz bütün vədlər artıqlaması ilə yerinə yetirilibdir.

**S u a l: Onda icazənizlə, bu sualı dəqiqləşdirim. Elə həftə olmur ki, Siz respublikanın rayonlarına, müxtəlif regionlara səfər etməyəsiniz. Siz insanlarla fəal görüşlər keçirirsiniz. Özünüzün haqlı olaraq dediyiniz kimi, populizm Sizə xas olan cəhət deyil. Lakin insanlar Sizə müəyyən xahişlərlə, müəyyən suallarla müraciət edirlər. Müxtəlif regionlar üzrə ümumiləşdirmə aparsaq, insanları ən çox narahat edən nədir? Onlar Sizə nə barədə müraciət edirlər?**

**C a v a b:** Bilirsinizmi, burada da həmin müraciətlərin dinamikası vardır. Fikrimcə, bu bizim sosial-iqtisadi inkişafımızın əsas göstəricisidir. Mənim Prezident seçildiyim ilk illərdə infrastrukturla, məktəblərin, xəstəxanaların bərbad vəziyyəti, elektrik, qaz, su təchizatının, yolların olmaması və sair məsələlərlə bağlı müraciətlər çox olurdu. Lakin bu məsələlər həll edildikcə, əlbəttə, təkliflər tamam başqa xarakter aldı. Bu gün keçdiyimiz yola nəzər salanda görürük ki, Azərbaycanda infrastrukturla bağlı praktiki olaraq, bütün məsələlər həll edilib. Son 15 ildə biz 30-dan çox elektrik stansiyası istifadəyə vermişik və elektrik enerjisi ixrac edən ölkəyə çevrilmişik. Bu ilin sonuna qədər Azərbaycanda qazlaşdırılmanın səviyyəsi 95 faizə çatacaq. Son illərdə biz hər il 100 min hektardan çox suvarılan torpağı istifadəyə veririk. Bu, kənd təsərrüfatının

inkişafına güclü təkan verir. Bu il də daxil olmaqla, son 15 ildə Azərbaycanda 15 min kilometr yol çəkilib. Bunlar əhalini narahat edən əsas amillər idi. Bundan əlavə, 1 milyon 400 min iş yeri açılıb. Mahiyyət etibarilə işsizlik göstəricisi azalaraq, 5 faizə endirilib. Buna görə də müraciətlərin dinamikası və mövzuları dəyişir.

Mən regionlarda çox tez-tez oluram. İlk vaxtlar yerli rəhbərlər fikirləşirdilər ki, Prezident gəldi, tapşırıqlar verdi, bir də haçan buraya gələcək. Mən isə yarım ildən sonra bir də, daha yarım ildən sonra bir də gedirdim. Yerlərdəki rəhbərlər başa düşdülər ki, qərarları yerinə yetirmək və öz işini Prezident oraya səfər edəndən-edənə deyil, hər gün görmək lazımdır. Ona görə belə canlı ünsiyyət mənə əlimi xalqın nəbzində saxlamaq, nəyin insanları narahat etdiyini bilmək və əlbəttə, qərarların yerinə yetirilməsinə nəzarət etmək imkanı verir. Düşünürəm ki, qarşıdakı illərdə bizim fəaliyyətimizin əsas istiqaməti idarəetmə sisteminin təkmilləşdirilməsi olacaqdır. Çünki artıq dediyim kimi, Azərbaycanın regionlarında infrastruktur məsələləri, sosial infrastrukturla bağlı məsələlər praktiki olaraq, tamamilə həll edilib. Ötən 15 il ərzində 3100-dən çox məktəb tikilib. Qeyd edim ki, bu, bütün məktəb fondunun 80 faizi deməkdir. 600-dən çox tibb müəssisəsi yenidən tikilib və ya təmir edilibdir. Yəni sosial infrastruktura çox diqqət yetiririk. Qarşıdakı dövrdə əsas məsələlər idarəetmə ilə, sosial ədalətlə, pozuntularla, bəzən rast gəlinən məmur özbaşınalığı ilə bağlı olacaqdır. Bax, söhbətimizin əvvəlində dediyim ictimai nəzarət məhz buna görə lazımdır. Mən əsasən bundan ötrü səfərlər edirəm. Yeri gəlmişkən deməliyəm ki, bu il Azərbaycan regionlarının sosial-iqtisadi inkişafının üçüncü Dövlət Proqramını başa çatdıracağıq. Birinci proqram 2004-cü ildə qəbul edilib. Bütün bu proqramlar, onların çox hissəsi yerlərdən verilən təkliflərə əsaslanır. Yəni bu proqramlar ümumi xarakter daşımır, bunlar şüarlar deyil. Orada hansı şəhərdə, hansı kənddə, nə vaxt hansı işlər görüləcəyi konkret əksini tapıb. Bu bizim beşillik

fəaliyyətimiz üçün əyani sənəddir. Biz üçüncü Dövlət Proqramını tamamlayırıq. İndidən görünür ki, biz onu artıqlaması ilə yerinə yetirmişik. Buna görə də düşünürəm ki, gələcəkdə əsas məsələ yenə də idarəetmənin təkmilləşdirilməsi, fəaliyyətimizin səmərəsinin artırılması və sahibkarlar, iqtisadiyyatın şaxələndirilməsi üçün daha yaxşı şəraitin yaradılması olacaqdır.

**S u a l: Biz müasir Azərbaycan barədə demokratik, inkişaf etməkdə olan bir ölkə kimi danışırıq. Lakin hələ 100 il bundan əvvəl müasir demokratik respublika qurulması sahəsində təəssüf ki, qısamüddətli bir təcrübə olub. Siz bu hadisələrin təntənəli şəkildə qeyd edilməsi barədə müvafiq sərəncam imzalamısınız. Sizin fikrinizcə, həmin təcrübənin hansı elementləri, 100 il bundan əvvəl demokratik respublika yaratmağın hansı mexanizmləri bu gün onlardan hansı şəkildəsə istifadə etmək üçün vacib və gərəklidir? Bu təcrübə nə dərəcədə faydalıdır?**

**C a v a b:** Bu il Azərbaycanda «Azərbaycan Xalq Cümhuriyyəti ili» elan edilibdir. Biz demokratik respublikanın 100 illik yubileyini il ərzində qeyd edirik və bu, cari ilin əsas hadisəsidir. Bilirsinizmi, tarixə nəzər salanda düşünürsən, təsadüfi deyil ki, müsəlman aləmində ilk demokratik respublika məhz azərbaycanlılar tərəfindən yaradılıbdır. Yəni bu hadisə xalqımızın keçmişindən, onun azadlıqsevər, məğrur və mütərəqqi xarakterindən qaynaqlanır. Azərbaycan ədəbiyyatının klassiklərini oxuyanda görürsən ki, onların əsərlərində məhz bu gün aktual olan məsələlərlə bağlı fəlsəfi mövzular kifayət qədərdir. Buna görə də 100 il bundan əvvəl Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması bizim üçün tarixi hadisədir. Biz qanuni qürur hissi keçiririk ki, Şərqdə demokratiyanın əsasını qoyan məhz Azərbaycan xalqı olubdur. Demokratik respublikanın ənənələri bu gün də yaşayır və müasir Azərbaycan onun hüquqi varisidir. Siyasi islahatlar üçün qısa müddətdə çox böyük işlər görülüb. Təkcə bunu qeyd etmək kifayətdir ki, qadınlara səsvermə hüququ Avropa ölkələrinin çoxundan xeyli əvvəl verilib, bir sıra

başqa mühüm qərarlar qəbul edilibdir. Əlbəttə, bu gün geriyə nəzər salanda birinci cümhuriyyətin banilərini minnətdarlıq hissi ilə xatırlayırıq, lakin onun aqibətindən daim ibrət dərsi almalıyıq. Bu cümhuriyyət 2 ildən bir qədər az mövcud olub və biz, əlbəttə ki, bu dərsləri unutmamalıyıq. Buna görə biz bu gün Azərbaycanın müstəqilliyini, suverenliyini, iqtisadi potensialını, beynəlxalq nüfuzunu möhkəmlətmək üçün, Azərbaycanın həmişə təkcə forma etibarilə deyil, həm də mahiyyət etibarilə müstəqil olması üçün nə mümkündürsə edirik. Düşünürəm ki, əgər birinci demokratik respublikanın əsasını qoyanlar bugünkü Azərbaycanı görə bilsəydilər, onlar bizim ölkəmizlə fəxr edərdilər.

**S u a l: Azərbaycan tarixən həmişə təkcə Şərqin deyil, bütün dünyanın mədəni mərkəzi olub. Son onilliklərdə Qara Qarayevin, Fikrət Əmirovun musiqisini, Səttar Bəhlulzadənin, yaxud, Allaha şükür, indi sağ-salamat olan Tahir Salahovun rəsm əsərlərini, Anarın və ya yaxın vaxtlarda dünyasını dəyişmiş, mənim fikrimcə, böyük yazıçı olan Maqsud İbrahimbəyovun ədəbi əsərlərini götürsək, bunlar hamısı dünya mədəniyyəti xəzinəsinin tərkib hissələridir və hər bir mədəni insan onları tanıyır. Sizin fikrinizcə, Azərbaycanın mədəni xəzinəsi nə dərəcədə onun məxsusi sərvətidir? Azərbaycanı bir sıra ölkələr arasında bu qədər fərqləndirən bu mədəni tərkib hissənin prioritet kimi qalması üçün nə etmək lazımdır?**

**C a v a b:** Şübhəsiz, mədəni irsimiz bizim böyük sərvətimizdir və biz görkəmli nümayəndələrimizlə fəxr edirik. Azərbaycan əsrlərboyu dünyaya görkəmli mütəfəkkirlər, şairlər, alimlər, ictimai xadimlər bəxş edib. Bu gün də bu ənənələr davam etdirilir. Əlbəttə, Azərbaycan mədəniyyətinin korifeyləri Azərbaycanı məşhurlaşdıran insanlardır, onlar xalqımızın mədəni irsidir və biz öz mədəni irsimizə çox qayğı ilə yanaşırıq, onu qoruyuruq. Bu gün əsas vəzifə ondan ibarətdir ki, azərbaycanlıların gənc nəsli də bizim görkəmli xadimlərimizin nümunəsində, vətənpərvərlik ruhunda, öz mədəniyyətinə

bağlılıq ruhunda tərbiyə olunsun. Fikrimcə, bu, gənc nəslin tərbiyəsi baxımından əsas istiqamətlərdən biridir. Gənclər, əlbəttə ki, dünya üçün açıq olmalıdırlar. Lakin onlar həm də öz tarixi, mədəni köklərinə çox bağlı olmalıdırlar. Bu, Azərbaycanın və cəmiyyətimizin fasiləsiz inkişafının rəhni olacaqdır. Ona görə ki, güclü iqtisadiyyatı, güclü ordusu, güclü xarici siyasi mövqeləri olan, lakin əsasları, kökləri olmayan xalq uğurlu ola bilməz. Buna görə müasir Azərbaycan dövləti çox dərin mədəni, milli, əxlaqi köklərə, bizim əziz tutduğumuz dəyərlərə əsaslanır. Əlbəttə, biz fəxr edirik ki, dünyaya bu qədər çoxsaylı görkəmli mədəniyyət xadimlərini bəxş etmişik.

**S u a l: Siz Azərbaycanda birinci Avropa oyunlarının, İslam oyunlarının keçirilməsindən danışdınız. Lakin düşünürəm ki, Azərbaycanın belə iri beynəlxalq yarışların keçirilməsi məkanı kimi seçilməsi təkcə Azərbaycanda yaxşı idman qurğularının olması ilə bağlı deyil. Bu ilk növbədə, onun etiraf edilməsidir ki, Azərbaycan get-gedə daha yüksək dərəcədə ciddi idman ölkəsinə çevrilir. Mən fikir vermişəm, bu gün Azərbaycan idmançıları, məsələn, Yay olimpiadalarından qayıdarkən özləri ilə təkcə güləş kimi Azərbaycan üçün ənənəvi idman növlərində deyil, həm də, ümumiyyətlə, ölkəniz üçün ən gözlənilməz idman növlərində də medallar gətirirlər. Bununla əlaqədar, Siz Azərbaycanın həyatının bu tərkib hissəsinin inkişafını nə dərəcədə vacib hesab edirsiniz? Millətin həqiqətən, sağlam böyüməsi, idmanın inkişaf etməsi üçün nə edirsiniz?**

**C a v a b:** Azərbaycan Milli Olimpiya Komitəsinə 20 ildən artıq rəhbərlik edən bir şəxs kimi deməliyəm ki, biz bu istiqamətdə çox iş görmüşük və idmanın, bizim nailiyyətlərimizin ardıcıl inkişafı əsas göstəricidir. Yəni biz bir neçə istiqamət üzrə irəliləmişik. Bu istiqamətlərdən birincisi və ən başlıcası kütləvi idmandır. Bu, cəmiyyətin həm fiziki, həm də mənəvi sağlamlığının əsasıdır. Ona görə ki, idmançılarımız bizi təkcə qələbələrlə sevindirmir, onlar cəmiyyətdə davranış üçün də çox

yaxşı nümunədirlər, özlərini ləyaqətlə aparır və uşaqlara nümunə olurlar. Biz bütün ölkədə olimpiya idman mərkəzlərinin tikintisi ilə məşğul olmağı qərara aldıq. Artıq bu gün ölkədə 43 belə mərkəz vardır və daha 4 mərkəz inşa edilməkdədir. Bakının idman infrastrukturu istənilən yarışları qəbul edə bilər, biz bunu Avropa oyunlarında nümayiş etdirdik. Təbii ki, peşəkar idmana da böyük diqqət yetirilib və idmançılarımız bizi çox sevindirirlər və sevindirəcəklər. Bunu demək kifayətdir ki, Rio de Janeyroda keçirilmiş son Olimpiya oyunlarında medalların sayına görə Azərbaycan 14-cü yerdə idi. Təsəvvür edin, dünyanın 200-dən bir qədər az ölkəsi arasında medalların sayına görə 14-cü yerdə olmaq tarixi nailiyyətdir. 20 il bundan əvvəl bunu heç xəyalımıza belə, gətirə bilməzdik. Biz bir, iki, üç medal arzu edirdik. Bu gün onlarca medalımız vardır. Bu, idmanın inkişaf göstəricisidir. Axı idmançı əbədi yaşamır. Bu o demək deyil ki, hansısa görkəmli idmançı filan qədər medal qazanıb. Bizdə hər il idmanın, demək olar ki, bütün növləri üzrə yeni idmançılar yetişir.

Məqsədli proqramlarımız, çox güclü dövlət dəstəyi var və bizdə idmanın inkişafı ilə məşğul olan bütün strukturlar əlaqəli şəkildə fəaliyyət göstərir. Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, federasiyalar, klublar, idman cəmiyyətləri – bunlar hamısı bir komanda kimi, idman nailiyyətlərinin çox olması üçün çalışırlar. Ona görə ki, bu, təkcə milli qürur mövzusu deyil, ictimai həyatın çox mühüm amilidir. Ona görə ki, bu, əhvalı yüksəldir, vətənpərvərlik hissini, öz ölkəsinə görə qürur hissini artırır. Ən başlıcası bizim çempionlar gənc nəsil üçün yaxşı nümunədir ki, gənclər siqaret çəkməsinlər, içki içməsinlər, vaxtlarını boş keçirməsinlər, idman seksiyalarına getsinlər, yüksək nəticələr qazansınlar, onda ölkə də buna görə onları layiqincə qiymətləndirəcəkdir.

**S u a l: İlham Heydər oğlu, əlbəttə, Azərbaycan iqtisadiyyatda kəskin rəqabət dövrü yaşayır. İdmançılar rəqabətdədirlər. Lakin mənə belə gəlir ki, Azərbaycan bir məsələdə –**

**mətbəx sahəsində uzun illər boyu mütləq dünya çempionudur. Özü də mən bunu ekspert kimi deyirəm. Bəlkə də kimsə mənimlə razılaşmaya bilər. Lakin mən buna əmin olduğuma görə hesab edirəm ki, Azərbaycan mətbəxinin real rəqibləri yoxdur. Bununla əlaqədar bilirəm ki, Siz, ümumiyyətlə, yemək məsələsində vasvası deyilsiniz, lakin buna baxmayaraq, belə deyək, Azərbaycan Prezidentinin menyusu nədən ibarətdir? Bu gün Azərbaycan mətbəxinin pərəstişkarları həddən çoxdur, elə adam yoxdur ki, burada olsun və buradan gedərkən Azərbaycan mətbəxinə heyran olduğunu bildirməsin. Üstəlik, Sizin burada olmuş həmkarlarınızın çoxu ilə öz proqramım çərçivəsində ünsiyyətdə olmaq şərəfinə nail olmuş bir insan kimi, deyə bilərəm ki, Azərbaycandan söhbət düşəndə, sözün düzü, onlar Sizin çox müzakirə etdiyiniz məsələlərdən əvvəl ilk növbədə, mətbəxdən başlayırlar. Lakin bu da bir göstəricidir.**

**C a v a b:** Əlbəttə, hər bir xalqın mətbəxi onun mədəniyyətinin, ənənələrinin və imkanlarının göstəricisidir. Azərbaycan mətbəxi çox rəngarəngdir, çox dadlıdır, lakin çox təhlükəlidir.

**S u a l: Bəs təhlükə nədən ibarətdir?**

**C a v a b:** Təhlükə məhz nəzarətsiz çəki artımındadır.

**S u a l: Bilirsinizmi, üzr istəyirəm, mən hətta turizm sahəsinə rəhbərlik edən dostlarıma və həmkarlarıma da demişəm ki, belə bir gözəl ifadə var – Azərbaycan arıqlamaq istəməyənlər üçün cənnətdir. Bax, belə bir deyim yaranıb.**

**C a v a b:** Zənnimcə, siz haqlısınız. Buna görə mən gündəlik həyatımda sui-istifadə etməməyə çalışıram, hərçənd əlbəttə, hesab edirəm ki, Azərbaycan mətbəxindən dadlı heç nə yoxdur. Düşünürəm ki, hər bir xalqın nümayəndəsi öz mətbəxini xoşlayır. Mən də istisna deyiləm. Lakin gündəlik həyatımda hər halda, bir qədər uzaq durmağa çalışıram. Azərbaycan mətbəxində xoşladığım yeməklərə gəldikdə isə deməliyəm ki, mən bu yeməklərin praktiki olaraq, hamısını xoşlayıram. Lakin

ən çox xanımım Mehribanın hazırladığı yeməkləri xoşlayıram. Bu məsələdə o, yaxşı mütəxəssisdir, əlbəttə, mənə və ailəmizin bütün üzvlərinə çox sevinc bəxş edir, özünün kulinar əsərləri ilə bizi sevindirir.

**S u a l: İndiki vaxtda bu, xüsusilə qiymətlidir, çünki Mehriban xanım həm də Birinci vitse-prezident funksiyalarını yerinə yetirir və onun başqa vəzifələri, məsuliyyəti çoxdur. Onun bu işə də vaxt tapması, mənim fikrimcə, xüsusilə dəyərlidir.**

**C a v a b:** Bəli. Biz bunu qiymətləndiririk və ailə üzvlərinə belə qayğısına görə ona çox təşəkkür edirik.

**S u a l: İlham Heydər oğlu, artıq uzun illərdir ki, Sizi tanımaq şərəfinə nail olmuşam. Mən mətbuatda da maraqlanmışam, lakin bir məsələ ilə heç vaxt üzləşməmişəm. Başa düşmüşəm ki, Sizin heç bir hobbiniz yoxdur? Sizin elə həmkarlarınız var ki, məsələn, marka toplayır. Lakin mən Sizi, misal üçün, əlinizdə qarmaq tutmuş vəziyyətdə və ya başqa bir görkəmdə təsəvvür edə bilmirəm. Düşünürəm ki, ümumiyyətlə, Sizin hobbiniz yoxdur. Halbuki hobbi stresi bir qədər götürmək, rahatlaşmaq üçündür. Siz nəyin hesabına əlavə enerji alırsınız, Prezident stresini aradan götürə bilirsiniz? Axı bu stresin əlindən yaxa qurtarmaq mümkün deyil.**

**C a v a b:** Bəli, mənim məxsusi hobbim yoxdur. Hesab edirəm ki, sənə sevinc, məmnunluq gətirən işlə məşğul olmaq elə hobbidir. Mənə gəldikdə, əməyimin nəticələrini görmək ən böyük sevincdir. İnanın, bu sözləri elə-belə, kamera üçün demirəm, bu, həqiqətən, belədir. Əlbəttə, görəndə ki, nəzərdə tutulan işlər yerinə yetirilib, görəndə ki, Azərbaycanın inkişafının bu və ya digər sahəsində irəliləyiş var, bu mənə böyük mənəvi zövq verir. Bu hər bir hobbidən yaxşıdır. Buna görə düşünürəm ki, mən hansısa məxsusi hobbinin olmamasını bu yolla kompensasiya edirəm. Bundan əlavə, əlbəttə, asudə vaxtımı ailəmlə keçirirəm və yəqin ki, orada həm də həyat üçün

enerji alıram. Mən o insanlardanam ki, işə sevinə-sevinə gedir və işdən evə sevinə-sevinə qayıdırlar.

**S u a l: İlham Heydər oğlu, sonuncu sual. Bu sual onunla bağlıdır ki, fikir vermişəm, son vaxtlar Siz gənclərlə çox tez-tez ünsiyyətdə olursunuz, gənclərin tədbirlərinə gedirsiniz, gəncləri qəbul edirsiniz. İndi mən belə deyərdim, XXI əsrin ilk siyasi nəsli həyata qədəm qoyur və qüvvə toplayır. Bu siyasi nəsil indiki siyasi nəsli əvəz edəcək. Siz indiki siyasi nəsli istər-istəməz əvəz edəcək müasir Azərbaycan gəncliyini necə təsəvvür edirsiniz və onu necə görmək istərdiniz – bu gənclik çox maraqlı, çox fərqlidir.**

**C a v a b:** Bəli, siz tamamilə haqlısınız. Mənim fikrimcə, bu, istənilən ölkə rəhbəri üçün ən vacib fəaliyyət istiqamətidir. Çünki gənclər gələcək rəhbərlərdir, bu insanlar ölkənin gələcəyini müəyyən edəcəklər, ona görə bu gələcək etibarlı əllərdə olmalıdır. Mən şadam ki, bu gün Azərbaycan gəncliyi ən yüksək tələblərə cavab verir. Düşünürəm ki, gələcəkdə bu istiqamətdə daha fəal siyasət yürüdəcəyik. Əlbəttə, mən istərdim ki, bütün Azərbaycan gəncləri öz Vətəninə sadiq olsunlar. Çünki öz Vətənini sevmək və ona namusla xidmət etmək müstəqilliyin, müvəffəqiyyətin əsas rəhnidir. Əlbəttə, gənclərin Azərbaycan xalqı üçün səciyyəvi olan ənənəvi dəyərlər ruhunda tərbiyə edilməsi vacibdir və biz bunun üçün nə lazımdırsa edirik.

Bizim milli mədəniyyətimiz, incəsənətimiz, musiqimiz, milli ideologiyamız – bütün bunlar bizim dəyərləri təbliğ edir və biz həmişə öz mənəvi köklərimizə bağlı olmalıyıq. Gənclik müdafiə olunmalıdır, kənar təsirlərdən də müdafiə olunmalıdır. Müstəqilliyin ilk illərində çoxları düşünürdü ki, kimsə gələcək, necə yaşamaq lazım olduğunu bizə göstərəcək, bizə kömək edəcəkdir. O vaxt belə ələbaxımlıq hissi yaranmışdı. Lakin sonra anladıq ki, taleyimiz öz əlimizdədir. Bu gün bizə kimsə təkidlə müəyyən kömək göstərmək istəyəndə, biz buna həmişə kifayət qədər şübhə ilə yanaşırıq. Gənclər anlamalıdırlar ki, Azərbaycanın gələcəyi

azərbaycanlıların özlərinin, Azərbaycan vətəndaşlarının əlindədir. Gənclər müəyyən ideoloji təsirləri qiymətləndirərkən çox diqqətli olmalıdırlar. Başqa sözlə desək, gəncliyi kənar mənfi təsirdən qorumaq, mənim fikrimcə, bizim ideoloji işimizin başlıca istiqamətlərindən biridir. Bizim gənclik dünyaya, ən müasir, ən mütərəqqi dəyərlərin hamısına açıq olmalıdır. Ümumiyyətlə, qısaca desək, bizim idarəçilik formulumuz ondan ibarətdir ki, dövlət çox möhkəm ənənəvi köklərə əsaslanır. Azərbaycan xalqı bu ənənəvi dəyərlərlə yaşayıb, yaşayır və yaşayacaqdır. Biz ənənələrimizə, mədəniyyətimizə, dilimizə, dünyabaxışımıza sadiq olmalıyıq. Biz ölkəmizi modernləşdirmək, onun potensialını artırmaq, cəmiyyətimizin dünyəvi xarakterini möhkəmlətmək və bununla da fasiləsiz inkişafı təmin etmək üçün bütün ən yaxşı, mütərəqqi dəyərləri qəbul etməliyik. Biz ideal halda bu mənzərəni görmək istərdik. Biz buna çox cəhətdən nail olmuşuq, gələcəyin gəncləri isə öz fəaliyyətlərini məhz bu istiqamətdə qurmalıdırlar.

**M i x a i l  Q u s m a n:** Çox sağ olun, İlham Heydər oğlu. Söhbətə görə sağ olun.

**İ l h a m  Ə l i y e v:** Sağ olun.

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

Müqəddəs Pasxa bayramı münasibətilə sizi və Azərbaycanın bütün xristian icmasını ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Azərbaycanda tarixən mövcud olmuş etnik-dini tolerantlıq mühiti burada yüz illər boyu fəaliyyət göstərən səmavi dinlərin qarşılıqlı hörmət və etimada əsaslanan dinc yanaşı fəaliyyətini təmin etmiş, ayrı-ayrı etiqad və inanclara mənsub insanlar arasında humanizm, həmrəylik və dözümlülük kimi bəşəri dəyərlərin bərqərar olmasında müstəsna rol oynamışdır.

Bu gün dinlərarası və mədəniyyətlərarası dialoq məkanı kimi tanınan Azərbaycan Respublikasında tarixi-mədəni irsin qorunub saxlanılması və təşviq edilməsi həyata keçirdiyimiz dövlət siyasətinin başlıca istiqamətlərindən biridir.

Zəngin multikultural dəyərlərə və tolerantlıq ənənələrinə malik müasir Azərbaycan cəmiyyətində xristian icmasının özünəməxsus yeri vardır. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, Azərbaycandakı mövcud demokratik hüquqi şəraitdən və mütərəqqi dövlət–din münasibətlərindən yararlanan xristian həmvətənlərimiz öz etnik dini xüsusiyyətlərini və adət-ənənələrini qoruyub yaşatmaqla ictimai-siyasi həyatın bütün sahələrində fəal iştirak edir, ölkəmizdə gedən böyük tərəqqi prosesinə və vətəndaş cəmiyyəti quruculuğuna layiqli töhfələr verirlər.

Əziz dostlar!

Hər il Azərbaycanda təntənə ilə qeyd etdiyiniz Pasxa bayramı əmin-amanlığın, həmrəyliyin, xeyirxahlıq və şəfqət duyğularının rəmzidir. Qoy bu əziz gün ailələrinizə sevinc, süfrələrinizə xeyir-bərəkət gətirsin.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 aprel 2018-ci il*

## «AITF–2018» XVII AZƏRBAYCAN BEYNƏLXALQ TURİZM VƏ SƏYAHƏTLƏR SƏRGİSİ İLƏ TANIŞLIQ

*6 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva aprelin 6-da Bakı Ekspo Mərkəzində «AITF–2018» XVII Azərbaycan Beynəlxalq turizm və səyahətlər və «HOREX Caucasus–2018» XII Qafqaz Beynəlxalq mehmanxana, restoran və supermarketlər üçün avadanlıq və ləvazimatlar sərgiləri ilə tanış olmuşlar.*

*Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev sərgilər barədə dövlətimizin başçısı İlham Əliyevə və xanımı Mehriban Əliyevaya məlumat verdi.*

*Qeyd olundu ki, «Bütün dünya – bir sərgi» şüarı altında keçirilən builki sərgidə 20 ölkəni təmsil edən 277 şirkət iştirak edir. İştirakçılar arasında Azərbaycan, Bolqarıstan, Çexiya, Dominikan, Gürcüstan, İndoneziya, İtaliya, İsveçrə, Mərakeş, Rusiya, Sloveniya, Tailand, Türkiyə və digər ölkələri təmsil edən şirkətlər yer alıb. Ziyarətçilər 90-dan çox xarici turizm istiqaməti, eləcə də ölkə daxilində istirahət imkanları ilə tanış ola bilirlər. Budəfəki sərgidə müxtəlif hava yolları və hotel şəbəkələri, eləcə də turizm sahəsi üzrə digər xidmət növləri təqdim edilir. XII Qafqaz Beynəlxalq mehmanxana, restoran və supermarketlər üçün avadanlıq və ləvazimatlar sərgisi məhsul və xidmətlərin təqdim olunması, aparıcı sənaye şirkətləri, eləcə də alıcı və tərəfdaşlarla səmərəli fikir və təcrübə mübadiləsi aparmaq baxımından mühüm əhəmiyyət daşıyır.*

*Prezident İlham Əliyev əvvəlcə Mədəniyyət və Turizm Nazirliyinin stendi ilə tanış oldu. Nazirlikdən başqa, burada bir neçə milli qurum da təmsil olunur. Bu şirkətlər sərgidə turizmin müxtəlif istiqamətləri üzrə xidmətlər təklif edirlər. Ümumilikdə stenddə Azərbaycanın turizm marşrutları və məkanları, paytaxtla yanaşı, bölgələrin mövcud turizm potensialı və infrastrukturu barədə məlumat verilir. 2017–2018-ci illər qış mövsümündə təkcə «Şahdağ» turizm mərkəzini 140 mindən çox turist ziyarət edib. Turistlərin 50 faizə yaxını xarici vətəndaşlar olub. Burada ziyarətçilərə Azərbaycanın «Ekspo–2025» Ümumdünya sərgisinə ev sahibliyinə namizədliyi ilə bağlı məlumatlar da verilir.*

*Azərbaycan Turizm Assosiasiyasının stendində 15-ə yaxın şirkət təmsil olunur. Şirkətlər hotel və turizm üzrə ixtisaslaşmış qurumlardır. Burada Bakıda və regionlarda mövcud hotel kompleksləri, istirahət məkanları, əyləncə mərkəzləri barədə məlumat almaq mümkündür.*

*Sərgidə Qarabağ stendinə böyük maraq vardır. Azərbaycanın əzəli torpağı Qarabağın təbii gözəllikləri qonaqların xüsusi marağına səbəb olur. Bundan əlavə, digər bölgələrimizin təbii imkanları da sərgidə nümayiş etdirilir. Buradan da aydın olur ki, ölkəmizdə turizmin inkişafının vacib istiqamətlərdən biri kimi müəyyənləşməsi heç də təsadüfi deyil. Bunun nəticəsidir ki, indi paytaxtla yanaşı, bölgələrimizdə də müasir turizm infrastrukturu yaradılıb. Azərbaycanın qədim və zəngin mədəniyyəti, milli mətbəximizin müxtəlifliyi, xalqımızın qonaqpərvərliyi turistləri ölkəmizə cəlb edir. Digər tərəfdən də Azərbaycanda turizmin kənd, müalicə-sağlamlıq, ekoloji, mədəni, sosial, idman və digər növləri inkişaf edir və ölkəmizin zəngin flora və faunası, gölləri, çayları, dağları respublikamıza bir dəfə səfər edən turistləri yenidən Azərbaycana gəlməyə sövq edir.*

*Sərgidə təmsil olunan Azərbaycan Konqreslər Bürosu ölkəmizi dünya səviyyəli biznes, alış-veriş və istirahət məkanı kimi təbliğ edir. Bu qurum hər il keçirilən «Baku Shopping Festivalı»nın rəsmi təşkilatçısıdır. Bu festivalın keçirilməsində məq-*

*səd turizm baxımından ölkəmizin cəlbediciliyinin yüksəldilməsi, sahibkarlıq fəaliyyətinin təşviq edilməsi ilə ticarət dövriyyəsinin artırılmasını stimullaşdırmaqdır.*

*Rusiyanın Stavropol vilayəti də sərgidə geniş təmsil olunur. Onun stendində 50-yə yaxın şirkət, 25-dək sanatoriya öz xidmətlərini təklif edir. Şirkətlər turizm, idman turizmi, sağlamlıq, müalicə istiqamətləri üzrə ixtisaslaşıbdır.*

*İtaliyanı isə sərgidə bu ölkənin Milli Turizm Şurası təmsil edir. Qurum İtaliyanın turizm, hotel və yeməkxana komplekslərinin xidmətlərini nümayiş etdirir. İtaliya növbəti illərdə də sərgiyə qatılmaq niyyətindədir.*

*Sərgidə iştirak edən yerli şirkətlərdən biri də «PASHA Travel»dir. Dövlət başçısına məlumat verildi ki, «PASHA Travel» 3 dinamik turizm sahəsi təklif edir. «Baku Sightseeing» Azərbaycana gələn ziyarətçilərə zəngin proqrama malik gəzinti turları, «BakuCard» ümumi nəqliyyat vasitələrindən pulsuz istifadə, şəhərin müxtəlif görməli yerlərinə giriş, müəyyən kafe, restoran və mağazalarda xüsusi endirim, «PASHA Holidays» isə xarici ölkələrə səyahəti həyata keçirən etibarlı səyahət agentliyi olmaqla yanaşı, davamlı uçuşlar, Monteneqro və Birləşmiş Ərəb Əmirlikləri istiqamətinə çarter reysləri təklif edir.*

*Rusiya Federasiyasının Dağıstan Respublikası da sərginin daimi iştirakçıları arasındadır. Sərgiyə 4 şirkətlə qatılan Dağıstanın turizm marşrutları ziyarətçilər tərəfindən maraqla qarşılanır.*

*Gürcüstan da bu sərginin daimi iştirakçılarındandır. Budəfəki sərgidə ölkəni Gürcüstan Milli Turizm Administrasiyası təmsil edir. Gürcüstanın nadir turizm imkanlarının inkişafı, təşviqi və qorunub saxlanılmasına cavabdeh olan bu qurumun stendində 10 şirkət xidmətlərini nümayiş etdirir. Onlar əsasən bölgələrdə yaradılmış turizm potensialı və istiqamətlər üzrə xidmət göstərirlər.*

*Bakıya gələn turistlərin daha çox diqqət göstərdiyi İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğunun stendində bildirilir ki,*

*artıq yeni Turistik Məlumat Mərkəzi fəaliyyətə başlayıb. İçərişəhərin müxtəlif nöqtələrində yerləşən mərkəz turistlərin qədim şəhərlə daha rahat tanış olmaları üçün nəzərdə tutulub. Müasir informasiya metodlarının tətbiq olunduğu mərkəzdə vahid və mərkəzləşdirilmiş turizm idarəetmə sistemi, yeni turizm internet-portalı yaradılıb. Bütün məlumatlar xüsusi informasiya monitoruna yüklənilibdir.*

*Qardaş Türkiyə həmişə olduğu kimi, bu il də sərgidə geniş təmsil olunur. Bu ölkənin müxtəlif bölgələrinin turizm marşrutları, turizm xəritələri böyük maraqla qarşılanır. Sərgidə Türkiyəni təmsil edən 15-ə yaxın şirkət turizm, sağlamlıq və müalicəvi xidmətlərini təklif edir.*

*Çex Respublikası sərgidə 7 şirkətlə təmsil olunur. Geniş turizm imkanlarına malik bu ölkənin böyük hotellər şəbəkəsi, kurortlar və turizm şirkətləri ziyarətçilər tərəfindən maraqla qarşılanır.*

*Bolqarıstan Azərbaycan Beynəlxalq turizm və səyahətlər sərgisinin rəsmi tərəfdaşıdır. Ölkələrimiz arasındakı əməkdaşlığın nəticəsidir ki, bu ilin yanvarında Bakı–Sofiya aviaxətti açılıb. Bu da öz növbəsində, ikitərəfli turizm axınına müsbət təsir göstərir. Ötən il Azərbaycandan Bolqarıstana səfər edən turistlərin sayı 3000-dən, oradan ölkəmizə gələnlərin sayı isə 2000-dən çox olubdur.*

*«Zadagan» ev tekstilini təqdim edən nadir Azərbaycan brendidir. Məqsəd ölkəmizin zəngin ənənələrini, tarixini və milli dəyərlərini hər bir evdə canlandırmaqdır. Şirkət mədəniyyət abidələrini, nağılların qəhrəmanlarını, nadir miniatür nümunələri və xalça naxışlarını hazırladığı süfrələrdə əks etdirir.*

*Sərgidə «Tibbi və sağlamlıq turizmi» sektoru da geniş təmsil olunur. Bu sektorun iştirakçıları istirahət məkanlarını seçməklə yanaşı, yüksəkixtisaslı tibbi xidmətlərdən də faydalanmaq üçün müxtəlif imkanlar nümayiş etdirirlər.*

*Sərgidə ilk dəfə iştirak edən İndoneziyanı Şərqi Yava əyaləti təmsil edir. Ölkənin geniş turizm potensialını təqdim edən bu*

*əyalətin şirkətləri növbəti illərdə sərgiyə daha böyük nümayəndə heyəti ilə qatılmaq niyyətlərini bəyan ediblər.*

*Dünyada turizmin mühüm məkanlarından olan Tailand da sərgidə xidmətlərin geniş çeşidini təklif edir. Tailand şirkətləri ölkənin turizm potensialının cəlbediciliyini ziyarətçilərin diqqətinə çatdırır.*

*Qeyd edək ki, aprelin 7-nə qədər davam edəcək sərgi BMT Ümumdünya Turizm Təşkilatı və Asiya–Sakit Okean Turizm Assosiasiyası kimi beynəlxalq qurumlar tərəfindən də dəstəklənir. Sərginin təşkilatçıları qismində «Iteca Caspian» və onun Böyük Britaniyadan olan tərəfdaşı «ITE Group» şirkətləri çıxış edir.*

**GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GİORGİ MARQVELAŞVİLİYƏ**

Hörmətli cənab Prezident!

Tkibuli bölgəsində yerləşən kömür mədənində baş vermiş uçqun nəticəsində insan tələfatı və yaralananlar barədə xəbərdən olduqca kədərləndim.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Gürcüstan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 aprel 2018-ci il*

# NAZİRLƏR KABİNETİNİN İLİN BİRİNCİ RÜBÜNÜN YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA* İŞTİRAK

*9 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə aprelin 9-da Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.*

*Dövlət başçısı iclası giriş nitqi ilə açdı.*

## Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi

Hər il olduğu kimi, bu il də aprel ayının birinci ongünlüyündə biz ilin birinci rübünün sosial-iqtisadi yekunlarını müzakirə edirik, gələcək planlar haqqında danışırıq. Mən ilin əvvəlində demişdim, əminəm ki, 2018-ci il də ölkəmiz üçün uğurlu il olacaq və birinci rübün yekunları bu sözləri təsdiqləyir. Azərbaycan bu müddət ərzində uğurla inkişaf edib, qarşımızda duran bütün vəzifələr artıqlaması ilə yerinə yetirilir,

---

* Nazirlяr Kabinetinin 2018-ci ilin birinci rцbцnцn sosial-iqtisadi inkiшafынын yekunlarына vя qarшыda duran vяzifяlяrя hяsr olunмуш iclasында «Azяriшыq» Ачыq Sяhmdar Cяmiyyяtin sяdri Baba Rzayev, «Azяrsu» Ачыq Sяhmdar Cяmiyyяtin sяdri Qorxmaz Hцseynov vя Azяrbaycan Respublikasынын Mяnzil Иншaaты Dюvlяt Agentliyinin Иdarя Heyяtinin sяdri Samir Nuriyev чыхыш etdilяr.

ölkəmiz güclənir, hərtərəfli inkişaf edir. Əminəm, biz bu müsbət dinamikanı ilin sonuna qədər saxlayacağıq, bunu daha da artıracağıq ki, ölkəmiz 2018-ci ili də uğurla başa vursun.

Bu ilin birinci rübündə ölkəmizdə bir neçə mötəbər beynəlxalq tədbir keçirilibdir. Bu tədbirlər ölkəmizin beynəlxalq nüfuzunu artırır, Azərbaycanı dünyaya müasir, inkişafda olan ölkə kimi təqdim edir. Mən bu tədbirlər sırasında VI Bakı Qlobal Forumunu xüsusilə qeyd etmək istəyirəm. Bu forum qısa müddət ərzində dünya miqyasında böyük hörmət qazanmış bir beynəlxalq platformadır. Dünyada keçirilən aparıcı forumlar arasında Bakı Beynəlxalq Forumu qısa müddət ərzində öz layiqli yerini tuta bilibdir. Bunu təsdiqləyən həm forumda müzakirə olunan məsələlərdir, həm də gələn qonaqların siyahısıdır. Bu dəfə forumda 50-dən çox ölkədən 47 fəaliyyətdə olan və sabiq dövlət və hökumət başçısı iştirak etmişdir. Bu, forumun əhəmiyyətini göstərir. Dünya liderlərinin foruma göndərdikləri məktublar göstərir ki, bu forum doğrudan da böyük beynəlxalq tədbirdir. Birinci rübdə ölkəmizə 7 dövlət və hökumət başçısı səfər edibdir. Bu səfərlər də ölkəmizin dost ölkələrlə ikitərəfli münasibətlərinin inkişafı üçün önəmli rol oynayır.

Bizim təşəbbüsümüzlə bu il ilk dəfə olaraq regional əməkdaşlıq çərçivəsində qonşularımızla dördtərəfli əməkdaşlıq formatına start verildi. Əlbəttə, regionda yaşanan problemlərin həlli, sabitliyin, təhlükəsizliyin, inkişafın təmin edilməsi üçün bu əməkdaşlıq formatı və digər əməkdaşlıq formatları böyük rol oynayır. Bu il ölkəmizdə «Qoşulmama Hərəkatı»nın Xarici İşlər nazirlərinin konfransı keçirilibdir. Bu çox önəmli beynəlxalq tədbirdir. Bildiyiniz kimi, «Qoşulmama Hərəkatı» dünyada BMT-dən sonra ikinci böyük təşkilatdır. Biz bu təşkilata 7 il bundan əvvəl üzv olmuşuq və qısa müddət ərzində təşkilatda böyük rəğbət və hörmət qazana bilmişik. Məhz bunun nəticəsidir ki, belə bir mötəbər beynəlxalq tədbir ölkəmizdə keçirilir. Bir də qeyd etmək istərdim ki, gələn ildən başlayaraq,

Azərbaycan dünyanın ikinci böyük təşkilatına sədrliyi öz üzərinə götürəcəkdir. Bu, 120 ölkənin Azərbaycana olan böyük hörmətinin, inamının təzahürüdür. Bu böyük təşkilat çərçivəsində Azərbaycan çox uğurlu fəaliyyət göstərir.

«Qoşulmama Hərəkatı» bizim təşəbbüsümüzlə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmasına dair önəmli qətnamə qəbul etmişdir. Bu dəfə də Bakıda keçirilmiş konfransda Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bizim mövqemiz, yəni ədalətli mövqe bir daha təsdiqləndi.

Bütün bu beynəlxalq tədbirlər çərçivəsində və Azərbaycana edilən səfərlər, ikitərəfli formatda aparılan danışıqlar nəticəsində bizim beynəlxalq mövqelərimiz daha da möhkəmləndi. Deyə bilərəm ki, mən bütün görüşlərdə həmkarlarıma və görüşdüyüm şəxslərə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın mövqeyini, münaqişə ilə bağlı həqiqətləri çatdırıram. Hər dəfə bildirirəm ki, Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır, işğalçı dövlət tərəfindən işğal edilib. Bu işğal nəticəsində 1 milyondan artıq azərbaycanlı etnik təmizləməyə məruz qalıb, torpaqlarımız işğal altındadır, tarixi abidələrimiz, məscidlərimiz erməni vandalları tərəfindən dağıdılıb. Bildirirəm ki, bütün beynəlxalq təşkilatlar bu münaqişə ilə bağlı ədalətli, beynəlxalq hüquqa söykənən qərar və qətnamələr qəbul etmişlər və bu münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bu görüşlərin və ümumiyyətlə, bu istiqamətdəki fəaliyyətimizin nəticəsi ondan ibarətdir ki, bu gün Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün hüquqi baza tam yaradılıb və heç bir dövlət qondarma Dağlıq Qarabağ respublikasını tanımır və tanımayacaqdır. Kriminal xunta rejimi tərəfindən ötən il keçirilmiş «referendum»u da heç kim tanımayıb. Bu, işğalçılara beynəlxalq aləm tərəfindən vurulan növbəti bir zərbədir. Bizim səylərimiz nəticəsində bu qondarma qurum regionun xəritəsində qara ləkə kimi tanınır və biz bundan

sonra da bu istiqamətdə ardıcıl fəaliyyətimizi göstərməliyik. Beynəlxalq təşkilatlardakı fəaliyyətimiz çox önəmlidir. Düzdür, bunun praktiki nəticələri yoxdur, torpaqlarımız hələ də işğal altındadır. Biz torpaqlarımızın bir hissəsini hərbi yolla azad etdik, ancaq bununla bərabər, münaqişənin həlli üçün hüquqi baza əsas şərtdir. Bu məsələdə Azərbaycan tam üstünlüyü əldə edib və növbəti illərdə beynəlxalq təşkilatlardakı fəaliyyətimiz daha da güclənəcəkdir.

Bizim fəaliyyətimiz nəticəsində və eyni zamanda, Avropada baş qaldıran separatizmə qarşı yaranan yeni yanaşma nəticəsində Avropa İttifaqında münaqişələrlə bağlı «Şərq Tərəfdaşlığı» Proqramına üzv ölkələrin konfransında qəbul edilmiş qətnamə də ədaləti və beynəlxalq hüququ əks etdirir. Qətnamədə bu proqrama daxil olan ölkələrin ərazi bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığı bir daha təsdiqləndi. Bununla bərabər, biz münaqişənin həlli ilə bağlı bütün başqa istiqamətlərdə ardıcıl siyasətimizi aparırıq və aparacağıq. İlk növbədə, siyasi yanaşmadan sonra hərbi amil, əlbəttə ki, öz rolunu oynayır və oynayacaqdır. Ordu quruculuğu bu gün də bizim üçün prioritet məsələdir, sabah da prioritet məsələ olacaqdır. Biz son illər ərzində güclü hərbi potensial yarada bilmişik, o potensial ki, bu gün Azərbaycan Ordusunu dünya miqyasında güclü ordular sırasına daxil edibdir. Bunu beynəlxalq məsələ ilə məşğul olan bütün qurumlar və reytinqlər təsdiqləyir. Biz bundan sonra da ən müasir silah, sursat, texnika alacağıq ki, hərbi üstünlük bu gün təmin edildiyi kimi, daim təmin edilsin.

Bu il Azərbaycan Ordusu genişmiqyaslı hərbi təlimlər keçirdi. Bu təlimlər bir daha bizim gücümüzü göstərdi, düşməni qorxuya saldı. Bilirik ki, bir neçə gün ərzində onlar təşviş içərisində idilər, səbirsizliklə gözləyirdilər ki, bu təlimlər başa çatsın. Yəni bu, artıq reallıqdır, həqiqətdir. Hərbi amil münaqişənin ədalətli həlli üçün mühüm rol oynayır və biz bundan sonra da hərbi potensialımızı gücləndirəcəyik.

Bununla paralel olaraq, bizim, demək olar ki, bütün regional addımlarımız, təşəbbüslərimiz həm ölkəmizin maraqlarının təmin edilməsinə, Azərbaycan iqtisadiyyatının inkişafına, eyni zamanda, işğalçı dövlətin təcrid vəziyyətinə salınmasına hesablanıbdır. Bütün bu amillər artıq birləşib və öz səmərəsini verməkdədir. Ermənistan bu gün heç bir maraq doğurmayan, heç bir investisiya qoyulmayan ölkədir. Müqayisə üçün deyə bilərəm ki, bu ilin birinci rübündə Azərbaycan iqtisadiyyatına 3,5 milyard dollar sərmayə qoyulubdur ki, bunun böyük əksəriyyəti xarici sərmayədir. Ermənistan iqtisadiyyatına isə keçən il ümumilikdə 200 milyon dollardan bir qədər çox vəsait qoyulmuşdur, onun da böyük payı xaricdə yaşayan diaspor təşkilatlarının üzərinə düşür. Yəni bu, müqayisəedilməz vəziyyətdir və biz bundan sonra da Ermənistanı bütün regional layihələrdən kənarda qoyacağıq. Bu gün Ermənistan bir dalana çevrilib. Biz onları siyasi, iqtisadi, enerji, nəqliyyat dalanına çevirmişik və bu siyasət davam etdiriləcəkdir. Biz bunu gizlətmirik, açıq şəkildə bəyan edirik və biz haqlıyıq. Biz öz torpaqlarımızı istəyirik. Biz istəyirik ki, münaqişə tezliklə öz həllini tapsın, ölkəmizin ərazi bütövlüyü bərpa edilsin, soydaşlarımız öz doğma torpaqlarına qayıtsınlar. Bu bizim üçün prioritet məsələdir. Bütün gücümüzü səfərbər etmişik ki, bu məsələnin həllinə nail olaq.

Mən dəfələrlə demişəm, biz öz istəyimizə nail olmaq üçün daha da güclü olmalıyıq. Ermənistandan fərqli olaraq, biz öz hesabımıza yaşayırıq, taleyimiz öz əlimizdədir. Əlbəttə, belə olan halda, iqtisadi siyasət ön plana çıxır. İqtisadi müstəqillik siyasi müstəqilliyin əsasıdır və bu istiqamətdə birinci rübün yekunları çox müsbətdir. Mən keçən ilin sonlarında demişdim ki, 2017-ci il sabitləşmə ili olubdur. Hətta 2017-ci ildə qeyri-neft sektorunun inkişafında çox müsbət nəticələr olubdur. Ancaq 2018-ci ilə gəldikdə, qeyd etdim ki, bu, uğurlu və sürətli inkişaf ili olacaqdır. Birinci rübün yekunları, sosial-iqtisadi göstəriciləri mənim sözlərimi təsdiqləyir. Beləliklə, birinci rübdə Azərbaycan iqtisadiyyatı 2,3 faiz artıbdır. Bu çox gözəl

göstəricidir və dünya miqyasında mövcud olan artımdan daha yüksəkdir. Qeyri-neft sektorumuz isə təxminən 3 faiz artıbdır. Bu da iqtisadiyyatımızın şaxələndirilməsi istiqamətində aparılan siyasətin nəticəsidir.

Birinci rübdə sənaye istehsalı 2 faiz artıbdır. Bu da ölkəmizdə son illər ərzində aparılan sənayeləşmə siyasətinin nəticəsidir. Qeyri-neft sənayemiz 10 faiz artıb və hesab edirəm ki, bu, rekord göstərici sayıla bilər. Kənd təsərrüfatı 4,2 faiz artıb. Bu artımın tərkibində biz daha çox bitkiçiliyin artımını görürük, 50 faizdən çox artıbdır. Bu da son illər ərzində ənənəvi və digər texniki məhsulların yetişdirilməsi ilə bağlıdır. Bu çox müsbət göstəricidir.

Qeyd etdiyim kimi, ölkə iqtisadiyyatına 3,5 milyard dollar sərmayə qoyulubdur və bu sərmayənin böyük hissəsi xarici sərmayədir. Bu göstərir ki, ölkəmiz xarici investorlar üçün çox cəlbedicidir.

Valyuta ehtiyatlarımız 2,2 milyard dollar artıb və hazırda 44,2 milyard dollara bərabərdir. Hesab edirəm, 3 ay ərzində 2 milyard dollardan çox artan valyuta ehtiyatlarımız bir tərəfdən, onu göstərir ki, biz ehtiyatlarımızdan çox qənaətlə istifadə edirik, digər tərəfdən, bu, son illər ərzində apardığımız uğurlu neft siyasətinin nəticəsidir. Çünki bu vəsaitin tərkibində keçən il imzalanmış «Azəri–Çıraq–Günəşli» neft yataqları blokunun istismar müddətinin uzadılması ilə bağlı kontraktdan irəli gələn 450 milyon dollar bonus da vardır.

Bizim xarici ticarət dövriyyəmiz 31 faiz artıbdır. Bu çox gözəl göstəricidir. Ümumi ixrac 24 faiz, qeyri-neft ixracı isə 37 faiz artıbdır. Bu da bizim siyasətimizin bariz nümunəsidir. Çünki ixracın şaxələndirilməsi iqtisadi sahədə əsas prioritet məsələdir ki, biz daha çox qeyri-neft sektorundan valyuta əldə edək və beləliklə, yerli istehsal güclənsin, yeni iş yerləri yaradılsın və ölkəmiz daha da sürətlə inkişaf etsin.

İş yerlərinin açılmasına gəldikdə, birinci rübdə 34 min yeni iş yeri yaradılıbdır ki, onlardan 31 mini daimi iş yeridir. Artıq

biz 1 milyon 500 min iş yerinin yaradılmasına yaxınlaşırıq. Əgər biz birinci rübün rəqəmlərini də əlavə etsək, 2004-cü ildən bu günə qədər Azərbaycanda təxminən 1 milyon 500 min yeni daimi iş yeri yaradılıbdır.

Bu iqtisadi göstəricilərimiz, əlbəttə ki, bizi çox sevindirir. Onu da əlavə etməliyəm ki, inflyasiya birinci rübdə cəmi 4 faiz olub. Bu barədə də mən ilin əvvəlində öz fikirlərimi bildirmişdim və qeyd etmişdim ki, əminəm, inflyasiya aşağı səviyyədə olacaq və əhalinin gəlirləri inflyasiyanı qabaqlayacaqdır. Belə də oldu. Əhalinin gəlirləri təxminən 10 faiz artıb, inflyasiya isə cəmi 4 faiz. Bax, budur bizim birinci rübdə əldə edilmiş əsas sosial-iqtisadi göstəricilərimiz. Hesab edirəm ki, hər bir ölkə bu göstəricilərlə fəxr edə bilər, o cümlədən biz. Bu göstərir ki, biz düzgün yoldayıq. Azərbaycanın qarşısında heç bir iqtisadi və maliyyə çətinliyi yoxdur. Biz güclü iqtisadiyyat yaradaraq, eyni zamanda, sosial məsələlərin həllində addımlar atırıq. Əgər iqtisadi imkanlarımız olmasaydı, biz nəyin hesabına pensiyaları, maaşları qaldıra bilərdik, nəyin hesabına böyük investisiya qoya bilərdik, infrastruktur layihələrini həyata keçirə bilərdik?! İqtisadi güc və bizim siyasətimiz bütün bu reallıqları yaradır.

Sosial məsələlərin həllinə gəldikdə, qeyd etməliyəm ki, birinci rübdə maaşlar və pensiyalar artırıldı. Bu məqsədlər üçün dövlət büdcəmizdən yüz milyonlarla manat vəsait ayrıldı. Bu addım bir daha göstərir ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. İmkan yarandıqca biz dərhal birinci addımı sosial istiqamətdə – insanların sosial müdafiəsinin təmin edilməsi üçün praktiki addımlar atırıq.

O ki qaldı sosial infrastrukturun yaradılmasına, birinci rübdə Dövlət İnvestisiya Proqramında nəzərdə tutulmuş bütün məsələlər öz həllini tapır. Yeni xəstəxanalar, məktəblər tikilir. İlin əvvəlindən mənim tərəfimdən bu məsələlərin həlli üçün bir çox sərəncamlar verilibdir. Yeni idman obyektləri, yeni «ASAN xidmət» mərkəzləri tikilir. Yəni bu gün Azərbaycanda tikinti

sektorunda böyük canlanma vardır. Mənzil İnşaatı Dövlət Agentliyinin xətti ilə sosial evlərin tikintisində irəliləyiş vardır. Ümumiyyətlə, indi özəl sektora, tikinti sektoruna böyük vəsait qoyulur. Təkcə Bakı şəhərində təqribən 150-yə yaxın hündürmərtəbəli binanın tikintisi nəzərdə tutulur. Onların bir çoxunun tikintisi başlanmışdır. Bu, tikinti sektoruna, tikinti materialları sektoruna müsbət təsir göstərir və yeni iş yerləri yaradır. Qeyd etməliyəm ki, biz bu il dövlət sektorunda da əlavə iş yerləri yaratmaq fikrindəyik. Həm dövlət qurumlarında, həm rayon icra hakimiyyətləri nəzdində yaradılan yeni qurumlar insanları işə cəlb edir. İctimai işlərə və dövlət şirkətlərində çalışmaq üçün cəlb edilənlərin sayını nəzərə alsaq, bu il ancaq dövlət sektorunda təqribən 50 mindən çox yeni iş yerinin yaradılması nəzərdə tutulur. Bu addımı biz 2 il bundan əvvəl atmağa başlamışıq, o dövrdə ki, dünya iqtisadi böhranı bizə müəyyən dərəcədə mənfi təsir göstərmişdir. Bəzi iş yerləri ixtisara düşürdü, bəzi özəl qurumlar işçiləri işdən azad edirdilər. Ona görə dövlət dərhal öz addımını atdı və biz on minlərlə ictimai iş yeri yaratdıq və bu gün bu proses davam edir. Xüsusilə bölgələrdə olarkən mən daim ictimai işlərlə maraqlanıram. Bu, bölgələrdə işsizliyi aşağı səviyyədə saxlamaq üçün çox önəmli addımdır. İndi Azərbaycanda böyük quruculuq, təmir işləri aparılır – binaların təmiri, parkların salınması, o parklara xidmət məsələləri. Beləliklə, hər bir rayonda yüzlərlə insan ictimai işlərə cəlb olunur. Əsas məqsədimiz işsizliyi daim aşağı səviyyədə saxlamaqdır. Yəni sosial məsələlərin həlli bilavasitə iqtisadi imkanlarımıza bağlıdır. Biz iqtisadi cəhətdən nə qədər güclü olsaq, sosial məsələlər də bir o qədər uğurla öz həllini tapacaqdır.

Birinci rübdə bütün infrastruktur layihələri uğurla icra edilib. Əlbəttə ki, biz «Cənub Qaz Dəhlizi»nin yaradılması ilə bağlı çox önəmli addımlar atmışıq. Fevral ayında Bakıda dördüncü Məşvərət Şurası keçirildi. Bu Məşvərət Şurasında aparılan müzakirələrin nəticəsində bəyanat qəbul edildi. Bu sənəddə ölkəmizin liderliyi bir daha əksini tapdı. «Cənub Qaz

Dəhlizi»nin reallaşmasına az vaxt qalıb. Biz bu istiqamətdə uğurla addımlayırıq. Bu il bu layihənin 3 önəmli hissəsi başa çatacaq – TANAP, «Cənubi Qafqaz» kəməri və «Şahdəniz-2». Yəni bu, tarixi nailiyyətimizdir və biz bu il bu istiqamətdə önəmli addımlar atmışıq.

Bu il nəqliyyat sektorunda əldə edilmiş razılaşmalar da – onlar əslində əvvəlki illərdə görülmüş işlərin əsasında əldə edilibdir – Şimal–Cənub nəqliyyat dəhlizinin yaradılmasına gətirib çıxaracaqdır. Onun çatışmayan hissəsinin tikintisinə təkan verildi. Bildiyiniz kimi, Azərbaycan öz ərazisində Şimal–Cənub nəqliyyat dəhlizi ilə bağlı bütün işləri tamamlayıb. Bundan sonra ancaq dəmir yolunun modernləşdirilməsi ilə bağlı işlər aparılacaq ki, sürət daha da artsın. Amma bizim bütün dəmir yolu infrastrukturumuzun – şimal və cənub sərhədlərimizi birləşdirən dəmir yolu vardır. Vəsait qoyulub və indi biz bu məsələyə regional baxımdan ciddi diqqət göstəririk. Birinci rübdə bu istiqamətdə çox önəmli addımlar atılıbdır.

Ölkəmizdə ümumi inkişaf dinamikası çox müsbətdir. Ölkəmiz dünyada daha çox tanınır və turistlərin sayı getdikcə artır, birinci rübdə 12,5 faiz artıbdır. Əgər biz əvvəlki illəri də nəzərə alsaq görərik ki, bu dinamikada ardıcıllıq vardır. Bunun da bir çox səbəbləri var – Azərbaycanda hökm sürən sabitlik, təhlükəsizlik, xalqımızın qonaqpərvərliyi, tarixi abidələrimiz, infrastruktur, 6 beynəlxalq aeroport, yollar, hotellər. Əlbəttə, ölkəmizdə keçirilən beynəlxalq tədbirlər Azərbaycanı dünyaya təqdim edir. Onların sırasında Avropa oyunları, İslam Həmrəyliyi oyunları, «Eurovision» müsabiqəsi və «Formula-1» yarışları xüsusi rol oynayır. Çünki «Formula-1» yarışlarının tamaşaçı auditoriyası yarım milyard insana bərabərdir. Bu yarışlar şəhərimizin mərkəzində keçirilir. Biz onu xüsusilə belə təşkil etmişik ki, şəhərimiz göstərilsin, bu yarışa baxan azarkeşlər təkcə o yarışı görməsinlər, şəhərimizin gözəlliyini, müasirliyini görsünlər və Azərbaycana turist kimi daha çox gəlsinlər.

Bir sözlə, birinci rübün yekunları müsbətdir. Əlbəttə, 3 ay ərzində daha bir sıra önəmli məsələlər öz həllini tapıb. Giriş nitqimdə onların hamısını əhatə etmək mümkün deyil. Sadəcə olaraq, mən əsas məsələlər ətrafında fikirlərimi xalqa bildirdim. Azərbaycan xalqı bilir ki, Nazirlər Kabinetinin müntəzəm olaraq keçirilən toplantıları həm praktiki məsələlərin həllinə xidmət edir, eyni zamanda, bu, görülən işlər haqqında xalqa verilən hesabatdır.

## YEKUN NİTQİ

Əvvəlki çıxışlarda qeyd etdiyim kimi, 2017-ci il Azərbaycanda çox dərin iqtisadi islahatlar ili olubdur. Bu islahatlar bu il də davam etdirilir. Biz birinci rübdə əldə etdiyimiz göstəricilərlə fəxr edə bilərik. Bunlar Azərbaycanın uğurlu inkişafını əks etdirən göstəricilərdir. Ancaq biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik və islahatları davam etdirməliyik.

Bəzi hallarda sual yaranır ki, indi neftin qiyməti bir qədər sabitləşib, bu islahatlar davam etdiriləcəkmi, yoxsa yox? Mütləq davam etdiriləcək. Neftin qiyməti bizim üçün əsas amil olmamalıdır və Azərbaycan iqtisadiyyatı elə bir səviyyəyə çatmalıdır ki, neftin istənilən qiyməti bizə böyük təsir etməsin, yalnız ehtiyatlarımızın artırılmasına xidmət etsin. Giriş sözümdə qeyd etdiyim kimi, bu ilin birinci rübündə biz 2,2 milyard dollar əlavə vəsait toplamışıq. Bu il də iqtisadi islahatlar davam etdiriləcək. Nəinki iqtisadi, bütün digər sahələrdə də islahatlar aparılacaqdır ki, ölkəmiz daha da güclənsin, müasirləşsin və Azərbaycanın dayanıqlı uzunmüddətli inkişafı təmin edilsin. Bu məqsədlərə nail olmaq üçün bir çox məsələlər gündəlikdədir. Onlardan biri biznes mühitinin yaxşılaşdırılması məsələsidir. Bu istiqamətdə son illər ərzində yaxşı nəticələr var və Dünya Bankı tərəfindən təqdim olunan «Doing Business» hesabatında Azərbaycan ardıcıl şəkildə öz mövqelərini gücləndirir, daha da yüksək pilləyə qalxır. Ancaq biz yenə də bu istiqamətdə səylərimizi davam etdirməliyik, xüsusilə bizi geriyə çəkən məsələlərdə daha da ciddi addımlar atmalıyıq və bunu edirik. «Doing Business» reytinqi dərin təhlil əsasında hazırlanır və bizim bu istiqamətdə əldə etdiyimiz uğurlar və nöqsanlar ciddi təhlil edilir.

Biznes mühitinin yaxşılaşdırılması istiqamətində bundan sonra da addımlar atılacaqdır. Son vaxtlar vergi sistemində aparılan ciddi islahatlar, sağlamlaşdırma prosesi artıq biznes

dairələri tərəfindən də müsbət qarşılanır və bu istiqamətdə əlavə addımlar atılacaqdır. Mən əvvəlki çıxışlarda da dəfələrlə demişəm ki, biz dünyada mövcud olan ən müsbət, ən şəffaf praktikanı Azərbaycanda tətbiq etməliyik və bizim bütün maliyyə sistemimiz tam şəffaf mexanizm kimi işləməlidir.

Azərbaycan iqtisadiyyatının rəqabətqabliyyətliliyi istiqamətində son illər atılan addımlar təqdirəlayiqdir. Mən dəfələrlə demişəm, bu gün də demək istəyirəm ki, Davos İqtisadi Forumunun hesablamalarında rəqabətqabliyyətliliyə görə 35-ci yerə yüksəlməyimiz tarixi nailiyyətdir. Biz bu gün dünyanın 35 ən rəqabətqabliyyətli ölkəsindən biriyik və haqlı olaraq bununla fəxr edirik. Ancaq onu da bilməliyik ki, Davos reytinqlərinə digər ölkələr də çox böyük diqqətlə yanaşırlar. Bir çox ölkələr çalışırlar ki, öz vəziyyətlərini daha da yaxşılaşdırsınlar. Ona görə bu gözəl rəqəm bizi ancaq növbəti addımların atılmasına sövq etməlidir.

Azərbaycan inkişafda olan ölkələr arasında inklüziv inkişaf baxımından üçüncü yerdədir. Hesab edirəm ki, bu, tarixi nailiyyətdir. Biz bir çox böyük iqtisadi imkanları olan ölkələrdən öndəyik, baxmayaraq ki, müstəqil ölkə kimi cəmi 26 ildir yaşayırıq. Aparıcı beynəlxalq qurumlar tərəfindən tərtib edilmiş bu reytinqlər bizim uğurlu siyasətimizi əks etdirir. Ancaq biz, yenə də deyirəm, əldə edilmiş nəticələrlə kifayətlənə bilmərik. Biz daim və daim inkişaf etməliyik, sahibkarlığın inkişafı üçün də əlavə addımlar atmalıyıq.

Bu kompleks tədbirlər apardığımız siyasətin nəticəsidir. Bu il dövlət tərəfindən sahibkarlara güzəştli şərtlərlə 170 milyon manat vəsait ayrılıb. Bu vəsait vaxtilə verilmiş və qaytarılan kreditlər hesabına ayrılıb. Yəni bu bir daha bizim siyasətimizin uğurlu olduğunu göstərir – vaxtilə verilmiş 2 milyard manatdan çox kreditlər indi qayıdır və yeni kreditlərin verilməsinə xidmət edir.

Dövlətin dəstəyi ilə yaradılan müəssisələr həm iş yerlərinin açılmasına xidmət edir, həm yerli istehsalı gücləndirir. Bir daha demək istəyirəm ki, biz sahibkarlığın inkişafına kompleks

şəkildə yanaşırıq. İnstitusional islahatlar aparılır və aparılacaq, sahibkarlara maliyyə resursları, metodik tövsiyələr verilir, dövlət tərəfindən kənd təsərrüfatı texnikası alınır, subsidiyalar verilir, meliorativ tədbirlərə böyük vəsait xərclənir ki, kənd təsərrüfatı üçün daha yaxşı imkanlar yaradılsın.

Yol infrastrukturu, digər infrastruktur – elektrik enerjisi, içməli su, qaz xətləri – görülən bütün bu işlər vətəndaşlara və eyni zamanda, sahibkarlara xidmət göstərir. Növbəti illərdə qeyri-neft sektorunun inkişafı iqtisadi siyasət istiqamətində əsas prioritet olacaqdır və bu istiqamətdə qəbul edilmiş qərarlar öz gözəl nəticəsini verir. Mən onların arasında xüsusilə investisiya təşviqi mexanizmini qeyd etmək istərdim. Biz bu mexanizmin tətbiqinə bu yaxınlarda start vermişik və qısa müddət ərzində çox gözəl nəticələr əldə edilibdir. Təkcə bu ilin birinci rübündə 28 investisiya təşviqi sənədi və bu günə qədər cəmi 257 investisiya təşviqi sənədi verilib, 229 sahibkar bu imkanlardan faydalanıbdır. Bu layihələrə qoyulacaq və artıq qoyulmaqda olan sərmayənin həcmi 2,3 milyard manatdır. Əgər biz investisiya təşviqi mexanizmini işə salmasaydıq, bu vəsait ölkə iqtisadiyyatına qoyulmayacaqdı. Bu vəsait qoyulur, bu, böyük vəsaitdir və ilkin hesablamalara görə, təkcə bu proqram çərçivəsində 17 min yeni daimi iş yeri yaradılacaqdır. Görün nə qədər əlavə məhsul istehsal ediləcək və bu məhsul rəqabətqabliyyətli məhsul olacaqdır. Çünki bütün bu məsələlərə dövlət qurumları çox diqqətlə yanaşır. Əminəm ki, bu məhsulun böyük hissəsi ixrac yönümlü məhsul olacaqdır. Bax, bir istiqamətdə aparılan islahat görün nə qədər böyük xeyir verir. Ona görə mən deyəndə ki, islahatlar dərinləşməlidir, bu sadəcə olaraq, söz deyil, bunun arxasında çox ciddi proqramlar dayanır. İnvestisiya təşviqi, ixracın təşviqi mexanizmləri artıq işə düşüb və sahibkarlar bundan da faydalanırlar. Biz dünyada mövcud olan ən mütərəqqi praktikanı Azərbaycana gətirməliyik, sınaqdan keçirməliyik və tətbiq etməliyik.

Sevindirici hal ondan ibarətdir ki, Azərbaycanda sənaye istehsalı artır. Son 1-2 il ərzində neftin qiymətinin və hasilatın müəyyən dərəcədə düşməsi nəticəsində Azərbaycanda sənaye istehsalı azalırdı. Qeyri-neft sənayesi az da olsa artırdı, amma, ümumiyyətlə, sənaye istehsalı azalırdı. Artıq bu ildən başlayaraq, dönüş yaranıb, sənaye istehsalı 2 faiz, qeyri-neft sənayesi isə təxminən 10 faiz artıbdır. Çox gözəl göstəricidir, görülən işlərin nəticəsidir və bizim siyasətimizi əks etdirir. Sənayeləşmə siyasəti Azərbaycanda bundan sonra da davam etdiriləcəkdir.

Hesab edirəm ki, sənaye zonalarının, sənaye parklarının yaradılması artıq gözəl nəticələr veribdir. Bizim bir neçə sənaye zonamız artıq fəaliyyətə başlayıb. Sumqayıt Kimya Sənaye Parkı, Neftçala, Mingəçevir sənaye zonaları artıq fəaliyyətdədir. Keçən ilin sonunda Sumqayıtda 4 müəssisə açılıb, 3 müəssisənin təməli qoyulubdur. Bu il bizim sənaye inkişafımızı xeyli gücləndirəcək 2 nəhəng zavod işə düşəcəkdir – «SOCAR Polymer» və Azot Gübrələri zavodları. Bu zavodların tikintisinə, ümumiyyətlə, 2 milyard dollara yaxın vəsait qoyulub. Hazırda Sumqayıt Kimya Sənaye Parkında 17 rezident vardır. Ümumiyyətlə, oraya qoyulacaq investisiyaların həcmi 2,8 milyard dollardır. Baxın, əgər biz vaxtilə Sumqayıt Kimya Sənaye Parkını yaratmasaydıq, bu vəsaitlər də qoyulmayacaqdı – 2,8 milyard dollar və investisiya təşviqi sənədində 2,3 milyard manat. Bu vəsaitlər sahibkarların əlində qalacaqdı, yaxud da ki, indi bu vəsaitin, əlbəttə, böyük hissəsi kredit resurslarıdır, o götürülməyəcəkdi, investisiya qoyulmayacaqdı və sənaye inkişafı da mümkün olmayacaqdı.

Biz indi bir çox bölgələrdə oxşar zonalar yaradırıq. Mən onların arasında Mingəçevir Yüngül Sənaye Parkını xüsusi qeyd etmək istəyirəm. Mingəçevir şəhəri böyüyür və əhali artır. Mingəçevirdə iş yerləri ilə bağlı problemlər mövcud idi, bu gün də bu problemlər vardır. Bu şəhərin ətrafında kənd təsərrüfatı sahələri yoxdur. Ona görə Mingəçevir ancaq sənaye və turizm

şəhəri kimi inkişaf etməlidir. Bu istiqamətdə çox önəmli addımlar atılıbdır – infrastrukturla, yollarla, içməli su ilə və digər məsələlərlə, o cümlədən yeni iş yerlərinin yaradılması ilə bağlı. Bu il Mingəçevir Yüngül Sənaye Parkında 2 böyük müəssisə, iplik fabrikləri açılıbdır. Bu fabriklər bu günə qədər Azərbaycanda yaradılmış iplik fabriklərinin yarısını təşkil edir. Burada 20 min ton iplik istehsal ediləcək, onun böyük hissəsi ixrac olunacaqdır. Ən azı 700–750 nəfər işlə təmin ediləcəkdir. Yəni Mingəçevir Yüngül Sənaye Parkı artıq fəaliyyət göstərir və biz növbəti aylarda yeni müəssisələrin yaradılması ilə bağlı təkliflər gözləyirik.

Bu il sənayemizin inkişafının təzahürü olan Neftçala Sənaye Məhəlləsində biz bu yaxınlarda Avtomobil zavodunun açılışını qeyd etdik. Neftçala Sənaye Məhəlləsinin açılışı keçən il mənim iştirakımla qeyd edildi və bu il ildə 10 min avtomobil istehsal edəcək zavodun açılışı oldu. Bu zavodda 300-dən çox insan işlə təmin ediləcək, həm daxili bazar, həm də xarici bazar üçün rəqabətqabliyyətli avtomobillər istehsal olunacaqdır. Əlbəttə, dövlət qurumları – mən bunu əvvəlki çıxışlarda da demişəm – yerli avtomobillərə üstünlük verməlidir. Dövlət qurumları bu məsələyə çox ciddi nəzarət etməlidir.

Statistikaya görə, bu ilin birinci rübündə idxal olunmuş avtomobillərin sayı kəskin artıbdır. Bu, əlbəttə, iqtisadi canlanmanın təzahürüdür, onu göstərir ki, vətəndaşlarda indi əlavə maliyyə imkanları yaranıbdır, kəskin artıbdır. Bu özlüyündə müsbət göstəricidir, ancaq bu o deməkdir ki, valyutamızın xaricə köçürülməsi də kəskin artıbdır. Ona görə Azərbaycanda istehsal olunan avtomobillər ən azı dövlət qurumları tərəfindən alınmalıdır. Əminəm, vətəndaşlar da görəcəklər ki, bu avtomobillər yüksək standartlara cavab verir və qiymət də xaricdən gətirilən avtomobillərlə müqayisədə daha münasibdir.

Bu il bu yaxınlarda Gəncə Avtomobil zavodunda 10000-ci traktor istehsal edilibdir. Bu da bizim müştərək əməkdaşlığımızın təzahürüdür. Biz indi fermerləri «Gəncə–Belarus» traktoru

ilə təmin edirik. Bu traktorlara çox böyük maraq vardır. Mən bölgələrdə, tarlalarda olarkən maraqlanıram və bütün fermerlər bu traktorları çox yüksək qiymətləndirirlər. Əgər vaxtilə bu zavod yaradılmasaydı, bu traktorları istehsal etməsəydi, həmin texnikanın hamısını biz xaricdən almalı olacaqdıq və nə qədər pul xərcləyəcəkdik. İndi isə biz həm ixrac edirik, həm də üçüncü ölkələrdə «Gəncə–Belarus» traktorlarının istehsalına başlayırıq. Bu nəticələr deməyə əsas verir ki, yaranmaqda olan Hacıqabul, Masallı və Sabirabad sənaye zonalarının fəaliyyəti də uğurlu olacaqdır.

Kənd təsərrüfatı ilə bağlı giriş sözümdə dedim ki, artım 4,2 faizdir, yaxşı göstəricidir, xüsusilə bitkiçilikdə. Bunun böyük hissəsi pambığın istehsalı ilə bağlıdır. Biz növbəti illərdə, əlbəttə ki, ərzaq təhlükəsizliyi məsələlərinə daha böyük diqqət yetirməliyik, xüsusilə taxılçılığa və heyvandarlığa. Biz ənənəvi texniki məhsulların inkişafı ilə bağlı çox ciddi addımlar atmışıq və bir çox müşavirələr keçirilibdir. Taxılçılıq, heyvandarlıq ərzaq təhlükəsizliyini təmin edən əsas sahələrdir. Bilirəm ki, dövlətin dəstəyi ilə və özəl qurumların fəaliyyəti nəticəsində buğda əkini genişlənir, yeni əkin sahələri dövriyyəyə çıxarılır, suvarma işləri təmin edilir. Bu sahəyə çox ciddi diqqət göstərilməlidir ki, biz özümüzü əsas ərzaq məhsulları ilə tam təmin edə bilək. Biz indi ət, süd məhsulları ilə özümüzü təqribən 80–90 faiz səviyyəsində təmin edirik, amma buğda ilə təminat sahəsində bu rəqəm daha aşağıdır. Ona görə növbəti illərdə bu sahəyə və eyni zamanda, quş ətinin istehsalına daha böyük diqqət yetirilməli və investisiyalar qoyulmalıdır.

Ümid edirəm və əminəm ki, yaradılmaqda olan 45 aqropark bizim ixrac potensialımızı yüksək dərəcədə artıracaq. Bu aqroparkların 28-i bitkiçilik, 17-si isə heyvandarlıq kompleksidir. Bu həm ərzaq təhlükəsizliyinin təmin edilməsinə xidmət edəcək, həm də ixrac imkanlarımızı genişləndirəcəkdir. Biz mütləq yeni ixrac bazarlarına üz tutmalıyıq. İndi bu istiqamətdə işlər gedir, müxtəlif ölkələrə ixrac missiyaları ezam edilir. Daha

da fəal olmalıyıq və daha ciddi nəticələr olmalıdır ki, kontraktlar imzalansın və bizim məhsulumuz yeni bazarlara çıxa bilsin. Təbii ki, ənənəvi bazarlarda yerimizin möhkəmləndirilməsi istiqamətində addımlar atılır. Hazırda Azərbaycanda 400 hektarda, ondan da çox sahədə yeni istixana kompleksləri yaradılır. Onların bir hissəsi artıq fəaliyyətə başlayıb. Bu istixanaların əsas bazarı xarici bazarlardır. Çünki biz özümüzü tərəvəzlə artıqlaması ilə təmin edirik.

Kənd təsərrüfatı texnikasının alınması prosesi bundan sonra da davam etdiriləcəkdir. Bu il bu məqsədlər üçün 160 milyon manat nəzərdə tutulur, ən azı 5000 ədəd texnika gətirilməlidir. Keçən il 10 min ədəd texnika gətirilmişdir, amma bu proses davam etməlidir. Çünki bizim hələ köhnədən qalan texnikamız kifayət qədər çoxdur, amma sıradan çıxan da vardır. Biz texnika parkımızı tam müasirləşdirməliyik. Biz dünyanın aparıcı istehsalçılarının texnikasını gətirməliyik və bunu edirik.

İndi təhlil aparmaq üçün bizdə daha geniş imkanlar vardır. Çünki «Azexport» portalına daxil olan sifarişlər – marketinq üçün çox əhəmiyyətli bir vasitədir. Əvvəllər xarici bazarlarda marketinq aparmaq üçün bizim belə imkanımız yox idi. Bu işlər daha çox kortəbii görülürdü. Amma «Azexport» portalının əhəmiyyəti ondadır ki, həm yerli istehsalçılar öz məhsulları barədə məlumatları bu saytda yerləşdirirlər, həm də xaricdən sifarişlər gəlir. Təhlil apararkən görürük, bəzən elə sifarişlər gəlir ki, biz o sifarişləri tam yerinə yetirə bilmirik. Bu, dövlət qurumlarına və sahibkarlara yol göstərir ki, həmin sahələr inkişaf etməlidir. Əlbəttə, çox istərdim ki, kənd təsərrüfatı məhsullarının emalı sənayesi daha sürətlə inkişaf etsin. Mövcud inkişaf bizi qane edə bilməz. Düzdür, son vaxtlar bir çox konserv və şirə istehsalı zavodları işə düşüb. Ancaq bu bizim potensialımızı əks etdirmir. Yaxşı olardı ki, 400 hektarda yaradılacaq istixanaların məhsulunun böyük hissəsi Azərbaycanda emal olunsun və ixrac edilsin. Bizdə indi kənd təsərrüfatı məhsulları arasında ən çox gəlir gətirən pomidor ixracıdır. Əgər burada yeni emal müəssisələri

yaranarsa, biz hazır məhsul ixrac edərik. Hazır məhsula daha böyük tələbat və daha az rəqabət vardır. Ona görə hesab edirəm ki, biz kənd təsərrüfatı emalı sahəsində səylərimizi gücləndirməliyik. Biz son vaxtlar daha çox istehsala üstünlük verirdik və kreditlər verilirdi. Bu ildən başlayaraq, çox ciddi konkret plan tərtib edilməlidir – hansı bölgələrdə hansı emal müəssisələri, konserv, şirə zavodları açılsın.

Biz ixrac yönümlü kənd təsərrüfatı sahələri üzrə işlərimizi bundan sonra da davam etdirəcəyik. Mən bir müddət bundan əvvəl tapşırıq vermişdim ki, üzümçülüklə, şərabçılıqla bağlı olan məsələlər ciddi təhlil edilsin. Çünki mövcud vəziyyət bizi heç cür qane edə bilməz. İlkin məlumat ondan ibarətdir ki, indi bizim kifayət qədər emal gücümüz, yəni şərab zavodlarımız var, amma onların bir çoxu zəif işləyir. Yəni istehsal gücünün 20–30 faizi səviyyəsində işləyir. Bilmirəm, vaxtilə sahibkarlar bu zavodları nəyə görə tikiblər, bəlkə pulları çox idi, bilmirdilər ki, pulları haraya yatırsınlar – tikiblər, amma səmərəsiz istifadə edirlər. Bu heç bir məntiqə sığmayan məsələdir. İndi bizim vəzifəmiz ondan ibarətdir ki, bu şərab zavodlarını sahibkarlar düzgün şəkildə idarə etsinlər. Üzüm istehsalı artır, yeni üzüm bağları salınır və mən bunu alqışlayıram. Şərabın ixracı da artır və burada da dövlət öz rolunu oynayır. İxrac missiyaları, sərgilərdə iştirakımız bunu mümkün edir. Ancaq üzümçülüklə, şərabçılıqla bağlı növbəti xüsusi addımlar atılmalıdır. Vaxtilə biz Dövlət Proqramı qəbul etmişik. Mən deyə bilmərəm ki, bu proqram lazımi səviyyədə icra edilir. Ona yenidən baxmaq, təhlil aparmaq lazımdır ki, bu proqramın nəticəsində nə əldə etmişik? Yenə də deyirəm, yeni üzüm bağları salınır, şərab istehsalı artır, xarici bazarlara çıxır, amma bu bizim çox gözəl ixrac məhsulumuz olmalıdır.

Son illərdə pambıqçılıqla bağlı görülən işlər bu sahənin bərpasına, dirçəlməsinə gətirib çıxarıbdır. Bir neçə dəfə zona müşavirələri keçirilibdir və burada əsas məsələ işsizliyin aradan qaldırılmasıdır. Pambıqçılıqda bu günə qədər 200 minə yaxın

işsiz insan işlə təmin edilibdir. Biz satınalma qiymətini artıraraq, tarlalarda işləyənlərin rifah halını yaxşılaşdırırıq. Əlbəttə ki, əgər pambıqçılığa belə güclü təkan verilməsəydi, Mingəçevir Yüngül Sənaye Parkının yaradılmasına da ehtiyac qalmayacaqdı. Çünki indi xaricdən pambıq alıb burada emal etmək heç bir iqtisadi səmərəyə uyğun gəlmir. Pambıqçılığın inkişafı ilk növbədə, sosial məsələdir, sosial təşəbbüsdür və tədarükçü şirkətlər, fermerlər, yerli icra orqanlarının nümayəndələri bunu bilsinlər ki, pambıqçılıq həm də yerli istehsala təkan verir, ixracı artırır. Biz keçən il 207 min ton pambıq tədarük etmişik, 2015-ci ildə isə cəmi 35 min ton. Mən sonuncu müşavirədə də dedim ki, pambıqçılıq bundan sonra da ancaq məhsuldarlığın artırılması hesabına inkişaf etməlidir.

Son vaxtlar bizim tövsiyəmizi nəzərə alaraq, sahibkarlar zeytunçuluğa böyük diqqət göstərirlər, yeni bağlar salınır və dövlət kömək edir, su xətləri çəkir. Bu da çox gözəl ixrac yönümlü məhsulumuz olacaqdır. Dünya bazarlarında zeytun yağına çox böyük tələbat vardır. Dünyada cəmi bir neçə ölkə bu yağı istehsal edir. Azərbaycan da onların sırasında yer tutmalıdır, həm daxili bazarı təmin etməlidir, həm də ixrac etməlidir.

Meyvə bağları genişlənir. Çayçılıq, çəltikçilik, fındıqçılıq, baramaçılıq, sitrus meyvəçiliyi, tütünçülük və digər sahələri inkişaf etdirmək üçün bir neçə müşavirə keçirilibdir. Mən bəzi rəqəmləri səsləndirmək istəyirəm ki, vətəndaşlar bilsinlər görülən işlər necə səmərə verir. Tütünçülük – 2015-ci ildə cəmi 1300 hektarda tütün əkilmişdisə, 2018-ci ildə bu, 3300 hektara çatacaqdır. Tütünü biz indi ixrac edirik. Bu, ixrac yönümlü məhsuldur. Fermerlər yaxşı pul qazanırlar. İndi dövlət qurutma kameraları alır. Azərbaycanda tikilməkdə olan Siqaret fabriki də bu tütünü alacaq, siqaret hazırlayacaq və ixrac edəcək, idxaldan asılılığı azaldacaqdır. Barama istehsalı – 2015-ci ildə 240 kiloqram barama tədarük olunmuşdusa, 2017-ci ildə bu rəqəm 240 tona qalxdı. Bu il biz təqribən 450–500 ton barama gözləyirik. İlk

növbədə, bu da mənim üçün sosial layihədir. Çünki kümçülər indi az müddətdə – 30–40 gün ərzində böyük vəsait qazanırlar və Şəki İpək kombinatında yüzlərlə insan işlə təmin edilir. Əgər bu il biz 450–500 ton barama tədarük etsək, əminəm, Şəki İpək kombinatı ilboyu fasiləsiz işləsə xammal kifayət qədər olacaqdır. Yüzlərlə insan Şəkidə və bir çox rayonlarda işlə təmin edilir və pul qazanır.

Fındıqçılıq bizim üçün ənənəvi sahədir və pomidor ixracından sonra kənd təsərrüfatında ikinci valyuta gətirən sektordur. Biz burada da çox ciddi işlər apardıq. Bu işlərə 2015-ci ildən başladıq, 2016-cı ildə fındıq bağlarının sahəsi 40 min hektara çatdırıldı. Bu il isə fındıq bağlarının sahəsi 67 min hektara çatacaqdır. Yəni görün biz fındıq bağlarının sahəsini nə qədər artırmışıq. Bu, fermerlər üçün çox böyük gəlir mənbəyi olacaq, ölkəmizə də valyuta gətirəcəkdir. Ancaq bu da son hədd deyil. Mənim vaxtilə müəyyən etdiyim rəqəmə əminəm ki, biz gələn il çatacağıq. Çünki bu il və gələn il 16 min hektarda yeni fındıq bağları salınacaq. Beləliklə, Azərbaycanda 80 min hektardan çox sahədə fındıq yetişdiriləcək və fındıq istehsalına görə biz dünya üçlüyünə daxil ola bilərik.

Bütün bu işlər verilən tapşırıqlar və onların icrası nəticəsində mümkün olubdur. Əgər biz oturub gözləsəydik ki, kimsə gəlib bunu bizim əvəzimizə edəcək, hansısa investor gəlib pul qoyacaq, bunların heç biri mümkün olmazdı. Onu da qeyd etmək istəyirəm ki, sahibkarlara həm dəstək vermək, həm də yol göstərmək lazımdır. Bir çox hallarda onlar passivlik göstərirlər, təşəbbüs göstərmirlər, hətta yetişdirdikləri məhsulu xaricə aparmağa belə, tənbəllik edirlər. Gözləyirlər ki, kimsə gəlib onların qapısını döyəcək, onların məhsulunu alacaqdır. Onlar özləri bazarlar axtarmalı, kontraktlar imzalamalı, təmaslar qurmalıdırlar. Biz hətta xarici ölkələrin televiziyalarında kənd təsərrüfatı məhsullarının reklamını da dövlət hesabına edirik. Onu da etmirlər. Yaxşı, heç olmasa indi bir az hərəkətə gəlsinlər. Dövlət bu qədər səy göstərir, dəstək verir, vəsait ayırır, siyasi dəstək göstərir. Əgər biz bu işlərə başlamasaydıq, indi heç biri

olmayacaqdı – 2,8 milyard dollar, 2,3 milyard manat qoyulmayacaqdı, kənd təsərrüfatı istehsalı bu qədər artmayacaqdı, bu qədər iş yerləri yaradılmayacaqdı, yalnız pambıqçılıqda 200 min insan işlə təmin olunmayacaqdı. Bizim qəbul etdiyimiz qərarların real nəticələri bunlardır.

Mən giriş sözümdə qeyd etdim ki, turizmin inkişafı Azərbaycanda sürətlə gedir. Biz bundan sonra bu sahəyə daha sistemli şəkildə baxmalıyıq və oturub gözləməməliyik ki, kimsə bizə qonaq gələcək. Biz özümüz turistləri cəlb etməliyik. Biz indi elə bir şərait yaratmışıq ki, Azərbaycanı dünyada çox yaxşı tanıyırlar, bizim çox gözəl beynəlxalq imicimiz vardır. İndi Azərbaycana gələnlərin sayı artır. Biz beynəlxalq tədbirlər keçiririk. Qeyd etdiyim kimi, təkcə «Formula-1» yarışlarının Bakı şəhərinin küçələrində keçirilməsi turist axınına nə qədər təkan verdi. Təhlükəsizlik, sabitlik, qonaqpərvərlik, gözəl iqlim, tarixi abidələrimiz, infrastruktur, 6-sı beynəlxalq olmaqla, 7 aeroport, gözəl avtomobil yollarımız və viza rejiminin sadələşdirilməsi – indi 90-dan çox ölkənin vətəndaşları vizanı aeroportlarda alırlar. İndi bu sahədə də təkmilləşmə işləri aparılacaqdır. Əfsuslar olsun ki, bu sahədə çox böyük pozuntular olmuşdur. Biz vizaları ləğv etdik. Çünki aeroportlarda gələn turistlərə əziyyət verirdilər, əsassız pul tələb edirdilər. Bu biabırçılığı yığışdırmışıq. Bu biabırçılığı, bu pozuntuları, bu cinayəti törədənlər də cinayət məsuliyyətinə cəlb olunub. Hamı bilsin ki, bu cinayətlər cəzasız qalmayacaq. Ancaq biz elə bir sistem yaratmalıyıq ki, turistləri daha çox cəlb edək. İndi aeroportlarda yeni sistem yaradılır və gələn aydan başlayaraq, tətbiq ediləcəkdir. Bizim bütün sərhəd-keçid məntəqələrimizdə qonaqlar üçün maksimum rahat şərait yaradılmalıdır. Çünki bəzi hallarda gələnləri incidirlər, yolda saxlayırlar, onlardan əsassız rüşvət, pul tələb edirlər, dilənçilik edirlər, keçidlərdə duran o adamlar xalqımızı, dövlətimizi biabır edirlər. Mən aidiyyəti qurumlara çox ciddi xəbərdarlıq etdim, onları tənbeh etdim. Bu pozuntular yığışdırılmalıdır. Ölkəmizin imicinə xələl gətirən adamlar

cəzalandırılacaqlar. Sərhəd-keçid məntəqələri elə olmalıdır ki, xaricdən gələn qonaq orada əziyyət çəkməsin.

O ki qaldı təhlükəsizliklə bağlı məsələlərə, indi bizim kifayət qədər imkanımız, texniki imkanlarımız var ki, öz təhlükəsizliyimizi qoruyaq. Ancaq bu, səbəb, bəhanə olmamalıdır ki, sərhədlərdə növbələr yaradılsın və o növbələri keçmək üçün kimdənsə nə isə qopardılsın.

Bəzən hüquq-mühafizə orqanlarının işçiləri hotellərə gəlib əsassız müdaxilə edirlər, qonaqları incidirlər, guya ki, onlar burada hansısa normaları gözləyirlər. Onun arxasında yenə də təmənna, pul qoparmaq, cibini doldurmaq niyyəti vardır. Buna da son qoyulmalıdır. Mən bu barədə dəfələrlə demişəm və bir daha deyirəm, turizm potensialına malik olan hər bir ölkə çalışır ki, turistləri cəlb etsin, onlar üçün şərait yaratsın. Biz son vaxtlara qədər oturub gözləyirdik ki, kimsə gəlib qapımızı döysün. Vətəndaş vizanı almaq üçün bizim səfirliklərə gedirdi, orada da onları incidirdilər, onların qarşısına müxtəlif əsassız tələblər qoyurdular. Bu vizaları ləğv etdik. Ləğv edəndən sonra indi 90-dan çox ölkənin vətəndaşları gəlib vizanı aeroportda alırlar. Xarici həmkarlarımdan biri mənə deyir ki, Siz ləğv etmisiniz, amma indi bizim ölkəmizdən gələn vətəndaşdan fotoşəkil tələb olunur. Mən dəhşətə gəldim. Nə fotoşəkil?! Xaricə gedən bir adam özü ilə fotoşəkilmi aparır?! Nədir-nədir fotoşəklin yoxdur, gəl pulunu ver, keç. Bu dərəcədə biabırçılıq olmaz axı! Biz onları cəzalandırdıq, fotoşəkil məsələsi ortadan qalxdı. Ondan sonra yenə də eşidirəm ki, aeroportlarda xaricdən gələn qonaqlardan növbədənkənar keçmək üçün pul tələb olunur. Bu dərəcədə alçaqlıq, belə biabırçılıq olmaz. Çox ciddi tədbirlər görülüb və bir daha demək istəyirəm ki, əgər bu sahədə və hər hansı bir başqa sahədə belə pozuntular olarsa və ümumiyyətlə, rüşvətxorluqla bağlı əgər bundan sonra bu özbaşınalıq davam edərsə, çox ciddi tədbirlər görüləcək, heç bir keçmiş xidmət nəzərə alınmadan bütün məsul şəxslər cəzalandırılacaqlar.

Turizm sahəsində bizim əlavə addımlarımız dəmir yolu ilə bağlıdır. Mən bu layihəni artıq bəyan etmişəm. Biz bu il Qəbələ şəhərinə dəmir yolu çəkməyə başlayırıq. Bu o bölgəyə turist axınını təmin edəcəkdir. Bu il Qusar rayonuna dəmir yolunun çəkilməsi ilə bağlı tədqiqatlar, sənədləşmə işləri, texniki-iqtisadi əsaslandırma aparılır. Yəqin ki, gələn ildən başlayaraq, biz bu dəmir yollarını əsas turizm yerlərinə çəkəcəyik.

Bu il 3 «ASAN xidmət» Mərkəzi açılır. Onlardan biri fevral ayında Mingəçevir şəhərində istifadəyə verilib. Digər 2 mərkəz isə Şəki və İmişli şəhərlərində açılacaqdır. Daha 5 mərkəzin tikintisi ilə bağlı göstəriş verilibdir. Onlar gələn il açılmalıdır. Beləliklə, gələn ilin sonuna qədər bizdə 20 «ASAN xidmət» Mərkəzi olacaqdır.

Ailə Biznesinə Asan Dəstək mərkəzləri yaradılır. Bunun da həm sahibkarlığın, həm də biznesin inkişafı üçün böyük əhəmiyyəti vardır. ABAD mərkəzlərində rəqabətqabliyyətli məhsullar yaradılır. Mən dövlət şirkətlərinə göstəriş vermişdim və özəl şirkətlərə tövsiyə etmişdim ki, bu sahəyə diqqət göstərsinlər. Bu proses artıq başlanıbdır.

Bu il 5-6 min insan özünüməşğulluq proqramı ilə əhatə ediləcək. Bu, işsizliyin aradan qaldırılması və yoxsulluğun azaldılması istiqamətində önəmli addım olacaqdır. Kifayət qədər vəsait vardır. Sadəcə olaraq, bu işlər düzgün təşkil edilməlidir ki, ehtiyacı olan insanlara pul qazanmaq üçün vasitələr verilsin.

Bu il infrastruktur layihələri ilə bağlı bizim planlarımız çox böyükdür. İlin sonuna qədər ölkəmizdə qazlaşdırılma 95 faizə çatmalıdır. «Şimal-2» elektrik stansiyasının tikintisi başa çatmalıdır. Bu bizə təxminən 400 meqavata yaxın əlavə elektrik enerjisi verəcək. Biz indi elektrik enerjisini qonşu ölkələrə ixrac edirik. Bizdə çox gözəl ixrac potensialı yaradılıbdır. Ölkə daxilində bütün tələbat tam təmin edilir. Ancaq baxmalıyıq ki, bundan sonra bizə, ümumiyyətlə, nə qədər generasiya gücləri lazımdır. Ölkəmizin inkişafını, əhalinin artımını, sənayeləşmə prosesini nəzərə almalıyıq. Yəni böyük inkişafı nəzərə alaraq baxmalıyıq ki,

5 ildən, 10 ildən sonra bizə daxili istehlak üçün nə qədər elektrik enerjisi lazım olacaqdır. Bununla paralel olaraq, biz xarici bazarları təhlil etməliyik ki, 5–10 ildən sonra bu bazarlara nə qədər enerji ixrac edəcəyik. Buna görə də addımlarımızı atmalıyıq – yeni stansiyalar tikilməlidir, yoxsa mövcud olan stansiyalarla kifayətlənməliyik? Biz mütləq alternativ enerji mənbələri yaratmalıyıq – külək, günəş, su-elektrik stansiyaları tikməliyik. Yəni bu sahədə çox ciddi təhlil aparılmalıdır və mənə təqdim edilməlidir.

İçməli su ilə bağlı layihələr uğurla gedir. Demək olar ki, bütün şəhərlərdə bu işlər ya icra edilib, ya da ki, icradadır. Hesab edirəm ki, bu da tarixi nailiyyətdir. Çünki indi Bakı şəhərinin 80 faizdən çoxu sutkaboyu içməli su ilə təmin edilir. Əlbəttə ki, bu rəqəm 100 faiz olmalıdır. Əminəm ki, biz buna da çatacağıq. Bütün bölgələrdə, bütün şəhərlərdə bu layihələr icra edilir və bütün bunlar kəndlərin də böyük hissəsində daim diqqət mərkəzində olmalıdır.

Bu il meliorativ tədbirlər də nəzərdə tutulur. 300-dən çox subartezian quyusu qazılmalıdır. Ən azı 100 min hektar suvarılmayan torpaqlara suyun verilməsi təmin edilməlidir.

Bu il 2000 kilometr uzunluğunda yeni yollar salınacaq – həm magistral, həm şəhərlərarası, həm də kənd yolları. Onlardan biri Sumqayıt–Rusiya sərhədi yoludur. Yeni yoldur, mövcud yola paralel olacaq və bölgənin inkişafı üçün şərait yaradacaqdır. O bölgənin turizm potensialı çox gözəldir. Orada sahilboyu turizm obyektləri yaradıla bilər. 600-dən çox kənd yolu salınacaq. Beləliklə, 2004-cü ildən başlayaraq, bu ilin sonuna qədər salınacaq yolların ümumi uzunluğu 15 min kilometrə çatacaqdır.

Bakı şəhərinin nəqliyyat problemləri kompleks şəkildə həllini tapmalıdır. Burada koordinasiya işləri aparılmalıdır. İndi Bakıda yeni yollar salınır, tunellər tikilir. Bununla da şəhər nəqliyyatı daha da rahatlaşacaqdır. Olimpiya stadionu ilə üzbəüz yeni tunel tikilir. Bu da tıxacların aradan qaldırılması üçün çox önəmlidir. Böyükşor gölü üzərindən yeni genişzolaqlı yol tikilir. Bu da şəhər nəqliyyatı

üçün çox önəmli layihədir. Biz Böyükşor gölünün bir hissəsini təmizlədik. İndi qalan hissənin təmizlənməsi nəzərdə tutulur. Bakıda dairəvi dəmir yolu tikiləcək. Bu məqsədlər üçün bu ilin investisiya proqramında 100 milyon manat vəsait nəzərdə tutulubdur. Bu, şəhər üçün çox rahat nəqliyyat vasitəsi, Bakıətrafı qəsəbələrin inkişafı və orada yaşayan insanların rahatlığı üçün çox önəmli layihə olacaqdır. Metro tikintisi müəyyən fasilədən sonra indi bərpa edilibdir.

Yəni biz bütün bu məsələlərə kompleks şəkildə baxmalıyıq. Avtobusların alınması nəzərdə tutulur, işıqforlar, metro, şəhərətrafı dəmir yolu, taksi dayanacaqları – yəni Bakı şəhərinin nəqliyyat sahəsində vahid idarəetmə olmalıdır ki, paytaxt nəqliyyatı dünyanın aparıcı şəhərlərinin səviyyəsində olsun. Biz indi metro vaqonları, avtobuslar, taksilər alırıq. Ancaq koordinasiya zəifdir. Ona görə bu məsələyə mütləq çox ciddi diqqət göstərilməlidir.

Nəqliyyat sektoru ilə bağlı qeyd etməliyəm ki, bu il biz Bakı Beynəlxalq Dəniz Ticarət Limanının birinci mərhələsinin açılışını qeyd edəcəyik. İndi Ələt limanı fəaliyyət göstərir. Bakı–Tbilisi–Qars dəmir yolunun istismara verilməsi məhz Ələt limanında olmuşdur. Ancaq yaxın gələcəkdə birinci faza tam başa çatacaq. Xəzər dənizinin 15 milyon ton yükaşırma qabiliyyəti olan ən böyük ticarət limanı Azərbaycanda – Ələtdə tikilir.

Giriş sözümdə qeyd etdiyim kimi, biz Azərbaycanı nəqliyyat qovşağına çeviririk. Açıq dənizə çıxışı olmayan ölkə Avrasiyanın nəqliyyat mərkəzlərindən birinə çevrilir. Bakı–Tbilisi–Qars artıq reallıqdır. Əminəm ki, hər il bu yolla daşınan yüklərin həcmi kəskin şəkildə artacaq. Şimal–Cənub nəqliyyat dəhlizini də biz qonşu ölkələrlə birlikdə reallığa çeviririk. Qeyd etməliyəm ki, bütün nəqliyyat layihələrimizin uğurlu həyata keçirilməsinin səbəbi həm bizim iradəmiz, təşəbbüsümüzdür, həm də qonşu ölkələrlə sıx münasibətlərimizdir. Çünki tranzit ölkə – əgər hansısa ölkə tranzit ölkə olmaq istəyirsə – mütləq

qonşularla sıx əlaqədə olmalıdır. Qonşularsız heç bir ölkə tranzit ölkəyə çevrilə bilməz.

Biz indi Şimal–Cənub nəqliyyat dəhlizinin yaradılması ilə ciddi məşğuluq. Onun çatışmayan hissəsi, o cümlədən Azərbaycan tərəfinin iştirakı ilə reallaşacaqdır. Şərq–Qərb nəqliyyat dəhlizi artıq reallıqdır. Biz indi mövcud olan dəmir yolu infrastrukturumuzu modernləşdirməliyik ki, sürət daha da artsın. Çünki Azərbaycan ərazisindən çox böyük yüklər daşınacaqdır.

Sosial infrastrukturla bağlı bu il bir neçə şəhərdə – Qazax, Qobustan, Şəmkir, Quba, Naftalan, Goranboy şəhərlərində yeni Mərkəzi Rayon xəstəxanalarının açılışı nəzərdə tutulur. Füzuli və Qəbələ şəhərlərində xəstəxanaların tikintisi davam etdiriləcək. Onların açılışı gələn il nəzərdə tutulur.

Bu il bölgələrdə 137 modul tipli məktəb tikiləcəkdir. Bu məktəblərin tikintisi, demək olar ki, bölgələrdə qəzalı vəziyyətdə olan məktəblərin problemini həll etmiş olacaq. Bakı şəhərində isə yay aylarında 10-dan çox məktəb əsaslı təmir ediləcəkdir.

Bu il 5 milyondan çox insan yenə də tibbi müayinədən keçir. Bu da Azərbaycan reallığıdır. Azərbaycan dövləti vətəndaşları bu xidmətlə təmin edir. Bizim bütün bölgələrdə mövcud olan müasir tibb ocaqları belə imkanları yaradır. Bu yenə də bizim sosial siyasətimizin göstəricisidir. Hazırda Azərbaycanda 4 Olimpiya İdman Kompleksi tikilir. Onlardan ikisi bu il istifadəyə verilməlidir.

Məcburi köçkünlər üçün bu il yeni evlər istifadəyə veriləcəkdir. Ən azı 4000 ailə – 20 min köçkün yeni evlərlə, mənzillərlə təmin ediləcək. Keçən il 2300 ailə – yəni 12 min köçkün evlərlə təmin edilib. Beləliklə, ilin sonuna qədər evlərlə, mənzillərlə təmin edilmiş köçkünlərin sayı təxminən 285–290 minə çatacaqdır.

Qeyd etdiyim kimi, «Cənub Qaz Dəhlizi» uğurla icra edilir. Mən bəzi rəqəmləri səsləndirmək istəyirəm. «Şahdəniz-2» layihəsinin icrası 99 faizdir. «Cənubi Qafqaz» kəməri – 96 faiz, TANAP–92 faiz. Yəni bu layihələrdə Azərbaycan aparıcı rol

oynayır. Biz eyni zamanda, TAP layihəsinin səhmdarıyıq. Orada isə Azərbaycanın icra səviyyəsi 68 faizdir. Yəni «Cənub Qaz Dəhlizi» artıq reallıqdır. Bu reallığı biz yaratmışıq və bu, ölkəmizin uzunmüddətli inkişafı üçün xüsusi əhəmiyyətə malik olan layihədir.

Gələn ay biz Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini qeyd edəcəyik. Mən bu ili «Azərbaycan Xalq Cümhuriyyəti ili» elan etmişəm. İlin əvvəlindən biz bu gözəl tarixi qeyd edirik. Bu tarixə nəzər salarkən görürük ki, Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü, indiki qədər qüdrətli dövlət olmamışdır. Bunu biz yaratmışıq. Azərbaycan xalqının iradəsi, Azərbaycan dövlətinin siyasəti bu gün ölkəmizin inkişafı üçün əsas amildir.

Mən şübhə etmirəm ki, Azərbaycan bundan sonrakı dövrdə də uğurla inkişaf edəcək. Bizim bütün planlarımız həyata keçirilir. Verdiyimiz bütün vədlər yerinə yetirilir. Son 15 il ərzində bir dənə də yerinə yetirilməyən vəd olmamışdır. Bu gün Azərbaycanın reallıqları onu göstərir ki, biz düzgün yoldayıq. Bu yolla uğurla gedəcəyik. Sağ olun.

**MACARISTAN RESPUBLİKASININ
BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ
CƏNAB VİKTOR ORBANA**

Hörmətli cənab Baş Nazir!

Başçılıq etdiyiniz koalisiyanın ölkənizdə keçirilmiş parlament seçkilərində qələbəsi münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Seçkilərin nəticələri həyata keçirdiyiniz siyasətə xalqınızın dəstəyini, Sizə olan etimadını bariz şəkildə əks etdirir. İnanıram ki, Azərbaycan ilə Macarıstan arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin hərtərəfli inkişafı yolunda birgə səylərimizi bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Macarıstan xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 aprel 2018-ci il*

**KOSTA-RİKA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KARLOS ALVARADO KESADAYA**

Zati-aliləri!

Kosta-Rika Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Kosta-Rika arasındakı münasibətlər dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qarşıdakı məsul işinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 aprel 2018-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ SEÇKİLƏRİNƏ SƏSVERMƏDƏ İŞTİRAK

*11 aprel 2018-ci il*

*Müasir müstəqil Azərbaycanın tarixində aprelin 11-də növbəti Prezident seçkiləri keçirilmişdir.*

*Səsvermə prosesinin başlandığı ilk dəqiqələrdən Bakı şəhərinin 29 saylı Səbail seçki dairəsinin 6 saylı orta məktəbində yerləşən 6 saylı seçki məntəqəsində xüsusi canlanma müşahidə olunurdu.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xanımı Mehriban Əliyeva və ailə üzvləri ilə birlikdə seçki məntəqəsinə gəldi.*

*Prezident İlham Əliyev səsvermə otağına daxil olub seçki bülletenini alaraq, kabinəyə keçdi və sonra bülleteni qutuya saldı. Bu anı respublikamızın və xarici ölkələrin mətbuat orqanlarının, televiziya kanallarının nümayəndələri izlədilər.*

*Sonra Mehriban xanım Əliyeva və ailə üzvləri səs verdilər.*

* * *

*Bakı şəhərinin 29 saylı Səbail seçki dairəsinin 6 saylı seçki məntəqəsində 582 seçici qeydiyyata alınıb.*

*Məntəqədə səsvermənin gedişini xarici müşahidəçilər, habelə qeyri-hökumət təşkilatlarının, müxtəlif siyasi partiyaların və Prezidentliyə namizədlərin nümayəndələri izləyirdilər.*

*Beynəlxalq müşahidəçi, Moldova Parlamentinin vitse-spikeri Vladimir Vityuk bildirdi ki, seçicilər öz iradələrini sərbəst surətdə ifadə edə bilirlər. O, Azərbaycan vətəndaşlarının res-*

*publikanın taleyinə olan marağının və səsvermə prosesində fəal iştirakının şahidi olduğunu dedi və qeyd etdi ki, səsvermənin gedişi Prezident seçkilərinin mütəşəkkil, demokratik və şəffaf şəkildə başa çatacağını göstərir.*

*Böyük Britaniya Parlamentinin üzvü lord Devid Çarlz Evans Prezident seçkilərinin yüksək səviyyədə təşkil olunduğunu vurğulayaraq dedi ki, seçicilərin fəallığı çox yüksəkdir. O, bir neçə seçki məntəqəsində olduğunu və prosesin qanunvericiliyə uyğun, demokratik şəraitdə davam etdiyini bildirdi. Bunlar deməyə əsas verir ki, Azərbaycanda Prezident seçkiləri mükəmməl təşkil olunubdur.*

*Qeyd edək ki, Azərbaycanın hər yerində olduğu kimi, 29 saylı Səbail seçki dairəsinin 6 saylı seçki məntəqəsində də seçicilər xalqımızın xoşbəxt gələcəyinə, dövlətçiliyimizin daha da möhkəmləndirilməsinə, iqtisadi dirçəlişə, dinamik inkişafa, sabitliyə və əmin-amanlığa səs verdilər.*

## SEÇKİLƏRİN NƏTİCƏLƏRİ İLƏ BAĞLI AZƏRBAYCAN XALQINA MÜRACİƏT

*11 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də keçirilən seçkilərdə ona göstərilən böyük etimada görə xalqımıza müraciət edərək, minnətdarlığını bildirmişdir.*

### Azərbaycan Prezidenti İlham Əliyevin müraciəti

Əziz həmvətənlər!

Prezident seçkilərində Azərbaycan xalqı yenidən mənə böyük etimad göstərmişdir. Bu etimada, bu böyük dəstəyə görə doğma xalqıma minnətdarlığımı bildirmək istəyirəm.

Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss edirəm. Bu dəstək mənə güc verir. Bu dəstək bizim inkişafımız üçün əsas şərtdir. Xalq–iqtidar birliyi Azərbaycanda inkişafımızın əsas amilidir. Bu seçkilərdə Azərbaycan xalqı sabitliyə, təhlükəsizliyə, inkişafa, tərəqqiyə səs vermiş, son 15 il ərzində görülən işlərə yüksək qiymət vermişdir. Bütün bu uğurları biz sizinlə birlikdə qazandıq.

Xalq–iqtidar birliyi, bizim məqsədyönlü siyasətimiz bu gün Azərbaycanı qüdrətli dövlətə çeviribdir. Azərbaycanın beynəlxalq nüfuzu artır, biz dünya miqyasında layiqli yer tuta bilmişik. Bu gün Azərbaycan dünyada çox böyük hörmətə, rəğbətə, dəstəyə malik olan ölkədir. Biz etibarlı tərəfdaşıq, bizimlə hesablaşırlar və biz beynəlxalq aləmdə öz mövqelərimizi yüksək dərəcədə gücləndirə bilmişik.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı prinsipial mövqemizdən bir addım da geriyə

atmamışıq. Bizim prinsipial mövqemiz daha da güclənir. Bu münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır, bunun başqa yolu yoxdur. Son illər ərzində bir çox mötəbər beynəlxalq təşkilatlar bizim mövqemizi, ədaləti dəstəkləyən bir sıra qərar və qətnamələr qəbul etmişlər. Biz böyük diplomatik qələbələrə nail olmuşuq. Eyni zamanda, döyüş meydanında da böyük qələbəyə nail olmuşuq. Azərbaycan əsgəri, Azərbaycan Ordusu, Azərbaycan dövləti işğal altında olan torpaqlarımızın bir hissəsini işğalçılardan azad edibdir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan təmizlənib və o torpaqlarda bu gün Azərbaycan bayrağı dalğalanır. İşğaldan azad edilmiş torpaqlara həyat qayıdır, insanlar qayıdır. O torpaqlarda Prezident seçkiləri keçirilir. Gün gələcək və bu gün hələ də işğal altında olan bütün torpaqlarda Azərbaycan bayrağı qaldırılacaq, bu torpaqlarda Prezident seçkiləri keçiriləcək, Azərbaycan Prezidenti seçiləcəkdir.

Biz daha güclü olmalıyıq. Güclü olmaq üçün daha güclü iqtisadiyyat qurmalıyıq. Son 15 il ərzində iqtisadi sahədə Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır. İqtisadiyyatımız 3,2 dəfə artıbdır və bu gün Azərbaycan dünyanın ən rəqabətqabliyyətli ölkələri sırasındadır. Rəqabətqabliyyətliliyinə görə biz 35-ci yerdəyik.

Siyasətimizin mərkəzində həmişə Azərbaycan vətəndaşı, onun problemləri, qayğıları, onun rifahı olubdur. Son 15 il ərzində maaşlar və pensiyalar 8 dəfə artıbdır. Bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Azərbaycan bu illər ərzində kosmik dövlətə çevrilibdir. Biz ən qabaqcıl texnologiyaları ölkəmizə gətiririk, tətbiq edirik və texnoloji, elmi inkişaf gələcək fəaliyyətimiz üçün də əsas prioritetlərdən biri olacaqdır.

Bir sözlə, bütün istiqamətlər üzrə nəticələr göz qabağındadır. Azərbaycan nəhəng enerji və nəqliyyat layihələrini icra edir. Bizim təşəbbüsümüz və fəal iştirakımızla o layihələr əsasında Avrasiyanın enerji və nəqliyyat xəritələri yenidən tərtib olunur. Azərbaycan dövləti heç vaxt bugünkü qədər güclü olmamışdır.

Biz güclü dövlət qurmuşuq, daha da güclü Azərbaycan qurmalıyıq və əminəm ki, quracağıq.

Keçdiyimiz yol şərəfli yoldur, qələbələr, uğurlar yoludur. Əminəm ki, biz həmişə qələbələr yolu ilə gedəcəyik. Yeni qələbələrə doğru irəli!

## ŞANXAY ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ RƏŞİD ƏLİMOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) baş katibi Rəşid Əlimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Şanxay Əməkdaşlıq Təşkilatının baş katibi Rəşid Əlimov Azərbaycan xalqının güclü dəstəyi ilə Prezident seçkilərində qazandığı inamlı qələbə münasibətilə dövlətimizin başçısını səmimi-qəlbdən təbrik etdi və seçkiləri müşahidə etmək üçün dəvətə görə minnətdarlığını bildirdi. Təmsil etdiyi təşkilatın önəminə toxunan Rəşid Əlimov dedi ki, bu gün Şanxay Əməkdaşlıq Təşkilatına üzv olan dövlətlərin əhalisinin ümumi sayı 3 milyarddan çoxdur, ərazisi isə Avrasiya qitəsinin təxminən 3,2 hissəsini təşkil edir və təşkilatın dialoq üzrə tərəfdaş ölkə olan Azərbaycanla uğurlu əməkdaşlığı həyata keçirilir. Qonaq onu da xüsusi qeyd etdi ki, təşkilatın tarixində ilk dəfə olaraq dialoq üzrə tərəfdaş ölkədə müşahidə missiyası fəaliyyət göstərir. Bunu Şanxay Əməkdaşlıq Təşkilatı ilə Azərbaycan arasında inkişaf edən xüsusi əməkdaşlığın bariz göstəricisi kimi dəyərləndirən Rəşid Əlimov bu əlaqələri alqışladıqlarını qeyd etdi. Rəhbərlik etdiyi müşahidə missiyasının tərkibinə təşkilatın bütün üzv dövlətlərinin nümayəndələrinin daxil olduğunu vurğulayan qonaq missiyanın bir həftə ərzində ölkəmizdə fəaliyyət göstərdiyini bildirdi. O, müşahidə missiyasının sərbəst şəkildə ölkəmizin müxtəlif regionlarında ümumi seçki məntəqələrinin təqribən 7 faizində müşahidələr apardıqlarını, seçki məntə-*

*qələrində işlərin yüksək səviyyədə, Azərbaycan qanunvericiliyinə uyğun şəkildə təşkil edildiyinin şahidi olduqlarını diqqətə çatdırdı. Qonaq seçki məntəqələrində istənilən hər hansı bir sənədlə tanış olmaq imkanı əldə etdiklərini və seçki proseslərinin açıq və şəffaf şəkildə olduğunu müşahidə etdiklərini bildirdi. Seçki komissiyaları üzvlərinin böyük peşəkarlıq nümayiş etdirdiyini vurğulayan Şanxay Əməkdaşlıq Təşkilatının baş katibi Rəşid Əlimov məntəqələrdə əhalinin bütün təbəqələrinə yüksək diqqət göstərildiyini qeyd etdi. O, digər seçki missiyaları nümayəndələrinin də hər hansı bir seçki məntəqəsində ciddi qanun pozuntusunun qeydə alınmadığını söylədiklərini də vurğuladı. Şanxay Əməkdaşlıq Təşkilatının baş katibi Rəşid Əlimov 400-ə yaxın məntəqədə müşahidə aparan missiya adından bildirdi ki, ölkəmizdə Prezident seçkiləri tam açıq, demokratik, şəffaf şəkildə keçirilibdir. Bir daha inamlı qələbə münasibətilə dövlət başçısını təbrik edən Rəşid Əlimov dost Azərbaycan xalqına uğurlar və firavanlıq arzulayaraq qeyd etdi ki, Azərbaycan inkişaf edir və ölkənin hər bir vətəndaşı gələcəyini məhz Prezident İlham Əliyevlə görür.*

*Xoş sözlərə görə təşəkkürünü bildirən dövlətimizin başçısı Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı ilə fəal əməkdaşlıq həyata keçirdiyini məmnunluqla vurğuladı. Ölkəmizlə təşkilatın bütün üzv dövlətləri arasında konstruktiv, dostluq münasibətlərinin mövcud olduğunu və bu münasibətlərin tarixi keçmişə əsaslandığını, ümumi tarixə və maraqlara söykəndiyini bildirdi. Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatına beynəlxalq aləmdə çox mühüm rol oynayan bir təşkilat kimi baxdığını qeyd edən Prezident İlham Əliyev bu təşkilatın bütün dünyada sabitliyin bərqərar olması işinə fəal töhfə verdiyini vurğuladı. Dövlətimizin başçısı Şanxay Əməkdaşlıq Təşkilatının müşahidə missiyasının ilk dəfə olaraq Azərbaycanda həyata keçirilməsinin önəmini qeyd etdi və bunu təşkilatın ölkəmizlə olan münasibətlərinin, eyni zamanda, əlaqələrimizin yaxşı perspektivlərinin göstəricisi kimi dəyərləndirdi. Dövlət başçısı*

*Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı ilə əlaqələri gücləndirmək əzmində olduğunu və bu təşkilatın bir sıra layihələrində iştirak etməyə maraq göstərdiyini nəzərə çatdırdı. Prezident İlham Əliyev qeyd etdi ki, bu qurumun üzv dövlətləri ilə uğurlu ikitərəfli münasibətlər ümumi əməkdaşlıq platformasının yaranması işinə xidmət edir və bu ölkələrlə əməkdaşlıq əlaqələri Azərbaycanın xarici siyasətinin prioritetlərindən birini təşkil edir.*

*Seçkilərin keçirilməsinə verilən yüksək qiymətə görə minnətdarlığını bildirən dövlət başçısı ölkəmizin bu seçkilərin maksimum dərəcədə şəffaf, demokratik və Azərbaycan xalqının iradəsinin tam ifadə olunması şəklində keçirilməsi üçün böyük hazırlıq işlərinin görüldüyünü bildirdi. Prezident İlham Əliyev seçki kampaniyasının azad, konstruktiv şəkildə keçirildiyini vurğulayaraq, bunu Azərbaycan cəmiyyətində hökm sürən siyasi mədəniyyətin təzahürü kimi dəyərləndirdi və qeyd etdi ki, bütün kampaniya dövründə namizədlər üçün ən əlverişli şərait yaradılmışdır. Dövlət başçısı seçkilərin nəticələrinin Azərbaycan xalqının son illər ölkədə həyata keçirilən işlərə verdiyi qiymətin ifadəsi olduğunu bildirdi və qeyd etdi ki, bütün bunlar Azərbaycanın müstəqil dövlət kimi gələcəkdə daha da möhkəmlənməsi və inkişaf etməsi işinə öz töhfəsini verir.*

## AVSTRALİYA–AZƏRBAYCAN PARLAMENTLƏRARASI DOSTLUQ QRUPUNUN ÜZVÜ STİV GEORGANASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də Avstraliya Parlamentinin nümayəndələr palatasının deputatı, Avstraliya–Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun üzvü Stiv Georganasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Avstraliya İttifaqı Parlamentinin nümayəndə heyətinin üzvləri Azərbaycana səfərlərindən məmnunluqlarını ifadə edərək, seçki məntəqələri bağlandıqdan dərhal sonra keçirdikləri brifinq zamanı bütün seçki prosesinin şəffaf şəkildə keçdiyini, seçki məntəqələrində seçici fəallığının və səsvermənin demokratik şəraitdə aparıldığının şahidi olduqlarını bildirdilər.*

*Dövlətimizin başçısı ölkəmizdə seçkilərin qanunvericiliyə uyğun, açıq və şəffaf şəkildə keçirilməsi, bununla da əhalinin iradəsini sərbəst ifadə etməsi üçün hər cür şəraitin yaradıldığını bildirdi. Prezident İlham Əliyev seçicilərin səsvermədə çox fəal şəkildə iştirak etdiklərini məmnunluqla qeyd edərək, seçkilərin Azərbaycanın üzv olduğu Avropa Şurası qarşısında götürdüyü öhdəliklərə tam uyğun şəkildə keçirildiyini vurğuladı.*

## HACI CAVAD MƏSCİDİNİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*12 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 12-də Bakının Yasamal rayonunda Hacı Cavad məscidinin yeni binasının açılışı mərasimində iştirak etmişlər.*

*Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov Prezident İlham Əliyevə görülən işlər barədə ətraflı məlumat verdi.*

*Azərbaycan Prezidentinin tapşırığı ilə Yasamal rayonu, Abbas Mirzə Şərifzadə küçəsində Hacı Cavad məscidinin yeni binasının tikintisinə 2017-ci il iyulun 2-də başlanılmışdır. Prezident İlham Əliyev məscidin yeni binasının tikintisini daim diqqət mərkəzində saxlayıb, burada həyata keçirilən inşaat işlərinin gedişi ilə maraqlanıb, görülən işlərlə bağlı müvafiq tapşırıqlarını veribdir.*

*Hacı Cavad məscidinin yeni binası 1200 kvadratmetr ərazini əhatə edir. Yalnız ibadət zalının sahəsi 400 kvadratmetrə yaxındır. Milli memarlıq üslubunda və zövqlə inşa olunmuş ibadət evinin günbəzinin hündürlüyü 18, minarənin hündürlüyü isə 33,7 metrdir. Məscidin daxilində xüsusi bəzək elementlərindən istifadə olunub, günbəzin kənarlarına Quran ayələri yazılıbdır. Məscidin müqəddəs Qurandan surələr yazılmış divar və sütunları isə Azərbaycan nəqqaşlıq məktəbinin və Şərq ornamentlərinin nadir nümunələrindən istifadə olunaraq, dini rəmzlərlə bəzədilibdir.*

*Eyni vaxtda 500-dən çox insanın ibadət edə biləcəyi məscidin 1-ci mərtəbəsi kişilər, 2-ci mərtəbəsi isə qadınlar üçün nə-*

*zərdə tutulub. Döşəməyə xüsusi olaraq Hacı Cavad məscidi üçün toxunan yeni Namazgah xalı döşənib. Məscidin daxilində müasir texnologiyalarla işləyən havalandırma sistemləri quraşdırılıbdır.*

*Prezident İlham Əliyevin maddi mədəniyyət abidələrimizin, müqəddəs ocaqlarımızın bərpası ilə bağlı imzaladığı fərman və sərəncamlar, verdiyi tapşırıqlar sırasında Hacı Cavad məscidinin yeni binasının inşası da əksini tapıb. Son illərdə bütün dini ocaqlarda həyata keçirilən bərpa və yenidənqurma işləri, yeni dini ocaqların inşası dövlət başçısının xalqımızın milli-mənəvi dəyərlərinə, mədəni və tarixi zənginliyinə verdiyi qiymətin gözəl nümunəsidir.*

*Dövlət başçısı Hacı Cavad məscidinin dini icma üzvləri ilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Hacı Cavad məscidinin yeni binasının açılışı münasibətilə sizi təbrik edirəm. Bu çox gözəl hadisədir, çox gözəl məsciddir. Azərbaycanın ənənəvi memarlıq üslubunda tikilmiş məsciddir. Daxili tərtibatı, xarici görünüşü göz oxşayır.

Siz Hacı Cavad məscidi icmasının nümayəndələri yaxşı bilirsiniz ki, məscidin əvvəlki binası artıq yararsız vəziyyətdə idi. Məscidin ətrafında gedən quruculuq işləri, ictimai zonaların, yol qovşaqlarının yaradılması zamanı bu məsələ üzə çıxdı ki, məscid yararsız, demək olar ki, qəzalı vəziyyətdədir. Mən bunu biləndən sonra dərhal göstəriş verdim ki, tezliklə həmin Hacı Cavad məscidinin yaxınlığında məscid üçün yeni bina tikilsin və yeni binaya Hacı Cavad adı verilsin. Çünki bu məscid Hacı Cavad məscididir. Sadəcə olaraq, onun yeni binasıdır.

Qısa müddət ərzində məscid tikildi və bu gün sizin sərəncamınıza verilir. Çox gözəl memarlıq abidəsidir. Minarə tikilib. Əvvəlki məsciddə minarə yox idi. İnzibati bina tikilib, ətraf abadlaşdırılıb. Mənə verilən məlumata görə, məsciddə eyni vaxtda 500, bəlkə də 600 insan ibadət edə bilər.

Məscid dövlət vəsaiti hesabına tikilib. Son vaxtlar bizim bütün tarixi məscidlərimiz dövlət tərəfindən əsaslı şəkildə təmir edilib və yeni məscidlər tikilibdir. Onların sırasında Bibiheybət məscidi, Təzəpir məscidi də vardır. İndi Təzəpir məscidinin ətrafında böyük quruculuq işləri aparılır. Siz də bunu yaxşı bilirsiniz, çünki Hacı Cavad məscidi elə o ərazidə yerləşirdi. Onun qabağı açılır, böyük park salınacaq, yol infrastrukturu yaradılacaqdır. Digər tarixi məscidlərimiz əsaslı şəkildə təmir olunubdur: Əjdərbəy məscidi, Şamaxı Cümə məscidi, hansı ki, Qafqazın ən qədim məscidlərindən biridir, 743-cü ildə tikilmişdir. Şamaxı rayonunda daha bir qədim məscid bu yaxınlarda əsaslı şəkildə təmir olunubdur, Dəmirçi kəndində. O da eyni vaxta təsadüf edir. İmamzadə Tarixi Dini Kompleksin tamamilə yenidən qurulması böyük tarixi layihə idi. Biz qədim ibadət yerini qorumaqla, yeni məscid tikdik. Orada da ictimai binalar tikildi, ətraf abadlaşdırıldı. Bakıda Heydər məscidi mənim təşəbbüsümlə bir neçə il bundan əvvəl tikildi, gözəl, əzəmətli məsciddir. Cocuq Mərcanlı işğaldan azad olunduqdan sonra biz bu kənddə Şuşa məscidinin bənzəri olan məscid tikdik. Mən bu məscidin açılışında iştirak etmişəm. Deməkolar ki, bizim son vaxtlar tikdiyimiz və əsaslı şəkildə bərpa etdiyimiz bütün məscidlərin açılışlarında mən şəxsən iştirak etmişəm.

Dövlət tərəfindən bu işlərin görülməsi dövlət–din münasibətlərinin yüksək səviyyədə olmasından xəbər verir. Bu münasibətlər Azərbaycanda nümunəvi xarakter daşıyır. Bildiyiniz kimi, dünən Prezident seçkiləri keçirilibdir və seçkilərdən sonra birinci tədbir, bax, bugünkü tədbirdir. Bu da dövlət–din münasibətlərinin bariz nümunəsidir, onun təzahürüdür. Mən çox şadam ki, son illər ərzində Azərbaycanda bizim dini mədəni abidələrimiz qorunur, bərpa olunur. Bu bizim tariximizdir.

Dini dəyərlər bizim milli-mənəvi dəyərlərimizin tərkib hissəsidir. Azərbaycan xalqı öz köklərinə, öz ənənələrinə sadiq olan xalqdır. Təsadüfi deyil ki, keçən il Azərbaycanda «İslam həm-

rəyliyi ili» elan olunmuşdur. İl ərzində biz nəinki ölkəmizdə, demək olar ki, bütün dünyada konfranslar, tədbirlər keçirmişik. Ötən ilin sonunda Bakıda yekun konfrans keçirildi və dünyanın diqqətini cəlb etdi. İslam Həmrəyliyi oyunları Bakıda keçirilmişdir. Bütün müsəlman aləmini biz Bakıda qonaq etdik, onlara öz qonaqpərvərliyimizi göstərdik.

Yəni islam həmrəyliyi üçün Azərbaycan çox böyük işlər görür. Bu işlər bütün islam aləmində yüksək qiymətləndirilir. Azərbaycan müsəlmanları bunu yüksək qiymətləndirirlər. Bizim siyasətimiz əməli işlərdə özünü göstərir. Bax, bu gözəl memarlıq abidəsi bu gün Hacı Cavad məscidinin icmasına təhvil verilir. Mən sizi bu gözəl hadisə münasibətilə təbrik edirəm, sizə uğurlar arzulayıram.

**Xanmirzə Bağırov** (*Yasamal rayon sakini*): Cənab Prezident, icazə verin, Sizi yenidən Prezident seçilməyiniz münasibətilə təbrik edək və Azərbaycan Respublikasının bütün vətəndaşlarının, o cümlədən biz dindarların hüquqlarının müdafiəsi istiqamətindəki fəaliyyətinizdə Sizə uğurlar arzulayaq.

Cənab Prezident, hamımıza məlumdur ki, Hacı Cavad məscidinin yenidən daha müasir və möhtəşəm memarlıq kompleksi kimi inşa edilməsi bilavasitə Sizin xüsusi sərəncamınızla mümkün olub. Qısa bir zamanda bu gözəl məscidin dindarların istifadəsinə verilməsi Sizin və Mehriban xanımın diqqətinin nəticəsidir. Ona görə də biz, cənab Prezident, dindarlara yaradılan bu şəraitə görə icma adından, ağsaqqallar adından Sizə və Mehriban xanıma dərin minnətdarlığımızı bildiririk.

**İlham Əliyev:** Çox sağ olun.

**Dindarlar:** Çox sağ olun.

*Prezident İlham Əliyevə Quran hədiyyə edildi.*

**Əbdüləhəd Tağıyev** (*rayon sakini*): Arzu edirik ki, Sizin rəhbərliyiniz altında bu dəfə seçildiyiniz müddətdə Qarabağ işğaldan azad edilsin, oradakı məscidlər bərpa olunsun və orada belə görüşlər keçirək. Bu, ən böyük arzumuzdur. Sağ

olun. Sizi Prezident seçilməyiniz münasibətilə bir daha təbrik edirik.

**İ l h a m Ə l i y ev:** İnşallah. Çox sağ olun.

* * *

*Xatırladaq ki, 2017-ci ilin aprel ayında Prezident İlham Əliyev Yasamal rayonunun «Sovetski» adlanan ərazisində Hacı Cavad məscidinin sökülməsini dayandırmış, məsələnin hərtərəfli və obyektiv araşdırılması üçün müvafiq komissiyanın yaradılması barədə göstəriş vermişdi. Komissiyanın qənaətinə uyğun olaraq, Prezident İlham Əliyev yerli icmanın da rəyi nəzərə alınmaqla, yeni məscidin tikilməsi və yalnız bundan sonra Hacı Cavad məscidinin sökülməsi məsələsinə baxılması barədə qərar vermişdi. Bundan sonra dövlət başçısının tapşırığına uyğun olaraq, Yasamal rayonu, Abbas Mirzə Şərifzadə küçəsində daha geniş, gözəl və müasir məscidin tikilməsi üçün yer və vəsait ayrılmış və tikinti işlərinə başlanılmışdır.*

*Məscidin ərazisində, həmçinin imam, dərs, kitabxana, qadın və kişilər üçün dəstəmaz otaqları və köməkçi tikililər inşa olunub. Məscid üçün içməli su anbarı, ayrıca qazanxana tikilib, həmçinin ayrıca parkinq sahəsi də yaradılıbdır.*

*Hacı Cavad məscidinin tarixini əks etdirən daş kitabələr yaxın vaxtlarda yeni ünvana gətiriləcək. Beləliklə, dini etiqad azadlığına və milli-mənəvi dəyərlərimizə Prezident İlham Əliyevin göstərdiyi böyük diqqət və qayğının təzahürü olan bu məscid milli memarlığımızın zəngin ənənələrini və gözəlliyini özündə ehtiva etməklə, Azərbaycan dindarlarına gözəl töhfədir.*

## MDB İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ-İCRAÇI KATİBİ SERGEY LEBEDEV İLƏ GÖRÜŞ

*12 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də MDB-dən seçkilərdə müşahidəçilər missiyasının rəhbəri, MDB İcraiyyə Komitəsinin sədri-icraçı katibi Sergey Lebedevi qəbul etmişdir.*

*Sergey Lebedev seçkilərdə inamlı qələbə qazanması münasibətilə dövlətimizin başçısına təbriklərini çatdıraraq dedi ki, seçkilərin nəticələri Azərbaycan xalqının ona nə dərəcədə hörmət bəslədiyinin təzahürüdür. MDB İcraiyyə Komitəsinin sədri əlavə etdi ki, Prezident İlham Əliyev bütün Müstəqil Dövlətlər Birliyi məkanında böyük nüfuza malikdir. Sergey Lebedev dövlət başçısına MDB-nin fəaliyyətinə verdiyi dəstəyə görə minnətdarlığını bildirdi və İlham Əliyevin növbəti Prezidentlik fəaliyyəti dövründə də Azərbaycanın bu təşkilatla fəal əməkdaşlıq həyata keçirəcəyinə əminliyini ifadə etdi. Rəhbərlik etdiyi missiyaya 8 dövlətdən 221 müşahidəçinin daxil olduğunu vurğulayan qonaq nümayəndə heyəti adından Azərbaycan xalqına və ölkəmizə firavanlıq və uğurlu inkişaf arzuladı.*

*Xoş sözlərə və təbrikə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev xeyli sayda müşahidəçinin daxil olduğu MDB müşahidəçilər missiyasının fəaliyyətinin önəmini qeyd etdi. MDB ilə əlaqələrə toxunan dövlət başçısı ölkəmizin bu əməkdaşlığa böyük önəm verdiyini bildirərək qeyd etdi ki, Azərbaycan tərəfi hər zaman bu təşkilatın daha da möhkəmləndirilməsi istiqamətində səylərin gücləndirilməsini*

*vacib hesab edir. Prezident İlham Əliyev Sergey Lebedevin MDB-nin beynəlxalq nüfuzunun artması və inteqrasiya proseslərinin gücləndirilməsi istiqamətində fəaliyyətini yüksək qiymətləndirdi.*

*Azərbaycanın MDB-nin fəal üzvü olduğunu vurğulayan dövlət başçısı bildirdi ki, ölkəmiz bundan sonra da bu təşkilat çərçivəsində təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsi ilə bağlı əməkdaşlığın daha da gücləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəkdir.*

## MƏRKƏZÇİ DEMOKRATLAR İNTERNASİONALININ VİTSE-PREZİDENTİ MARİO DAVİD İLƏ GÖRÜŞ

*12 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də Mərkəzçi Demokratlar İnternasionalının vitse-prezidenti Mario Davidi qəbul etmişdir.*

*Azərbaycanda keçirilən Prezident seçkilərində müşahidəçi kimi iştiraklarından məmnun qaldıqlarını qeyd edən Mario David dünən bir neçə seçki məntəqəsində səsvermə prosesini izlədiklərini bildirərək, seçkilərin yaxşı təşkil olunduğunu, seçicilərin səsvermədə fəal iştirak etdiklərini vurğuladı.*

*Prezident İlham Əliyev ölkəmizdə seçkilərin azad, demokratik və şəffaf şəraitdə keçirilməsi üçün hər cür şəraitin yaradıldığını qeyd etdi.*

## TÜRKİYƏ–AZƏRBAYCAN PARLAMENTLƏRARASI DOSTLUQ QRUPUNUN HƏMSƏDRİ NECDƏT ÜNÜVARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də Türkiyə–Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun həmsədri Necdət Ünüvarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*İnamlı qələbə münasibətilə Prezident İlham Əliyevi təbrik edən Necdət Ünüvar böyük müşahidəçi heyəti ilə ölkəmizə gəldiyini və ayrı-ayrı seçki məntəqələrində müşahidələr apardıqlarını, xalqın seçkilərə böyük maraq göstərdiyini və səsvermə zamanı heç bir qanun pozuntusu ilə rastlaşmadıqlarını qeyd etdi.*

*Prezident İlham Əliyev seçkilər başa çatdıqdan sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla telefon danışığını və Türkiyə Respublikasının Baş Naziri Binəli Yıldırımın ona ünvanladığı təbrik məktubunu məmnunluqla xatırlatdı.*

*Dövlətimizin başçısı seçkilərin maksimum şəffaf keçirilməsi və Azərbaycan xalqının iradəsini əks etdirməsi üçün bütün səylərin göstərildiyini dedi. Seçkilərdə iştirak edən insanların sayının kifayət qədər yüksək olduğunu vurğulayan Prezident İlham Əliyev qeyd etdi ki, bu, ölkəmizi bundan sonra da inamla irəli aparmaq üçün bizə əlavə güc verir. Dövlət başçısı Azərbaycan–Türkiyə dostluq və qardaşlıq əlaqələrinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini ifadə etdi.*

## AVROPA MÜHAFİZƏKARLAR VƏ REFORMİSTLƏR QRUPUNUN AZƏRBAYCANDA SEÇKİ MÜŞAHİDƏ MİSSİYASININ RƏHBƏRİ KOZMA ZLOTOVSKİ İLƏ GÖRÜŞ

*12 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də Avropa Parlamentində Avropa Mühafizəkarlar və Reformistlər Qrupunun Azərbaycanda seçki müşahidə missiyasının rəhbəri Kozma Zlotovskini qəbul etmişdir.*

*Seçkilərdə qazandığı qələbə münasibətilə Prezident İlham Əliyevi təbrik edən Avropa Mühafizəkarlar və Reformistlər Qrupunun Azərbaycanda seçki müşahidə missiyasının rəhbəri Kozma Zlotovski müxtəlif seçki məntəqələrində olduqlarını və seçkilərin yüksək səviyyədə təşkil edildiyini vurğuladı.*

*Dövlətimizin başçısı seçkilərin beynəlxalq standartlara uyğun keçirilməsi və müşahidəçilərin azad surətdə müşahidə aparmaları üçün bütün şəraitin yaradıldığını qeyd etdi.*

## PREZİDENT SEÇKİLƏRİNDƏ İNAMLI QƏLƏBƏ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN KONSERT PROQRAMINDA İŞTİRAK

*12 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri aprelin 12-də Azərbaycanda keçirilən Prezident seçkilərində İlham Əliyevin inamlı qələbə qazanması münasibətilə Heydər Əliyev Mərkəzinin qarşısındakı parkda təşkil olunmuş möhtəşəm konsert proqramında iştirak etmişlər.*

**Murad Dadaşov** (*televiziya aparıcısı, Əməkdar artist*): Əziz dostlar, dünən Azərbaycan xalqı, dünya azərbaycanlıları öz tarixi seçiminə imza atdılar. Azərbaycan xalqı bu uğur yoluna bir daha «davam» – dedi, «İlham Əliyevlə davam» – dedi.

Əziz həmvətənlər, əziz dostlar, siz Azərbaycan Prezidentinə öz sevginizi göstərdiniz və bu gün cənab Prezident sizə öz ürək sözlərini söyləmək üçün buraya, bu səhnəyə şəxsən özü təşrif buyurdu. Buyurun, qarşılayın, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev!

**İlham Əliyev:** Əziz dostlar, mən sizin hamınızı ürəkdən salamlayıram. Sizə və bütün Azərbaycan xalqına mənə yenidən göstərilən böyük dəstəyə görə təşəkkürümü bildirirəm.

Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm, bu dəstəyə arxalanmışam. Mənim fəaliyyətimdə Azərbaycan xalqının dəstəyi əsas rol oynayır. Həmişə çalışmışam ki, xalqa sədaqətlə, ləyaqətlə xidmət edim.

Azərbaycan xalqı dünən öz seçimini etdi. Azərbaycan xalqı dünən bir daha bizim siyasətimizə öz səsini verdi. Bir daha sabitliyə, inkişafa, tərəqqiyə, müstəqil siyasətimizə səs verdi. Sö-

zün əsl mənasında, müstəqil siyasət aparan Azərbaycan bu gün ən yüksək zirvələrə çatıbdır. Bizim beynəlxalq nüfuzumuz gündən-günə artır. Azərbaycan dünya miqyasında çox böyük hörmətə layiq bir ölkədir. Daxili vəziyyətimiz sabitdir. Azərbaycan xalqı sülh, əmin-amanlıq şəraitində yaşayır. Bütün azadlıqlar təmin olunur.

Dünən keçirilmiş Prezident seçkiləri bir daha onu göstərdi ki, Azərbaycanda bütün azadlıqlar təmin olunur, Azərbaycan demokratiya yolu ilə uğurla gedir. Açıq, şəffaf, ədalətli şəkildə keçirilmiş seçkilər Azərbaycan xalqının iradəsini əks etdirmişdir. Seçkilərdə mənə göstərilən dəstək məni daha da ruhlandırır, daha böyük güc verir. Seçkilərdə xalqımız həm görülən işlərə, real nəticələrə, eyni zamanda, bizim gələcəyimizə, xoşbəxt gələcəyimizə səs vermişdir. Əminəm ki, bundan sonra da ölkəmiz uğurla inkişaf edəcək. Bundan sonra da Azərbaycan xalqı sabitlik, təhlükəsizlik şəraitində yaşayacaqdır. Bu gün Azərbaycan dünya miqyasında sabitlik adası kimi tanınır. Azərbaycan dünya miqyasında nümunəvi ölkə kimi tanınır. Son 15 il ərzində iqtisadi inkişaf baxımından Azərbaycan qədər nəticə göstərən ölkə olmamışdır.

Azərbaycan xalqı öz seçimini etdi. Biz hamımız çalışmalıyıq ki, bundan sonra da ölkəmizi gücləndirək. Bu gün də Azərbaycan güclü dövlətdir. Daha güclü dövlət qurmalıyıq. Daha güclü Azərbaycan qurmalıyıq. Yolumuz müstəqillik yoludur. Heç bir kənar qüvvə bizi bu yoldan döndərə bilməz. Bu yol Azərbaycan xalqının şüurlu seçimidir. Biz müstəqil ölkəyik. Biz böyük xalqıq. Ancaq böyük xalq bu qədər nəticələr əldə edə bilər. Ancaq müstəqillik şəraitində Azərbaycan bu qədər uğurlar əldə edə bilər. Bizim taleyimiz öz əlimizdədir. Mən Azərbaycan gənclərinə üz tutub deyirəm – görürəm ki, burada toplaşanların əksəriyyəti gənclərdir – ölkəmizin gələcəyi sizin əlinizdə olacaq. Biz gənclərimizlə fəxr edirik. Bu gün yetişən gənc nəsil Azərbaycanı gələcəkdə idarə edəcək, müstəqillik yolu ilə xoşbəxt gələcəyə aparacaqdır.

Biz müstəqil, güclü ölkəyik. Biz tutduğumuz yolla gedirik. Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!

**Murad Dadaşov:** Eşq olsun Azərbaycan Prezidentinə! Əziz cənab Prezident, Sizə səs verənlərin bir hissəsi buradadır. Ancaq bütün Azərbaycan İlham Əliyevlə birlikdədir. Ürəkdən təbrik edirik. Təşəkkür edirik, cənab Prezident, minnətdarıq.

Əziz dostlar, Prezident İlham Əliyevi bir daha alqışlayaq. Azərbaycan hər zaman daha da böyük zirvələrə, daha da böyük qələbələrə öz əziz Prezidenti ilə bərabər gedəcək. Yaşasın Azərbaycan! Yaşasın Prezident!

* * *

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva səhnəyə qalxaraq, incəsənət ustaları ilə görüşdülər, xatirə şəkilləri çəkdirdilər.*

*Dövlət başçısının əldə etdiyi ən böyük nailiyyət onun xalqın sonsuz məhəbbətini qazanmasıdır. Prezident İlham Əliyev bütün təmaslarında ilk növbədə, öz səmimiyyəti ilə insanları cəlb edə bilib, güclü iradəsi, liderlik keyfiyyətləri ilə milyonları ətrafında toplayıb, müstəqil və qüdrətli Azərbaycan uğrunda çalışıbdır. Prezident İlham Əliyevin həyata keçirdiyi inkişaf konsepsiyası bütün azərbaycanlıların həyatına birdəfəlik daxil olubdur. Çünki onun müəyyənləşdirdiyi dövlət siyasətinin mərkəzində ancaq bir qüvvə – Azərbaycan vətəndaşı dayanır.*

*Tədbir atəşfəşanlıqla başa çatdı.*

## MƏRKƏZİ SEÇKİ KOMİSSİYASININ 3 394 898 SEÇİCİ ETİMADI İLƏ İLHAM ƏLİYEVİN PREZİDENT SEÇKİLƏRİNİN QALİBİ ELAN EDİLMƏSİ MƏRASİMİ

*15 aprel 2018-ci il*

*Məzahir Pənahovun sədrliyi ilə aprelin 15-də Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilmişdir.*

*İclasda Azərbaycan Respublikası Prezidentinin seçkilərinə yekun vurulması və MSK-nın seçkilərin nəticələrinə dair protokolunun müvafiq sənədlərlə birlikdə Konstitusiya Məhkəməsinə təqdim edilməsi məsələsi müzakirə olundu.*

*MSK sədri Məzahir Pənahov qeyd etdi ki, cari il aprelin 11-də Azərbaycan Respublikası Prezidentinin seçkiləri azad, ədalətli və şəffaf şəkildə keçirilməklə, ölkəmizin ictimai-siyasi həyatında müstəsna əhəmiyyət kəsb edən tarixi hadisəyə çevrilibdir. Seçkilərin yüksək səviyyədə hazırlanıb keçirilməsi üçün MSK və aidiyyəti dövlət qurumları tərəfindən Seçki Məcəlləsində nəzərdə tutulmuş vəzifə və səlahiyyətlərin icrasına xüsusi diqqətlə yanaşılıb. Seçki prosesinin mühüm mərhələləri olan seçici siyahılarının dəqiqləşdirilməsi, normativ hüquqi bazanın təkmilləşdirilməsi, seçicilər də daxil olmaqla, bütün seçki prosesi iştirakçılarının maarifləndirilməsi, Prezidentliyə namizədlərin irəli sürülməsi və qeydə alınması, bərabər şərtlərə əsaslanan geniş seçkiqabağı təşviqat imkanının yaradılması, müşahidəçilər və kütləvi informasiya vasitələri nümayəndələrinin azad və sərbəst fəaliyyəti üçün tam maneəsiz şəraitin yaradılması və bütün digər addımlar MSK-nın hazırlayıb təsdiq etdiyi Təqvim Planına əsasən atılıbdır.*

*Məzahir Pənahov hər bir ölkə üçün Prezident seçkilərinin xüsusi əhəmiyyət daşıdığını vurğuladı.*

**M ə z a h i r   P ə n a h o v:** 900-ə yaxın beynəlxalq müşahidəçinin, habelə nüfuzlu 51 beynəlxalq kütləvi informasiya vasitəsi təmsilçilərinin izlədikləri seçkilər Azərbaycanın şanlı səhifəsi kimi tarixə düşdü. Ən əsası odur ki, cəmiyyətimizin bütün tərəfləri seçkilərə böyük maraq göstərirdi. Namizədləri qeydə alınmış siyasi partiyalarla yanaşı, digər siyasi partiyalar da seçkiləri müşahidə edirdi. Həmçinin fərdi olaraq öz istəyi ilə seçkiləri izləmək istəyənlər müşahidəçi kimi qeydiyyatdan keçmişdilər. Yəni bütün bunlar cəmiyyətin seçkilərə olan marağının göstəricisi idi. Çox sevindirici haldır ki, seçkiləri izləyən beynəlxalq müşahidəçilərin, demək olar, əksəriyyəti seçkilərin yüksək səviyyədə hazırlanıb keçirildiyini qeyd etdilər.

*Namizədlərin Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq qeydə alındığını deyən Komissiya bildirdi ki, Prezidentliyə 6-sı siyasi partiyalar, 1-i öz təşəbbüsü ilə, 1-i isə seçicilərin təşəbbüs qrupu tərəfindən irəli sürülməklə, 8 nəfərin namizədliyi qeydə alınıb və bütün namizədlərə seçkiqabağı təşviqat dövründə bərabər şərait və eyni imkanlar yaradılıbdır. Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, ölkə üzrə 84-ü açıq, 84-ü qapalı olmaqla, ümumilikdə 168 daimi görüş yeri ayrılaraq, namizədlərin ixtiyarına verilib və Prezidentliyə namizədlər sadəcə, dairə seçki komissiyalarını məlumatlandırmaqla, həmin yerlərdən ödənişsiz istifadə edərək, öz seçicilərinə sərbəst şəkildə seçkiqabağı platformalarını sərgiləyiblər. Namizədlərin seçkiqabağı təşviqatı üçün bütün seçki məntəqələrini əhatə edən 10 mindən çox böyükölçülü lövhə quraşdırılıb. Seçki Məcəlləsinə əsasən Prezidentliyə namizədlərə geniş və səmərəli seçkiqabağı təşviqat imkanı yaradılması məqsədilə İctimai Televiziya və Radio Yayımları Şirkətində qanunvericilikdə nəzərdə tutulduğundan 2 dəfə artıq – həftəlik 6 saat (3 saat televiziyada, 3 saat radioda) pulsuz efir vaxtı, «Azərbaycan» qəzetində, «Xalq qəzeti»ndə və «Bakinski raboçi» qəzetində dərc üçün ödənişsiz yer ayrılıb və bütün namizədlər bu imkanlardan sə-*

*mərəli şəkildə istifadə ediblər. Bununla yanaşı, ödənişli təşviqat üçün 34 kütləvi informasiya vasitəsi tərəfindən namizədlərə təklif olunan qiymətlər MSK-ya təqdim olunub, bu məlumatlar namizədlərin tanış olmaları üçün komissiyanın internet səhifəsində yerləşdirilibdir. Bütün namizədlər üçün şərtlərin bərabərliyi prinsipi daim nəzarətdə saxlanılıb. Martın 11-dən start götürmüş seçkiqabağı təşviqat kampaniyası aprelin 10-dək davam edərək, ümumilikdə sivil və müasir tələblərə cavab verən şəraitdə keçirilibdir.*

– Prezident seçkiləri ilə əlaqədar seçki prosesinin, demək olar ki, bütün iştirakçıları ilə yanaşı, seçicilər üçün də geniş maarifləndirmə kampaniyası keçirilib. Seçkilərin keçirilməsi tarixi, səsvermə qaydaları, eləcə də istiqamətverici və çağırış xarakterli 52-dən artıq müxtəlif növdə yüz minlərlə plakat çap edilərək, bütün yaşayış məntəqələrinin ərazisində asılıb, oxşar mövzulara həsr edilən çoxsaylı reklam çarxları səsvermə günü də daxil olmaqla, mütəmadi şəkildə hər gün televiziya və radio kanallarında nümayiş etdirilibdir.

*Qeyd edildi ki, seçkilərdə bütün seçici qrupları ilə yanaşı, görmə və hərəkət qabiliyyəti məhdud olan seçicilərin də sərbəst səs vermələrinin təmin olunması üçün müxtəlif layihələr gerçəkləşdirilibdir. Gözdən əlil seçicilər onlar üçün hazırlanmış və seçki bülletenindəki məlumatların Brayl əlifbası ilə əks olunduğu trafaretdən istifadə etməklə, seçki günü azad və sərbəst şəkildə istədikləri namizədə səs veriblər. Hərəkət qabiliyyətində məhdudiyyətlər olan seçicilərin sərbəst şəkildə seçki məntəqəsinə gələrək, səs vermələri üçün isə daşına bilən panduslardan istifadə olunub. Respublika üzrə aparılan araşdırmalar nəticəsində 1455 məntəqədə hərəkət qabiliyyətində məhdudiyyətlər olan seçicilərin olduğu müəyyən edilib, həmin məntəqələrdə belə seçicilərin maneəsiz hərəkəti üçün şərait yaradılıb və mobil panduslar quraşdırılıbdır. Beləliklə, bütün seçki məntəqələri bu qəbildən olan seçicilər üçün də əlverişli hala gətirilibdir. Eşitmə qabiliyyəti məhdud olan seçicilərin məlumatlan-*

*dırılması məqsədilə MSK-nın seçici maarifləndirmə proqramı çərçivəsində hazırlanmış alt yazılı videoklipdə bütün səsvermə prosedurları geniş izah olunub və bu, eşitmə qabiliyyəti məhdud olan seçicilərin maarifləndirilməsinə əhəmiyyətli töhfə veribdir.*

*MSK sədri bildirdi ki, Prezident seçkilərinin müşahidəsinə 61 beynəlxalq təşkilat və 59 ölkəni təmsil edən 894 beynəlxalq müşahidəçi qatılıb. Habelə nüfuzlu 51 beynəlxalq kütləvi informasiya vasitəsindən olan 118 xarici KİV təmsilçisi MSK tərəfindən müvafiq lövhəciklə təmin olunaraq, seçkiləri izləyib. Bütün bunlarla yanaşı, 4 təşkilat tərəfindən seçkilərdə «exit-poll» keçirilib ki, onlardan da 2-si öz fəaliyyətlərini ABŞ və Fransadan olan təşkilatlarla birgə qurublar. «exit-poll»ların nəticələri MSK-nın rəsmi nəticələri ilə, demək olar ki, üst-üstə düşüb. Respublikada fəaliyyət göstərən yerli kütləvi informasiya vasitələrinin nümayəndələri isə heç bir əlavə qeydiyyat və sənəd tələb olunmadan seçki marafonunun əvvəlindən axırınadək sərbəst və maneəsiz şəkildə seçkilərdə iştirak ediblər. Seçkilərin müşahidəsində, həmçinin çoxsaylı siyasi partiyaları, vətəndaş cəmiyyəti institutlarını, qeydə alınmış namizədləri təmsil edən, eyni zamanda, öz təşəbbüsləri ilə seçkilərə qatılmış 58175 yerli müşahidəçi iştirak edibdir.*

*Ümumiyyətlə, seçkilərə hazırlıq, səsvermə günü və ondan sonrakı dövrlərdə istər yerli və beynəlxalq müşahidəçilərə, istərsə də yerli və beynəlxalq KİV nümayəndələrinə öz fəaliyyətlərini sərbəst və maneəsiz həyata keçirmələri üçün bütün imkanlar yaradılıbdır.*

*Məzahir Pənahov bildirdi ki, Prezident seçkilərində aşkarlığın təmin olunması üçün qeyd olunanlarla yanaşı, işğal edilmiş ərazilər istisna olmaqla, respublikanın bütün ərazisini əhatə edən 1000 seçki məntəqəsində (seçki keçirilən məntəqələrin təqribən 20 faizində) internet vasitəsilə səsvermə prosesini canlı izləmə imkanı verən veb-kameralar quraşdırılıbdır.*

– Mən məmnuniyyətlə bildirirəm ki, onların fəaliyyətində heç bir xoşagəlməz hal qeydə alınmadı. Səsvermə başlanandan seçkilər

başa çatana qədər olan bütün prosesləri fasiləsiz olaraq onlayn rejimdə izləmək mümkün idi. İnternet istifadəçiləri istər ölkə daxilindən, istərsə də ölkə xaricindən MSK-nın internet səhifəsinə daxil olaraq, heç bir qeydiyyat tələb olunmadan, real zaman rejimində seçki məntəqələrində səsvermə günü baş verən bütün prosesləri əvvəldən axıradək izləmək imkanına malik olublar. Düşünürəm ki, Azərbaycanın tətbiq etdiyi seçki standartları beynəlxalq aləmdə nümunə ola bilər.

*Qeyd olundu ki, səsvermə günü seçki məntəqələri bağlandıqdan sonra fasiləsiz olaraq səslərin hesablanması həyata keçirilib. Yerli və beynəlxalq ictimaiyyətin seçkilərin nəticələri ilə tanış olmaları üçün səsvermə başa çatdıqdan 4 saat sonra – saat 23:00-da ölkə üzrə 5641 seçki məntəqəsinin 3675-dən (65,15 faiz), aprelin 12-də saat 01:00-da 5201 seçki məntəqəsindən (92,20 faiz), saat 12:00-da isə bütün seçki məntəqələrindən daxil olmuş məlumatlar əsasında səsvermənin ilkin nəticələri ictimaiyyətin diqqətinə çatdırılıb. Səsvermənin nəticələrinə dair yekun protokollar və digər seçki sənədləri qanunla müəyyən olunmuş müddətdə məntəqə seçki komissiyalarından dairə seçki komissiyalarına, oradan isə MSK-ya çatdırılıbdır.*

– Prezident seçkilərində seçicilər azad və sərbəst şəkildə seçki məntəqələrinə gələrək, öz iradələrini ifadə ediblər. Ümumilikdə ölkə üzrə seçicilərin ümumi sayının 74,30 faizi səsvermədə iştirak edib. Seçki günü və ondan sonrakı günlər də daxil olmaqla, bütün seçki kampaniyası boyunca MSK-ya və aşağı seçki komissiyalarına heç bir şikayət daxil olmayıb. Səsvermə günü seçicilər tərəfindən seçki məntəqələrinin ünvanları, seçici siyahıları və digər bu kimi məsələlərlə bağlı Komissiyanın 115 saylı və elektron qaynar xətlərinə daxil olmuş sorğu xarakterli müraciətlərə isə dərhal reaksiya verilərək, operativ şəkildə lazımi addımlar atılıbdır.

*MSK-nın sədr müavini Natiq Məmmədov iclasda çıxış edərək bildirdi ki, Komissiya seçkilərin şəffaf və ədalətli keçirilməsi üçün lazım olan bütün addımları atıbdır.*

**N a t i q  M ə m m ə d o v:** Bütün beynəlxalq təşkilatlar, hətta ən qərəzli qurumlar da Mərkəzi Seçki Komissiyasının peşəkarlığına şübhə etmirlər. Bu peşəkarlıq fonunda aparılan araşdırmalar göstərir ki, sağlam seçki mühitinə kölgə salmaq üçün bəzi cəhdlər olub. Daxil olmuş bütün protokollar, internet resurslarında yayımlanan bütün informasiyalar araşdırıldı. Azərbaycanın öncül təcrübəsi kimi qəbul olunan veb-kameralar bu işdə böyük yardımçı oldu. Aparılan 5 günlük araşdırmalar zamanı bir neçə seçki məntəqəsində seçicilərin iradəsinin müəyyən edilməsinə imkan verməyən pozuntular aşkar edilibdir.

*Bununla əlaqədar Natiq Məmmədov 57 saylı Kürdəmir seçki dairəsinin 2 saylı, 73 saylı Lənkəran şəhər seçki dairəsinin 10 saylı, 69 saylı Cəlilabad–Masallı–Biləsuvar seçki dairəsinin 26 saylı, 74 saylı Lənkəran kənd seçki dairəsinin 12 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab olunmasını, həmçinin 57 saylı Kürdəmir seçki dairəsinin 2 saylı seçki məntəqəsi məntəqə seçki komissiyasının və 73 saylı Lənkəran şəhər seçki dairəsinin 10 saylı seçki məntəqəsi məntəqə seçki komissiyasının tam tərkibdə buraxılmasını təklif edibdir.*

*İclasda Prezident seçkilərinin yekunlarının müəyyən edilməsi ilə əlaqədar işlər başa çatmış hesab edilib, səsvermənin nəticələrinə dair MSK-nın protokolu tərtib olunub və Komissiya üzvləri tərəfindən imzalanaraq təsdiqlənibdir. Seçki Məcəlləsinin tələbinə uyğun olaraq, MSK-nın protokolunun müvafiq sənədlərlə birlikdə seçkilərin yekunlarının təsdiq edilməsi üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim olunması qərara alınıbdır.*

*Həmçinin 57 saylı Kürdəmir seçki dairəsinin 2 saylı, 73 saylı Lənkəran şəhər seçki dairəsinin 10 saylı, 69 saylı Cəlilabad–Masallı–Biləsuvar seçki dairəsinin 26 saylı, 74 saylı Lənkəran kənd seçki dairəsinin 12 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız hesab olunub, eyni zamanda, 57 saylı Kürdəmir seçki dairəsinin 2 saylı və 73 saylı Lənkəran şəhər*

*seçki dairəsinin 10 saylı məntəqə seçki komissiyaları tam tərkibdə buraxılıbdır.*

*Sonra çıxış edən Komissiya üzvləri atılmış addımları və həyata keçirilmiş layihələri seçkilərin azad, ədalətli və şəffaf keçirilməsini şərtləndirən vacib və təqdirəlayiq hal kimi yüksək qiymətləndirib, səsvermənin nəticəsinin xalqın iradəsini əks etdirdiyini bildiriblər.*

*Seçkilərin yüksək səviyyədə hazırlanıb keçirildiyini qeyd edən Yeni Azərbaycan Partiyası icra katibinin müavini, Milli Məclisin komitə sədri Siyavuş Novruzov buna görə Mərkəzi Seçki Komissiyasına minnətdarlığını ifadə edərək bildirdi ki, seçki prosesi qanunvericiliyin tələblərinə uyğun şəkildə həyata keçirilib. MSK seçkilərin şəffaf və ədalətli keçirilməsi üçün bütün addımları atıbdır.*

## KONSTİTUSİYA MƏHKƏMƏSİNİN İLHAM ƏLİYEVİN RƏSMİ OLARAQ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ELAN EDİLMƏSİ MƏRASİMİ

*17 aprel 2018-ci il*

*Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Sədri Fərhad Abdullayevin sədrliyi ilə aprelin 17-də 2018-ci il aprelin 11-də keçirilmiş Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunlarına dair Mərkəzi Seçki Komissiyasının (MSK) 2018-ci il 15 aprel tarixli Protokolunun təsdiq və rəsmən elan edilməsinə dair iclası keçirilmişdir.*

*Məhkəmə iclasının katibi Fəraid Əliyev qeyd etdi ki, iclasda xüsusi Konstitusiya icraatı üzrə maraqlı subyekt qismində Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, sədr müavini Natiq Məmmədov, katibləri Arifə Muxtarova və Mikayıl Rəhimov, Komissiyanın digər üzvləri, habelə ekspert qismində Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının baş müəllimi Elşad Nəsirov, həmin kafedranın dosent əvəzi, hüquq üzrə fəlsəfə doktoru Aytəkin İbrahimova, beynəlxalq xüsusi hüquq və Avropa hüququ kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Turqay Hüseynov, Dövlət Statistika Komitəsi Aparatının şöbə müdirinin müavini Sona Dəmirçiyeva, Aparatın baş məsləhətçiləri Ulduzə Həmidova və Gülnar Əhmədova iştirak etdilər.*

*Fərhad Abdullayev məhkəmənin tərkibini elan etdi.*

*«Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi haqqında» Qanunun 43-cü maddəsinə əsasən maraqlı subyektlərin qanuni nümayəndələrinin hüquq və vəzifələrini izah edən Konstitusiya Məhkəməsinin Sədri bildirdi ki, onlar bu Qanuna əsasən, ic-*

*lasda iştirak və çıxış edə, sübutlar və digər materialları təqdim edə, vəsatət və təkliflər verə, sualları cavablandıra, şahid və ekspertlərin dəvət olunmasını xahiş edə və yekun sözlə çıxış edə bilərlər.*

*Konstitusiya Məhkəməsinin hakimi Sona Salmanova məruzə ilə çıxış edərək, diqqətə çatdırdı ki, Konstitusiya Məhkəməsi 2018-ci il aprelin 11-də keçirilmiş Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinin təsdiq və rəsmən elan olunmasına dair Konstitusiya işinə Azərbaycan Respublikası Konstitusiyasının, Seçki Məcəlləsinin və «Konstitusiya Məhkəməsi haqqında» Qanunun müvafiq müddəalarına uyğun olaraq baxır. «Konstitusiya Məhkəməsi haqqında» Qanunun 40.3.3-cü maddəsinə əsasən, Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinin rəsmi elan edilməsi ilə əlaqədar işlərə xüsusi Konstitusiya icraatı qaydasında baxılır. 2016-cı il 26 sentyabr tarixli ümumxalq səsverməsi – referendumla Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin 1-ci hissəsinə edilmiş dəyişikliyə əsasən, Azərbaycan Respublikasının Prezidenti ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə 7 il müddətinə seçilir. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 fevral tarixli Sərəncamına və Seçki Məcəlləsinin 177-ci, 178-ci maddələrinə uyğun olaraq, 2018-ci il aprelin 11-də Azərbaycan Respublikası Prezidentinin seçkiləri keçirilibdir.*

*Diqqətə çatdırıldı ki, Seçki Məcəlləsinin 203.1-ci maddəsinə əsasən MSK səsvermə günündən başlayaraq, 10 gündən gec olmayan müddətdə Prezident seçkilərinə yekun vurur və nəticələri təsdiq olunmaq üçün Konstitusiyanın 102-ci maddəsinə uyğun olaraq Konstitusiya Məhkəməsinə təqdim edir. Konstitusiya Məhkəməsinin bu haqda qərarı qətidir. MSK səsvermənin nəticələri haqqında dairə seçki komissiyalarının protokollarındakı bütün məlumatları ümumiləşdirərək, 2018-ci il aprelin 11-də keçirilmiş Prezident seçkilərinin nəticələri barədə 2018-ci il aprelin 15-də protokol tərtib edib. Səsvermənin nəticələri haqqında MSK-nın protokolu, qərar və ona əlavə edilən sə-*

*nədlər, səsvermənin nəticələrinin təsdiq və rəsmən elan edilməsi üçün Konstitusiya Məhkəməsinə təqdim olunubdur.*

*Konstitusiya Məhkəməsinin hakimi Rafael Qvaladze məruzə ilə çıxış edərək, işdə olan materialların mahiyyəti və Konstitusiya Məhkəməsinin bu məsələyə hazırlıq mərhələsində gördüyü tədbirlər barədə məlumat verdi. Diqqətə çatdırıldı ki, Konstitusiya Məhkəməsi Prezident seçkilərinin yekunlarına dair MSK tərəfindən təqdim olunmuş protokolun Seçki Məcəlləsinin tələblərinə uyğun olub-olmamasının öyrənilməsi məqsədilə «Konstitusiya Məhkəməsi haqqında» Qanunun 45-ci maddəsinə müvafiq olaraq, Dövlət Statistika Komitəsinin və Bakı Dövlət Universitetinin əməkdaşlarını iş üzrə ekspert qismində cəlb edibdir.*

*Bundan başqa, «Konstitusiya Məhkəməsi haqqında» Qanunun 56-cı maddəsinə əsasən, Apelyasiya məhkəmələrindən, Naxçıvan Muxtar Respublikasının və Azərbaycan Respublikasının Ali məhkəmələrindən və Azərbaycan Respublikası Prokurorluğundan seçki hüquqlarının müdafiəsi ilə bağlı baxılmış ərizələr haqqında məlumatlar tələb edilib. Bakı, Sumqayıt, Gəncə, Şirvan və Şəki Apelyasiya məhkəmələrinin, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin və Azərbaycan Respublikası Prokurorluğunun məktublarından göründüyü kimi, 2018-ci il aprelin 11-də keçirilmiş Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə bağlı seçki hüquqlarının müdafiəsinə dair həmin orqanlara ərizə və şikayətlər daxil olmayıbdır.*

*Bildirildi ki, Seçki Məcəlləsinin 28.2-ci maddəsinə uyğun olaraq, MSK-nın qərarları açıq səsvermə yolu ilə Komissiyanın iclasında üzvlərinin 18-nin iştirak etdiyi halda və azı 12 üzvün səs çoxluğu ilə qəbul edilir. Seçki Məcəlləsinin 100.12-ci maddəsində nəzərdə tutulub ki, protokollar Komissiyanın həlledici səs hüquqlu üzvünün ümumi sayının ən azı üçdə ikisi tərəfindən imzalanmalıdır. MSK-nın təqdim etdiyi protokoldan da*

*göründüyü kimi, bu protokol Komissiyanın 18 üzvündən 17-si tərəfindən imzalanıbdır.*

*Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin 2-ci hissəsinə və Seçki Məcəlləsinin 203.4-cü maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Prezidenti səsvermədə iştirak edənlərin yarısından çoxunun səs çoxluğu ilə seçilir. MSK-nın protokolundan göründüyü kimi, etibarlı hesab edilmiş səslərin 3 394 898-i və ya 86,02 faizi Əliyev İlham Heydər oğlunun lehinə verilibdir.*

*Sonra maraqlı subyektin qanuni nümayəndəsi, Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov çıxış etdi. MSK sədri bildirdi ki, bu il fevralın 5-də Azərbaycan Respublikasının Prezidenti Azərbaycanda Prezident seçkilərinin keçirilməsi ilə bağlı sərəncam imzalayıb. Həmin sərəncam əsasında MSK-ya seçkiləri aprelin 11-nə təyin etmək və hazırlanıb keçirilməsi tapşırılıbdır. Seçki Məcəlləsinin tələbinə görə, MSK dərhal fəaliyyətə başlayıb və təqvim planı təsdiq edibdir. Seçkilər elan edildikdən sonra namizədliklə bağlı MSK-ya ümumilikdə 15 müraciət daxil olub. Onlardan 8-i siyasi partiyaların, 1-i təşəbbüs qrupunun, 6-sı isə fərdi qaydada irəli sürülmüş namizədlərin müraciətləri olub. Müraciət etmiş şəxslərdən yalnız 10 nəfəri lazımi sənədləri vaxtında MSK-ya təhvil verə bilib. Həmin şəxslərin sənədləri ciddi araşdırılıb və yalnız 8-nin qeydə alınması üçün əsaslar müəyyən olunubdur.*

*Bildirildi ki, namizədlərin hamısına bərabər şəraitdə təşviqat aparmaq üçün bütün imkanlar yaradılıb. Qeydə alınmış namizədlərin seçicilərlə sərbəst görüşlər, toplantılar keçirmələri üçün MSK ölkə üzrə 168 ünvan müəyyənləşdirərək, rəsmi qaydada mətbuatda dərc edib. Eyni zamanda, İctimai Teleradionun efirində və təsisçisi dövlət orqanları olan, yaxud büdcədən maliyyələşən dövri nəşrlərin səhifələrində pulsuz vaxt və yer ayrılıbdır. Namizədlər, demək olar ki, ölkəmizin bütün bölgələrində intensiv görüşlər keçiriblər. Bu görüşlərlə bağlı televiziya kanalları bütün namizədlər üçün eyni formatda*

*məlumatlar yayıbdır. Namizədlərin təşviqat kampaniyası sivil, Seçki Məcəlləsinin tələblərinə uyğun qaydada aparılıb. Bunun nəticəsində Azərbaycan seçicisi seçki məntəqəsinə gələndə artıq namizədlərlə bağlı kifayət qədər məlumatlı idilər. Seçkilərlə bağlı 60-a yaxın seminar-müşavirə, təlim keçirilib ki, bu tədbirlərdə də aşağı seçki komissiyalarının 30 minədək üzvü iştirak edibdir. Bunun nəticəsində çoxsaylı müşahidəçilər komissiyaların peşəkar fəaliyyətini xüsusi vurğulayıblar.*

*Məzahir Pənahov vurğuladı ki, seçkilərin şəffaflığını kifayət qədər təmin etmək üçün MSK və dairə seçki komissiyaları ilə yanaşı, məntəqə seçki komissiyaları üçün də ən müasir standartlara cavab verən imkanlar yaradılıb. Seçkilərin şəffaflığını və demokratikliyini təmin etmək üçün 61 təşkilat və 59 ölkədən 890-dan çox beynəlxalq müşahidəçi, habelə 51 beynəlxalq KİV-in 118 nümayəndəsi seçkiləri izləyib. Yerli müşahidəçilərin sayının da 59 minə yaxın olduğunu və ölkə üzrə 5641 məntəqənin yaradıldığını nəzərə alsaq, hər bir məntəqəyə 10-dan çox müşahidəçi düşüb. Müşahidəçilərdən 15 minə yaxını öz təşəbbüsü ilə qeydiyyatdan keçən vətəndaşlar olublar. Müşahidəçiliklə bağlı müraciət edən bütün şəxslərə müsbət cavab verilibdir.*

*Diqqətə çatdırıldı ki, seçki məntəqələrinin təxminən 20 faizində – 1000-ə yaxın məntəqədə quraşdırılmış veb-kameralar vasitəsilə də dünya ictimaiyyəti səsvermənin gedişini izləyib. Bu da seçkilərin tam şəffaf, azad və demokratik keçirilməsi üçün mühüm əhəmiyyət kəsb edirdi. Gün ərzində məntəqələrdə bütün proseslər fasiləsiz onlayn rejimində görüntülənib. Dünyanın istənilən ölkəsindən hər bir şəxsin həmin məntəqələrdəki veb-kameralar vasitəsilə səsvermə prosesini izləmək imkanı olub. Ümumilikdə səsvermə günü bütün proseslər qaydaya uyğun olaraq həyata keçirilibdir.*

*MSK sədri qeyd etdi ki, səsvermə günü seçicilərin mütəşəkkil qaydada məntəqələrə gələrək, öz istədikləri namizədlərə səs vermələri üçün hər cür şərait yaradılıb. Seçkilərdə seçici fəallığı 74 faizdən çox olub. Səsvermənin gedişi zamanı və*

*sonra MSK-ya heç bir müraciət daxil olmayıb. Seçkilərdə şəffaflığı nümayiş etdirmək və səsvermənin nəticələrini operativ şəkildə çatdırmaq üçün gün ərzində səsvermənin gedişi barədə ictimaiyyətə 5 dəfə məlumat verilib. Səsvermə günü saat 23:00 radələrində MSK məntəqələrin təxminən 70 faizindən daxil olan nəticələr əsasında ilkin rəqəmləri ictimaiyyətə çatdırıb. Gecə saat 12-dən bir qədər sonra MSK məntəqələrin 93 faizindən daxil olan protokollar üzrə rəqəmləri səsləndirib. Saat fərqi ilə əlaqədar Azərbaycanın xaricdəki diplomatik nümayəndəliklərində olan məntəqələrdə, eləcə də bir sıra qaçqın məntəqələrində bəzi problemlər yaranıb. MSK seçkilərin ertəsi günü saat 12-yə qalmış 5641 məntəqənin hamısının protokolları əsasında ilkin nəticələri ictimaiyyətə çatdırıbdır.*

*Komissiyaya heç bir müraciət daxil olmadığından və bütün namizədlər KİV-lərdə qalib namizədi təbrik etdikdən 4 gün keçəndən sonra MSK seçkilərə yekun vurub və nəticələrin təsdiq olunması üçün sənədləri Konstitusiya Məhkəməsinə göndərməyi qərara alıb. MSK aprelin 15-də yekun iclasını keçirib və bütün araşdırmaların nəticələrini ümumiləşdirib qərar qəbul edibdir. Bu qərara əsasən, 5641 məntəqənin 4-də nəticələr ləğv edilib və bununla bağlı protokol tərtib olunaraq, digər sənədlərlə birlikdə Konstitusiya Məhkəməsinə göndərilibdir.*

*Ümumilikdə 5332817 seçicinin siyahı ilə mövcud olduğu müəyyənləşib. Onlardan 18452-si əlavə seçici siyahılarında olan seçicilər idi. Ona görə də bizim səsvermədən əvvəlki 5 314 365 seçicinin üzərinə bu 18452 nəfər də əlavə olundu. Bu, ümumi seçicilərimizin 0,3 faizidir. Ona görə bu proseslər zamanı hər hansı formada seçici siyahıları ilə bağlı narahatlıq bildirənlərin diqqətinə çatdırmaq istərdim ki, heç kim adının seçici siyahılarına daxil edilməməsi ilə əlaqədar müraciət etməyibdir.*

*Məzahir Pənahov bildirdi ki, etibarlı hesab edilmiş səslərin sayı 3946439 olub. Etibarlı səslərin 86,02 faizi, yəni 3394898 səs İlham Heydər oğlu Əliyevə verilibdir.*

*Dünyanın inkişaf etmiş dövlətlərinin, MDB ölkələrinin seçki komissiyalarının sədrlərindən və üzvlərindən ibarət beynəlxalq müşahidəçilərin gəldikləri nəticə ondan ibarət oldu ki, seçkilər bütün tələblərə yüksək səviyyədə cavab verib. Ona görə də MSK hesab edir ki, seçkilərin nəticələrini təsdiq etmək olar.*

*Sonra MSK sədri Konstitusiya Məhkəməsi Sədrinin suallarını cavablandırdı.*

*Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının baş müəllimi Elşad Nəsirov, Dövlət Statistika Komitəsi Aparatının baş məsləhətçisi Ulduzə Həmidova çıxışlarında bildirdilər ki, 2018-ci il aprelin 11-də Prezident seçkiləri mükəmməl seçki qanunvericiliyi və təkmil seçki infrastrukturu əsasında keçirilibdir. Həmçinin seçki prosesinin gedişində bir sıra yeni seçki texnologiyaları tətbiq olunubdur. Ekspertlər vurğuladılar ki, MSK-nın Prezident seçkilərinin yekunlarına dair protokolunu və digər sənədlərini araşdırıb, onların Seçki Məcəlləsinin müvafiq normalarına uyğunluğuna diqqət yetiriblər. Cəmi 4 seçki məntəqəsində səsvermənin nəticələrinin etibarsız hesab olunması ümumi nəticələrə və seçicilərin iradələrini ifadə etmələrini müəyyənləşdirməyə heç bir xələl gətirmir. Səsvermə günü MSK-ya heç bir müraciət və şikayət daxil olmayıbdır.*

*Protokolun hüquqi aspektlərinə toxunan ekspertlər vurğuladılar ki, 2018-ci il aprelin 11-də keçirilmiş Prezident seçkilərinə dair Mərkəzi Seçki Komissiyasının 2018-ci il 15 aprel tarixli Protokolu Seçki Məcəlləsinin 100-cü, 108-ci və 203-cü maddələrinin tələblərinə tam uyğundur. Qeyd edilənlər deməyə imkan verir ki, aprelin 11-də keçirilmiş Prezident seçkiləri ilə bağlı səsvermənin nəticələrinin Konstitusiya Məhkəməsi tərəfindən təsdiq olunması üçün tam hüquqi əsas mövcuddur.*

*Ekspertlərin rəyləri Konstitusiya işinə əlavə olundu.*

*Məhkəmə araşdırmaları bitdikdən sonra Konstitusiya Məhkəməsinin Sədri Fərhad Abdullayev Azərbaycan Respublikası*

*Prezidenti seçkilərinin nəticələrinin təsdiq və rəsmən elan olunmasına dair qərarı oxudu.*

*Salona toplaşanlar qərarı alqışlarla qarşıladılar.*

* * *

*Sonra Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*

*Fərhad Abdullayev Konstitusiya Məhkəməsi Plenumunun iclasını bağlı elan etdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ANDİÇMƏ MƏRASİMİ

*Milli Məclis*

*18 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 18-də Milli Məclisdə andiçmə mərasimi keçirilmişdir.*

*Andiçmə mərasimində Azərbaycanın dövlət rəsmiləri, hökumətin üzvləri, Milli Məclisin üzvləri və Prezidentin ailə üzvləri iştirak etdilər.*

*Prezident İlham Əliyevi müşayiət edən Fəxri kortej Azərbaycan Respublikası Prezidentinin andiçmə mərasiminin keçirildiyi Milli Məclisə yola düşdü.*

*Ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Heydər oğlu Əliyevin andiçmə mərasimi açıq elan olundu.*

*Mərasim iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi hərarətlə qarşıladılar.*

*Silahlı Qüvvələrin əsgərləri Azərbaycan Respublikasının Dövlət bayrağını və Azərbaycan Prezidentinin ştandartını (bayrağını) təntənəli marşın sədaları altında səhnəyə gətirdilər.*

*Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Sədri Fərhad Abdullayev və Konstitusiya Məhkəməsinin hakimləri səhnəyə dəvət olundular.*

**Fərhad Abdullayev** *(Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Sədri)*: Hörmətli xanımlar və cənablar!

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi 2018-ci il 17 aprel tarixli Qərarı ilə Azərbaycan Respublikası

Prezidenti seçkilərinin yekunlarına dair Mərkəzi Seçki Komissiyasının nəticələrini təsdiq edərək, cənab İlham Heydər oğlu Əliyevi Azərbaycan Respublikasının Prezidenti elan etmişdir.

Azərbaycan Respublikasının Prezidenti seçilmiş cənab İlham Heydər oğlu Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 103-cü maddəsinə uyğun olaraq, Konstitusiya Məhkəməsi hakimlərinin iştirakı ilə and içməyə dəvət olunur.

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əlini Azərbaycan Respublikası Konstitusiyasının üzərinə qoyaraq, and içdi:*

**İ l h a m Ə l i y e v:** Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm!

*Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*

*Sonra Prezident Qurana əl basaraq, and içdi.*

– Əlimi Qurana basaraq, and içirəm: Azərbaycan xalqının əsrlərboyu yaratdığı milli-mənəvi dəyərlərə və ənənələrə sadiq qalacağam, onları daim uca tutacağam.

*Prezident İlham Əliyev təzim edərək, Azərbaycanın Dövlət bayrağını öpdü.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev andiçmə mərasimində nitq söylədi.*

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimində nitqi

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, bir daha mənə bu seçkilərdə göstərilən yüksək etimada görə doğma Azərbaycan xalqına dərin təşəkkürümü bildirmək istəyirəm. Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm və hiss edirəm. Bu dəstək mənə güc verir. Mən bu

dəstəyə arxalanıram və xalqı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da xalqa və Vətənə ləyaqətlə xidmət edəcəyəm.

Prezident seçkiləri Azərbaycan xalqının iradəsini əks etdirdi. Azərbaycan xalqı görülən işlərə yüksək qiymət verdi, görülən işlərə səs verdi. İnkişafa, tərəqqiyə, təhlükəsizliyə, gələcək inkişafımıza səs verdi. Seçkilər ədalətli və şəffaf şəkildə keçirildi. Seçkilərdən əvvəl yerli və beynəlxalq təşkilatlar tərəfindən keçirilmiş rəy sorğuları, seçkilər günü yenə də beynəlxalq və yerli təşkilatlar tərəfindən keçirilmiş «exit-poll»lar seçkilərin rəsmi nəticələri ilə üst-üstə düşür. Bu bir daha onu göstərir ki, seçkilər xalqımızın iradəsini, onun fikirlərini əks etdirir.

Mən 2003-cü ildə Prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər xalq mənə etimad göstərərsə, mən ulu öndər Heydər Əliyev siyasətinə sadiq qalacağam, bu siyasəti davam etdirəcəyəm. Mən fəxr edirəm ki, xalq mənə inandı, məni dəstəklədi və mən də öz növbəmdə, sözlərimə əməl etdim. Son 15 il ərzində Azərbaycanda hərtərəfli inkişaf təmin edilibdir. Bunun əsas şərti ondan ibarətdir ki, biz ulu öndərin yolu ilə gedirik. Onun qoyduğu yol yeganə düzgün yoldur və Azərbaycanın müstəqillik tarixi bunun əyani sübutudur.

Son 15 il ərzində bu yolla gedərək, biz böyük uğurlara imza atdıq, Azərbaycan xalqı təhlükəsizlik, sabitlik şəraitində yaşayır. Bu 15 il ərzində dünyanın müxtəlif bölgələrində, o cümlədən bizim bölgəmizdə, Avropada çox təhlükəli proseslər baş verdi: qanlı toqquşmalar, müharibələr, vətəndaş müharibələri, dövlət çevrilişləri. Yəni təhlükəsizlik baxımından son 15 il çox gərgin keçib, Azərbaycanda isə xalqımız təhlükəsizlik şəraitində yaşayıbdır. Biz daxili risklərin hamısını aradan qaldırdıq, xarici risklərdən isə özümüzü qoruya bildik, bu gün də qoruyuruq, əminəm ki, bundan sonra da qoruyacağıq. Azərbaycan xalqı bu 15 il ərzində sabitlik şəraitində yaşamışdır. Bu da inkişafımız üçün əsas şərtdir. Biz görürük ki, sabitlik

pozulanda inkişafdan söhbət belə, gedə bilməz. Sabitlik pozulanda xarici müdaxilə baş verir, ölkələr idarəolunmaz vəziyyətə düşür, qardaş qanı tökülür və ölkələrin gələcəyi böyük sual altına düşür. Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır və bizim siyasətimizdir. Ona görə xalq–iqtidar birliyi bizim uğurlarımızın əsas şərtidir. Azərbaycan bu gün dünya miqyasında sabitlik məkanı, sabitlik adası kimi tanınır və bu bizim böyük nailiyyətimizdir.

Bu 15 il ərzində Azərbaycanda demokratik inkişaf çox sürətlə gedib, bütün azadlıqlar təmin edilibdir. Hesab edirəm ki, bu 15 il demokratik inkişaf baxımından çox uğurlu illər olubdur. Biz siyasi islahatları dərinləşdirərək, bütün azadlıqları – söz azadlığını, mətbuat azadlığını, sərbəst toplaşma azadlığını, siyasi fəaliyyət azadlığını təmin etmişik. Təkcə onu demək kifayətdir ki, bu gün Azərbaycan vətəndaşlarının 80 faizi internet istifadəçiləridir və internet Azərbaycanda azaddır. Yəni demokratik inkişafla bağlı bizim siyasətimiz çox düzgün siyasətdir və bizim milli maraqlarımızı təmin edir. Biz bunu kiminsə xoşuna gəlmək üçün etmirik. Ona görə edirik ki, Azərbaycanda siyasi islahatlar daha da dərinləşsin, Azərbaycan xalqı həmişə öz taleyinin sahibi olsun, necə ki, bu gün Azərbaycan xalqı öz taleyinin sahibidir və seçkilər, onun nəticələri bunu bir daha təsdiqləyir.

Deyə bilərəm ki, son 15 il ərzində Azərbaycanda siyasi mübarizə mədəniyyəti istiqamətində də müsbət meyillər müşahidə olunur və Prezident seçkiləri kampaniyası bunu bir daha göstərdi. Namizədlərin çıxışlarında kifayət qədər kəskin tənqidi fikirlər səslənmişdir, mən bunu alqışlayıram, müsbət hal kimi qiymətləndirirəm. Bu, siyasi mübarizənin düzgün istiqamətdə inkişaf etməsindən xəbər verir. Qeyd etməliyəm ki, Prezident seçkiləri kampaniyası zamanı namizədlər tərəfindən qaldırılmış məsələlərə diqqətlə baxılacaq və dəyərli təkliflər nəzərə alınacaqdır. Bir sözlə, bu 15 il ərzində biz çalışmışıq ki, Azərbaycanda siyasi mübarizə sivil qaydada təmin olunsun və

buna böyük dərəcədə nail ola bilmişik. Fürsətdən istifadə edərək, seçkilərdə iştirak etmiş bütün namizədlərə öz təşəkkürümü bildirirəm, onlara gələcək fəaliyyətlərində uğurlar diləyirəm.

O ki qaldı anti-milli qruplaşmaya, onlar tam marginallaşıb. Bu seçkilər bir daha göstərdi ki, onların Azərbaycanın siyasi səhnəsində yeri yoxdur. Onların yerini Azərbaycan xalqı çoxdan müəyyən edib, bu da tarixin zibilxanasıdır. Xarici qrant, ianə hesabına fəaliyyət göstərən, öz dövlətinə qarşı çıxış edən, bir çox hallarda milli satqınlıq nümayiş etdirən ünsürlərə Azərbaycan xalqı bir daha öz yerini göstərdi. Seçkilərdən əvvəl və seçkilərdən sonra onların təşkil etdikləri yığıncaqlar bir daha göstərdi ki, Azərbaycan xalqı heç vaxt imkan verməz ki, xaricdən idarə olunan qruplaşma Azərbaycanda hansısa mövqeyə sahib olsun. Biz bundan sonra da demokratik inkişafla bağlı səylərimizi artıracağıq və gələcək fəaliyyətimizdə də bu istiqamət önəmli yer tutacaqdır.

Azərbaycan bu 15 il ərzində uğurla inkişaf edib. Azərbaycan xalqı birlik, həmrəylik nümayiş etdirib. Bizim gələcək fəaliyyətimiz üçün milli ideologiyamız əsas rol oynayır. Azərbaycançılıq məfkurəsi Azərbaycanda tam bərqərar olub, Azərbaycan xalqı vahid milli ideya ətrafında birləşib və ölkəmiz çox uğurla inkişaf edir. Azərbaycanda dinlərarası, millətlərarası münasibətlər nümunəvi xarakter daşıyır. Azərbaycanda bütün xalqların, dinlərin nümayəndələri bir ailə kimi mehribanlıq şəraitində yaşayır və bundan sonra da yaşayacaqdır. Bizim siyasətimiz və cəmiyyətin istəkləri bu istiqamətdə atılacaq addımları da şərtləndirəcəkdir.

Azərbaycan ölkə daxilində dinlərarası, millətlərarası münasibətlərin tənzimlənməsində çox böyük uğurlara nail olub və biz son 15 il ərzində bunu dünyaya nümayiş etdirmişik. Təkcə ona görə yox ki, özümüzü göstərək, ona görə ki, dünyada da müsbət meyillər üstünlük təşkil etsin. Əfsuslar olsun ki, son 15 il ərzində dünyada bu istiqamətdə çox təhlükəli proseslər cərəyan edib. İslamofobiya, ksenofobiya, ayrı-seçkilik artıq bəzi

ölkələrdə dövlət siyasətinə çevrilir, başqa millətlərin, dinlərin nümayəndələrinə mənfi münasibət göstərilir. Ona görə biz çalışmışıq və bundan sonra da çalışacağıq ki, öz nümunəmizi göstərərək sübut edək ki, multikulturalizm yaşayır və yaşamalıdır. Eyni zamanda, biz öz milli-mənəvi dəyərlərimizə sadiqik, buna bağlıyıq və təsadüfi deyil ki, 2016-cı və 2017-ci illər Azərbaycanda «Multikulturalizm» və «İslam həmrəyliyi» illəri elan olunmuşdur.

Azərbaycan son 15 il ərzində beynəlxalq aləmdə böyük uğurlara imza atıb. Bizim dünyadakı mövqelərimiz möhkəmlənir, Azərbaycan çox müsbət beynəlxalq reputasiyaya malik olan ölkədir. Bizə qarşı dünya birliyi tərəfindən böyük rəğbət, dəstək var, biz bunu hiss edirik və əldə edilmiş nəticələr, qəbul edilmiş qərarlar bunu bir daha təsdiqləyir. Əlbəttə ki, bunun ən bariz nümunəsi bizim 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçilməyimiz olubdur. Bu, gənc müstəqil dövlət üçün çox böyük nailiyyətdir və bu onu göstərir ki, dünya birliyinin mütləq əksəriyyəti bizi dəstəkləyir.

Biz son 15 il ərzində qonşu dövlətlərlə daha da sıx münasibətlər qura bilmişik. Deyə bilərəm ki, ikitərəfli münasibətlərimiz indi ən yüksək səviyyədədir, qonşu dövlətlərlə bizim heç bir problemimiz yoxdur, bütün məsələlər konstruktiv şəkildə öz həllini tapır və ikitərəfli əməkdaşlıq çoxtərəfli əməkdaşlığa şərait yaradır. Çoxtərəfli əməkdaşlıq da Azərbaycanın təşəbbüsü ilə baş verir. Bizim təşəbbüsümüzlə 4 qonşu ölkə ilə 4 çoxtərəfli əməkdaşlıq formatı yaradılıbdır və bu, işlək formatlardır. Biz bu üçtərəfli və dördtərəfli görüşlərdə çox önəmli məsələləri müzakirə edirik, həll edirik. Məsələlərin həlli bütün qonşu ölkələr, o cümlədən Azərbaycan üçün böyük fayda verir, eyni zamanda, qonşularla isti münasibətlərimiz regional sabitliyə, təhlükəsizliyə də öz müsbət təsirini göstərir.

Biz son 15 il ərzində beynəlxalq təşkilatlar çərçivəsində çox fəal iştirak etmişik, bundan sonra da fəal iştirak edəcəyik. Beynəlxalq təşkilatlar Azərbaycanın mövqeyini, xüsusilə də Er-

mənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ədalətli mövqemizi dəstəkləyir. Təkcə onu demək kifayətdir ki, son 15 il ərzində ən mötəbər beynəlxalq təşkilatlar münaqişə ilə bağlı bizim təklifimizi qəbul edərək, çox önəmli qətnamələr qəbul etmişlər. Orada göstərilir ki, münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. BMT Baş Assambleyası, «Qoşulmama Hərəkatı», İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti, İqtisadi Əməkdaşlıq Təşkilatı, GUAM və digər təşkilatlar münaqişə ilə bağlı bizim mövqemizi dəstəkləyən qətnamələr qəbul edibdir. Ondan əvvəlki dövrdə isə BMT Təhlükəsizlik Şurası və ATƏT münaqişənin həlli üçün hüquqi baza yaradan qətnamələr qəbul etmişdir.

Biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində beynəlxalq təşkilatların dəstəyini tam qazana bilmişik, Ermənistanın işğalçı siyasətini ifşa etmişik. Nail ola bilmişik ki, Ermənistan bu gün bütün regional layihələrdən təcrid edilmiş vəziyyətdədir. BMT Təhlükəsizlik Şurasının qətnamələri münaqişənin həlli üçün əsas hüquqi bazadır. Baxmayaraq ki, erməni lobbi təşkilatları bizə qarşı kampaniyalar aparır, biz dünyaya bir daha sübut edə bildik ki, haqlıyıq. Bu kampaniyalar beynəlxalq təşkilatların qərarlarına təsir edə bilmədi. Biz siyasi və diplomatik uğurlar qazana bildik. Qondarma Dağlıq Qarabağı heç kim tanımır və əminəm ki, tanımayacaqdır. Orada keçirilən qondarma referendumu bizim qonşu ölkələrimiz və beynəlxalq təşkilatlar pislədilər.

Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır. Hüquqi baza vardır. Biz 15 il ərzində bu bazanı möhkəmləndirdik. Biz son 15 il ərzində münaqişə ilə bağlı həqiqətləri dünya birliyinə çatdıra bildik, kitablar yazıldı, qədim xəritələr ortaya qoyuldu, təqdimatlar, sərgilər keçirildi. 10-dan çox ölkə Xocalı qətliamını soyqırımı kimi tanıdı. Bizim diplomatik və siyasi uğurlarımız öz nəticəsini verməkdədir.

Bu gün Ermənistan dalan ölkəyə çevrilib. Biz gizlətmirik ki, səylərimiz nəticəsində Ermənistanı bütün regional layihələrdən təcrid etmişik və bu siyasət öz nəticəsini verməkdədir. Biz bundan sonra da bu siyasəti davam etdirəcəyik və əminəm ki, istədiyimizə nail olacağıq. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. Azərbaycan heç vaxt imkan verməz ki, bizim ərazimizdə ikinci qondarma erməni dövləti yaradılsın.

Dünya birliyinə, ictimaiyyətinə onu da çatdırırıq ki, nəinki Dağlıq Qarabağ, hətta indiki Ermənistan da bizim tarixi torpaqlarımızdır. Təkcə sözlə yox, sübutlarla dünya birliyinə bunu çatdırırıq. Arxivlər qaldırılır, elmi əsərlər, tarixi kitablar yazılır. Bunu sübut edən kifayət qədər tarixi sənədlər vardır. XIX əsrin əvvəllərində İrəvan xanlığının əhalisinin 80 faizini azərbaycanlılar təşkil edirdi. Biz bir neçə deportasiyaya məruz qalmışıq. Bütün bunları biz dünya birliyinə çatdırmalıyıq, çatdırırıq və bu öz səmərəsini verməkdədir.

Bizim Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı prinsipial mövqemiz Azərbaycan xalqı tərəfindən dəstəklənir. Biz bu siyasətdən dönməyəcəyik, bundan sonrakı illərdə də işğalçını bütün regional işlərdən təcrid edəcəyik, onları ifşa edəcəyik. Gələcək illərdə isə bizim gücümüz daha da artacaqdır. Çünki bu gün reallaşan böyük təşəbbüslər, layihələr bizim gücümüzü daha da artıracaqdır.

Eyni zamanda, biz yaxşı bilirik və bunu tarix, yaxın tarix və bölgədə gedən proseslər göstərir ki, bir çox hallarda beynəlxalq hüquq normaları işləmir. Kim güclüdür, o da haqlıdır. Biz bunu dəfələrlə görmüşük, bu gün də görürük. Demək olar ki, son 15 il ərzində beynəlxalq davranış qaydaları dəyişib, beynəlxalq hüquq normaları arxa plana keçibdir. Güc amili daha önəm qazanıb. Bu reallıqdır. Biz real həyatda yaşayırıq və reallıqla hesablaşmalıyıq.

Bu reallıq bir də onu göstərir ki, bizim ordu quruculuğu ilə bağlı apardığımız siyasət yeganə düzgün siyasətdir. Bu siyasətin əvvəlində böyük işlər görülüb. Son 15 il ərzində ordu quruculuğu prosesi sürətlə gedib. Bəzi hallarda bizi tənqid edirdilər ki, siz nəyə görə bu məsələlərə bu qədər vəsait xərcləyirsiniz?! Ancaq həyat göstərdi ki, biz düzgün siyasət aparmışıq. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Təchizat, silah, sursat, texnika, döyüş qabiliyyəti baxımından ordumuz güclü ordular sırasındadır. Ordumuz üçün nə lazımdırsa, biz onu da edirik. Ən müasir silahlar alınır və bundan sonra da alınacaqdır.

Ordumuzun gücünü düşmən də gördü. Aprel döyüşləri bizim şanlı tariximizdir, böyük qələbəmizdir. Azərbaycan Ordusu Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğalçılardan azad etdi, biz minlərlə hektar torpağa nəzarət edirik. Bu torpaqlara həyat qayıdır, insanlar qayıdır, bu torpaqlarda Azərbaycan bayrağı dalğalanır, yeni qəsəbə salınıbdır. Bizim hərbi qələbəmiz Azərbaycan xalqının gücünü, yenilməz ruhunu göstərdi. Onu göstərdi ki, Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq, biz öz torpaqlarımızı azad edəcəyik. Buna nail olmaq üçün daha da güclü olmalıyıq və olacağıq.

Cocuq Mərcanlı qəsəbəsi bizim dirçəliş rəmzimizə çevrilibdir. Cocuq Mərcanlıya qayıdan həyat hər bir Azərbaycan vətəndaşını ürəkdən sevindirir, onu qürurlandırır. Erməni vandalları, Ermənistan rəhbərliyi bizim tarixi abidələrimizə qarşı da soyqırımı törədib, məscidlərimizi dağıdıblar. Amma onlar başa düşmürlər ki, biz dağılmış məscidləri qəlbimizdə yaşadırıq. Biz dağılmış məscidləri qəlbimizdə ucaltmışıq. Torpaqlar işğaldan azad olunandan sonra vandallar tərəfindən dağıdılmış Şuşa məscidinin bənzərini biz Cocuq Mərcanlıda tikdik. Bu gün bu torpaqlarda bizim insanlarımız ibadət edə bilirlər. Bu bir daha göstərir ki, biz heç vaxt işğalla barışmayacağıq.

Biz köçkünlərlə bağlı olan məsələləri də uğurla həll edirik. 100-ə yaxın qəsəbə salınıb, 280–290 min köçkün soydaşımız yeni evlərlə, mənzillərlə təmin edilibdir. Biz bundan sonra da onlara dəstək göstərəcəyik. Köçkünlərin məişət problemləri, onların məşğulluğu daim diqqət mərkəzindədir. Gələcəkdə də bu istiqamətdə addımlar atılacaqdır.

Ümumiyyətlə, deyə bilərəm ki, son 15 il ərzində biz sosial məsələlərin həllinə çox böyük diqqət göstərmişik. Bunu rəqəmlər də təsdiqləyir. Maaşlar təxminən 7 dəfə, pensiyalar 10 dəfədən çox artıb. Sosial infrastruktur yaradılır. 3100-dən çox məktəb tikilib və təmir edilibdir. 640-dan çox xəstəxana tikilib və təmir edilibdir. Bölgələrdə 43 Olimpiya İdman Kompleksi yaradılıbdır. Sosial siyasət daim diqqət mərkəzindədir. Dəfələrlə bu məsələ ilə bağlı fikrimi bildirmişəm, bir daha demək istəyirəm ki, gələcək fəaliyyətimdə də Azərbaycan vətəndaşının maraqları, onun rifahı daim diqqət mərkəzində olacaqdır.

Nəzərə alsaq ki, növbəti illərdə biz çox ciddi islahatlar aparacağıq, islahatları dərinləşdirəcəyik, əminəm ki, vətəndaşlarımızın yaşayış səviyyəsi daha da yaxşılaşacaqdır. Yoxsulluğa qarşı mübarizədə Azərbaycan böyük uğurlara imza atıb. Demək olar ki, bu məsələlərlə məşğul olan bütün beynəlxalq təşkilatlar bunu nümunə kimi göstərirlər ki, yoxsulluq təxminən 50 faizdən 5,4 faizə düşübdür. İşsizliklə bağlı böyük işlər görülüb. İşsizlik Azərbaycanda 5 faiz səviyyəsindədir. Son 15 il ərzində əhalinin sayı 1,5 milyon nəfər artıb. Ancaq iş yerləri də təxminən o qədər artıbdır. Mən bunu bir daha demək istəyirəm ki, gələcək fəaliyyətimizdə biz bu amili daim diqqətdə saxlayacağıq. Çünki bizdə mövcud olan müsbət demoqrafik dinamika tələb edir ki, iş yerlərinin yaradılması prosesi daim getsin. Əgər nəzərə alsaq ki, indi dünyada, o cümlədən Azərbaycanda yeni texnologiyalar tətbiq olunur və bu texnologiyalar bəzi hallarda insan əməyini aradan götürür, yeni texnoloji müəssisələrin yaradılması bizim planlarımızdadır. Biz

yeni iş yerlərinin yaradılması ilə bağlı daha çevik və səmərəli siyasət aparmalıyıq.

Bu illər ərzində Azərbaycan intellektual məhsulun ixracatçısına çevrilibdir. «ASAN xidmət» artıq başqa ölkələrdə tətbiq olunur, bizim təcrübəmiz öyrənilir. Bu, ictimai xidmətlər sahəsində bir inqilab idi. Bu, sosial layihədir. Çünki bu layihə insanlara xidmət göstərir. 13 «ASAN xidmət» Mərkəzimiz vardır. Bu ilin sonuna qədər onların sayı 15-ə, gələn ilin sonuna qədər isə 20-yə çatacaqdır. «ASAN xidmət» mərkəzlərində 20 milyondan çox müraciət qeydə alınıb və bu qurumu bəyənmə əmsalı 100 faizə yaxındır.

Bu bir daha bizim niyyətimizi, siyasətimizi göstərir. Korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə aparılır, bundan sonra da aparılacaqdır. Bu istiqamətdə inzibati tədbirlər, cəza tədbirləri görüləcək və ən böyük səmərə verən sistem xarakterli tədbirlər, institusional islahatlar həyata keçiriləcəkdir. «ASAN xidmət» onların arasında xüsusi yer tutur. Azərbaycan vətəndaşları görürlər ki, biz tədricən bu qurumun funksiyalarını genişləndiririk.

Biz son 15 il ərzində iqtisadi islahatlar aparmışıq və iqtisadi məsələlərə xüsusi diqqət yetirmişik. Mən dəfələrlə demişəm və həyat da bunu göstərir ki, ancaq iqtisadiyyatı güclü olan ölkələr müstəqil siyasət apara bilər. Əgər sən kimdənsə asılısansa – ya kreditdən, ya başqa dövlətdən – heç vaxt, sözün əsl mənasında, müstəqil siyasət aparmaq iqtidarında olmayacaqsan. Ona görə biz çalışırdıq ki, iqtisadi müstəqilliyə çataq və buna da nail olduq. Biz indi heç bir kreditə möhtac deyilik, özümüz kreditlər veririk. Bizim xarici dövlət borcumuz ümumi daxili məhsulumuzun 20 faizini təşkil edir. Mən qarşıya vəzifə qoymuşam ki, gələcək illərdə xarici dövlət borcumuzu daha da aşağı səviyyəyə salmalıyıq. İqtisadiyyat son 15 il ərzində 3,2 dəfə artıbdır. Bu çox böyük göstəricidir. Əlbəttə, bu göstəricinin tərkibində neft amili xüsusi yer tutur. Ancaq bununla bərabər, bizim qeyri-neft ixracımız 15 il ərzində 4 dəfədən çox artıbdır. Bu da onu göstərir ki, bizim islahatlarımız böyük səmərə verir.

Sənaye istehsalı 2,6 dəfə artıb. Valyuta ehtiyatlarımız 24 dəfə artaraq, bu gün 44 milyard dollara bərabərdir. Ölkəmizə 230 milyard dollardan çox sərmayə qoyulub. Ölkəmizdə çox gözəl investisiya iqlimi vardır. Xarici və yerli sərmayə ölkəmizə bundan sonra da qoyulacaqdır. Davos Dünya İqtisadi Forumu Azərbaycanı rəqabətqabliyyətliliyinə görə 35-ci yerə layiq görübdür. İnkişafda olan ölkələr arasında inklüziv inkişaf indeksinə görə biz 3-cü yerdəyik. Yəni bu göstəricilər özlüyündə hər şeyi açıq-aydın bildirir, onu göstərir ki, iqtisadi sahədə əldə edilmiş uğurlar, nailiyyətlər tarixi nailiyyətlərdir.

Bu gün də Azərbaycan iqtisadiyyatı inkişaf edir. Biz dünyada baş vermiş böhranlardan ən az itkilərlə çıxa bilmişik. Artıq bu böhranlar arxada qalıb və iqtisadi sabitlik, maliyyə sabitliyi, əlbəttə ki, həm investisiya iqliminə müsbət şərait yaradır, həm də biznes mühitini daha da yaxşılaşdırır. Gələcək illərdə biznes mühitinin yaxşılaşdırılması istiqamətində əlavə addımlar atılacaq, iqtisadi islahatlar dərinləşəcəkdir. İqtisadi sahədə tam şəffaflıq təmin edilməlidir, bütün xoşagəlməz hallara son qoyulmalıdır. İqtisadi qurumlar dünyanın inkişaf etmiş ölkələrində olan müsbət təcrübəni tətbiq etməlidir. Belə göstərişlər verilibdir. Əminəm ki, Azərbaycan vətəndaşları, sahibkarlar yaxın gələcəkdə bizim islahatlarımızın müsbət təsirini görəcəklər.

Sahibkarlığın inkişafı sürətlə gedir. Bu illər ərzində sahibkarlara 2 milyard manatdan çox güzəştli şərtlərlə kreditlər verilibdir. Bu kreditlərin və sahibkarların öz vəsaitləri hesabına yüzlərlə, bəlkə də minlərlə yeni müəssisə yaradılıb və qeyri-neft sektorunun inkişafı təmin edilibdir. Növbəti illər ərzində, qeyd etdiyim kimi, iqtisadi sahədə islahatlar dərinləşəcək ki, Azərbaycan iqtisadiyyatı dayanıqlı şəkildə inkişaf etsin və biz neft-qaz amilindən asılılığı azaldaq.

Bu illər ərzində biz yeni texnologiyalara böyük diqqət yetirmişik. Azərbaycan dünyanın məhdud sayda üzvü olan kosmik klubuna daxil olubdur. Bizim indi 2 peykimiz var və üçüncü peykin orbitə buraxılması nəzərdə tutulur. Azərbaycan bu sahədə

də liderlik nümayiş etdirir. Bu onu göstərir ki, biz gələcəyə baxırıq və gələcək də elmi-texnoloji inkişafla bağlıdır. Məhz buna görə biz təhsilə, elmə diqqət veririk, növbəti illərdə daha da böyük diqqət göstərməliyik. Çünki hər bir dövlətin uğurlu inkişafı texnoloji təminata əsaslanır. Biz ən müasir texnologiyaları Azərbaycanda tətbiq etməliyik. Buna nail olmaq üçün bizdə hazırlıqlı kadr potensialı olmalıdır, bu istiqamətdə bundan sonrakı illərdə də işlər görüləcəkdir.

Əlbəttə ki, bizim iqtisadiyyatımızın əsas hissəsini neft-qaz sektoru təşkil edir. Təbii ki, son 15 il ərzində bu sahəyə xüsusi diqqət göstərilib və bundan sonra da göstəriləcəkdir. Bu illər ərzində biz doğrudan da tarixi nailiyyətlərə nail ola bilmişik. Ulu öndər Heydər Əliyevin öz əlləri ilə təməlini qoyduğu Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verildi və beləliklə, biz böyük gəlir əldə etməyə başladıq. Ondan 1 il sonra Bakı–Tbilisi–Ərzurum qaz kəməri Azərbaycanı qaz ixrac edən ölkəyə çevirdi. Hazırda biz «Cənub Qaz Dəhlizi»nin icrası ilə məşğuluq. Bu layihə bizim təşəbbüsümüzlə həyata keçirilir. 2012-ci ildə bu layihəyə start verildi. Ondan əvvəlki illər isə, demək olar ki, nəticəsiz keçmişdir. Çünki Azərbaycan qazını böyük həcmdə Avropa bazarlarına çıxarmaq üçün bir neçə il ərzində müzakirələr getdi, amma heç bir nəticə yox idi. Onda biz anladıq ki, ancaq özümüzə güvənməliyik və tarixi qərarlar qəbul etdik. Çox çətin olan layihəni uğurla icra edirik. Bu həm iqtisadi, həm də texniki cəhətdən maliyyə tutumlu layihədir. «Cənub Qaz Dəhlizi»nə qoyulan sərmayə 40 milyard dollara bərabərdir. Bu vəsaitin böyük hissəsi xarici tərəfdaşlar, banklar tərəfindən qoyulur. Bu da dünyada mövcud olan iqtisadi böhrana təsadüf etdiyinə görə bu vəsaiti ölkəmizə cəlb etmək o qədər də asan məsələ deyildi. Biz, əlbəttə, diplomatik, siyasi və iqtisadi yollarla buna nail ola bildik. «Cənub Qaz Dəhlizi»nə daxil olan layihələrin üçü bu il istifadəyə veriləcəkdir – «Şahdəniz-2», «Cənubi Qafqaz» kəməri və TANAP. Biz artıq Avropanın, Avrasiyanın enerji xəritəsini dəyişmişik. Bundan sonrakı illər ərzində

Azərbaycan Avrasiyada çox önəmli enerji resurslarını dünya bazarlarına çıxaran ölkə kimi fəaliyyət göstərəcəkdir. Əlbəttə, bizə əlavə gəlirlər gələcək və biz bu gəlirləri də ölkəmizin inkişafına yönəldəcəyik. Biz bu illər ərzində «Azəri–Çıraq–Günəşli» neft yataqları blokunun gələcəkdə işlənilməsi ilə bağlı önəmli addımlar atmışıq, yeni kontrakt imzalanıb. Kontraktın müddəti 2050-ci ilə qədər uzadılıb və biz öz payımızı artıra bilmişik. Eyni zamanda, 3,6 milyard dollar bonus almışıq və onun birinci hissəsi artıq bu il xəzinəyə daxil olub. Növbəti illərdə biz neft-qaz sektorunda digər perspektiv strukturlar ətrafında tərəfdaşlarla işləyəcəyik. Demək olar ki, neft-qaz sektorunda Azərbaycan istədiyinə artıq nail olubdur və 1-2 ildən sonra «Cənub Qaz Dəhlizi» tam istifadəyə veriləcəkdir.

Biz bu illər ərzində ölkə daxilində enerji təminatını yaxşılaşdıra bilmişik. Böyük infrastruktur layihələri icra edilib. Son 15 il ərzində 30-dan çox elektrik stansiyası tikilib. Onların generasiya gücü 3900 meqavata bərabərdir. Müqayisə üçün deyə bilərəm ki, indi bizim ümumi generasiya gücümüz təqribən 6,5 min meqavata bərabərdir. Onun 3,9 min meqavatını biz 15 il ərzində yarada bilmişik. Azərbaycan elektrik enerjisini idxal edən ölkədən ixrac edən ölkəyə çevrilibdir.

Azərbaycanda qazlaşdırılma bu ilin sonuna qədər 95 faizə çatacaqdır. Hesab edirəm ki, bu, dünya miqyasında ən yüksək göstəricilərdən biridir və biz bundan sonra da bu işlərlə məşğul olacağıq.

Bu ilin sonuna qədər – əgər 2004-cü ilin əvvəlindən hesablasaq – ölkəmizdə 15 min kilometr yeni yol çəkilişi təmin edilmiş olacaqdır. Bu proses bundan sonrakı illərdə də davam edəcək. Bütün kənd yolları ilə bağlı təkliflər artıq bizə daxil olub. İmkan olduqca biz bütün kənd yollarını yenidən quracağıq. Bu istiqamətdə artıq böyük işlər görülübdür.

2004-cü ildə Bakının su təchizatı ilə bağlı ciddi problemləri var idi. O vaxt Bakı sakinlərinin cəmi 29 faizi davamlı təmiz içməli su ilə təmin olunurdu. Bu gün bu rəqəm 81 faizə çatıbdır.

Ölkə üzrə isə 2004-cü ildə təqribən 20 faiz əhali içməli su ilə təmin edilirdi, hazırda bu rəqəm 67 faizə çatıbdır. Bundan sonrakı illərdə biz bu günə qədər görə bilmədiyimiz işləri başa çatdıracağıq. Bütün şəhərlərdə, bütün kəndlərdə insanlar təmiz içməli su ilə təmin olunmalıdırlar. Bizim proqramlarımızda bu vardır. Bu da infrastruktur layihələri arasında xüsusi yer tutan sahədir.

Kənd təsərrüfatının inkişafı üçün böyük meliorasiya tədbirləri görülüb, 4 böyük su anbarı tikilibdir. Son bir neçə il ərzində biz hər il 100 mindən çox hektara yeni su mənbəyi gətiririk. Əminəm ki, kənd təsərrüfatının inkişafına bunun çox böyük təsiri olacaqdır.

Biz son illərdə ölkə daxilində nəqliyyat infrastrukturu ilə çox ciddi məşğul olmuşuq. Demək olar ki, nəqliyyat infrastrukturuna çox böyük vəsait qoyulubdur. Biz 7 aeroport tikmişik, onlardan 6-sı beynəlxalq statusa malikdir. O aeroportlar indi işləyir, xaricdən gələn turistlərin sayı artır. Ələtdə Xəzər dənizində ən böyük yeni ticarət limanı tikilir, yaxın gələcəkdə istifadəyə veriləcəkdir. Dəmir yolu infrastrukturu yeniləşir. Azərbaycan Xəzər dənizində ən böyük donanmaya malikdir. Burada da biz liderliyi möhkəmləndiririk. Gəmiqayırma zavodunun tikintisi artıq xaricdən gəmilərin alınmasına ehtiyac qalmadığını göstərir.

Bir sözlə, nəqliyyat infrastrukturunun yeniləşməsi, yaradılması, əlbəttə ki, daxili tələbat idi. Eyni zamanda, biz qonşularla əməkdaşlıq edərək, regional infrastrukturu da yaratmışıq. Keçən ilin oktyabrında Bakı–Tbilisi–Qars dəmir yolunun açılışı növbəti tarixi nailiyyətimizdir. Biz qonşularla birlikdə bu tarixi yolu istifadəyə verdik və indi Azərbaycan ərazisindən yüklərin daşınması gündən-günə artmaqdadır. Bununla paralel olaraq, hal-hazırda Şimal–Cənub nəqliyyat dəhlizinin yaradılması ilə məşğuluq və Azərbaycan ərazisində bütün işləri tamamlamışıq. Əminəm ki, qonşu ölkələrlə əməkdaşlıq edərək, bu yolun çatışmayan hissəsi də yaxın gələcəkdə tikilib istifadəyə veriləcəkdir. Beləliklə, açıq dənizə çıxışı olmayan Azərbaycan

Avrasiyanın nəqliyyat mərkəzlərindən birinə çevrilir. Bu, real işlərin nəticəsidir.

Bizim coğrafi yerləşməyimiz bir tərəfdən, əlverişlidir, digər tərəfdən, əlverişsizdir. Biz Avropa ilə Asiya arasında yerləşirik, ancaq bizim açıq dənizə çıxışımız yoxdur. Əgər olsaydı, onda heç neft və qaz kəmərlərini tikməyə ehtiyac qalmazdı. Ona görə belə qapalı şəraitdə Avrasiyanın nəqliyyat mərkəzlərindən birinə çevrilməyimiz tarixi nailiyyətdir.

Qeyd etməliyəm ki, biz digər sahələrdə də böyük uğurlar qazanmışıq. Bir çıxışda onların hamısını sadalamaq mümkün deyil. Təkcə onu demək istəyirəm ki, 2004-cü ildə Azərbaycana xaricdən 1 milyon qonaq gəlmişdirsə, bu il gələcək qonaqların sayı 3 milyona çatacaqdır. Biz ölkəmizi dünyada tanıtdıra bilmişik. Beynəlxalq tədbirlərin keçirilməsi, Avropa oyunları, İslam Həmrəyliyi oyunları, «Formula-1» yarışları, siyasi, humanitar tədbirlər Azərbaycanı dünyaya təqdim etdi. Bununla paralel olaraq, xalqımızın qonaqpərvərliyi, gözəl iqlim, təhlükəsizlik, gözəl infrastruktur, şərait, tarixi abidələrimiz Azərbaycanı sürətlə inkişaf edən böyük turizm mərkəzinə çevirir. Əlbəttə, bu, ölkəmizə valyuta gətirir, bu, ölkəmizi daha da gücləndirir və bu sahədə minlərlə iş yeri yaradılır və yaradılacaqdır.

Biz böyük idman uğurları ilə fəxr edə bilərik. Bizim idmançılarımız son 15 il ərzində Olimpiya oyunlarında, dünya, Avropa çempionatlarında böyük qələbələr qazanıblar. Avropa oyunlarında biz 2-ci yerə layiq görüldük, İslam Həmrəyliyi oyunlarında isə bütün müsəlman ölkələri arasında 1-ci yerə nail olduq. Biz Rio Olimpiya oyunlarında medalların sayına görə 14-cü yerdəyik. Tarixi qələbələrdir. Hara baxsaq, hansı sahəyə baxsaq, biz inkişaf, nəticə və uğur görürük. Nəyə görə? Çünki bizim siyasətimiz xalq tərəfindən dəstəklənir. Bir daha qayıdıram çıxışımın əvvəlinə, xalq–iqtidar birliyi bütün bu uğurları mümkün edir. Biz regional inkişafla çox ciddi məşğul olmuşuq. 3 regional inkişaf proqramı qəbul edilibdir. Üçüncüsü bu il başa çatır. Regionların siması dəyişilib, şəhərlər

abadlaşıb, gözəlləşib. Bakı dünyanın ən gözəl şəhərlərindən birinə çevrilibdir. Bakı şəhəri bizim qürur mənbəyimizdir.

Yəni son 15 il ərzində kifayət qədər uğurlar, nailiyyətlər vardır. Ancaq biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik. Biz gələcəyə baxmalıyıq və baxırıq. Növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız vardır. Biz qeyd etdiyim sahələr üzrə səylərimizi davam etdirəcək, Azərbaycanı daha da qüdrətli ölkəyə çevirəcəyik. Hər bir sahə üzrə – beynəlxalq məsələlər, bölgələrimizin möhkəmləndirilməsi, siyasi-iqtisadi islahatların dərinləşməsi, sosial siyasət, ordu quruculuğu – bizim konkret proqramlarımız, planlarımız vardır. Güclü siyasi iradə, böyük maliyyə resurslarımız vardır. Biz bu maliyyə resurslarını öz əlimizlə yaratmışıq və biz indi öz hesabımıza yaşayırıq. Xalq–iqtidar birliyi vardır. Ona görə mən əminəm ki, bütün Azərbaycan xalqı, biz hamımız gələcəyə çox böyük nikbinliklə baxırıq. Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar.

Çıxışımın sonunda bir məsələni də qeyd etməliyəm. Bütün bu uğurlar ancaq müstəqillik dövründə mümkün olubdur. Azərbaycan xalqı görür ki, müstəqilliyimizin üstünlükləri nədən ibarətdir. Bizim taleyimiz öz əlimizdədir, biz öz taleyimizin sahibiyik. Ancaq müstəqillik dövründə belə böyük uğurlara nail ola bilərdik. Bu gün müstəqillik bizim üçün ən böyük sərvət, ən böyük nemət, ən böyük xoşbəxtlikdir. Biz bundan sonra da müstəqillik və qələbələr yolu ilə gedəcəyik.

Eşq olsun Azərbaycan xalqına!

Yaşasın Azərbaycan!

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*18 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də andiçmə mərasimindən sonra ailə üzvləri ilə birlikdə Fəxri xiyabana gəlib müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət edərək, xatirəsini ehtiramla yad etmişdir.*

*Dövlətimizin başçısı ulu öndərin məzarı önünə əklil qoydu, onun ruhu qarşısında baş əydi.*

*Sonra Prezident İlham Əliyev və ailə üzvləri görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət etdilər və üzərinə gül dəstələri qoydular.*

*Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin məzarlarının üstünə də gül dəstələri düzüldü.*

## ŞƏHİDLƏRİN XATİRƏSİNƏ EHTİRAM

*18 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ailə üzvləri ilə birlikdə aprelin 18-də andiçmə mərasimindən sonra xalqımızın müqəddəs and yeri olan Şəhidlər xiyabanını ziyarət etmişlər.*

*Dövlət başçısı Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirəsini ehtiramla yad etdi, «Əbədi məşəl» abidəsinin önünə əklil qoydu.*

## DÖVLƏT BAYRAĞI MEYDANINDA

*18 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ailə üzvləri ilə birlikdə aprelin 18-də andiçmə mərasimindən sonra Dövlət Bayrağı Meydanında olmuşlar.*

*Fəxri qarovul dəstəsinin rəisi Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.*

*Dövlətimizin başçısı əsgərləri salamladı.*

*Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*

*Azərbaycan Respublikası Prezidentinin, Silahlı Qüvvələrin Ali Baş Komandanının şərəfinə yaylım atəşi açıldı.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçısının qarşısından keçdi.*

## İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATI GƏNCLƏR VƏ İDMAN NAZİRLƏRİ KONFRANSININ DÖRDÜNCÜ SESSİYASININ İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi – İslam Əməkdaşlıq Təşkilatı Gənclər və İdman nazirləri konfransının dördüncü sessiyasının iştirakçılarını səmimi-qəlbdən salamlayır, hər birinizə işlərinizdə uğurlar diləyir və əmin-amanlıq arzulayıram.

Azərbaycan Respublikası dövlət müstəqilliyinin bərpasına nail olduğu ilk illərdən etibarən İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərdən biri kimi, bu təşkilatın fəaliyyətində iştirakına xüsusi əhəmiyyət verir və öz xarici siyasət kursunun əsas istiqamətlərindən biri hesab edir. İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin də Azərbaycanın haqlı mövqeyini daim dəstəkləmələri ölkəmizdə həmişə təqdirlə qarşılanır.

Ötən dövr ərzində iqtisadi gücü və siyasi nüfuzu durmadan artan respublikamız xüsusən son illərdə bir sıra beynəlxalq əhəmiyyətli mötəbər tədbirlərin yüksək səviyyədə keçirildiyi məkana çevrilibdir. İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində qarşılıqlı əlaqələrin inkişafına verdiyi töhfələr Azərbaycanın böyük islam sivilizasiyasının təşəkkülündə özünəməxsus mövqeyinə diqqəti bir daha yönəltmişdir.

Azərbaycan islam ölkələri gənclərinin həmrəyliyinin möhkəmləndirilməsini daim diqqət mərkəzində saxlayır. Bizim təşəbbüsümüzlə Bakıda 2004-cü ildə İslam Əməkdaşlıq Təşkilatı tarixində ilk dəfə Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumu təsis edilmiş və forumun birinci iclası da burada keçirilmişdir.

Ölkəmiz idman sahəsindəki əməkdaşlığı da xalqlarımız arasında həmrəyliyin mühüm amillərindən biri hesab edərək, bu

istiqamətdə mühüm addımlar atıbdır. Biz Azərbaycanda «İslam həmrəyliyi ili»nin elan edildiyi 2017-ci ildə IV İslam Həmrəyliyi oyunlarına ev sahibliyi etmiş, bu oyunların beynəlxalq standartlara tam uyğun və mütəşəkkil keçirilməsinə nail olmuşuq.

Əminəm ki, konfransınız İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin gənclər və idman sahəsində əməkdaşlığının bundan sonra daha da gücləndirilməsi ilə bağlı geniş müzakirələr aparacaq, qarşılıqlı əlaqələrimizin yeni inkişaf yollarını müəyyən edəcəkdir.

*Dərin hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 aprel 2018-ci il*

# İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATI GƏNCLƏR VƏ İDMAN NAZİRLƏRİ KONFRANSININ DÖRDÜNCÜ SESSİYASINDA İŞTİRAK EDƏN GƏNCLƏR VƏ İDMAN NAZİRLƏRİ İLƏ GÖRÜŞ

*18 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də Bakıda keçirilən İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Gənclər və İdman Nazirləri Konfransının dördüncü sessiyasında iştirak edən Gənclər və İdman nazirləri ilə görüşmüşdür.*

**İ l h a m Ə l i y e v:** Əziz qonaqlar, əziz dostlar!

Azərbaycana xoş gəlmisiniz! Sizi görməyə çox şadam. Mən şadam ki, Azərbaycan belə mühüm beynəlxalq tədbirə ev sahibliyi edir. Əminəm ki, bu görüş ölkələrimiz arasında həmrəyliyi, tərəfdaşlığı gücləndirəcək və əməkdaşlığımızın inkişafında çox müsbət dinamika yaradacaqdır. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının çox fəal üzvüdür. Son illərdə biz nazirlər səviyyəsində çox sayda tədbirlər təşkil etmişik. Mən şadam ki, bu gün Gənclər və İdman nazirləri bizim qonaqlarımız sırasındadır.

Azərbaycan hər zaman qardaş müsəlman ölkələrinin dəstəyini hiss edir və öz növbəsində, bütün beynəlxalq təşkilatlarda qardaşlarını dəstəkləyir. Biz BMT-də, sözsüz ki, İslam Əməkdaşlıq Təşkilatında, İqtisadi Əməkdaşlıq Təşkilatı kimi başqa müxtəlif regional təşkilatlarda fəal əməkdaşlıq edirik. Azərbaycan qardaş ölkələrlə həmrəyliyin və tərəfdaşlığın gücləndirilməsi siyasətini davam etdirəcək. Biz hər zaman bir-birimizi dəstəkləməli, bir-birimizin yanında olmalıyıq. İslam Əməkdaşlıq Təşkilatı torpaqlarımızın 20 faizinin qonşu Ermənistan

tərəfindən işğalı ilə nəticələnmiş Ermənistanla Azərbaycan arasında münaqişənin həlli ilə bağlı bir neçə qətnamə qəbul edib. Bu münaqişə nəticəsində 1 milyondan çox azərbaycanlı öz torpaqlarında qaçqın və məcburi köçkünə çevrilib. Biz etnik təmizlənməyə məruz qalmışıq. Ermənistan Xocalıda azərbaycanlılara qarşı soyqırımı törədib. Hazırda bu soyqırımı dünyanın 10-dan çox ölkəsi tərəfindən tanınır. Biz münaqişənin BMT Təhlükəsizlik Şurasının və digər beynəlxalq təşkilatların qətnamələri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli ilə bağlı İslam Əməkdaşlıq Təşkilatının üzvləri olan qardaşlarımızın Azərbaycana göstərdikləri davamlı dəstəyə görə çox minnətdarıq. Ermənistan rəhbərliyi işğal olunmuş torpaqlarda hər şeyi dağıdılıb. ATƏT 2 dəfə işğal olunmuş ərazilərə faktaraşdırıcı missiyalar göndərib. Onların hesabatı bizim tarixi və dini abidələrimizə qarşı vandalizm aktı törədildiyini göstərir. Məscidlərimiz Ermənistan tərəfindən dağıdılıb. Məzarlarımız, tarixi abidələrimizin hamısı dağıdılıb. Hər şey dağıdılıb. Xalqımız, həmçinin mədəni soyqırımına məruz qalıb. Lakin hər zaman dediyim kimi, onlar bizim yaddaşımızı, inamımızı məhv edə bilməzlər. İşğal olunmuş torpaqların bir hissəsi 2 il bundan əvvəl azad ediləndən sonra Azərbaycan həmin ərazini yenidən qurmağı qərara aldı və hazırda orada insanlar yaşayır. Biz orada 150 evdən ibarət qəsəbə tikdik, məktəb, tibb mərkəzi və məscid inşa etdik. Bu məscid ermənilərin qədim Şuşa şəhərində dağıtdıqları məscidin eynisidir. Bunu etməklə, biz bir daha barbarlara göstərdik ki, onlar bizim taleyimizi məhv edə bilməzlər. Biz işğal olunmuş bütün ərazilərə qayıdacaq və oraları yenidən quracağıq. Biz o ərazilərə həyatı qaytaracağıq.

Mən Azərbaycana hər zaman göstərdikləri davamlı dəstəyə və həmrəyliyə görə müsəlman dünyasındakı bütün qardaşlarımıza çox minnətdaram. Bu bizi daha da gücləndirir. Biz müsəlman ölkələrinin həmrəyliyinə böyük töhfələr veririk. Ötən il Azərbaycanda «İslam həmrəyliyi ili» elan olunmuşdur. Biz Azərbaycanda və xaricdə çox sayda tədbirlər təşkil edərək,

müsəlman ölkələrinin birliyini nümayiş etdirdik. Biz dinimizin əsl simasını, mədəniyyətimizi, tarixi irsimizi, potensialımızı və bəşəriyyətin inkişafına verdiyimiz töhfəni nümayiş etdirdik. Yəqin ki, bilirsiniz, ötən il biz IV İslam Həmrəyliyi oyunlarına ev sahibliyi etdik. Bu da bizim birliyimizi nümayiş etdirdi. Bu təkcə idman tədbiri deyildi. Bu bizim birliyimizin, həmrəyliyimizin və imkanlarımızın nümayişi idi. Biz bütün müsəlman ölkələri arasında həmrəyliyə öz töhfəmizi verməyə çalışırıq. Həmçinin sizə məlumat vermək istərdim ki, bu il bizim qədim şəhərimiz olan Naxçıvan İSESKO tərəfindən «İslam mədəniyyətinin paytaxtı» elan olunub və biz bunu geniş şəkildə qeyd edirik. Bir neçə il bundan əvvəl paytaxtımız Bakı da «İslam mədəniyyətinin paytaxtı» idi. Bu bizim gördüyümüz işlərin, birlik və həmrəyliyin müsəlman dünyasına nümayişidir.

Azərbaycan ərazisində çox sayda tarixi, dini abidələr vardır. Biz bu abidələri qoruyub saxlamışıq və onlar bizim tarixi irsimizin bir parçasıdır. Qeyd etmək istərdim ki, onların arasında, dünyanın ən qədim məscidlərindən biri, qədim Şamaxı şəhərində 743-cü ildə inşa edilmiş məscid Azərbaycanda yerləşir. Bir neçə il bundan əvvəl o, əsaslı şəkildə yenidən qurulub. Beləliklə, biz tariximizi, ənənələrimizi, mədəniyyətimizi qoruyub saxlayırıq və bir-birimizi dəstəkləmək üçün çox işlər görürük.

Bizim müsəlman ölkələri ilə çox gözəl əlaqələrimiz vardır. İkitərəfli əlaqələr çox yaxşıdır. Biz siyasi cəhətdən bir-birimizi dəstəkləyirik. Azərbaycan, həmçinin yaxşı iqtisadi perspektivlər yaradan və potensialımızı gücləndirən bəzi layihələrə başlayır. Biz təkcə mühüm əhəmiyyət kəsb edən həmrəylik nümayiş etdirməklə deyil, eyni zamanda, iqtisadi cəhətdən bir-birimizi dəstəkləməliyik. Bu gün Azərbaycan donor ölkə olaraq, çox sayda müsəlman ölkəsində humanitar yardım, təhsil, səhiyyə ilə bağlı çoxsaylı sosial, humanitar tədbirlər həyata keçirir. Biz məktəblər tikirik, qaçqınlara yardım edirik. Bizim həmrəyliyimizin sonuncu nümayişi Rohinca qaçqınlarına göstərdiyimiz humanitar yardımdır. Biz doğru düşündüyümüzü reallaşdırırıq və bu, bütün

müsəlman ölkələri arasında birlik və həmrəyliyi gücləndirir, çünki gücümüz birlikdədir. Sözsüz ki, gənclər siyasətinə məsul nazirlər və digər rəsmi şəxslər olaraq, siz ölkələrimizin sosial həyatının çox əhəmiyyətli bir hissəsini əhatə edirsiniz. Siz gənc nəslə bir-birini daha yaxşı tanımağa kömək edirsiniz. Çünki gənc nəsil birlikdə olmalıdır. Biz, müsəlman ölkələrinin liderləri olaraq, etdiyimiz və etməli olduğumuz kimi, onlar da bir-birini dəstəkləməlidirlər. Bu səbəbdən də düşünürəm ki, Bakıdakı bu görüş gənclərimiz üçün əhəmiyyət kəsb edir. Bu, ölkəmizdə keçirilən mühüm beynəlxalq tədbirdir. Bizdə çox sayda beynəlxalq tədbirlər keçirilir, lakin bu, xüsusi əhəmiyyət kəsb edir. Mən bizimlə birlikdə olduğunuza görə sizə təşəkkürümü bildirmək istərdim. Bilirəm ki, konfransınız uğurla başlayıb və onun işini uğurla başa çatdırmağınızı arzulayıram. Ümid edirəm ki, Azərbaycan haqqında daha çox məlumat əldə etməyə, bəzi tarixi məkanları görməyə vaxtınız olacaqdır. Əminəm ki, azərbaycanlı ev sahibləri sizin öz vətəninizə yaxşı xatirələrlə qayıtmağınız üçün əllərindən gələni edəcəklər. Bir daha xoş gəlmisiniz! Bizimlə birlikdə olduğunuz üçün təşəkkür edirəm.

**Yusif bin Əhməd əl-Useymin** (*İslam Əməkdaşlıq Təşkilatının baş katibi*): Cənab Prezident, bizi belə mötəbər tədbir, İslam Əməkdaşlıq Təşkilatı Gənclər və İdman Nazirləri Konfransının dördüncü sessiyası çərçivəsində qəbul etdiyinizə və nazirlərə dəstək göstərdiyinizə görə çox sağ olun. Bu, İslam Əməkdaşlıq Təşkilatının fəaliyyətinin bir hissəsidir. İcazə verin, əvvəlcə yenidən Prezident seçilməyiniz münasibətilə Sizi təbrik edim. Mən uca Allaha bu böyük xalqın uğuru, sülh və firavanlıq içində yaşaması üçün dua edirəm. Mən həmçinin İslam Əməkdaşlıq Təşkilatının Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın haqq işini dəstəklədiyini vurğulamaq istəyirəm. Bu, İslam Əməkdaşlıq Təşkilatı üçün prioritetdir, biz bunu bütün qətnamələrimizdə qeyd edirik, istər sammit çərçivəsində, istərsə də Xarici İşlər nazirlərinin qətnamələrində. Bu, haqq işidir və biz sadəcə, Birləşmiş Millətlər Təşkilatının qətnamələrinin icra olunmasını tələb edirik. İkincisi, Sizin də

düzgün buyurduğunuz kimi, gənclər müsəlman dünyasında əhalimizin böyük seqmentini təşkil edir və biz təəssüf hissi doğuran hadisələrə, ekstremizmə və terrorizmə göstərdiyimiz münasibətlə bağlı onlara ümid verməliyik. Beləliklə, mən istəyirəm ki, biz, İslam Əməkdaşlıq Təşkilatı Gənclər və İdman Nazirləri Konfransı istər idman, istərsə də digər fəaliyyətlər vasitəsilə gənc nəslimizin yaxşı mənada iştirakını nəzərdə tutan proqramın tərtib olunmasını təmin edək. Mən həmişə deyirəm ki, gənclərimiz müəyyən yaxşı keyfiyyətlərə malik gənclərdir, əks halda, onlar pis işlər görərdilər. Ən yaxşı hal müsəlman ölkələrində sırf gənclər və ümumən cəmiyyət üçün nəzərdə tutulmuş mənalı siyasət və proqramların tərtib edilməsidir.

Cənab Prezident, Sizə də təşəkkürümü bildirirəm. Çünki bu Sizin ideyanız idi və 2005-ci ildə Bakıda bu forumun təşəbbüskarı Siz oldunuz. Biz bunu və Sizin gənc nəslə olan baxışınızı, əzm və sadiqliyinizi dərin minnətdarlıq hissi ilə xatırlayırıq. Bizim buradakı görüşümüz Sizin vaxtilə təşəbbüskarı olduğunuz uğurlu ideyanın sübutudur. Bakı Azərbaycanın Sovetlər İttifaqından ayrıldıqdan sonra necə dəyişilməsi, müasir və çiçəklənən şəhərə çevrilməsi nöqteyi-nəzərdən uğurlu bir eksperimentdir. İndi isə ölkəniz turizm nöqteyi-nəzərindən regionun qibləsinə çevrilibdir. Biz bununla qürur duyuruq və Sizin düzgün qeyd etdiyiniz kimi, ölkələrimiz və İslam Əməkdaşlıq Təşkilatı arasında iqtisadi əməkdaşlığı dəstəkləyirik. Turizm isə uğurla həyata keçən bu əməkdaşlığın çox mühüm elementidir.

Cənab Prezident, bir daha Sizə öz təbriklərimi çatdırıram. Biz zati-alinizə söz veririk ki, Sizin bütün tapşırıqlarınız, müdrik fikirləriniz və gənclər strategiyasına aid olan fəaliyyət planı, inşallah, həyata keçiriləcəkdir.

* * *

*Sonra İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumu İdarə Heyətinin qərarına əsasən, İslam Əməkdaşlıq Təşkilatı Gənclər Fo-*

*rumunun yaranması və inkişafındakı təşəbbüs və roluna, İslam Əməkdaşlıq Təşkilatı gəncliyinin inkişafına yönəlmiş fəaliyyətlərə və quruma üzv ölkələr arasında həmrəyliyin gücləndirilməsinə verdiyi daimi və müstəsna dəstəyə görə Prezident İlham Əliyevə İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun «Gənclərin hamisi» ilk Fəxri nişanı və xatirə hədiyyəsi təqdim olundu.*

**İ l h a m  Ə l i y e v:** Bu mükafata görə çox sağ olun. Mən bunu yüksək qiymətləndirirəm. Təşəkkür edirəm. Doğru olaraq qeyd etdiyiniz kimi, Azərbaycan ölkələrimizin gənclərinin bir araya gəlməsində mühüm rol oynayıb. Şadam ki, Gənclər Forumu uğurla fəaliyyət göstərir. Çıxışımın əvvəlində qeyd etdiyim kimi, məqsədimiz ölkələrimiz arasında həmrəyliyi gücləndirməkdir ki, gənc nəsil bizim yolumuzu davam etdirsin.

## TÜRKİYƏ RESPUBLİKASININ GƏNCLİK VƏ İDMAN NAZİRİ OSMAN AŞKIN BAK İLƏ GÖRÜŞ

*18 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də Türkiyə Respublikasının Gənclik və İdman naziri Osman Aşkın Bakı və Bilal Ərdoğanı qəbul etmişdir.*

*Nazir Osman Aşkın Bak və Bilal Ərdoğan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Baş Nazir Binəli Yıldırımın salamlarını dövlətimizin başçısına çatdırdılar. Qonaqlar Prezident İlham Əliyevi Prezident seçkilərində inamlı qələbə qazanması münasibətilə bir daha təbrik etdilər və bu qələbənin Türkiyədə böyük qürur hissi ilə qarşılandığını bildirdilər.*

*Dövlət başçısı təbriklərə görə minnətdarlığını bildirdi.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, ölkələrimizin gənclər siyasəti və idman sahəsində əməkdaşlığının möhkəmləndirildiyi qeyd olundu, Bakıda keçirilən İslam Əməkdaşlıq Təşkilatı Gənclər və İdman Nazirləri Konfransının dördüncü sessiyasının islam ölkələri arasında əməkdaşlığın və həmrəyliyin genişləndirilməsi işinə xidmət edəcəyi bildirildi.*

*Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Baş Nazir Binəli Yıldırımın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyənin Prezidentinə və Baş Nazirinə çatdırmağı xahiş etdi.*

## BEYNƏLXALQ ATOM ENERJİSİ AGENTLİYİNİN BAŞ DİREKTORU YUKİO AMANO İLƏ GÖRÜŞ

*18 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də Beynəlxalq Atom Enerjisi Agentliyinin baş direktoru Yukio Amanonu qəbul etmişdir.*

*Dövlətimizin başçısını Prezident seçkilərində qələbə qazanması münasibətilə təbrik edən Yukio Amano Prezident İlham Əliyev ilə inauqurasiya mərasimində görüşməsinin əlamətdar hadisə olduğunu bildirdi. Azərbaycanın Beynəlxalq Atom Enerjisi Agentliyi üçün çox mühüm tərəfdaş olduğunu qeyd edən Yukio Amano ölkəmizlə yüksək səviyyəli əməkdaşlıq həyata keçirildiyini, bir sıra mühüm layihələr üzrə birgə iş aparıldığını vurğuladı.*

*Təbrikə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Yukio Amanonun ölkəmizə səfərinin önəmini qeyd etdi. Dövlət başçısı Azərbaycan ilə Beynəlxalq Atom Enerjisi Agentliyi arasında yaxşı tərəfdaşlıq əlaqələrinin mövcud olmasından və bir sıra birgə layihələr üzərində işlərin aparılmasından məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev ölkəmizlə Beynəlxalq Atom Enerjisi Agentliyi arasında əməkdaşlığın gələcəkdə də inkişaf edəcəyinə ümidvar olduğunu bildirdi.*

## KOREYA RESPUBLİKASININ BEYNƏLXALQ SƏRGİLƏR BÜROSUNUN NÜMAYƏNDƏSİ, SƏFİR CAİ-ÇUL ÇOYUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də Koreya Respublikasının Beynəlxalq Sərgilər Bürosunun nümayəndəsi, səfir Cai-Çul Çoyun başçılıq etdiyi Beynəlxalq Sərgilər Bürosunun nümayəndə heyətini qəbul etmişdir.*

*Nümayəndə heyətinin adından çıxış edən Cai-Çul Çoy dövlətimizin başçısını ölkəmizdə keçirilən Prezident seçkilərində qələbəsi və inauqurasiya mərasimi münasibətilə təbrik etdi.*

*Cai-Çul Çoy qeyd etdi ki, Azərbaycan kimi gözəl bir ölkəni tanımaq şansı əldə etmələrindən və burada gedən dinamik proseslərin şahidi olmalarından məmnunluq hissi keçirirlər. Cai-Çul Çoy bildirdi ki, nümayəndə heyətinin səfərinin əsas məqsədi Azərbaycanda mövcud olan şəraiti və imkanları araşdırmaqdır. Qonaq səfər zamanı ölkəmizdə bir sıra səmərəli görüşlər keçirdiklərini, bu müddət ərzində apardıqları müşahidələr nəticəsində müsbət mövqedə olduqlarını vurğuladı.*

*Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirdi.*

*Azərbaycanın gənc müstəqil dövlət olduğunu vurğulayan dövlətimizin başçısı qısa müddət ərzində siyasi, iqtisadi və sosial sahələrdə genişmiqyaslı islahatların həyata keçirildiyini, ölkəmizin artıq uğurlu inkişaf, eləcə də siyasi, iqtisadi və dövlət quruculuğu sahələrində sürətli transformasiya nümayiş etdirməyə nail olduğunu bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, bu illər ərzində görülən işlər göstərir ki, gənc bir dövlət çox uğurla*

*müstəqil yaşaya və çoxlu sayda beynəlxalq tədbirlər təşkil edə bilər. Dövlətimizin başçısı Bakının artıq siyasi, mədəni və idman sahələrində bir çox mühüm beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etdiyini vurğuladı. Prezident İlham Əliyev nümayəndə heyətinin Azərbaycana səfərinin ölkəmizlə və burada əldə olunan nailiyyətlərlə yaxından tanış olmaq üçün yaxşı fürsət yaratdığını diqqətə çatdırdı, səfərin uğurlu keçəcəyinə ümidvar olduğunu bildirdi.*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ
41-ci PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB CORC HERBERT VOLKER BUŞA**

Zati-aliləri!

Həyat yoldaşınız xanım Barbara Buşun vəfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu ağır anlarda dərdinizi bölüşür, əvəzsiz itki ilə əlaqədar Sizə, ailənizin bütün üzvlərinə dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 aprel 2018-ci il*

## RUSİYA FEDERASİYASI SİLAHLI QÜVVƏLƏRİNİN BAŞ QƏRARGAH RƏİSİ VALERİ GERASİMOV İLƏ GÖRÜŞ

*19 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, Müdafiə nazirinin birinci müavini Valeri Gerasimovu qəbul etmişdir.*

*Valeri Gerasimov İlham Əliyevi Prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik etdi və bu seçkiləri xalqın dövlətimizin başçısına olan böyük etimadının göstəricisi kimi qiymətləndirdi.*

*Azərbaycan Respublikasının Prezidenti təbriklərə görə minnətdarlığını bildirdi.*

*Söhbət zamanı hərbi və hərbi-texniki sahələrdə Azərbaycan–Rusiya uğurlu əlaqələri müzakirə edildi, gələcək qarşılıqlı faydalı əməkdaşlıq haqqında fikir mübadiləsi aparıldı.*

*Valeri Gerasimov NATO-nun Avropada Müttəfiq Qüvvələrin Ali Baş Komandanı ilə görüşünə ölkəmizin ev sahibliyi ilə əlaqədar dövlət başçısına minnətdarlıq etdi.*

*Azərbaycan Prezidenti bu görüşün Bakıda keçirilməsini ölkəmizə olan inamın göstəricisi kimi dəyərləndirdi və görüşün beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.*

## NATO-nun AVROPADA MÜTTƏFİQ QÜVVƏLƏRİN ALİ BAŞ KOMANDANI KÖRTİS SKAPAROTTİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da NATO-nun Avropada Müttəfiq Qüvvələrin Ali Baş Komandanı Körtis Skaparottinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Körtis Skaparotti İlham Əliyevi Prezident seçkilərində qələbəsi münasibətilə təbrik etdi.*

*Azərbaycan Prezidenti təbrikə görə minnətdarlığını bildirdi.*

*Söhbət zamanı NATO–Azərbaycan əməkdaşlığının uğurlu inkişafı müzakirə edildi.*

*Keçən ilin noyabrında NATO qərargahına səfər etdiyini vurğulayan dövlətimizin başçısı qeyd etdi ki, səfər zamanı NATO-nun baş katibi ilə aparılan fikir mübadiləsi, Şimali Atlantika Şurasının iclasındakı çıxışı və oradakı müzakirələr bir daha Azərbaycan ilə NATO arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu göstərdi.*

*NATO-nun Avropada Müttəfiq Qüvvələrin Ali Baş Komandanı Körtis Skaparotti öz tərəfindən NATO–Azərbaycan əməkdaşlığından çox razı olduğunu məmnunluqla bildirərək, Azərbaycanın bu təşkilat üçün çox önəmli tərəfdaş ölkə olduğunu qeyd etdi. O, xüsusən Əfqanıstandakı sülhməramlı əməliyyatlarda Azərbaycanın rolunu yüksək qiymətləndirərək, bu əməliyyatlar üçün ölkəmizin tranzit və nəqliyyat imkanlarından istifadə edilməsinin önəmini vurğuladı.*

*Körtis Skaparotti Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ilə görüşünə ölkəmizin ev sahibliyi etdiyi üçün Prezident İlham Əliyevə minnətdarlıq etdi.*

*Azərbaycan Prezidenti ümidvar olduğunu bildirdi ki, bu görüş beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsi işinə xidmət edəcəkdir.*

**KUBA RESPUBLİKASI DÖVLƏT ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB MİGEL DİAS-KANEL BERMUDESƏ**

Hörmətli cənab Sədr!

Kuba Respublikası Dövlət Şurasının Sədri vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Kuba arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin daha da inkişafı və möhkəmləndirilməsi yolunda birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Kuba xalqının rifahı naminə qarşıdakı məsul işinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 aprel 2018-ci il*

## PAYTAXTA GƏTİRİLƏN YENİ METRO QATARLARINA BAXIŞ

*20 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 20-də Bakı Metropoliteninin qatar parkının yenilənməsi məqsədilə paytaxta gətirilən yeni qatarlara baxış keçirmişdir.*

*Prezident İlham Əliyev Bakı Metropoliteninin «İçərişəhər» stansiyasına gəldi.*

*«Bakı Metropoliteni» Qapalı Səhmdar Cəmiyyətinin sədri Zaur Hüseynov dövlət başçısına yeni metro qatarları barədə məlumat verdi. Son illərdə digər sahələrdə olduğu kimi, Bakı Metropoliteninin ən müasir avadanlıqlarla təchiz edilməsi və sərnişinlərin rahatlığının təmin olunması istiqamətində Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük işlər həyata keçirilir. Bu işlərdə əsas məqsəd paytaxt sakinlərinin və şəhərimizin qonaqlarının rahat hərəkət etmələri, onların mənzil başına təhlükəsiz çatmalarıdır.*

*Bu gün Bakı Metropoliteni ən çox sərnişin daşıyan nəqliyyat növü olmaqla, şəhər sakinlərinə və paytaxtımızın qonaqlarına yüksək səviyyədə xidmət göstərir. Yeni vaqonların alınması isə bu xidməti daha da yüksəltməyə geniş imkan yaradır.*

*Prezident İlham Əliyev yeni metro vaqonlarına baxdı.*

*2018-ci ildə Rusiyanın «Transmaşholdinq» şirkətinin «Metrovaqonmaş» Açıq Səhmdar Cəmiyyətində istehsal olunmuş bu vaqonlar müasirliyi ilə seçilir. Yeni qatarın sürəti saatda 90 kilometrdir. Qatarın baş vaqonu 38 oturacaqlı olmaqla, ümumilikdə 315 yerlik, orta vaqonu isə 44 oturacaqlı olmaqla, ümumilikdə 328 yerlikdir. Yeni vaqonların mühərriklərinin gücü 170 kilovatdır.*

*Qəza, sürüşmə, yanğın əleyhinə yeni sistemlərin tətbiqi qatarda hərəkət təhlükəsizliyini əhəmiyyətli dərəcədə artırıb. Vaqonlardakı sərnişinlərin təhlükəsizliyi daxili və xarici videomüşahidə sistemləri əsasında təmin edilir. Bu sistem nəinki maşinistə müraciət edən sərnişini, həmçinin onun ətrafında olan vəziyyəti qiymətləndirməyə imkan verir. Bundan əlavə, videotəsvirin videomüşahidə mərkəzinə ötürülməsi də nəzərə alınıb. Maşinist kabinəsi maşinistin sayıqlığına nəzarət edən texniki vasitələr və intellektual dəstək sistemləri ilə təchiz edilib. İdarəetmə sistemlərinin optimallaşdırılması, yerləşdirilməsi və pult üzərində əks olunması bir qrup maşinistlə aparılan müzakirələrdən sonra işlənilib. Qatarda, həmçinin məlumatın yığılması, saxlanılması və maşinist monitoruna ötürülməsini nəzərdə tutan özünü diaqnostika sistemi tətbiq edilib. Maşinist kabinəsinin sahəsi də 15 faiz artırılıbdır.*

*Prezident İlham Əliyev yeni qatarla metronun İçərişəhər stansiyasından Nəriman Nərimanov stansiyasına getdi.*

*Qatarda vaqonlararası birbaşa keçidin təmin edilməsilə onun konstruksiya tutumu sələfləri ilə müqayisədə 15 faiz çoxdur. Vaqonlararası keçidin olması bütün qatar boyunca sərnişinlərin bərabər paylanmasını, sərnişinlərin yerləşmə sahəsini genişləndirməklə, onların rahat daşınmasını və təhlükəsizliyini təmin edir. Vaqon qapıları əvvəlki nümunələrlə müqayisədə 12 faiz enlidir. Qapıların açılıb-bağlanma sürətinin aşağı olması və qapı arasında qalmaq təhlükəsinə qarşı sistemin mövcudluğu sərnişinlərin təhlükəsizliyini artırır. Qapıların yanlarında onların bağlanması barədə sərnişinlərə xəbərdaredici işıq indikatorları quraşdırılıb. Tambursuz konstruksiya istilik izolyasiyasının yüksək məhsuldarlığını təmin edir ki, bu da öz növbəsində, havanın bütün qatarda bərabər paylanmasına şərait yaradır. Vaqonlarda mükəmməl istilik, salonda təzyiqin tənzimlənməsi və ultrabənövşəyi lampalarla havanın bioloji təmizlənməsi sistemləri mövcuddur.*

*Yeni konstruksiyalı səsboğucu ilə təmin edilmiş təkərlərdən istifadə olunduğu üçün qatarlar səssiz və rəvan hərəkət edir. Bunun hesabına vaqonlarda sərnişinlərin rahatlığı təmin olunur. Yeni gətirilən vaqonların çəkisinin az olması qatarın yola təsirini azaldır ki, bu da səs-küyün səviyyəsinin minimuma endirilməsi ilə nəticələnir. Vaqonlarda ayaq üstə dayanan sərnişinlər üçün çoxfunksiyalı zonalar, o cümlədən iri yüklər, uşaq arabaları üçün hissələr nəzərdə tutulub, sürahilər sərnişin sıxlığı da nəzərə alınaraq layihələndirilib, onların sayı 30 faiz artırılıbdır. İstifadə olunan diodlu lampalar vaqonlarda salonun işıqlandırılmasını tənzimləməyə, həmçinin rəng çalarlarının dəyişməsinə imkan verir. İşıq diodlu cihazların tətbiqi elektrik enerjisi sərfiyyatını 50 faiz azaldır, onların istismar müddətini isə 75 faiz artırır. Qatarın istehsalında müasir materiallardan istifadə olunduğu üçün onun uzun müddət açıq xətlərdə belə, istismarını mümkün edir.*

*Dövlət başçısına metropoliten xətlərinin konseptual inkişaf sxemi barədə məlumat verildi.*

*Son dövrlərdə görülən işlərin nəticəsidir ki, qatarların əsaslı təmiri əvvəllər xarici ölkələrdə həyata keçirilirdisə, hazırda bu işlər «Nərimanov» elektrik deposunda yüksək standartlara cavab verən Qatarların Əsaslı Təmiri Sahəsində icra edilir. Depo ərazisində mexaniki və digər sahələrin bir yerdə olacağı yeni zonanın yaradılması da nəzərdə tutulur ki, burada da bir çox ehtiyat hissələri və avadanlıqlar istehsal ediləcəkdir. Deponun infrastrukturu və hərəkətin idarəolunması sistemləri müasir tələblərə cavab verən texnologiyalarla təchiz edilib. Bakı Metropoliteninin qatar parkının yenilənməsi məqsədilə paytaxta gətirilən yeni qatarlar sərnişinlərin ixtiyarına verilib. Yüksək tələblərə cavab verən yeni qatarlar mütərəqqi texnologiya ilə təchiz olunmaqla, müasir idarəetmə sisteminə malikdir. Belə qatarların alınması Bakı Metropoliteninin qatar parkının yenilənməsi istiqamətində atılan mühüm addım olmaqla yanaşı, sərnişinlərin rahat və təhlükəsiz daşınmasını yüksək səviyyədə təmin etmək baxımından da böyük rol oynayır.*

**ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD ƏŞRƏF QANİYƏ**

Hörmətli cənab Prezident!

Kabil şəhərində törədilmiş güclü partlayış nəticəsində çoxsaylı insan tələfatı və yaralananlar barədə xəbər bizi olduqca kədərləndirdi.

Biz bu amansız terror aktından son dərəcə hiddətlənir, dəhşətli bir bəlaya çevrilmiş terrorizmin bütün təzahürlərinə qarşı daha qətiyyətlə və ardıcıl mübarizə aparılmasını vacib hesab edirik.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Əfqanıstan xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 aprel 2018-ci il*

## RUSİYA FEDERASİYASININ İQTİSADİ İNKİŞAF NAZİRİ MAKSİM OREŞKİN İLƏ GÖRÜŞ

*23 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 23-də Rusiya Federasiyasının İqtisadi İnkişaf naziri Maksim Oreşkini qəbul etmişdir.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə uğurla inkişaf etdiyi qeyd olundu.*

*Ötən il, eləcə də bu ilin ilk rübünün nəticələrinə əsasən, ticarət dövriyyəsinin artmasını iqtisadi əlaqələrimizin genişlənməsinin yaxşı göstəricisi kimi dəyərləndirən Prezident İlham Əliyev bunun ümumilikdə ikitərəfli münasibətlərimizin inkişafının yaxşı göstəricisi olduğunu vurğuladı. Dövlət başçısı ölkələrimizin birgə səmərəli fəaliyyəti nəticəsində iqtisadi əlaqələrin möhkəmləndiyini, eləcə də ayrı-ayrı müəssisələr arasında əməkdaşlığın gücləndiyini bildirdi. Prezident İlham Əliyev iqtisadi əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminliyini ifadə etdi.*

*Maksim Oreşkin bir daha Prezident seçkilərində inamlı qələbəsi münasibətilə Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin təbriklərini dövlətimizin başçısına çatdırdı. O qeyd etdi ki, seçkilərin nəticələri Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi və iqtisadi kursa xalq tərəfindən verilən möhkəm dəstəyin təzahürüdür və Azərbaycanda hökm sürən sabitlik böyük önəm daşıyır. Rusiyalı qonaq qeyd etdi ki, hətta Bakıya son gəlişindən keçən bir neçə ay ərzində iqtisadi əməkdaşlıq istiqamətində irəliyə doğru bir sıra ciddi addımlar atılıbdır.*

*Maksim Oreşkin azərbaycanlı həmkarları ilə birgə məhsuldar fəaliyyətin həyata keçirildiyini məmnunluqla vurğuladı.*

*Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.*

*Söhbət zamanı Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizi, investisiya, kənd təsərrüfatı, turizm və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

**SYERRA-LEONE RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CULİUS MAADA BİOYA**

Hörmətli cənab Prezident!

Syerra-Leone Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz və ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, qarşıdakı fəaliyyətinizdə uğurlar, xalqınıza sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 aprel 2018-ci il*

**CƏNUBİ AFRİKA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MATAMELA SİRİL RAMAFOSAYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Azadlıq Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 aprel 2018-ci il*

**NİDERLAND KRALI**
**ƏLAHƏZRƏT VİLLEM-ALEKSANDRA**

Əlahəzrət!

Niderland Krallığının milli bayramı – Kral Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirməkdən məmnunluq duyuram.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Niderland xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 aprel 2018-ci il*

## RUSİYA FEDERASİYASI XARİCİ KƏŞFİYYAT XİDMƏTİNİN DİREKTORU SERGEY NARIŞKİN İLƏ GÖRÜŞ

*24 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Rusiya Federasiyası Xarici Kəşfiyyat Xidmətinin direktoru Sergey Narışkini qəbul etmişdir.*

*Söhbət zamanı Azərbaycan–Rusiya strateji tərəfdaşlıq münasibətlərinin uğurla inkişaf etdiyi qeyd olundu, əlaqələrimizin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı. Qeyd edildi ki, bütün sahələrdə olduğu kimi, təhlükəsizlik sahəsində də əməkdaşlıq uğurla davam edir.*

*Görüşdə regional təhlükəsizlik məsələləri də müzakirə olundu.*

*Sergey Narışkin Rusiya Prezidenti Vladimir Putinin salamlarını dövlətimizin başçısına çatdırdı. O, İlham Əliyevi Prezident seçkilərində inamlı qələbə qazanması münasibətilə təbrik etdi, bunu Azərbaycan xalqının böyük etimadı kimi dəyərləndirərək, seçkilərin nəticələrini həm də Azərbaycan xalqının qələbəsi kimi qiymətləndirdi.*

*Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev həm Azərbaycanda, həm də Rusiyada keçirilən son Prezident seçkilərinə toxunaraq qeyd etdi ki, bütün bunlar Rusiya və Azərbaycan rəhbərliyi tərəfindən həyata keçirilən siyasətə xalqlarımızın verdiyi dəstəyin nümayişidir.*

*Prezident İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rusiya Prezidentinə çatdırmağı xahiş etdi.*

## TÜRKİYƏ RESPUBLİKASINA RƏSMİ SƏFƏR

*24 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Türkiyə Respublikasına rəsmi səfərə gəlmişdir.*

*Azərbaycanın və Türkiyənin Dövlət bayraqlarının dalğalandığı Ankaranın «Esenboğa» hava limanında Prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlətimizin başçısını Türkiyənin Baş Nazirinin müavini Fikri İşık və digər yüksəkvəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

*Fəxri qarovul dəstəsinin rəisi Prezident İlham Əliyevə raport verdi.*

*Dövlətimizin başçısı Fəxri qarovul dəstəsini salamladı.*

## ANKARADA HEYDƏR ƏLİYEV PARKINDA ULU ÖNDƏRİN ABİDƏSİNİ ZİYARƏT

*24 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Türkiyə Respublikasına rəsmi səfəri çərçivəsində ulu öndərin Ankarada Heydər Əliyev parkında ucaldılmış abidəsini ziyarət etmişdir.*

*Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin parkda ucaldılmış abidəsi önünə gül dəstəsi qoydu, xatirəsini ehtiramla yad etdi.*

*Qeyd edək ki, Ankarada Heydər Əliyev parkı 2004-cü ildə salınıb. 2012-ci ildə parkda əsaslı yenidən qurulma işləri aparılıb. Nəticədə bu park Türkiyə paytaxtının ən gözəl istirahət məkanlarından birinə çevrilib. Parkın girişində Prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın 2004-cü il aprelin 4-də əkdikləri Xan çinarı ağacları və bu barədə məlumatın qeyd edildiyi mərmər lövhələr vardır. Bu istirahət məkanındakı şərait – mərasim meydanı, idman meydançası, uşaq əyləncə sahəsi bütün yaş qrupundan olan şəhər sakinlərinin öz zövqünə uyğun istirahət etmələri üçün imkan yaradır. Hazırda parkın ərazisində inşa edilən «Buta» Azərbaycanı Təbliğ evinin tikintisi yekunlaşmaq üzrədir.*

## ANITQƏBİRİ ZİYARƏT

*Ankara*

*25 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərəyə – Anıtqəbirə gəlmişdir.*

*Dövlətimizin başçısı böyük Atatürkün məzarını ehtiramla ziyarət etdi.*

*Prezident İlham Əliyev Mustafa Kamal Atatürkün məzarı önünə əklil qoydu.*

*Türk dünyasının böyük oğlunun əziz xatirəsi yad edildi.*

*Sonra xatirə şəkilləri çəkdirildi.*

*Dövlətimizin başçısı Xatirə kitabına ürək sözlərini yazdı.*

# TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ İSMAYIL QƏHRƏMAN İLƏ GÖRÜŞ

*Ankara*

*25 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Türkiyə Böyük Millət Məclisinin Sədri İsmayıl Qəhrəman ilə görüşmüşdür.*

*Türkiyə Böyük Millət Məclisinin Sədri İsmayıl Qəhrəman Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.*

*Görüşdə İsmayıl Qəhrəman Prezident İlham Əliyevin Türkiyəyə rəsmi səfərindən məmnunluğunu bildirdi. Türkiyə parlamentinin Sədri dövlətimizin başçısının Prezident seçkilərində parlaq qələbə qazanması münasibətilə təbriklərini çatdırdı, Prezident İlham Əliyevin təkcə öz ölkəsi üçün deyil, bölgə və dünya üçün də mühüm şəxsiyyət olduğunu vurğuladı.*

*Prezident İlham Əliyev səmimi təbriklərə görə Türkiyə Böyük Millət Məclisinin Sədrinə minnətdarlıq edərək, bu səfərin əlaqələrimizin inkişafında yeni mərhələ olacağına əminliyini bildirdi.*

*Görüşdə ikitərəfli münasibətlərimizin uğurlu inkişafından məmnunluq ifadə edildi, parlamentlərarası əməkdaşlığın əlaqələrimizin genişlənməsinə töhfə verdiyi qeyd olundu.*

*Söhbət zamanı Azərbaycanın və Türkiyənin regionda əməkdaşlığa və təhlükəsizliyə verdiyi töhfənin, ölkələrimizin birlikdə qlobal əhəmiyyətli böyük strateji layihələrin həyata keçirilməsinin əhəmiyyəti qeyd olundu.*

## RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Ankara*

*25 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 25-də Türkiyə Respublikası Prezidentinin sarayı – Külliyədə rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Azərbaycan Prezidenti İlham Əliyev süvari dəstəsinin müşayiəti ilə Türkiyə Prezidentinin sarayına gəldi.*

*Sarayın qarşısındakı meydanda Prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.*

*Prezident İlham Əliyevin şərəfinə toplardan yaylım atəşinin müşayiəti ilə Azərbaycanın və Türkiyənin Dövlət himnləri səsləndirildi.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Prezident İlham Əliyev Fəxri qarovul dəstəsini salamladı.*

*Türkiyənin rəsmi şəxsləri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri Prezident Rəcəb Tayyib Ərdoğana təqdim edildi.*

*Sonra Azərbaycan və Türkiyə prezidentləri rəsmi foto çəkdirdilər.*

# TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Ankara*

*25 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın aprelin 25-də rəsmi qarşılanma mərasimindən sonra təkbətək görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi. Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə rəsmi səfərinin əlaqələrimizin inkişafı baxımından əhəmiyyəti qeyd olundu. Münasibətlərimizin siyasi, iqtisadi, enerji və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, əməkdaşlığın bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu. Ölkələrimizin birlikdə həyata keçirdikləri qlobal əhəmiyyətli layihələrin əhəmiyyəti xüsusi qeyd edildi.*

*Söhbət zamanı ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN–TÜRKİYƏ YÜKSƏK SƏVİYYƏLİ STRATEJİ ƏMƏKDAŞLIQ ŞURASININ YEDDİNCİ İCLASINDA İŞTİRAK

*Ankara*

*25 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə aprelin 25-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan–Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yeddinci iclası keçirilmişdir.*

*Dövlət başçıları iclasda çıxış etdilər.*

### Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın çıxışı

Əziz qardaşım, dəyərli nümayəndə heyətinin üzvləri!

Əvvəlcə, əziz qardaşım cənab İlham Əliyevə və dəyərli nümayəndə heyətinin üzvlərinə bir daha ölkəmizə «Xoş gəlmisiniz!» – deyirəm. Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yeddinci iclasının ölkələrimiz və bölgəmiz üçün xeyirli olmasını arzu edirəm.

Cənab İlham Əliyevi Prezident seçkilərindən sonrakı ilk rəsmi xarici səfərində Ankarada qonaq etməkdən məmnunluq hissi keçirirəm. Cənab İlham Əliyevi yenidən Prezident seçilməsi münasibətilə təbrik edirəm. Mən də, inşallah, Prezident seçildikdən sonra ilk xarici səfərimi Azərbaycana edəcəyəm. Bunun bir ənənə halı alması da münasibətlərimizin müstəsnalığını açıq şəkildə ortaya qoyur. Zati-alinizin seçkilərdə qa-

zandığı 86 faiz səs Azərbaycan xalqının Sizə olan etibarını nümayiş etdirdi. Bu etibar, şübhəsiz ki, əsassız deyil. Prezident olduğunuz ötən 15 ildə Azərbaycanın keçdiyi inkişaf yolu möhtəşəmdir. Qarşıdakı illərdə də Azərbaycanın uzaqgörən liderliyinizlə müstəqilliyindən bəri qət etdiyi yolu dəfələrlə artıracağına olan inamım tamdır.

Dəyərli nümayəndə heyətinin üzvləri, bir az əvvəl qardaşım Prezident İlham Əliyevlə keçirdiyimiz təkbətək görüşdə ikitərəfli münasibətlərimizin önəmini qeyd edərək, bundan sonra atılacaq addımlar haqqında fikir mübadiləsi apardıq. Eyni şəkildə nazirlərimiz də bir-biri ilə görüşərək, öz planlarını müzakirə etdilər.

Aramızdakı qardaşlıq əlaqələrini real layihələrlə daha da gücləndirmək əzmindəyik. Ötən il açılışını etdiyimiz Bakı–Tbilisi–Qars dəmir yolu xətti bu mənada çox önəmlidir. Bu dəmir yolu xəttinin funksional və davamlı istifadəsi ilə bağlı gördüyümüz işlər davam edir. Bu işləri tez bir zamanda bitirməliyik. Dünyanın ən mühüm nəqliyyat dəhlizlərindən biri olan bu dəmir yolu xəttinin daha da məhsuldar işləməsi üçün əlimizdən gələni etməliyik. Trans–Anadolu təbii qaz boru kəməri – TANAP prioritet layihələrimizdən biridir. Enerji sahəsindəki əməkdaşlığımızın zirvəsi olan bu layihənin açılışı, inşallah, bu ilin iyun ayında olacaqdır. Məlumdur ki, iyunun 24-də ölkəmizdə Prezident seçkiləri keçiriləcəkdir. Ona görə əgər açılışı iyunun əvvəllərində etsək, bu həm Türkiyəyə, həm də dünyaya səs salacaq. Digər irihəcmli layihə olan «Cənub Qaz Dəhlizi» ölkələrimizlə yanaşı, bölgəmizə və Avropaya da rifah gətirəcək və enerji təhlükəsizliyinə çox böyük töhfə verəcəkdir. Digər tərəfdən, «Star» Neft Emalı zavodunun da tikintisi tamamlanacaqdır. Beləliklə, Azərbaycan Türkiyəyə ən böyük sərmayə yatıran ölkə olacaqdır. Buna görə də şəxsən öz adımdan və xalqım adından Sizə təşəkkür edirəm. Məlum olduğu kimi, Türkiyənin Azərbaycanda lap əvvəldən neft sektorunda ən böyük investor olması təsadüfi deyil.

Ancaq bunları qəti şəkildə kafi hesab etmirik və bu əməkdaşlığı daha da genişləndirmək üçün əlimizdən gələni edirik.

Bir neçə il əvvəl qarşıya qoyduğumuz ticarət hədəflərinə hələ ki, çata bilməmişik. Bunda qarşılıqlı münasibətlərimizdən asılı olmayaraq, dünyada baş verən qlobal iqtisadi hadisələrin də rolu vardır. Güzəştli ticarət sazişinin tezliklə imzalanması ticarətimizin bərabər rəqabət şərtləri çərçivəsində aparılması üçün çox böyük önəmə malikdir. Bu gün güzəştli ticarət sazişinin imzalanması ilə bağlı Anlaşma Memorandumunun imzalanacağından məmnunluq duyuruq. Dəyərli qardaşım, dostluq və qardaşlıq əlaqələrimiz yalnız bu günün məhsulu deyil. Biz tariximiz, soyumuz, mədəniyyətimiz bir olan 2 dövlətik. Qafqaz İslam Ordusu bundan 100 il əvvəl qardaşlarını zülmdən xilas etmək üçün Azərbaycana gedərkən bu düşüncə ilə hərəkət edib. Qafqaz İslam Ordusunun 1918-ci ildə apardığı və Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasında rol oynayan mübarizəsi bugünkü Azərbaycanın müstəqilliyinin təməlinin atılmasına da töhfə veribdir. Azərbaycanın müstəqilliyinin 100-cü ildönümünü qeyd etdiyimiz bu il ərzində Qafqaz İslam Ordusu şəhidlərinin də xatirəsini layiqli şəkildə yad etmək üçün müxtəlif tədbirlər keçirməyi planlaşdırırıq.

Biz Türkiyədə hər zaman «Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir» – deyərək, hərəkət edirik və dar gündə də, yaxşı gündə də qardaşlarımızın yanındayıq. Azərbaycanda da bu vəziyyət eynidir. Bu baxımdan FETÖ, PKK, PYD, YPG, İŞİD terror qruplaşmaları ilə mübarizəmizdə heç vaxt dəstəyini əsirgəməyən Azərbaycan xalqına xüsusilə təşəkkür edirəm. Türkiyə Silahlı Qüvvələrinin Afrində keçirdiyi «Zeytun budağı» əməliyyatını həm Azərbaycan hökuməti, həm də Azərbaycan xalqı öz mübarizəsi hesab edib. Orada canını qurban verən şəhidlərimiz üçün duyduğunuz üzüntünü, qazandığımız uğurlara görə keçirdiyiniz sevinc hisslərini də təqdir edirik. Biz də Azərbaycanın illərdir qanayan yarası olan Qarabağ problemini həmişə öz problemimiz, orada yaşanan faciələri öz faciəmiz

hesab edirik. Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı çərçivəsində təcili həlli ən böyük arzumuzdur. ATƏT-in Minsk qrupu çərçivəsində aparılan müzakirələr prosesini dəstəkləyirik. Ancaq bu prosesin 25 ildir münaqişənin həllində heç bir nəticə verməməsi və beynəlxalq təşkilatların müvafiq qərarlarının icra olunmaması yolverilməz haldır. Bu məsələdə Azərbaycana göstərdiyimiz dəstək bundan sonra da eyni qətiyyətlə davam edəcəkdir.

Dəyərli qardaşım, Sizi və nümayəndə heyətinizi vəzifəyə yenidən seçildikdən sonra ilk rəsmi xarici səfərinizdə Türkiyədə qəbul etməkdən duyduğum məmnunluq hissini bir daha vurğulamaq istəyirəm.

Cənab Prezident, çıxış etmək üçün sözü Sizə verirəm, buyurun.

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Çox sağ olun, əziz qardaşım!

Hörmətli Prezident, əziz dostlar!

İlk növbədə, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirirəm.

Mən yenidən qardaş ölkədə olmağımdan çox məmnunam. Siz də qeyd etdiyiniz kimi, Prezident seçkilərindən sonra bu mənim ilk xarici səfərimdir. Seçkilərdə qazandığım qələbə münasibətilə məni ilk təbrik edən də əziz qardaşım Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan olmuşdur. Bu təbrik bir daha onu göstərir ki, Türkiyə və Azərbaycan bir-birinə ən yaxın olan ölkələrdir, müttəfiqlərdir.

2 həftə bundan əvvəl seçkilər keçirildi. Bir həftə bundan əvvəl andiçmə mərasimi oldu. 2 gün əvvəl hökumət tam formalaşdı və dünən mən artıq Ankarada idim. Dünən əziz qardaşımla görüşümüz oldu. Biz bir çox məsələləri müzakirə etdik. Bu gün də geniş tərkibdə bu müzakirələri davam etdiririk.

Biz hər zaman bir-birimizin yanında olmuşuq. Bu gün də belədir, sabah da belə olacaqdır. Türkiyə hər zaman Azərbaycanın haqlı mövqeyini dəstəkləyib və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə həlli işində həmişə bizim yanımızda olubdur. Biz də öz növbəmizdə, bütün məsələlərdə Türkiyənin yanındayıq. Hörmətli Prezidentin də qeyd etdiyi kimi, terrora qarşı mübarizədə, «Zeytun budağı» əməliyyatının aparılmasında həmişə Azərbaycan dövləti və xalqı birmənalı şəkildə Türkiyənin yanında olub. Bu bizim qardaşlıq borcumuzdur. Bu qarşılıqlı dəstək və bu qədər güclü işbirliyi ölkələrimizi gücləndirir və bölgədə yeni vəziyyət yaradır. Bu gün Türkiyə–Azərbaycan əlaqələri ikitərəfli formatdan çıxıb, artıq regional məna daşıyır və dünya miqyasında gedən proseslərə də çox uğurla təsir göstərir. Bütün beynəlxalq təşkilatlarda biz daim bir-birimizi dəstəkləyirik və bu bundan sonra da davam edəcəkdir.

Əlbəttə, bizi birləşdirən tarix, mədəniyyət, etnik köklər, dindir. Eyni zamanda, bu gün bizi birləşdirən ortaq maraqlardır. Hörmətli Prezidentin qeyd etdiyi kimi, birgə həyata keçirdiyimiz layihələr artıq bizi gücləndirir və dünyada yeni vəziyyət yaradır.

Biz yaxın gələcəkdə TANAP-ın açılışını qeyd edəcəyik. Xatırlayıram ki, 4 il bundan öncə TANAP layihəsinin imzalanması mərasimi İstanbulda keçirilmişdi. Biz bu tarixi layihəni başa çatdırırıq. Bakı–Tbilisi–Qars dəmir yolu artıq fəaliyyətdədir. Bundan sonra biz çalışacağıq ki, yüklərin daşınması daha böyük həcmlə ölçülsün. Nəqliyyat və enerji sahəsində bizim işbirliyimiz bölgədə yeni vəziyyət yaradır.

Qarşılıqlı sərmayə qoyuluşu bizi sevindirir. Həm Türkiyə Azərbaycana, həm də Azərbaycan Türkiyəyə böyük sərmayələr qoyur və bu bir daha bizim dostluğumuzu, qardaşlığımızı əks etdirir.

Mədəniyyət sahəsində, təhsil sahəsində gözəl əməkdaşlıq vardır. Müdafiə sənayesi və müdafiə sahəsində əməkdaşlıq də-

rinləşir, birgə təlimlər keçirilir. Biz hörmətli Prezident ilə bugünkü görüşdə bu məsələyə də xüsusi diqqət yetirdik və qərara gəldik ki, həm ikitərəfli, həm də çoxtərəfli təlimlərdə birlikdə iştirak edək.

Biz Türkiyənin müdafiə sənayesinin məhsullarından bəhrələnirik. Türkiyə çox inkişaf etmiş müdafiə sənayesi yaradıbdır. Azərbaycan öz hərbi gücünü, o cümlədən Türkiyədən alınan silahlar hesabına artırır.

Bir sözlə, bizim əlaqələrimiz bütün sahələri əhatə edir və gündən-günə daha da güclənir. Əminəm ki, budəfəki səfərim və Yüksək Səviyyəli Əməkdaşlıq Şurasının iclası bizim əlaqələrimizə yeni nəfəs, yeni təkan verəcəkdir. Qonaqpərvərliyə və hörmətə görə bir daha Sizə minnətdaram.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Ankara*

*25 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə aprelin 25-də Azərbaycan–Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yeddinci iclası başa çatdıqdan sonra sənədlərin imzalanması mərasimi olmuşdur.*

*Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan «Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yeddinci iclasının Protokolu»nu imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında ətraf mühitin qorunması sahəsində əməkdaşlığa dair Sazişin tətbiqi ilə bağlı ikiillik (2018–2019) İş Proqramı»nı Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahim və Türkiyənin Ətraf Mühit və Şəhərsalma nazirinin müavini Məhmət Ceylan imzaladılar.*

*«Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Türkiyə Respublikasının Nəqliyyat, Dənizçilik və Rabitə Nazirliyi arasında «Elektron imza» sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycanın Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə və Türkiyənin Nəqliyyat, Dənizçilik və Rabitə naziri Əhməd Arslan imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında preferensial Ticarət Sazişi üzrə müzakirələrə dair Anlaşma Memorandumu»nu Azərbaycanın*

*İqtisadiyyat naziri Şahin Mustafayev və Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Mədəniyyət mərkəzlərinin təsis olunması, iş mexanizmi və fəaliyyətləri haqqında Saziş»i Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında şəxsi heyətin mübadiləsinə dair Protokol»u Azərbaycanın Müdafiə naziri, general-polkovnik Zakir Həsənov və Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Hulusi Akar imzaladılar.*

# TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Ankara*

*25 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan aprelin 25-də sənədlərin imzalanması mərasimindən sonra mətbuata bəyanatlarla çıxış etmişlər.*

## Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın bəyanatı

Əziz qardaşım cənab İlham Əliyev!

Hörmətli nümayəndə heyətlərinin üzvləri, dəyərli mətbuat nümayəndələri!

Bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyevi Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yeddinci iclası münasibətilə Ankarada qəbul etməkdən böyük məmnunluq hissi duyuram.

Dəyərli qardaşıma və nümayəndə heyətinə şəxsən öz adımdan və xalqım adımdan «Xoş gəldiniz!» – deyirəm.

Bildiyiniz kimi, cənab İlham Əliyev aprelin 11-də keçirilmiş və böyük səs çoxluğu ilə qələbə qazandığı Prezident seçkilərindən sonra ilk səfərini Türkiyəyə edir. Bu rəsmi səfər münasibətilə xalqım adından xüsusi minnətdarlığımı bildirmək istəyirəm.

İlk növbədə, bu uğur münasibətilə hörmətli Prezident İlham Əliyevi təbrik edirəm. İnşallah, əziz qardaşımın siyasi liderliyi

ilə «Can Azərbaycan» inkişaf etməyə, güclənməyə, bölgənin sabitlik zirvəsi kimi parlamağa davam edəcəkdir.

İnşallah, Türkiyə olaraq bu müddətdə Prezident İlham Əliyevlə birlikdə çiyin-çiyinə hər sahədə – siyasi, hərbi, iqtisadi, ticari, mədəni sahələrdə birgə fəaliyyət göstərməyə və gələcəyi qurmağa davam edəcəyik. Bu məsələdə mövqemiz qətidir.

Xatırladığınız kimi, mən də Prezident seçildikdən sonra ilk xarici səfərimi Azərbaycana etmişdim. Bunun ənənə halı alması aramızdakı qardaşlıq əlaqələrinin ən gözəl, ən konkret nümunəsidir. İnşallah, iyunun 24-dən sonra mən də ilk xarici səfərimi Azərbaycana etmək niyyətindəyəm.

Dəyərli mətbuat nümayəndələri, bu gün cənab İlham Əliyevlə həqiqətən, səmimi müzakirələr apardıq. Əvvəlcə təkbətək, sonra isə nümayəndə heyətlərinin iştirakı ilə görüşlərimiz oldu. Nümayəndə heyətlərinin iştirakı ilə görüşdə nazirlərimiz apardıqları təkbətək görüşlər barədə bizə məlumat verdilər. Həm iclasın əvvəlində, həm də sonunda biz liderlər öz fikirlərimizi bildirdik.

Ötən il oktyabrın 30-da – Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının altıncı iclasından əvvəl Azərbaycanın paytaxtında Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin açılışını etdik. Dünyanın ən mühüm nəqliyyat dəhlizlərindən biri olan bu xəttin səmərəli şəkildə istifadəsi istiqamətində işlərimiz davam edir. İnşallah, bu fəaliyyətimizi çox qısa müddətdə başa çatdıracağıq. Gələcək üçün yeni layihələrimiz var, onları da həyata keçirəcəyik. Təbii ki, bunlardan ən mühümü iqtisadi sahədə milli valyutaya keçməyimiz olacaqdır.

Bununla yanaşı, yenə də birlikdə həyata keçirməyi nəzərdə tutduğumuz layihələr var ki, bunlar da çox əhəmiyyətlidir. Təbii ki, hazırda önümüzdəki ən böyük layihə məlumdur. Yaxın vaxtlarda Trans–Anadolu təbii qaz kəməri – TANAP-ın açılışını edəcəyik. Bu açılış mərasimi, inşallah, iyunun əvvəllərində olacaqdır. Bu, seçkiöncəsi həm xalqımıza, həm də bütün dünyaya bizim ən yaxşı müjdəmiz olacaqdır.

«Cənub Qaz Dəhlizi»nin mühüm tərkib hissəsi olan TANAP layihəsi yalnız Türkiyə ilə Azərbaycan arasında təbii qaz mübadiləsini nəzərdə tutmur, eyni zamanda, bütün Avropanın enerji təhlükəsizliyinə töhfə verəcəkdir. Digər tərəfdən, hazırda İzmirin Əliağa rayonunda inşası davam edən «Star» Neft Emalı zavodunun tikintisi də yaxın vaxtlarda başa çatacaq. İnşallah, onun da açılışını sentyabr–oktyabr aylarında yenə qardaşımla birgə edəcəyik. Beləliklə, Azərbaycan Türkiyədə ən böyük investora çevrilir və Türkiyədə bir nömrəli sərmayəçi Azərbaycan olacaqdır. İqtisadi və ticari əlaqələrimizin daha da inkişaf etdirilməsi prioritet hədəfimizdir. Burada ən mühüm məqsəd müdafiə sənayesi sahəsində birlikdə atacağımız addımlar olacaqdır.

Bu gün əslində önəmli bir addım atdıq. Preferensial Ticarət Sazişi üzrə müzakirələrə dair Anlaşma Memorandumunun imzalanmasından böyük məmnunluq duyduğumu xüsusi vurğulamaq istəyirəm. İnanıram ki, Memorandumu qısa müddətdə həyata keçirəcəyik. İkitərəfli əlaqələrimizlə yanaşı, Azərbaycanla birlikdə Gürcüstan, Türkmənistan, İran və Pakistanla yaratdığımız üçtərəfli əməkdaşlıq formatı da çox mühüm əhəmiyyət kəsb edir. Bu formatlar ölkələrimiz və regionumuz üçün faydalı olacaq layihələrin davam və inkişaf etdirilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Dəyərli mətbuat nümayəndələri, 2018-ci il mayın 28-də 1918-ci ildə müstəqilliyini elan etmiş Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi qeyd olunacaqdır. Bu yubiley münasibətilə bütün Azərbaycan xalqını indidən təbrik etmək istəyirəm. Bu müstəqilliyin möhkəmlənməsində və Azərbaycanın sərhədlərinin müəyyənləşməsində töhfəsi olan Qafqaz İslam Ordusu da 100 il əvvəl yaradılıb. 2018-ci ildə Qafqaz İslam Ordusunun qəhrəman şəhidlərinin xatirəsini də layiqincə anmaq üçün ölkələrimiz lazımi hazırlıq işləri görür. «Bir millət – iki dövlət» kəlamı boş yerdən yaranmayıb. Bu kəlama görə Heydər Əliyevi rəhmətlə anırıq. Bu ifadənin altında əziz

şəhidlərimizin qanları ilə yazdıqları imza vardır. Çanaqqala dastanında Bakının qurtuluşunda məhz bu qardaşlıq ruhuna şahid oluruq. Ölkələrimiz arasında əməkdaşlıq və həmrəylik bu gün də eyni anlayışla davam edir. Biz Dağlıq Qarabağ məsələsində də, Afrində də ortaq mövqemizi bütün dünyaya eyni ilə göstərmişik. 2016-cı il 15 iyul xain dövlət çevrilişi cəhdindən dərhal sonra bizə dəstək verən ilk liderlərdən biri dəyərli qardaşım İlham Əliyev olubdur.

Azərbaycan bu gün başda FETÖ olmaqla, terror təşkilatları ilə mübarizəmizdə bizə ən çox dəstək verən ölkədir. Türkiyə Silahlı Qüvvələrinin «Zeytun budağı» əməliyyatı zamanı da istər Azərbaycan hökuməti, istərsə də Azərbaycan xalqı hər zaman bizim yanımızda oldu. Biz də Dağlıq Qarabağ məsələsini lap əvvəllərdən öz problemimiz olaraq qəbul etdik. Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında, BMT Təhlükəsizlik Şurasının qətnamələri çərçivəsində təcili həlli ən böyük arzumuzdur. Bu məsələdə Azərbaycana verdiyimiz dəstəyi bundan sonra da qətiyyətlə davam etdirəcəyik. Hərbi və müdafiə sənayesi sahələrindəki əməkdaşlığımızı da gücləndirməkdə qərarlıyıq.

Dəyərli qonaqlar, Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yeddinci iclası həm aramızdakı əlaqələrimizin müzakirə edilməsi, həm də mühüm qərarların verilməsi baxımından son dərəcə faydalı oldu. Bir az əvvəl imzalanan sənədlər bunun təsdiqidir. Burada müzakirə etdiyimiz bütün məsələləri həyata keçirməyə çalışacağıq və strateji münasibətlərimizi daha da genişləndirmək üçün bütün imkanlarımızdan istifadə edəcəyik.

Bu düşüncələrlə qardaşım cənab İlham Əliyevə və nümayəndə heyətinə bir daha «Türkiyəyə xoş gəldiniz!» – deyirəm. Buradan bütün azərbaycanlı qardaşlarımı ən səmimi duyğularla salamlayıram.

**Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı**

Əziz qardaşım hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, əziz qardaşım, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdaram. Siz qeyd etdiyiniz kimi, Prezident seçkilərindən sonra mən ilk səfərimi qardaş ölkəyə etmişəm. Bu təbiidir, bu bir ənənədir. Bu ənənə onu göstərir ki, bu gün Türkiyə və Azərbaycan dünya çapında bir-birinə ən yaxın olan ölkələrdir, ən yaxın müttəfiqlərdir.

Məni Prezident seçkilərində qazandığım qələbə münasibətilə ilk təbrik edən lider əziz qardaşım oldu. Bir həftə bundan əvvəl Bakıda andiçmə mərasimi keçirildi, 2 gün bundan öncə hökumətin formalaşması başa çatdı və dünən mən artıq Ankarada idim. Dünən əziz qardaşımla görüşləri başladıq, bu gün isə davam etdik. Bugünkü mərasim, dünən və bu gün aparılan müzakirələr bir daha onu göstərir ki, Türkiyə ilə Azərbaycanın birliyi, qardaşlığı, dostluğu möhkəmdir və onun çox böyük gələcəyi vardır.

İlk növbədə, əziz qardaşımı və bütün qardaş Türkiyə xalqını əldə edilmiş uğurlar münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Əziz qardaşımın liderliyi sayəsində Türkiyə böyük və şərəfli yol keçmişdir. Biz, Azərbaycanda Türkiyəni sevən insanlar qardaş ölkədə inkişaf proseslərini çox böyük sevinclə qarşılayırıq. Prezident Rəcəb Tayyib Ərdoğanın dövründə Türkiyənin iqtisadi, siyasi, sosial inkişafı bizi ürəkdən sevindirir. Türkiyə bu gün dünya çapında bir gücdür və getdikcə bu güc daha da böyüyür, dostlar sevinir, istəməyənlərin isə kefi pozulur. Biz Azərbaycanda böyük sevinc hissi ilə Türkiyənin inkişafını görürük. Əminəm ki, Türkiyə bundan sonra da yalnız və yalnız uğurlar, qələbələr yolu ilə gedəcəkdir. Fürsətdən istifadə edərək, əziz qardaşımı seçkilərdən sonra ilk səfərini Azərbaycana etməyə dəvət edirəm ki, bu ənənə bundan sonra da yaşasın.

Biz bütün məsələlərdə bir yerdəyik. Mən qeyd etdiyim kimi, bu gün dünya çapında ikinci belə ölkələr tapılmaz ki, bir-birinə bu qədər yaxın olsun. Həm etnik köklər, mədəniyyət, tarix, həm də ortaq maraqlar baxımından biz daim bir yerdəyik.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsinin həllində Türkiyə qədər bizə dəstək verən ikinci ölkə olmamışdır. Türkiyə hər zaman bizimlə bərabərdir, bütün beynəlxalq təşkilatlarda Azərbaycanın haqlı mövqeyini müdafiə edir. Bu dəstək və həmrəylik bizə əlavə güc verir. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn norma və prinsiplərinə uyğun, BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında ədalətli həllini tapmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir.

Azərbaycan da öz növbəsində, bütün beynəlxalq təşkilatlarda Türkiyəni daim dəstəkləyir, Türkiyənin terrorla mücadilə yolunda hər zaman həmrəylik göstərir, hər zaman Türkiyənin yanında olduğunu ifadə edir. «Zeytun budağı» əməliyyatının uğurla keçirilməsi ilə bağlı bütün qardaş Türkiyə xalqını təbrik edirəm. Azərbaycan xalqı bu məsələdə də hər zaman həmrəylik göstəribdir. Bu bizim ümumi məsələmizdir.

Bu gün Türkiyə və Azərbaycan bizim bölgəmizdə birgə səylərlə çox böyük layihələr gerçəkləşdirir. Əziz qardaşımın dediyi kimi, Bakı–Tbilisi–Qars, TANAP tarixi layihələrdir. Bizim iradəmiz, bizim təşəbbüsümüz və birliyimiz bu layihələri həyata keçirdi. Bu gün biz Avrasiyanın enerji və nəqliyyat xəritəsini yenidən tərtib edirik. Bu layihələr bizim gücümüzü artırır, regional işbirliyini möhkəmləndirir və bölgədə sabitliyi təmin edir. Bizim birgə həyata keçirdiyimiz təşəbbüs və layihələr sadəcə olaraq, iqtisadi məna daşımır, bunların çox böyük siyasi mənası vardır. Bu layihələr təhlükəsizliyi, sabitliyi möhkəmləndirən layihələrdir. Əminəm ki, bundan sonra da birgə həyata keçirəcəyimiz layihələr uğurla başa çatacaqdır.

Biz qarşılıqlı sərmayə qoyuluşunu da artırırıq. Bu günə qədər Azərbaycan Türkiyə iqtisadiyyatına təqribən 14 milyard dollar, Türkiyə isə Azərbaycan iqtisadiyyatına 12 milyard dollardan çox sərmayə qoyubdur. Ancaq qardaş ölkələrə bu qədər yatırım qoyula bilər. Yaxın gələcəkdə TANAP-ın, «Star» Neft Emalı zavodunun açılışı, əlbəttə ki, bizim imkanlarımızı daha da artıracaqdır. Onu da qeyd etməliyəm ki, Azərbaycan sərmayəsi hesabına Ege

bölgəsinin ən böyük limanı olan «Petlim» limanı inşa edilibdir. Bu, Türkiyənin üçüncü böyük limanıdır. Biz bu gün güzəştli ticarət anlaşmasının imzalanmasına yaxınlaşdıq. Ümid edirəm ki, yaxın gələcəkdə bu anlaşma imzalanacaq və beləliklə, ticarət dövriyyəsi daha da artacaqdır.

Müdafiə sahəsində birgə hərbi təlimlər həyata keçirilir. Türkiyənin çox inkişaf etmiş müdafiə sənayesi vardır, istehsal olunan məhsullar ən yüksək standartlara uyğundur və biz ordumuzun ehtiyacını, o cümlədən Türkiyədə istehsal olunan hərbi məhsullar hesabına təmin edirik. Bu gün aparılan danışıqlarda qərara gəldik ki, bundan sonra da bu istiqamətdə addımlar atılacaqdır.

Biz bütün sahələrdə – mədəniyyət, təhsil, incəsənət, humanitar sahələrdə daim birlikdəyik. Bizi birləşdirən həm qədim tarix, həm də yaxın tarix vardır. Bu ilin may ayında birinci Azərbaycan Cümhuriyyətinin 100 illiyini qeyd edəcəyik. Ondan sonra biz Qafqaz İslam Ordusunun Azərbaycan Xalq Cümhuriyyətinin Ordusu ilə birlikdə Bakını erməni quldur dəstələrindən azad etməsini birlikdə qeyd edəcəyik. Bu, şanlı tariximizdir.

Bu tarix göstərir ki, biz hər zaman bir yerdə olmuşuq, bu gün də bir yerdəyik, əminəm ki, gələcəkdə də bir yerdə olacağıq.

Əziz qardaşım, böyük diqqətə və qonaqpərvərliyə görə Sizə bir daha minnətdaram, qardaş Türkiyə xalqına daim rifah və tərəqqi arzulayıram. Sağ olun.

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına rəsmi səfəri aprelin 25-də başa çatdı.*

*Azərbaycanın və Türkiyənin Dövlət bayraqlarının dalğalandığı Ankaranın «Esenboğa» hava limanında Prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlətimizin başçısını Türkiyənin Baş Nazirinin müavini Fikri Işık və digər yüksəkvəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

*Fəxri qarovul dəstəsinin rəisi Prezident İlham Əliyevə raport verdi.*

*Dövlətimizin başçısı Fəxri qarovul dəstəsini salamladı.*

## «XX ƏSRDƏ TÜRK-MÜSƏLMAN XALQLARINA QARŞI SOYQIRIMILARI» MÖVZUSUNDA BEŞİNCİ BEYNƏLXALQ ELMİ KONFRANSIN İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi ürəkdən salamlayır, soyqırımı problemlərinə həsr olunmuş beynəlxalq elmi konfransın işinə uğurlar arzulayıram.

Bu günlər xalqımıza qarşı 1918-ci ildə millətçi erməni-daşnak və bolşevik silahlı dəstələri tərəfindən törədilmiş soyqırımının 100 illiyinə təsadüf edir. Həmin dövrdə ölkəmizin müxtəlif regionlarını bürümüş milli və dini zəmində kütləvi qətl və talanlar konfransın təşkil olunduğu Qusar ərazisində də xüsusi amansızlıqla həyata keçirilmişdir. Çoxmillətli və çoxkonfessiyalı Azərbaycan cəmiyyəti tarixboyu xalqımızın məruz qaldığı etnik təmizləmə, deportasiya, terror və soyqırımı aktlarının ağrı-acısını unutmur, verdiyi qurbanların xatirəsini daim uca tutur.

Hazırda dünyada sülh və əmin-amanlığa qarşı təhdidlərin artması xalqların dinc birgəyaşayışına və qarşılıqlı faydalı əməkdaşlığına ciddi təhlükə yaradır. Təəssüf ki, milli, irqi və dini ayrı-seçkilikdən doğan ekstremist fəaliyyət və terror müasir dövrün acı reallığına çevrilibdir. Beynəlxalq birliyin planetimizin müxtəlif guşələrində cərəyan edən qanlı münaqişələrə və kütləvi zorakılıq hallarına ikili standartlar prizmasından yanaşması həmin dəhşətli bəlaların qarşısının alınması yolunda böyük maneə yaradır.

Dünyanı qanlı faciələrdən, dağıdıcı qüvvələrin qeyri-insani əməllərindən qorumaq üçün bütün etnik təmizləmə və soyqırımı hadisələrinin obyektiv hüquqi və siyasi qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Ona görə də tarixin qaranlıq

səhifələrinin dərindən araşdırılması, gerçək fakt və dəlillərə söykənən həqiqətlərin aşkara çıxarılaraq, geniş ictimaiyyətə çatdırılması ədalətli qərarların qəbul olunmasında vacib rol oynaya bilər.

İnanıram ki, bugünkü konfransda aparılan səmərəli müzakirələr soyqırımıların tədqiqi sahəsində formalaşmış müsbət elmi ənənələri davam etdirəcək, dünya alimlərinin sanballı əsərlərinin işıq üzü görməsinə təkan verəcəkdir. Bu şərəfli və məsuliyyətli işinizdə hər birinizə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 aprel 2018-ci il*

## BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞINA SƏFƏR

*London*

*26 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş Naziri xanım Tereza Meyin dəvəti ilə bu ölkəyə səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı aprelin 26-da Londonda bp şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşdü.*

*Görüşdə «Şahdəniz» layihəsi üzrə görülən işlər, həmçinin bu ilin iyununda TANAP layihəsinin açılışı ilə bağlı fikir mübadiləsi aparıldı. «Şəfəq–Asiman» strukturu üzrə imzalanmış «Hasilatın Pay Bölgüsü» Sazişi əsasında görülən işlərin intensivləşdirilməsinin əhəmiyyəti qeyd edildi.*

*Söhbət zamanı Azərbaycan ilə bp şirkəti arasında uzun illərdir davam edən əməkdaşlığın hazırkı səviyyəsindən məmnunluq ifadə olundu.*

## BÖYÜK BRİTANİYA PARLAMENTİNİN BİR QRUP ÜZVÜ İLƏ GÖRÜŞ

*London*

*26 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 26-da Londonda Böyük Britaniya Parlamentinin İcmalar Palatasının üzvü, Azərbaycan ilə dostluq qrupunun sədri Bob Blekmen, Lordlar Palatasının üzvü, Azərbaycanın Leyborist dostları qrupunun sədri lord Devid Evans və İcmalar Palatasının üzvü, Şimali İrlandiya üzrə Dövlət nazirinin müavini Devid Morris ilə birgə görüşü olmuşdur.*

*Görüşdə Britaniya Parlamentinin üzvləri dövlətimizin başçısını Prezident seçkilərində qazandığı qələbə münasibətilə təbrik etdilər. Lord Devid Evans və Devid Morris ölkəmizdə səsvermə prosesini müşahidə etdiklərini və seçkilərin yüksək səviyyədə təşkil olunduğunu qeyd etdilər.*

*Prezident İlham Əliyev təbrikə görə minnətdarlığını bildirdi. Dövlətimizin başçısı seçkilər zamanı səsvermənin azad, şəffaf və demokratik keçirilməsi üçün hər cür şəraitin yaradıldığını diqqətə çatdırdı.*

*Görüşdə Azərbaycanda davamlı inkişafın təmin edildiyi qeyd olundu. Britaniya Parlamentinin hər iki palatasında fəaliyyət göstərən Azərbaycan ilə dostluq qrupları arasında əməkdaşlıq məsələləri müzakirə olundu.*

## BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ AVROPA VƏ AMERİKA MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT NAZİRİ ALAN DUNKAN İLƏ GÖRÜŞ

*London*

*26 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Avropa və Amerika məsələləri üzrə Dövlət naziri Alan Dunkan ilə görüşmüşdür.*

*Görüşdə Alan Dunkan dövlətimizin başçısını yenidən Prezident seçilməsi münasibətilə təbrik etdi və ona fəaliyyətində uğurlar arzuladı. Qeyd etdi ki, Prezident İlham Əliyevin yenidən bu vəzifəyə seçilməsi Azərbaycanın sürətli inkişafının davamlı olmasını təmin edəcəkdir.*

*Söhbət zamanı ikitərəfli və regional əməkdaşlıq, qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olundu.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesi barədə fikir mübadiləsi aparıldı.*

## BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ TİCARƏT VƏ İXRACIN TƏŞVİQİ ÜZRƏ DÖVLƏT NAZİRİ BARONESSA RONA FEYRHED İLƏ GÖRÜŞ

*London*

*26 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Londonda Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Ticarət və İxracın Təşviqi üzrə Dövlət naziri, hökumətlərarası birgə Komissiyanın həmsədri baronessa Rona Feyrhed ilə görüşmüşdür.*

*Görüşdə baronessa Rona Feyrhed Prezident İlham Əliyevi seçkilərdə qazandığı qələbə münasibətilə təbrik etdi. O, Bakıya səfərini məmnunluqla xatırlatdı.*

*Söhbət zamanı ikitərəfli münasibətlərin inkişafı, xüsusilə investisiya, biznes əlaqələri, kənd təsərrüfatı sahələrində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıldı.*

## BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ TEREZA MEY İLƏ GÖRÜŞ

*London*

*26 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş Naziri xanım Tereza Mey ilə görüşmüşdür.*

*Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş Naziri xanım Tereza Mey Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.*

*Sonra birgə foto çəkdirildi.*

*Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş Naziri xanım Tereza Mey Prezident seçkilərində qələbə münasibətilə İlham Əliyevi təbrik etdi. O, Prezident İlham Əliyevlə görüşməkdən məmnunluğunu ifadə edərək bildirdi ki, Azərbaycan Prezidentinin bu səfəri iqtisadi, ticari, enerji və təhlükəsizlik məsələlərinin müzakirəsi üçün yaxşı imkan yaradacaqdır. Böyük Britaniyanın Baş Naziri SOCAR ilə bp şirkəti arasında imzalanacaq sazişin əməkdaşlığın genişləndirilməsi baxımından önəmini vurğuladı. Tereza Mey Azərbaycanın Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirakına və verdiyi dəstəyə görə minnətdarlıq etdi.*

*Prezident İlham Əliyev təbrikə görə minnətdarlığını bildirərək qeyd etdi ki, Azərbaycan ilə Böyük Britaniya arasında ikitərəfli münasibətlərin gündəliyi çox genişdir və ölkələrimiz müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, enerji, ticari, sərmayə qoyuluşu sahələrində fəal əməkdaşlıq həyata*

*keçirir. Dövlətimizin başçısı vurğuladı ki, hazırda ticarət əlaqələrinin genişləndirilməsi və şaxələndirilməsi istiqamətində fəal iş aparılır və bunun üçün böyük potensial vardır. Böyük Britaniyanın bir çox şirkətləri Azərbaycanda uzun illərdir ki, fəaliyyət göstərir, SOCAR–bp əməkdaşlığı strateji xarakter daşıyır.*

*İkitərəfli münasibətlərimizin tərəfdaşlıq əlaqələrinə əsaslandığını deyən dövlətimizin başçısı onun Böyük Britaniyaya səfərinin əməkdaşlığımızın genişləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.*

*Söhbət zamanı regional inkişaf və təhlükəsizlik məsələləri də müzakirə olundu.*

*Sonra Prezident İlham Əliyevin və Baş Nazir Tereza Meyin iştirakı ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti – SOCAR, «bp Exploration (Azerbaijan) Limited» şirkəti və SOCAR-ın Ortaq Neft Şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorunda D230 perspektiv blokun birgə kəşfiyyatı və işlənilməsi üzrə «Hasilatın Pay Bölgüsü» haqqında Saziş imzalandı.*

*Sənədi SOCAR-ın Prezidenti Rövnəq Abdullayev və bp şirkətinin baş icraçı direktoru Robert Dadli imzaladılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına səfəri aprelin 26-da başa çatdı.*

**MONTENEQRONUN YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MİLO CUKANOVİÇƏ**

Hörmətli cənab Cukanoviç!

Monteneqronun Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan–Monteneqro münasibətləri dinamik inkişaf yolundadır. Ümidvaram ki, yenidən dövlət başçısı kimi fəaliyyət göstərəcəyiniz növbəti dövrdə ölkələrimiz və xalqlarımız arasındakı dostluq əlaqələrinin daha da genişlənməsi, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın dərinləşməsi yolunda səylərimizi davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Monteneqro xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 aprel 2018-ci il*

## AVROPA PARLAMENTİNİN AZƏRBAYCAN ÜZRƏ DAİMİ MƏRUZƏÇİSİ NORİKA NİKOLAİ İLƏ GÖRÜŞ

*27 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Avropa Parlamentinin Azərbaycan üzrə daimi məruzəçisi xanım Norika Nikolaini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Avropa Parlamenti arasında əlaqələr müzakirə olundu.*

## DÜNYA GÜLƏŞ BİRLİYİNİN PREZİDENTİ NENAD LALOVİÇ İLƏ GÖRÜŞ

*29 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da Dünya Güləş Birliyinin prezidenti Nenad Laloviçi qəbul etmişdir.*

*Dünya Güləş Birliyinin prezidenti Nenad Laloviç dövlətimizin başçısını Prezident seçkilərində qələbəsi münasibətilə təbrik etdi. Nenad Laloviç Bakıda «Formula-1» yarışlarının yüksək səviyyədə təşkil edildiyini vurğuladı. O, məmnunluq hissi ilə qeyd etdi ki, Azərbaycan güləş idman növündə dünyanın ən aparıcı ölkələri sırasındadır.*

*Azərbaycanın mötəbər beynəlxalq idman yarışlarının təşkil olunduğu məkana çevrildiyini qeyd edən Nenad Laloviç 2015-ci ildə birinci Avropa oyunlarının ölkəmizdə çox gözəl təşkilinin dünya idman ictimaiyyəti tərəfindən böyük maraqla izlənildiyini diqqətə çatdırdı. Azərbaycan güləşçilərinin əldə etdiyi uğurlara toxunan qonaq ABŞ-da sərbəst güləş üzrə dünya kuboku yarışlarında Azərbaycan yığma komandasının ikinci yer tutmasının önəmini qeyd etdi.*

*Dövlət başçısı təbriklərə görə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev Azərbaycanda idmanın inkişafının sağlam gənc nəslin və perspektivli idmançıların yetişməsi baxımından böyük önəm daşıdığını və idmançılarımızın müxtəlif sahələrdə, o cümlədən güləş idman növündə böyük uğurlar qazandığını məmnunluqla qeyd etdi.*

*Nenad Laloviç müxtəlif illərdə güləş idman növündə xidmətlərinə görə və birlik tərəfindən seçilmiş fəxri insanlar*

*üçün təyin olunmuş Dünya Güləş Birliyinin ən ali mükafatı «Qızıl orden»i Prezident İlham Əliyevə təqdim etdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mükafata görə minnətdarlığını bildirdi.*

## «FORMULA-1» AZƏRBAYCAN QRAN-PRİSİNİN AÇILIŞI MƏRASİMİ VƏ FİNAL MƏRHƏLƏSİNƏ BAXIŞ

*29 aprel 2018-ci il*

*Bakıda «Formula-1» Azərbaycan Qran-prisinin əsas mərhələsinə aprelin 29-da start verilmişdir. Əvvəlcə pilotların paradı və açılış mərasimi keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri «Formula-1» üzrə dünya çempionatının dördüncü mərhələsinin – Azərbaycan Qran-prisinin əsas yarışına baxmışlar.*

*Dövlət başçısı və xanımı əvvəlcə yarışın paytaxtın Azadlıq meydanında yerləşən idarəetmə mərkəzində yaradılan şəraitlə tanış oldular.*

*Məlumat verildi ki, böyük ərazini əhatə edən kompleksdə yarışa nəzarət binası, Beynəlxalq Avtomobil Federasiyasının, «Formula-1» rəhbərliyinin ofisləri, eləcə də iştirakçıların hər biri üçün dayanacaqlar tikilib. Kompleksdə Paddok klubun üzvləri üçün də yerlər nəzərdə tutulub. Paddok klubun üzvləri burada pit-stop əməliyyatlarını rahatlıqla izləyirlər. Məhz bu ərazidə yarışın startı və finişi yerləşir.*

*Sonra pilotların paradı və himn mərasimi keçirildi.*

*Paradda və himn mərasimində pilotları azyaşlılar müşayiət edirdilər. «Formula-1» şirkətinin və Beynəlxalq Avtomobil Federasiyasının «Gələcəyin ulduzları» adlı birgə təşəbbüsü çərçivəsində qəbul edilən yeni qərara əsasən, builki mövsümdən etibarən həm parad, həm də himn mərasimlərində pilotlar azyaşlılar tərəfindən müşayiət ediləcəklər.*

*Daha sonra Azərbaycan Respublikasının Dövlət himni ifa olundu. Dövlət himnini Azərbaycanın Əməkdar artisti, Prezident təqaüdçüsü İsfar Sarabskinin pianoda müşayiəti ilə «Səs Azərbaycan» musiqi yarışmasının iştirakçısı Samirə Əfəndi ifa etdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Fox Sport» televiziya kanalına müsahibə verdi.*

**İ l h a m Ə l i y e v:** Bu, dünya əhəmiyyətli bir tədbirdir. Biz çox şadıq ki, üçüncü dəfə «Formula-1» Bakıda keçirilir. Hamı yarışdan həzz alır. Əminəm ki, qonaqlar da həzz alır, onlar burada bizimlədirlər. Onlar Azərbaycan xalqının qonaqpərvərliyini görürlər. Qonaqlar şəhərimizin necə də gözəl olduğunu görürlər və bu, möhtəşəm bir tədbirdir. Biz çox şadıq.

**M ü x b i r:** Siz bu küçələri tanıyırsınız, bu gün kim qalib gələcək?

**İ l h a m Ə l i y e v:** Mən bilmirəm. Hər kəsə qalib olmağı arzu edirəm.

**M ü x b i r:** Təşəkkür edirəm.

* * *

*Sonra «Formula-1» Azərbaycan Qran-prisinin 51 dövrədən ibarət final mərhələsinə start verildi.*

*Final mərhələsində hər birində 2 pilot olan 10 komandanın bir gün əvvəl keçirilən sıralanma yürüşünün nəticəsinə əsasən start xəttinə ən yaxın məsafədə «Ferrari» komandasının pilotu Sebastyan Fettel, «Mercedes» komandasının sürücüləri Luis Hamilton və Valtteri Bottas dayandılar.*

*Bakı trekinin uzunluğu 6 kilometr, ümumu məsafəsi isə 306 kilometrdir. Təhlükəsizliyin ən yüksək səviyyədə təmin olunduğu Bakı treki ən sürətli yarışlar kateqoriyasına daxildir. Trekin ən geniş hissəsinin eni 13, ən dar hissəsinin eni isə İçərişəhər ətrafında, o cümlədən 7 və 8-ci döngələrdə 7,6 metr təşkil edir.*

*Gərgin idman mübarizəsi şəraitində keçən Qran-prinin əsas mərhələsində 20 pilotdan 13-ü finiş xəttinə çata bildi. Azərbaycan Qran-prisinin qalibi «Mercedes» komandasının britaniyalı pilotu Luis Hamilton oldu. Pilot məsafəni 1 saat 43 dəqiqə 44,291 saniyəyə başa vurdu. «Ferrari»nin sürücüsü Kimi Raykkonen 2-ci, «Force India» komandasının pilotu Serxio Peres isə 3-cü oldular.*

*Sonra qaliblərin mükafatlandırılması mərasimi keçirildi.*

*Qran-prinin qalibi Luis Hamiltona kuboku Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təqdim etdi.*

*Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Konstruktorlar kubokunu «Mercedes» komandasının nümayəndəsi Vilyam Qolbourna təqdim etdi.*

*2-ci yerin sahibi, «Ferrari»nin sürücüsü Kimi Raykkonenə kuboku Azərbaycanın Gənclər və İdman naziri Azad Rəhimov, 3-cü yeri tutan «Force India» komandasının pilotu Serxio Peresə isə kuboku Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərov təqdim etdilər.*

*Qeyd edək ki, Bakı trekində qalib gəlməklə, Luis Hamilton «Ferrari»nin pilotu Sebastyan Fetteli qabaqlayaraq, çempionatda liderliyi ələ aldı. Bu qələbə sayəsində xallarının sayını 70-ə çatdıran britaniyalı pilot 1-ci sıraya yüksəldi. 2-ci sıraya geriləyən Sebastyan Fettelin aktivində 66 xal vardır. Azərbaycan Qran-prisində 2-ci yeri tutan «Ferrari»nin pilotu Kimi Raykkonen xal ehtiyatını 48-ə çatdıraraq, 3-cü sırada qərarlaşdı.*

*Komandaların yarışında «Ferrari» komandası 114 xalla 1-ci sıradadır. «Mercedes» 110 xalla 2-ci, «Red Bull Racing» isə 55 xalla 3-cü sırada qərarlaşıbdır.*

*Bakıda «Formula-1» Azərbaycan Qran-prisinə aprelin 27-də start verilib. Yarışın 1-ci günündə pilotlar 6 kilometrlik Bakı şəhər trekində 2 sərbəst yürüşdə güclərini sınayıblar. Birinci sərbəst yürüşdə «Mercedes» komandasının pilotu Valtteri Bottas qalib gəlib. «Red Bull Racing» komandasının pilotu Daniel*

*Rikkardo 2-ci, «Force India»nın pilotu Serxio Peres isə 3-cü olubdur. 2-ci sərbəst yürüşdə «Red Bull Racing»in pilotu Daniel Rikkardo fərqlənib. «Ferrari»nin pilotu Kimi Raykkonen 2-ci, «Red Bull Racing»in digər pilotu Maks Ferstappen isə 3-cü sırada qərarlaşıbdır. Yarışın üçüncü sərbəst yürüşü aprelin 28-də keçirilib. Gərgin idman mübarizəsi şəraitində keçən yürüşdə «Ferrari» komandasının pilotu Sebastyan Fettel birinciliyə yüksəlib. «Mercedes»in pilotu Luis Hamilton yürüşü 2-ci, «Ferrari»nin digər pilotu Kimi Raykkonen isə 3-cü yerdə başa vurubdur. Ötən gün keçirilmiş sıralanma yürüşündən sonra Qran-pridə pilotların düzülüşü müəyyənləşibdir.*

*Qran-pri çərçivəsində «Formula-2» üzrə yarışların qalibləri də müəyyənləşib. Aprelin 28-də keçirilmiş ilk yarışda «Dams» komandasının pilotu Aleksander Albon qalib adını qazanıb. «ART Grand Prix»in pilotu Cek Aitken 2-ci, «Charouz Racing System»in üzvü Antonio Fuoko 3-cü yeri tutubdur. Aprelin 29-da keçirilən 2-ci yürüşün qalibi isə «ART Grand Prix» komandasının pilotu Corc Russel olub. «Carlin» komandasının pilotu Serjio Sette Kamara finiş xəttinə 2-ci, «Pertamina Prema Theodore Racing»in pilotu Nik De Vries isə 3-cü çatıbdır.*

*Xatırladaq ki, 2016-cı ildə Bakıda keçirilmiş «Formula-1» Avropa Qran-prisinin qalibi «Mercedes»in almaniyalı pilotu Niko Rosberq olub. Ötən il isə «Formula-1» Azərbaycan Qran-prisi «Red Bull Racing» komandasının avstraliyalı pilotu Daniel Rikkardonun qələbəsi ilə başa çatıbdır.*

*Dünyada yarım milyard tamaşaçı auditoriyası olan «Formula-1» yarışının növbəti dəfə Bakıda keçirilməsi ölkəmizin beynəlxalq idman aləmində qazandığı uğurları bir daha əks etdirir. Son illərdə birinci Avropa oyunlarına, IV İslam Həmrəyliyi oyunlarına və bir çox nüfuzlu beynəlxalq yarışlara uğurla ev sahibliyi edən paytaxt Bakının «Formula-1» kimi mühüm yarışı da yüksək səviyyədə təşkil etməsi bir daha Azərbaycanın idman ölkəsi olduğunu, bu missiyanın ölkəmizin timsalında hər zaman özünü doğrultduğunu təsdiqləyir. Bütün bunlar da ölkəmizin*

*dünyada getdikcə artan nüfuzundan, siyasi və iqtisadi sahədə qazandığı uğurların yetərincə olmasından qaynaqlanır. Bu həm də onu göstərir ki, qədim tarixə, zəngin mədəniyyətə, milli-mənəvi dəyərlərə, ən əsası da parlaq idman ənənələrinə malik olan ölkəmiz qarşıya qoyulan hər bir məqsədə, hər bir niyyətə uğurla çatır.*

*«Formula-1» yarışlarının Bakı mərhələsi dünyada böyük maraq doğurub. Almaniyalı Herman Tilke tərəfindən layihələndirilən şəhər trası nadirliyi ilə seçilir. Ona görə ki, Monte-Karlo, Melburn, Monako və Sinqapur kimi Azərbaycan Qran-prisi də şəhər trasına ev sahibliyi edir. Belə ki, Bakıda keçirilən yarış zamanı avtomobillər Dənizkənarı bulvar boyunca hərəkət edir, şəhərin ən qədim hissəsi olan və UNESKO-nun dünya irsi siyahısına daxil edilmiş İçərişəhər Tarix-Memarlıq Qoruğunun ətrafında dövr edirdi. Beləliklə, yarışı izləyən televiziya tamaşaçıları və qonaqlar şəhərimizin gözəlliyini görmək imkanı qazanırlar.*

*Beləliklə, növbəti «Formula-1» Azərbaycan Qran-prisi uğurla başa çatdı. Bu dəfə də bu mötəbər yarışı qəbul edən Bakı dünya tamaşaçılarına və şəhərimizin qonaqlarına maraqlı idman yarışı təqdim etməklə yanaşı, Azərbaycanın belə mötəbər yarışlara uğurla ev sahibliyi etdiyini nümayiş etdirdi. Qarşıda hələ neçə-neçə mötəbər beynəlxalq yarışların keçiriləcəyi paytaxtımız yenə də dünyanın diqqət mərkəzinə çevrildi, «Formula-1» tamaşaçıları ölkəmizdə gedən inkişaf proseslərinin şahidi oldular.*

## YENİ İNŞA EDİLMİŞ «TUFAN» TİPLİ SƏRHƏD GÖZƏTÇİ GƏMİSİNƏ BAXIŞ

*30 aprel 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev aprelin 30-da Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində yeni inşa edilmiş «Tufan» tipli sərhəd gözətçi gəmisinə baxış keçirmişdir.*

*Dövlət Sərhəd Xidmətinin rəisi Elçin Quliyev Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyevə raport verdi.*

*Prezident, Ali Baş Komandan İlham Əliyev Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin sərhəd gözətçi gəmilərinin tikintisini əks etdirən filmə baxdı, gəmilərin texniki göstəriciləri ilə tanış oldu.*

*Elçin Quliyevin məruzəsində qeyd olundu ki, Azərbaycan Prezidentinin daimi diqqət və qayğısı sayəsində son illər ərzində Dövlət Sərhəd Xidmətində dinamik inkişaf təmin olunub, ən müasir silah və texnika dövlət sərhədinin mühafizəsinə cəlb edilib, döyüş tətbiqi imkanlarının ciddi genişlənməsinə nail olunubdur.*

*Sonra Dövlət Sərhəd Xidmətinin yeni xüsusi təyinatlı döyüş texnikasına, raket komplekslərinə, zərbə endirici pilotsuz uçan aparatlarına, silahlara, nəqliyyat vasitələri üzərində texniki nəzarət stansiyalarına, idarəetmə və digər təyinatlı avadanlıqlara baxış keçirildi.*

*İki il əvvəl Prezident İlham Əliyevin Ali Baş Komandanlığı altında Azərbaycanın hərbi qüdrətinin möhtəşəmliyinin ifadəsi*

*olan aprel döyüşlərində düşmənin döyüş mövqelərinin, dislokasiya yerlərinin, komanda dayaq məntəqələrinin, qərargahlarının bu döyüş imkanlarının uğurlu tətbiqi nəticəsində darmadağın edilməsinin görüntüləri nümayiş etdirildi.*

*Azərbaycan Sərhəd Mühafizəsinin xidməti döyüş fəaliyyətinin formalaşdırılması və inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı sayəsində isə bu xidmət keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Prezident İlham Əliyevin 2005-ci il fevralın 18-də imzaladığı fərmanla sərhəd gözətçi gəmiləri dəstəsinin əsasında Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin təsis edilməsi nəticəsində Xəzər dənizində dövlət maraqlarımızın yüksək səviyyədə qorunması və dəniz sərhədlərinin etibarlı mühafizəsi üçün daha geniş imkanlar yaranıb. Dövlət Sərhəd Xidməti dənizdə sərhəd mühafizəsinin təşkili üzrə beynəlxalq təcrübədən istifadə edərək, Xəzərdə səmərəli sərhəd mühafizə sisteminin formalaşdırılması istiqamətində mühüm işlər görüb. Sərhədçi dənizçilərin peşəkarlıq səviyyəsinin artırılması xüsusi diqqət mərkəzində saxlanılır. Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin şəxsi heyətinin cəlb olunduğu müxtəlif mövzulu döyüş və taktiki təlimlərin hər il keçirilməsi döyüş hazırlığının yüksəldilməsində, ekstremal şəraitdə peşə vərdişlərinin möhkəmləndirilməsində böyük rol oynayır. 2017-ci il avqust ayının 12–14-də «Xəzər dənizinin Azərbaycana mənsub bölməsində qaçaqmalçılıq, qeyri-qanuni ticarət, mütəşəkkil cinayətkarlıq və enerji infrastrukturuna qarşı terror-təxribat aktlarının qarşısının alınması zamanı Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən axtarış əməliyyatları keçirməklə, terrorçu qrupların zərərsizləşdirilməsi və dəniz təhlükəsizliyinin təmin olunması» mövzusunda döyüş atışlı taktiki sərhəd təlimləri keçirilib, gəmi silahlarının gecə və gündüz şəraitində döyüş atışları zamanı bütün təlim tapşırıqları yüksək səviyyədə icra olunub, şəxsi heyət böyük məharət nümayiş etdiribdir.*

*Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev yeni inşa olunmuş «Tufan» tipli sərhəd gözətçi gəmisinə baxış keçirdi.*

*Yeni gəmi mükəmməl naviqasiya və rabitə-radiotexnika avadanlığı, müasir silahlar, o cümlədən raketlər və raket silahlarına qarşı mübarizə kompleksi, gecə-gündüz görmə-müşahidə sistemləri və hidroakustik qurğu ilə təchiz edilib. Xəzər dənizində ağır üzmə şəraitində xidməti vəzifələrini yerinə yetirə bilən, itisürətli qayıqla təchiz edilmiş və 62 metr uzunluğunda olan sərhəd gözətçi gəmisinin dəniz şəraitində göyərtəsinə helikopterin enməsi mümkündür. Bildirildi ki, yeni gəmidən dövlət sərhədlərinin mühafizəsi, sərhəd sularında rejimin təmin olunması, karbohidrogen ehtiyatlarının hasilatı və nəqli infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi istiqamətində xidməti vəzifələrin icrası zamanı istifadə ediləcəkdir.*

**POLŞA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANDJEY DUDAYA**

Hörmətli cənab Prezident!

Polşa Respublikasının milli bayramı – Konstitusiya Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan ilə Polşa arasındakı əlaqələr zəngin ənənələrə malikdir. Keçən il ölkənizə səfərim zamanı strateji tərəfdaşlığa dair imzaladığımız Birgə Bəyannamə ikitərəfli münasibətlərimizin tarixində yeni səhifə açmışdır.

İnanıram ki, dövlətlərarası münasibətlərimizin daim möhkəmləndirilməsi, qarşılıqlı maraq doğuran bir sıra mühüm sahələrdə əməkdaşlığımızın daha da dərinləşdirilməsi istiqamətində bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Polşa xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 aprel 2018-ci il*

## XAÇMAZ RAYONUNA SƏFƏR

*4 may 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Xaçmaz rayonuna səfərə gəlmişdir.*

*Dövlət başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Xaçmaz şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayev Prezident İlham Əliyevə abidənin ucaldığı Heydər Əliyev parkında və bütövlükdə rayonda görülən işlər barədə məlumat verdi.*

### Çarxı–Qalağan–Hacılar–Xanlıqoba–Sayad–Məmmədxanlı avtomobil yolunun əsaslı təmir və bərpadan sonra açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Çarxı–Qalağan–Hacılar–Xanlıqoba–Sayad–Məmmədxanlı avtomobil yolunun əsaslı təmir və bərpadan sonra açılışını etmişdir.*

*Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən sosial yönümlü siyasətin tərkib hissələrindən biri də müasir yol infrastrukturunun yaradılmasıdır. Son 15 ildə bu sahədə çox mühüm uğurlar əldə olunub və bu istiqamətdə layihələrin icrası davam etməkdədir. Yol infrastrukturunun yenilənməsi ilə bağlı görülən işlər həm ölkə əhəmiyyətli yolları, həm də kənd yollarını əhatə edir.*

*Son dövrlərdə rəmzi «40 yol» layihəsi çərçivəsində Xaçmazda Çarxı–Qalağan–Hacılar–Xanlıqoba–Sayad–Məmməd-*

*xanlı avtomobil yolunda da mühüm işlər həyata keçirilibdir. Ümumi uzunluğu 29 kilometr olan bu yolun müasir səviyyədə tikilməsi sübut edir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə regionların inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramlarına uyğun olaraq yolların müasirləşdirilməsi istiqamətində görülən işlərin həcmi ildən-ilə artmaqdadır. Bu tədbirlərin icrası ilk növbədə, əhalinin rahatlığını təmin edir, onların mənzil başına təhlükəsiz çatmalarına imkan yaradır. Bundan başqa, yolların belə müasir səviyyəyə çatdırılması təkcə yol üzərində olan rayonların deyil, ümumilikdə həmin regionun sosial-iqtisadi inkişafına töhfə verir, turizm axınının davamlı olmasını təmin edir və yolboyu yerləşən yaşayış məntəqələrində sakinlərə əlavə iqtisadi imkanlar açır.*

*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov dövlət başçısına görülən işlər barədə məlumat verdi.*

*Bildirildi ki, 8000 nəfər əhalinin yaşadığı 8 məntəqəni birləşdirən 4-cü texniki dərəcəli bu yolun hərəkət hissəsinin eni 6, 2 hərəkət zolağının hər birinin eni 3, hər iki tərəfdə çiyinlərinin eni 2, ümumi torpaq yatağının eni isə 10 metrdir. İki laydan ibarət asfalt-beton örtüyün salınmasına 50,1 min ton asfalt-beton qarışığı sərf edilib. Yol boyunca 84 poqonmetr müxtəlif diametrli suötürücü borular tikilib, 145 yol nişanı və göstərici lövhə quraşdırılıb, 87 min metr uzunluğunda yol cizgi xətləri çəkilibdir. Avtomobil yolunun yenidən qurulması Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin «8 saylı Xüsusi Təyinatlı Yol İstismarı» Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən həyata keçirilibdir.*

*Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

## «Azərxalça» Açıq Səhmdar Cəmiyyətinin Xaçmaz filialının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də «Azərxalça» Açıq Səhmdar Cəmiyyətinin Xaçmaz filialının açılışında iştirak etmişdir.*

*Dövlət başçısı müəssisənin rəmzi açılışını bildirən lenti kəsdi. Azərbaycanda xalça toxuculuğu tətbiqi sənət növünün ən qədim sahələrindən biri hesab edilir. Ölkə ərazisində aparılan arxeoloji qazıntılar və yazılı mənbələrə görə, Azərbaycanda xalça toxuculuğu Tunc dövründə, yəni 5000 il bundan əvvəl meydana gəlib. Azərbaycan xalça boyalarının tükənməz zənginliyi, naxışlarının təkraredilməz qovuşuğu, yaradıcılıq təxəyyülünün gücü və yüksək sənətkarlığı ilə fərqlənir.*

*Xalçalarımız dünyanın ən məşhur muzeylərini bəzəyir. Xalçaçılıq böyük mədəniyyətə və qədim tarixi ənənələrə malik xalqlara məxsus sənətdir. Quba–Şirvan, Gəncə–Qazax, Qarabağ, Təbriz xalçaçılıq məktəbləri bütün dünyada məşhurdur. Bu zonalarda toxunan xalçalar ilmələrinin sıxlığına, rəng çalarlarına, üz ipliyinin xovuna, toxunuşuna və ornamentlərinə görə seçilir. Hazırda Azərbaycan xalça sənəti özünün əsl dirçəliş dövrünü yaşayır.*

*Prezident İlham Əliyevin bu sahənin inkişafı ilə bağlı qəbul etdiyi qərarlar bu baxımdan xüsusilə əhəmiyyətlidir. Azərbaycan Prezidentinin sərəncamı ilə «Azərxalça» ASC-nin yaradılması dövlət tərəfindən bu istiqamətdə görülən işlərin məntiqi davamıdır. İlkin mərhələdə «Azərxalça» ASC-nin Füzuli, Ağdam, Tovuz, Ağstafa, Qazax, Şəmkir, Quba, İsmayıllı və Qəbələ rayonlarında filiallarının yaradılması nəzərdə tutulmuşdur. 2016–2017-ci illərdə adı çəkilən bu rayonlarda binaların tikintisi başa çatdırılıb, filiallar fəaliyyətə başlayıb, Sumqayıt Kimya Sənaye Parkında Əyirici-Boyaq fabrikinin təməli qoyulubdur. Dövlət başçısının sərəncamlarına uyğun olaraq, Bakı və Naxçıvan şəhərlərində, Abşeron, Lənkəran, Biləsuvar,*

*Kürdəmir, Qobustan və Şabran rayonlarında xalça istehsalı emalatxanalarının yaradılması davam edir. Növbəti filial Xaçmazda istifadəyə verilibdir.*

*«Azərxalça» Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri Vidadi Muradov dövlət başçısına burada görülən işlərlə bağlı ətraflı məlumat verdi. Bildirildi ki, ümumi sahəsi 1252,9 kvadratmetr olan filialın binası 0,37 hektar sahədə yerləşir. Burada 150 nəfər toxucu, 12 nəfər inzibati-təsərrüfat işçisi fəaliyyət göstərəcək. Bina toxuculuq emalatxanası, rəssam otağı, anbar, yeməkxana, tibb otağı, xalça-satış salonu və sair bölmələrdən ibarətdir. Emalatxanada müxtəlifölçülü 43 dəzgahda Azərbaycan xalçaları toxunacaqdır. Əsasən Quba, Qusar, Xaçmaz, Siyəzən, Şabran rayonlarının kəndlərində tarixi və orijinal Şirvan çeşniləri əsasında toxunan xalçalara üstünlük veriləcəkdir. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin respublikanın ayrı-ayrı bölgələrindən toplanılan qədim xalçalar əsasında «Azərxalça»nın rəssamları tərəfindən hazırlanıbdır.*

*Emalatxana zəruri xammal və ləvazimatlarla – müxtəlif rəngli yun iplərlə, həvə, qayçı, bıçaq kimi alətlərlə təmin edilib. Toxucular Xaçmaz rayonunun ayrı-ayrı kəndlərinin sakinləridir. Onlar bir neçə ay ərzində «Azərxalça»nın hazırlıq-tədris kurslarında iştirak edib, xalçaçılıq üzrə bacarıq və vərdişlərini təkmilləşdiriblər. Tədris-hazırlıq kursları filial fəaliyyətə başladıqdan sonra da öz işini davam etdirəcək və bu kursların məzunları «Azərxalça» ASC-nin sertifikatını alacaqlar. Xalça-satış salonunda «Azərxalça» ASC-də toxunulmuş xalça və xalça məmulatlarının sərgilənməsi və satışı həyata keçiriləcəkdir.*

*Sonra Prezident İlham Əliyev müəssisənin kollektivi ilə görüşdü.*

*Dövlətimizin başçısı görüşdə çıxış etdi.*

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Bu gün Xaçmaz rayonunda çox əlamətdar bir gündür, Xalça fabriki açılır. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Son 2 il ərzində artıq dördüncü Xalça fabriki açılır və bu proses davam etdiriləcəkdir. Biz xalçaçılıq sənətini yaşatmalıyıq, yaşadacağıq və belə fabriklərin açılması ölkəmizin ümumi inkişafını göstərir. Burada 100-dən çox iş yeri açılıb, gələcəkdə də 150 iş yeri yaradılacaq, bunun üçün hər cür şərait vardır. Çox şadam ki, qadınlar üçün iş yerləri yaradılır. Ümumiyyətlə, Azərbaycanda iş yerlərinin yaradılması istiqamətində böyük işlər görülüb. Amma çox sevindirici hal ondan ibarətdir ki, qadınlar da fəal işə cəlb olunurlar. Xalçaçılıq elə sənətdir ki, bunu qadınlar yaşadırlar.

İki il əvvəl mənim sərəncamımla «Azərxalça» Səhmdar Cəmiyyəti yaradıldı və qarşıya vəzifə qoyuldu ki, bu təşkilat xalçaçılıq sənətini yaşatsın, inkişaf etdirsin və ölkəmizin müxtəlif yerlərində 30 Xalça fabriki açılsın. Bu fabrik sayca dördüncüdür və gələn ilin sonuna qədər artıq 30 fabrik işə düşəcək, minlərlə iş yeri yaradılacaqdır.

Xalçaçılıq bizim milli sənətimizdir, milli sərvətimizdir. Azərbaycan xalqı bu sənəti əsrlərboyu yaşadır. Bizim xalçalarımız dünyanın aparıcı muzeylərində sərgilənir. Bakıda gözəl Xalça Muzeyi tikilib istifadəyə verilibdir. Yəni biz xalçaçılığı yaşatmaqla, Azərbaycan xalqının nə qədər istedadlı olmasını dünyaya bir daha göstəririk. Eyni zamanda, gənc nəsil də, qızlar da bu sənətə cəlb olunurlar. Beləliklə, tam əminlik var ki, Azərbaycan dünyada xalçaçılığın inkişafında öz sözünü gələcəkdə də deyəcəkdir. İş yerlərinin yaradılması çox önəmli məsələdir. Qeyd etdiyim kimi, bu fabriklərin fəaliyyətə başlaması nəticəsində minlərlə iş yeri yaradılacaqdır.

«Azərxalça»nın qarşısında bir vəzifə də qoyulub ki, xalçanın istehsalında istifadə edilən bütün xammal yerli olsun. Bu məqsədlə indi ölkəmizin müxtəlif yerlərində yun tədarükü mər-

kəzləri yaradılır. Baramaçılıq sürətlə inkişaf etdirilir ki, ipək xalçalar da toxunsun. Sumqayıt şəhərində Əyirici-Boyaq fabriki inşa edilir. Yəqin ki, gələn il istifadəyə veriləcəkdir. Beləliklə, bundan sonra xaricdən xammalın gətirilməsinə heç bir ehtiyac qalmayacaq. 100 faiz yerli məhsul olaraq, Azərbaycan xalçası dünyaya təqdim ediləcəkdir.

Digər mühüm məsələ ondan ibarətdir ki, Azərbaycan xalçası çox yüksək keyfiyyətə malikdir və onun satış qiyməti də yüksəkdir. Beləliklə, həm ölkə daxilində, həm də xaricdə satılan xalçalar Azərbaycan iqtisadiyyatına töhfə verəcək, ölkəmizə valyuta gələcək və qeyri-neft sektorumuz da inkişaf edəcəkdir. Bax, görürsünüz, xalçaçılıq sənətinin inkişafı və «Azərxalça»nın uğurlu fəaliyyəti nəticəsində biz bir neçə məqsədə çatmış oluruq. İş yerləri, yerli istehsal, xammalın təşkili və ölkəmizin dünyada təbliği baxımından xalçaçılığın çox böyük önəmi vardır. Təsadüfi deyil ki, müxtəlif ölkələrdə keçirilən sərgilərdə, təqdimatlarda mütləq Azərbaycan xalçası təqdim edilir.

Şadam ki, bu gözəl müəssisə Xaçmaz şəhərində yaradılır. Xaçmazın inkişafına böyük diqqət göstərilir. Bu gün biz Xaçmaz şəhərində içməli su layihəsinin açılışını qeyd edəcəyik. Bu da çox böyük sosial layihədir. Digər sosial məsələlər də öz həllini tapır. Son illər ərzində 40-a yaxın məktəb tikilib və ya təmir edilibdir, Mərkəzi Rayon Xəstəxanası əsaslı təmir olunubdur. Mən onun açılışında iştirak etmişəm. Olimpiya İdman Kompleksinin açılışında da iştirak etmişəm. Ümumiyyətlə, bu səfər mənim Prezident kimi, Xaçmaza sayca 8-ci səfərimdir və bütün səfərimdə gözəl müəssisələrin, obyektlərin açılışları olubdur.

Onu da qeyd etməliyəm ki, Xaçmazda digər infrastruktur layihələri icra edilir, qazlaşdırılma artıq 80 faizdən çoxdur, yeni yollar salınır. Bu gün həm kənd yolu, həm də Xaçmaz–Xudat yolu açılacaqdır. Mənə verilən məlumata görə, son illərdə 7 yol layihəsi icra edilib və əhalinin 70 faizi artıq yeni yollarla əhatə olunubdur. Bu proses gələn illərdə də davam etdiriləcəkdir.

Elektrik enerjisi ilə heç bir problem yoxdur və Xaçmaz rayonunda qazlaşdırılma 100 faizə çatmalıdır. Qarşıya belə vəzifə qoyulub, yaxın gələcəkdə biz buna da nail olacağıq.

Bildiyiniz kimi, ölkəmizdə kənd təsərrüfatına böyük diqqət göstərilir, 40-dan çox aqropark yaradılır. Birinci aqropark mənim iştirakımla Xaçmaz rayonunda açılmışdır. Yalama aqroparkı indi uğurla fəaliyyət göstərir. Orada da çoxlu iş yerləri yaradılır. Əlbəttə ki, Xaçmaz rayonunun turizm potensialı çox böyükdür və zəngindir. Buraya həm ölkəmizin müxtəlif yerlərindən, həm də xarici ölkələrdən gələn turistlərin sayı artır, bir çox istirahət mərkəzləri vardır. Onların sayı da artmalıdır ki, Xaçmaz rayonunun inkişafı daha da sürətlə getsin.

Beləliklə, sənaye istehsalının, kənd təsərrüfatının, turizmin inkişafı və əlbəttə ki, Xaçmaz şəhərinin abadlaşdırılması çox sevindirici hallardır. Xaçmaz indi muzeylər, parklar şəhəridir. Burada gözəl abadlıq işləri görülür ki, vətəndaşlar daha da yaxşı yaşasınlar, inkişaf daha da sürətlə getsin və ölkəmiz həmişə ən yüksək zirvədə olsun. Əlbəttə, bu işlərdə sizin əməyiniz də çox önəmlidir. Sizi bir daha ürəkdən təbrik edirəm.

* * *

**Z a h i r ə B e y d u l l a y e v a** (*müəssisənin işçisi*): Cənab Prezidentimiz, Sizə «Xoş gəlmisiniz!» – deyirəm. Sizi yenidən Prezident seçilməyiniz münasibətilə təbrik edirik. Allah Sizə cansağlığı versin, ömrünüz uzun olsun. Siz bizim ömürlük Prezidentimizsiniz.

**S e v d a X ə l i l o v a** (*filialın direktoru*): Cənab Prezident, xoş gəlmisiniz, Sizi xaçmazlılar adından salamlayıram! Yeni açılmış müəssisəmizə, bizim üçün yaradılmış iş yerlərinə görə Sizə bütün xalçaçılarımız adından dərin minnətdarlığımı bildirirəm. Sizin yüksək diqqət və qayğınız sayəsində hazırda müəssisəmizdə 100-dən çox qadın çalışır. Rayonumuz da Sizin sayənizdə çox gözəlləşir, abadlaşır. Çox sağ olun, cənab Prezident, Sizə təşəkkür edirik, minnətdarlığımızı bildiririk.

*Dövlət başçısı burada toxunan Quba qrupuna aid ilk hazır xalçanı kəsdi.*

## Su təchizatı və kanalizasiya sistemlərinin istismara verilməsi və «Azərsu» Açıq Səhmdar Cəmiyyətinin Xaçmaz idarəsinin inzibati binasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Xaçmaz şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin istismara verilməsi mərasimində və «Azərsu» Açıq Səhmdar Cəmiyyətinin Xaçmaz idarəsinin inzibati binasının açılışında iştirak etmişdir.*

*Əhalinin içməli su ilə təminatını yaxşılaşdırmaq məqsədilə ölkədə həyata keçirilən kompleks tədbirlər nəticəsində regionlarda içməli su təchizatı və kanalizasiya infrastrukturu müasir tələblərə uyğun olaraq yenidən qurulub, sakinlərin keyfiyyətli və fasiləsiz içməli su təminatı sahəsində mühüm nailiyyətlər əldə edilibdir. Respublikamızın mühüm aqrar-sənaye və turizm potensialına malik rayonlarından olan Xaçmazda əhalinin içməli su və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılması məqsədilə kompleks tədbirlər həyata keçirilib. Prezident İlham Əliyevin təsdiqlədiyi regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində 2012-ci ildə başlanılmış «Xaçmaz şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi»nin icrası başa çatıbdır.*

*«Azərsu» Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov dövlət başçısına «Xaçmaz şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsi barədə məlumat verdi.*

*Bildirildi ki, Azərbaycan hökuməti və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi tərəfindən maliyyələşdirilən «Xaçmaz şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsi 2030-cu ilə perspektiv inkişaf nəzərə*

*alınmaqla, Xaçmaz şəhərində 47 min nəfərin içməli su və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Rayonun 5 kəndi də daxil olmaqla, layihədən 58 min nəfər faydalanacaqdır.*

*Xaçmaz şəhərini, həmçinin ətraf kəndləri keyfiyyətli və dayanıqlı içməli su ilə təmin etmək üçün şəhərin mövcud su mənbəyi olan Uçqun bulağı seçilib. Bu su mənbəyində aparılan laboratoriya analizləri suyun keyfiyyətinin mövcud standartlara uyğunluğunu təsdiqləyib. Araşdırma zamanı məlum olub ki, mənbənin məhsuldarlığı da optimal səviyyədədir. Suqəbuledici qurğularda əsaslı yenidənqurma işləri aparılaraq, mənbənin məhsuldarlığı saniyədə 229 litrə və ya sutkada 19,8 min kubmetrə çatdırılıb, hər birinin həcmi 3000 kubmetr olan 2 anbar inşa olunub və su mənbəyindən götürülən suyun anbar kompleksinə nəqli məqsədilə 1,9 kilometr magistral su xətti çəkilibdir. Anbarlarda toplanan su ehtiyatının həcminə, eləcə də suyun bulanıqlıq səviyyəsinə SCADA sistemi vasitəsilə onlayn rejimdə nəzarət edilir.*

*Layihə çərçivəsində Xaçmaz şəhərində 148 kilometr içməli su şəbəkəsinin, şəhərin relyef baxımından ən yüksək hissəsində yeni salınmış yaşayış massivinin dayanıqlı su təminatı məqsədilə nasos stansiyasının, 136 kilometr kanalizasiya şəbəkəsinin və şəbəkə üzərində 10390 baxış quyusunun inşası, hər evin və obyektin kanalizasiya şəbəkəsinə qoşulması təmin edilibdir. Eyni zamanda, tullantı suların təmizləyici qurğuya ötürülməsi məqsədilə 1,2 kilometr uzunluğunda əsas daşıyıcı kollektor tikilibdir.*

*Layihənin icrası zamanı yeni yaradılmış infrastruktur mənbədən tutmuş sonuncu istifadəçiyə qədər «Azərsu» ASC-nin Coğrafi İnformasiya Sisteminə işlənilib və bu məlumatlar rəqəmsal xəritədə öz əksini tapıbdır. Coğrafi İnformasiya Sisteminin bir elementi olan «Bina-kimlik» layihəsi isə abonent haqqında bütün məlumatların xəritə üzərindən alınmasına və çeşidli təhlillərin aparılmasına imkan verir. Buraya abonentin ya-*

*şadığı ünvan, əlaqə vasitələri, istifadə etdiyi suyun həcmi, ödənişləri və təhlil üçün lazım olan digər informasiyalar daxildir. «Bina-kimlik» layihəsi baş vermiş qəza yerinə vaxtında müdaxilə etmək imkanı yaradır ki, bu da istismar prosesini asanlaşdırmaqla, su itkilərinin minimuma endirilməsinə gətirib çıxarır. Eyni zamanda, yaranacaq fasilələr barədə abonentləri əvvəlcədən məlumatlandırmaq imkanı yaradır.*

*Hazırda sutkalıq məhsuldarlığı 20 min kubmetr olan tullantı sutəmizləyici qurğunun tikintisi üzrə tender prosesi yekunlaşmaq üzrədir. Qurğuda Xaçmaz şəhəri ilə yanaşı, Quba, Qusar şəhərlərinin, həmçinin «Şahdağ» Qış-Yay turizm kompleksinin də tullantı suları təmizlənib kənarlaşdırılacaqdır.*

*Layihə çərçivəsində Regional Sukanal İdarəsi üçün müasirtipli inzibati bina inşa olunub. Yeni layihənin icrasınadək Xaçmaz şəhərində ötən əsrin 50–70-ci illərində yaradılmış su təchizatı infrastrukturundan istifadə olunurdu. Şəhər əhalisinin yalnız 40 faizi mərkəzləşdirilmiş qaydada içməli su ilə təmin edilirdi, kanalizasiya şəbəkəsi istismara yararsız vəziyyətə düşmüşdür.*

*Dövlət başçısına məlumat verildi ki, Azərbaycan hökuməti və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin birgə maliyyələşdirdiyi «Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya layihəsi» Xaçmaz şəhəri ilə yanaşı, Qusar, Naftalan, Qobustan və Xızı şəhərlərinin də içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulmasını əhatə edir. Artıq bu şəhərlərdə su və kanalizasiya şəbəkələrinin tikintisi yekunlaşıb. Layihənin sonuncu mərhələsində tullantı sutəmizləyici qurğuların inşası həyata keçiriləcəkdir.*

*Ümumilikdə 50 şəhər və rayon mərkəzində içməli su təchizatı və kanalizasiya layihələri icra olunur. Bu şəhərlərin 25-də su və kanalizasiya şəbəkələrinin, 10-da isə su şəbəkəsinin inşası yekunlaşdırılıb. Bu ilin sonuna qədər daha bir neçə şəhərdə işlərin başa çatdırılması nəzərdə tutulubdur.*

*Sonra Prezident İlham Əliyev Xaçmaz şəhərinə içməli suyun verilməsini bildirən düyməni basdı.*

## Xaçmaz–Xudat avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Gəndob–Xaçmaz–Yalama–Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 24–48 kilometrlik hissəsini təşkil edən Xaçmaz–Xudat avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən, ölkə əhəmiyyətli yollarla yanaşı, yeni kənd yollarının inşası, mövcudlarının isə müasir səviyyəyə çatdırılması sahəsində mühüm layihələrin icrası uğurla davam edir. Onlardan biri də Xaçmaz–Xudat avtomobil yoludur. Bu yolun yenidən qurulması ilə bağlı həyata keçirilən layihə sübut edir ki, ölkəmizdə avtomobil yollarının tikintisi və yenidən qurulması davamlı xarakter alıb. Bu tədbirlər vətəndaşların həyat şəraitinin yaxşılaşdırılması ilə yanaşı, Azərbaycan iqtisadiyyatının inkişaf səviyyəsini göstərir. Kənd və qəsəbələri birləşdirən yolların müasir səviyyədə yenidən qurulması, ümumilikdə həmin bölgənin turizm potensialının möhkəmləndirilməsi işinə də xidmət göstərir. Yolların yenidən qurulması yerləşdikləri ərazilərdə yük və sərnişindaşımanı xeyli yaxşılaşdırır, yetişdirilən məhsulların rahat şəkildə yaxın-uzaq bazarlara daşınmasına imkan yaradır. Bu da kənd təsərrüfatının inkişafına müsbət təsir etməklə, yolboyu yaşayan əhalinin sosial rifahının yüksəlməsinə imkan verir.*

*Yeni yolun texniki göstəriciləri barədə dövlət başçısına məlumat verildi. Bildirildi ki, 1-ci və 3-cü texniki dərəcəli yolun uzunluğu 24 kilometrdir. 2–4 hərəkət zolağına malik yolun hərəkət hissəsinin eni 7–15 metrdir. Hər iki tərəfdən çiyinlərin eni 2,5, torpaq yatağının eni isə 19 metrdir. Yolun tikintisi zamanı genişmiqyaslı torpaq işləri görülüb, 2 laydan ibarət 13 san-*

*timetr qalınlığında asfalt-beton örtüyü döşənibdir. Yolboyu asfalt-beton qarışığından səkilər tikilib, geniş ərazidə beton səki daşları düzülübdür. Yolda lazım olan bütün infrastruktur yaradılıb, xeyli sayda yol nişanları və göstərici lövhələr quraşdırılıb, yol cizgi xətləri çəkilibdir.*

*Xaçmaz–Xudat avtomobil yolunun yenidən qurulması 54 min nəfər əhalisi olan 59 yaşayış məntəqəsini birləşdirən yük və sərnişindaşımanı xeyli yaxşılaşdırmaqla, bölgədə turizmin inkişafına imkan verməklə yanaşı, Yalama sərhəd keçid məntəqəsi ilə rahat nəqliyyat əlaqəsini də yaratmış olur. Bu da həmin yolun həm də beynəlxalq əhəmiyyətinin bir göstəricisidir.*

*Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

## XIZI RAYONUNA SƏFƏR

*4 may 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Xızı rayonuna səfərə gəlmişdir.*

*Dövlət başçısı əvvəlcə Xızı şəhərinin mərkəzində yerləşən Heydər Əliyev parkında ucaldılmış ümummilli liderin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov parkda görülən işlər, həmçinin rayonda həyata keçirilən abadlıq və quruculuq tədbirləri barədə Prezident İlham Əliyevə məlumat verdi.*

# XIZI RAYONUNA VƏ ALTIAĞAC QƏSƏBƏSİNƏ İÇMƏLİ SUYUN VERİLMƏSİ MƏRASİMİNDƏ İCTİMAİYYƏTİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*4 may 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də «Xızı şəhərində və Altıağac qəsəbəsində içməli su təchizatı sistemlərinin yenidən qurulması və kanalizasiya şəbəkəsinin yaradılması» layihəsinin yekunlaşması ilə bağlı keçirilən mərasimdə iştirak etmişdir.*

*Azərbaycan Prezidenti əvvəlcə rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

*Dövlət başçısı görüşdə çıxış etdi.*

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Bu gün Xızı rayonunda çox əlamətdar bir gündür. Biz Xızı şəhərinə içməli suyun verilməsini qeyd edirik. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Eyni zamanda, Altıağac qəsəbəsinin də su problemi həll olunub. Çox gözəl layihələrdir. Bu layihələr bir daha onu göstərir ki, bizim sosial siyasətimiz gözəl nəticələr verir və sosial yönümlü addımlar bundan sonra da atılacaqdır.

Xızı şəhərində içməli su problemi həmişə insanları narahat edirdi. Artıq bu məsələ öz həllini tapıbdır. Xızıda içməli su layihəsinin başa çatması ilə biz, demək olar ki, şimal zonasının bütün şəhərlərinin içməli su problemini həll etmiş oluruq. Əvvəlki dövrlərdə Qusar, Quba, Şabran, Siyəzən şəhərlərinin, bu gün isə biz Xaçmaz şəhərinin də içməli su layihəsinin

açılışını qeyd etdik. Şimal zonası şəhərlərinin içməli su ilə bağlı problemləri öz həllini tapıbdır. Bu gözəl hadisə münasibətilə sizi bir daha təbrik etmək istəyirəm.

Ümumiyyətlə, bildirmək istəyirəm ki, ölkəmizdə bütün sosial layihələr uğurla icra edilir. Heç bir sosial layihədə heç bir yubanma yoxdur. Hətta bizim üçün o qədər də asan olmayan əvvəlki böhranlı illərdə də sosial layihələr tam miqyasda icra edilibdir, Xızıda da həmçinin. Mənim əvvəlki gəlişimdə burada Mərkəzi Rayon Xəstəxanası açılıbdır, gözəl, müasir binadır. Rayonda 10-a yaxın məktəb tikilib, infrastrukturla bağlı olan digər layihələr icra edilir, qazlaşdırılma 90 faizdən çoxdur. Demək olar ki, artıq bütün yaşayış məntəqələri qazla təmin olunub. Əminəm ki, gələcək dövrdə Xızıda qazlaşdırılma 100 faizə çatacaqdır. Elektrik enerjisi ilə bağlı heç bir problem yoxdur. Əksinə, indi Xızı rayonu bizim ümumi enerji sistemimizi böyük həcmdə elektrik enerjisi ilə təmin edəcəkdir. Yeni Yaşma Külək Elektrik Stansiyası artıq fəaliyyətə başlayır, yoldan keçəndə də bunu görmək mümkündür. Kənd yolları salınır. Bu gün bir yolun açılışını qeyd edəcəyik. Mənə verilən məlumata görə, kənd yollarının 50 faizi yenidən qurulub və ya əsaslı təmir olunubdur.

Bir sözlə, Xızı rayonunun sosial-iqtisadi inkişafı uğurla gedir. Ümid edirəm ki, gələcək illərdə kənd təsərrüfatı sürətlə inkişaf edəcək. Çünki Taxtakörpü su anbarının tikintisi və Samur–Abşeron suvarma sisteminin yenidən qurulması nəticəsində bütövlükdə bu bölgədə 30 min hektar torpaq sahəsi su ilə təmin ediləcəkdir. Bunun 12 min hektarı Xızı rayonunun payına düşür – 9000 hektar yeni suvarılan sahələr olacaq, 3000 hektar isə su verilmiş, ancaq kifayət qədər suvarılmamış sahələrdir. Son məlumata görə, bu 9000 hektar yeni suvarılacaq torpaqlardan 3000 hektarı artıq suvarma suyu ilə təmin edilibdir. Əlbəttə, biz gözləyirik ki, Xızı rayonunda kənd təsərrüfatı sürətlə inkişaf etsin. İndi bura gələndə gördüm ki, müasir suvarma sistemləri də qurulur, sahələr pivot suvarma

üsulu ilə suvarılır. Beləliklə, həm məhsuldarlıq artacaq, həm də yeni sahələrin dövriyyəyə cəlb edilməsi nəticəsində yeni iş yerləri yaradılacaqdır. Buna görə mən Xızı rayonunun gələcək inkişafını çox müsbət görürəm, böyük nikbinliklə baxıram. Rayonun inkişafı üçün bütün lazımi tədbirlər görülüb – yollar, elektrik enerjisi, qaz xətləri, içməli su, xəstəxana. Bildiyiniz kimi, bir neçə ildir ki, ölkəmizdə kütləvi müayinədən keçmə kampaniyası aparılır, hər il 5 milyondan çox insan dövlət hesabına müayinədən keçir və belə gözəl xəstəxanalarda bunu etmək mümkündür.

Ölkəmizin ümumi sosial-iqtisadi inkişafı da çox müsbətdir. 3 ayın göstəriciləri bizi çox sevindirir. İndi bir neçə gündən sonra 4 ayın yekunları da veriləcək. Əminəm ki, biz dinamikanı nəinki saxlayacağıq, həm də artıracağıq. Ölkə qarşısında duran bütün vəzifələr uğurla icra edilir. Sosial məsələlərin həllinə gəldikdə, bu günə qədər bir çox sosial yönümlü layihələr həyata keçirilibdir. Bu layihələrin həyata keçirilməsi davam etdiriləcək, eyni zamanda, bütün sosial sahədə tam şəffaflıq yaradılacaqdır. Bu, yeni dövrün tələbidir. Əvvəlki dövrlərdə də mən bu vəzifəni qarşıya qoymuşam və bu gün bir daha çox ciddi tapşırıq verirəm ki, sosial sahədə maksimum şəffaflıq təmin edilməlidir. Əminəm ki, ediləcək və sosial ədalət tam bərqərar olacaqdır.

Azərbaycan dövləti möhkəm əsaslar üzərində qurulub. Biz iqtisadiyyatımızı bazar iqtisadiyyatı prinsipləri əsasında inkişaf etdiririk. Ancaq bununla bərabər, sosial məsələlərin həllinə çox böyük diqqət göstəririk. Bunun nəticəsində ölkəmiz uğurla inkişaf edir, ölkəmizdə sabitlik, əmin-amanlıq hökm sürür, xalq–iqtidar birliyi gündən-günə möhkəmlənir. Bu gün Azərbaycan inkişaf, sabitlik, xalq–iqtidar birliyi baxımından dünya miqyasında nümunəvi ölkəyə çevrilibdir.

İndi dünyada, bölgədə, qonşuluqda baş verən hadisələri izləyərkən bir daha görürük ki, sosial sahədə pozuntular, bu sahəyə diqqətin göstərilməməsi və xoşagəlməz halların kütləvi

xarakter alması böyük çətinliklərə, problemlərə, toqquşmalara gətirib çıxarır. Bizim siyasətimiz həmişə birmənalı olub: güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah. Bax, bu prinsiplərin vəhdəti bu gün Azərbaycanı dünyada seçilmiş ölkələrin sırasına daxil edibdir. Bunun nəticəsində biz uğurla inkişaf edirik. Bu gün Azərbaycanda ictimai-siyasi proseslər müsbət istiqamətdə gedir, iqtisadi inkişaf tam təmin edilir və bir çox sosial layihələr icra olunur. Vəzifə isə çox sadədir, onu biz bir neçə il əvvəl qarşımıza qoymuşuq ki, insanları narahat edən bir dənə də problem qalmasın. Məktəblərin, xəstəxanaların, sosial obyektlərin tikintisi, insanların maddi vəziyyətinin yaxşılaşdırılması və infrastrukturla bağlı olan layihələr. Hər bir yerdə, hər bir rayonda və hər bir kənddə bu məsələlərə xüsusi diqqət göstərilir. Əldə edilmiş nəticələr və bu ilin gözəl göstəriciləri tam deməyə əsas verir ki, biz bu düzgün yolla gedəcəyik və bu günə qədər həllini tapmayan məsələlər də yaxın gələcəkdə öz həllini tapacaqdır. Bu gözəl hadisə münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm.

* * *

**K ö n ü l  F e y z i y e v a** (*rayon sakini*): Bugünkü tədbir Xızı sakinləri üçün böyük əhəmiyyət kəsb edir. Bu, tarixi bir hadisədir. Kimin ağlına gələ bilərdi ki, Xızımızda mərkəzləşdirilmiş su və kanalizasiya sistemi yaradılacaq, illərlə həsrətində olduğumuz içməli su veriləcək. Sakinlərimiz içməli su baxımından çox əziyyət çəkiblər. Onlar uzaq məsafələr qət edərək, su daşımaq məcburiyyətində olublar. Artıq Xızı və 4 yaşayış məntəqəmiz içməli su ilə sutkada 24 saat təmin edilir. Bu da Sizin diqqətinizin və qayğınızın sayəsində mümkün olubdur.

Ümumiyyətlə, Sizin rəhbərliyinizlə həyata keçirilən bütün layihələr xalqımıza uğur, rifah gətirir. Mən bir Xızı sakini və həkim kimi deyə bilərəm ki, suyun insan həyatında rolu əvəzolunmazdır. Belə layihələriniz Sizə və Sizinlə bərabər çalışan çox hörmətli Mehriban xanıma sevgimizi daha da artırır. Bu il keçirilən Prezident seçkilərində xalqımız böyük sevgi ilə, coşqu

ilə iştirak etdi, onlar Sizə səs verdi, öz Prezidentimizi seçdik. Xalqımız Sizə səs verməklə, öz rifahına, təhlükəsizliyinə, xoş günlərinə səs vermiş oldu. Sizi bir daha bu münasibətlə ürəkdən təbrik edir, işlərinizdə müvəffəqiyyətlər arzulayırıq. Azərbaycanın uğurlarında Sizinlə bərabər çiyin-çiyinə çalışan sevimlimiz Mehriban xanıma da salamlarımızı çatdırmağı xahiş edirik. Tanrı Sizi və ailə üzvlərinizi qorusun.

* * *

*Sonra «Azərsu» Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov dövlət başçısına layihə barədə məlumat verdi.*

*Azərbaycan hökuməti və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi tərəfindən birgə maliyyələşdirilən Xızı şəhəri və Altıağac qəsəbəsinin içməli su təchizatı sistemlərinin yenidən qurulması və ilk dəfə olaraq kanalizasiya şəbəkəsinin yaradılması layihəsi 2030-cu ilə qədər perspektiv inkişaf nəzərə alınmaqla, Xızı şəhərində 3300, Altıağac qəsəbəsində isə 1500 nəfərin içməli su və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Rayonun 3 kəndi də daxil olmaqla, layihədən cəmi 6,3 min nəfər faydalanacaqdır. Xızı rayonunda yüksək məhsuldarlığa malik su mənbələri olmadığından yaşayış məntəqələrinin su təchizatının müxtəlif mənbələr hesabına təmin olunması layihələndirilib. Layihəyə əsasən Xızı şəhərinin və Altıağac qəsəbəsinin əsas su mənbəyi sayılan Dahardibidə məhsuldarlığı gündə 864 kubmetr, Qarsda məhsuldarlığı gündə 430 kubmetr, Şəfada məhsuldarlığı gündə 240 kubmetr və Yeddibulaqda məhsuldarlığı gündə 40 kubmetr olan sugötürücü qurğular inşa olunub. Ümumi tutumu 1400 kubmetr olan 4 anbar tikilib, mənbələrdən götürülən suyun anbar kompleksinə nəqli məqsədilə, ümumilikdə 18 kilometr magistral su xətti çəkilibdir. Layihə çərçivəsində Xızı şəhərində və Altıağac qəsəbəsində 52,4 kilometr içməli su və 32,4 kilometr kanalizasiya şəbəkələrinin, həmçinin şəbəkə üzərində 1513 baxış quyusunun*

*inşası başa çatdırılıb, hər bir evin və obyektin kanalizasiya şəbəkəsinə qoşulması təmin edilibdir.*

*Layihənin icrası zamanı yeni yaradılmış infrastruktur, mənbədən tutmuş, sonuncu istifadəçiyə qədər «Azərsu» ASC-nin Coğrafi İnformasiya Sisteminə işlənilib və bu məlumatlar rəqəmsal xəritədə öz əksini tapıbdır. Coğrafi İnformasiya Sisteminin bir elementi olan «Bina-kimlik» layihəsi isə abonent haqqında bütün məlumatların xəritə üzərindən alınmasına və çeşidli təhlillərin aparılmasına imkan verir. Buraya abonentin yaşadığı ünvan, əlaqə vasitələri, istifadə etdiyi suyun həcmi, ödənişləri və təhlil üçün lazım olan digər informasiyalar daxildir. Layihə baş vermiş qəza yerinə vaxtında müdaxilə etmək imkanı yaradır ki, bu da istismar prosesini asanlaşdırmaqla, su itkilərinin minimuma endirilməsinə gətirib çıxarır. Eyni zamanda, baş verə biləcək fasilələr barədə də abonentləri əvvəlcədən məlumatlandırmaq imkanı yaradır.*

*Hazırda Xızı şəhərində məhsuldarlığı sutkada 1500 kubmetr, Altıağac qəsəbəsində isə məhsuldarlığı sutkada 350 kubmetr olan tullantı sutəmizləyici qurğuların tikintisi üzrə tender prosesi yekunlaşmaq üzrədir. Yeni layihənin icrasına qədər Xızı şəhərində keçən əsrin 85–91-ci illərində yaradılmış su təchizatı sistemləri istismar edilirdi. Şəhərdə mövcud 29 kilometr su şəbəkəsi istismara yararsız vəziyyətə düşdüyündən su təchizatı normal həyata keçirilmirdi. Altıağac qəsəbəsində ötən əsrin 80-ci illərinin əvvəllərində yaradılmış içməli su təchizatı sistemi də istismar tələblərinə cavab vermirdi. Qəsəbə sakinlərinin cəmi 60 faizi mərkəzləşdirilmiş qaydada içməli su ilə təchiz edilirdi. Xızı şəhərində və Altıağac qəsəbəsində kanalizasiya sistemləri isə, ümumiyyətlə, mövcud deyildi.*

*Sonra Prezident İlham Əliyev Xızı şəhərinə və Altıağac qəsəbəsinə içməli suyun verilməsini bildirən düyməni basdı.*

*Layihə çərçivəsində Xızı Sukanal İdarəsi üçün müasirtipli inzibati bina inşa olunub. Binanın foyesində ulu öndərin büstü qoyulub. Burada müştəri xidmətləri və istehsalat şöbəsi fəaliy-*

*yət göstərəcək. Binada, həmçinin texnoloq, mühəndis, mühasibat otaqları, arxiv, anbar da yaradılıbdır. Binadakı iclas zalında qurumun fəaliyyəti ilə bağlı müxtəlif toplantılar keçirmək mümkündür.*

## Giləzi–Xızı yolunun 34-cü kilometrliyindən Fındığan kəndinədək olan yolun əsaslı təmirdən sonra açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də başlanğıcını Giləzi–Xızı yolunun 34-cü kilometrliyindən götürən və əsaslı şəkildə yenidən qurulan Fındığan kəndinədək olan yolun açılışını etmişdir.*

*Son illərdə Azərbaycanda əsas magistral yollarla yanaşı, kənd yollarının da salınması, mövcudlarının isə müasir səviyyədə yenidən qurulması ilə bağlı layihələr geniş vüsət alıbdır. Bu layihələr Xızı rayonunu da əhatə edib. Giləzi–Xızı avtomagistralını Fındığan kəndi ilə birləşdirən yol da son illərdə kənd yollarının əsaslı şəkildə yenidən qurulması istiqamətində həyata keçirilən layihələrin ardıcıl xarakter aldığını nümayiş etdirir. Belə yollar rayonlarımızda turizmin inkişafı baxımından da mühüm əhəmiyyətə malikdir.*

*Əsaslı şəkildə yenidən qurulan yolun texniki göstəriciləri barədə dövlət başçısına məlumat verildi. Bu yolun tikintisi Prezident İlham Əliyevin 2018-ci ilin fevralında imzaladığı sərəncama əsasən həyata keçirilib. 600 nəfər əhalinin yaşadığı Fındığan kəndini Giləzi–Xızı avtomagistralının 34-cü kilometrliyi ilə birləşdirən yolun ümumi uzunluğu 5 kilometrdir. Yol 4-cü texniki dərəcəyə aiddir. Hərəkət hissəsinin eni 6 metr olan yol 2 hərəkət zolaqlıdır. Yolun yenidən qurulması zamanı genişmiqyaslı torpaq və asfalt-beton işləri görülüb. Yol boyunca 226 metr müxtəlif diametrli suötürücü borular tikilib, zəruri yerlərdə yol nişanları və göstərici lövhələr quraşdırılıb, cizgi xətləri çəkilibdir. Bu yolun istifadəyə verilməsi Fındığan kənd sakinlərinin Giləzi–Xızı avtomobil yoluna və Bakı–Quba–Rusiya*

*Federasiyası ilə dövlət sərhədi avtomagistralına çıxışını təmin edir. Bu yolun yenidən qurulması bir daha sübut edir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşının maraqları dayanır.*

*Sonra dövlət başçısına tikintisi başa çatmış Xızı–Altıağac avtomobil yolunda görülmüş işlər barədə məlumat verildi. Qeyd olundu ki, uzunluğu 20,8 kilometr olan 3-cü dərəcəli bu yol hər birinin eni 3,5 metr olmaqla, 2 hərəkət zolağından ibarətdir. Yolboyu 1 körpü keçidi təmir olunub, müxtəlif diametrli 48 ədəd suötürücü boru, 14 kilometrə yaxın açıq və qapalı suötürücü kanal tikilibdir. Xızı–Altıağac avtomobil yolunun istifadəyə verilməsi nəticəsində sakinlərin gediş-gəlişində, xüsusən də payız-qış mövsümündə yaranan çətinliklər tamamilə aradan qalxıb. Bu yol rayonda 4000 nəfər əhalinin yaşadığı 11 məntəqəni birləşdirir.*

*Daha sonra Prezident İlham Əliyevə Bakı–Quba–Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 56-cı kilometrliyindən ayrılan Yeni Yaşma kənd yolunda aparılmış əsaslı təmir işləri barədə məlumat verildi. Bu avtomobil yolu uzun illər əsaslı təmir olunmadan istismar edildiyindən tamamilə yararsız hala düşmüşdü. Nəqliyyat vasitələrinin normal hərəkəti üçün çətinliklər yarandığından, yolun əsaslı təmir olunmasına zərurət yaranmışdır. Uzunluğu 6 kilometr olan bu yol dövlət başçısının tapşırığı ilə əsaslı şəkildə təmir edilib, bütün infrastruktur müasir tələblər səviyyəsində qurulubdur. Bu yol 2200 nəfər əhalinin yaşadığı Yeni Yaşma kəndini Bakı–Quba–Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yoluna birləşdirməklə, yük və sərnişindaşımanı xeyli yaxşılaşdırmağa imkan verəcəkdir.*

*Dövlət başçısı Fındığan kənd yolunun rəmzi açılışını bildirən lenti kəsdi.*

# BAKI OLİMPİYA STADİONUNDAN HEYDƏR ƏLİYEV PROSPEKTİNƏ KEÇİD VƏ MÜXTƏLİF TƏYİNATLI YOL QOVŞAĞININ AÇILIŞI MƏRASİMİ

*7 may 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 7-də Bakı Olimpiya stadionundan Heydər Əliyev prospektinə keçid və müxtəlif təyinatlı yol qovşağının açılışı mərasimində iştirak etmişdir.*

*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov dövlət başçısına layihənin texniki göstəriciləri barədə məlumat verdi. Burada inşa edilən tunelin qapalı hissəsinin uzunluğu 130, açıq hissəsinin uzunluğu 366 metr olmaqla, ümumi uzunluğu 496 metrə bərabərdir. Tunelin hərəkət hissəsinin eni 10 metrdir. Layihə çərçivəsində 193 metr yanaşma yolları inşa olunub, həmçinin Sabunçu yol qovşağınadək uzunluğu 702, eni isə 12 metr olan yeni yol hissəsi salınıbdır. Layihə zamanı inşa olunmuş biraşırımlı körpünün uzunluğu 27, eni isə 12 metrdir. Bu yol qovşağının inşası zamanı genişmiqyaslı tikinti-quraşdırma işləri görülüb, tunel və yan yollarda sutkanın qaranlıq saatlarında təhlükəsiz hərəkət etmək üçün işıq dirəkləri qoyulub, 2 nasosxana quraşdırılıb, tikinti sahəsinə düşən kanalizasiya və rabitə xətləri köçürülübdür. Layihənin icrası yüksək səviyyədə və keyfiyyətlə yerinə yetirilib. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi qovşağın inşasını texnoloji ardıcıllığa riayət olunmaqla aparıbdır.*

*Avtonəqliyyat vasitələrinin rahat və maneəsiz hərəkətini təmin etmək, paytaxt yollarında sıxlığın azaldılması istiqamətinə dövlət başçısının tövsiyə və tapşırıqlarına əsasən Azərbay-*

*can Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən tunelin inşasında məqsəd günün pik saatlarında metronun Koroğlu stansiyasının qarşısında yaranan tıxacı aradan qaldırmaqdır. Bu layihənin icrası burada yarana biləcək tıxacların qarşısının alınmasında mühüm rol oynayır. Belə ki, Ziya Bünyadov prospekti istiqamətindən gələn avtonəqliyyat vasitələri Böyükşor yol qovşağına daxil olmadan, həmçinin metronun Koroğlu stansiyasının qarşısından keçmədən yeni avtomobil tuneli ilə Ziya Bünyadov prospektindən Olimpiya kəndi istiqamətinə və oradan da Bakı Olimpiya stadionunun arxa hissəsində salınan yoldan və tuneldən istifadə etməklə, aeroport istiqamətinə hərəkət edəcəkdir.*

*Dövlət başçısına məlumat verildi ki, yollarda tıxacların azaldılması məqsədilə layihə çərçivəsində Heydər Əliyev prospektində – Sabunçu yol qovşağından Böyükşor yol qovşağınadək olan hissədə təmir-tikinti işləri aparılıb. Əsaslı şəkildə yenidən qurulan yolun bu hissəsinin uzunluğu 2,1 kilometr, eni isə ərazilərdən asılı olaraq 26–36 metr təşkil edir. Bu hissədə intensiv hərəkət nəticəsində asfalt-beton örtüyünün üst qatında aşınmalar yaranmışdır. Bu səbəbdən də asfalt-beton örtüyünün aşınma qatının yenilənməsinə ehtiyac var idi. Təmir işləri çərçivəsində yolboyu köhnə asfalt-beton örtüyün üst qatı frezlənərək, kənara daşınıb, yola ikiqat olmaqla, yeni asfalt-beton örtüyü döşənibdir. Ümumilikdə bu işlər Sabunçu yol qovşağından şəhər mərkəzinə doğru olan istiqamətdə üç hərəkət zolağında aparılıb. Görülən təmir-tikinti işləri zamanı yol ayrıcında quraşdırılmış əyrixətli dəmir tirlər və köhnə səki daşları sökülərək kənarlaşdırılıb, buraya yeni səki daşları düzülübdür.*

*Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi.*

*Yeni yol qovşaqlarının yaradılması, müasir yolların salınması, mövcudlarının isə ən yüksək səviyyədə yenidən qurulması Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən sosial siyasətin mühüm tərkib hissəsini təşkil edir. Bu layihələrin icrası ilk növbədə, nəqliyyat vasitələrinin, eyni zaman-*

*da, sərnişinlərin rahat və təhlükəsiz hərəkətinə mühüm töhfələr verir. Bütün bunlarla yanaşı, belə layihələrin paytaxtımızın giriş qapısı sayılan Heydər Əliyev Beynəlxalq Aeroportundan şəhər istiqamətinə olan yolları əhatə etməsi Azərbaycana gələn qonaqlarda ölkəmizin ümumi sosial-iqtisadi inkişafı barədə xoş təəssürat yaradır.*

*Bu gün ölkəmiz müasir yol qovşaqları, yeni yol-nəqliyyat infrastrukturu ilə nəinki regionun, ümumilikdə dünyanın aparıcı ölkələri sırasındadır. Azərbaycanda icra olunan yol layihələri istər miqyası, istər əhəmiyyəti, istərsə də keyfiyyəti ilə seçilir. Bütün bu işlər bir daha sübut edir ki, ölkədə həyata keçirilən dövlət siyasətinin mərkəzində vətəndaşlarımızın maraqları və sosial vəziyyəti dayanır.*

# AVROPA İTTİFAQI–AZƏRBAYCAN PARLAMENT ƏMƏKDAŞLIQ KOMİTƏSİNİN SƏDRİ SƏYYAD KƏRİMİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*7 may 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 7-də Avropa İttifaqı–Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin sədri, Avropa Mühafizəkarlar və İslahatçılar Qrupunun üzvü, Böyük Britaniyadan olan deputat Səyyad Kərimin başçılıq etdiyi Avropa İttifaqı–Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin üzvlərindən ibarət nümayəndə heyətini qəbul etmişdir.*

*Avropa İttifaqı ilə əlaqələrin uğurla inkişaf etdiyini bildirən dövlətimizin başçısı Avropa Komissiyasında keçirilən son görüşlərini məmnunluqla xatırlatdı və bu səfərin nəticəsi kimi, yeni saziş üzərində işlərin başlandığını dedi. Prezident İlham Əliyev qeyd etdi ki, eyni zamanda, Azərbaycan Avropa İttifaqı üzv dövlətlərinin üçdəbiri ilə artıq strateji tərəfdaşlıq sənədi imzalayıb və ya qəbul edibdir. Bunu əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirən Prezident İlham Əliyev əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, təhlükəsizlik, mədəni, ticari və enerji təhlükəsizliyi sahələrində həyata keçirildiyini qeyd edərək, Avropa İttifaqının Azərbaycanın ən böyük ticarət tərəfdaşı olduğunu, öz növbəsində, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolunun getdikcə daha da artdığını vurğuladı. Nəqliyyat infrastrukturu sahəsinə toxunan dövlət başçısı ötən il istismara verilmiş Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin Asiya ilə Avropa arasında mühüm nəqliyyat körpüsü rolunu oynadığını və Azərbaycanın Avrasiya*

*məkanında önəmli nəqliyyat qovşağına çevrildiyini bildirdi. Prezident İlham Əliyev əməkdaşlığımızın bundan sonra da möhkəmlənəcəyinə əminliyini ifadə etdi. Avropa İttifaqı–Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin sədri Səyyad Kərim və nümayəndə heyətinin üzvləri Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə dövlətimizin başçısını təbrik etdilər. Səyyad Kərim son 2 il ərzində Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın çox müsbət və konstruktiv istiqamətdə inkişaf etdiyini məmnunluqla bildirdi. O, Avropa İttifaqı ilə Azərbaycan arasında 2017-ci ildə başlanan danışıqların uğurla davam etdirildiyini diqqətə çatdırdı. Azərbaycana səfər proqramının çox sıx olduğunu qeyd edən Səyyad Kərim tərəflərin əməkdaşlığın inkişafında maraqlı olduğunu və Azərbaycanın Milli Məclisi ilə əməkdaşlıq üçün yaxşı əsas yarandığını vurğuladı. Səyyad Kərim təmsil etdiyi qurumun Azərbaycanla iqtisadi, nəqliyyat, enerji, investisiya, parlamentlərarası əlaqələr və digər sahələrdə əməkdaşlığı üçün böyük imkanların olduğunu dedi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı. Prezident İlham Əliyev münaqişənin həlli ilə bağlı Azərbaycanın mövqeyini bildirdi.*

*Sonda xatirə şəkli çəkdirildi.*

## 9 MAY – QƏLƏBƏ GÜNÜ MÜNASİBƏTİLƏ BAKIDA KEÇİRİLƏN MƏRASİMDƏ İŞTİRAK

*9 may 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 9-da İkinci dünya müharibəsində faşizm üzərində Qələbənin 73-cü ildönümü münasibətilə Bakıda keçirilən təntənəli mərasimdə iştirak etmişlər.*

*Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə sanballı töhfələr verib. İkinci dünya müharibəsində keçmiş SSRİ-nin qazandığı tarixi Qələbədə çox böyük payı olan Azərbaycan xalqı özünün 700 min oğul və qızını cəbhəyə yola salıb. Onların 300 mindən çoxu döyüşlərdə həlak olub. Müharibədə göstərdikləri igidliyə görə 123 nəfər azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib. Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib, yüzlərlə həmyerlimiz isə partizan dəstələrinin tərkibində vuruşublar. Bu Qələbədə Azərbaycan nefti həlledici rol oynayıb. Müharibə illərində Sovet İttifaqında hasil olunan neftin dörddə üç hissəsi, aviasiya benzini və yüksəkkeyfiyyətli motor yağlarının 85–90 faizi Azərbaycanın payına düşübdür.*

*Azərbaycanın əsgər və zabitləri Brest, Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Ukrayna, Belarus, Pribaltika cəbhələrində cəsarətlə vuruşublar. Azərbaycanlılardan ibarət 416-cı, 402-ci, 396-cı, 223-cü, 77-ci milli diviziyalar Simferopolun, Odessanın, 77-ci diviziya Polşa və Çexoslovakiyanın, 223-cü diviziya isə Yuqoslaviyanın azadlığı uğrunda fəal iştirak ediblər.*

*İkinci dünya müharibəsində şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətləri yaddaşlardan silinmir. Bu qəhrəmanlıq gənc nəslə vətənpərvərlik nümunəsidir. Ulu öndər Heydər Əliyev 1993-cü ildə Azərbaycanda hakimiyyətə qayıdandan sonra müharibə veteranlarının hüquqlarını bərpa etdi. Ümummilli lider onları «Xalqımızın qızıl fondu» adlandırırdı. Prezident İlham Əliyev də müharibə veteranlarının sosial problemlərinin həlli istiqamətində daim mühüm addımlar atır. 9 May – Qələbə bayramı ərəfəsində onlara birdəfəlik maddi yardımlar göstərilir. Bu isə həmin kateqoriyadan olan insanların sosial vəziyyətinin daim diqqət mərkəzində olduğunu nümayiş etdirir.*

*İkinci dünya müharibəsinin veteranları xalqımızın fəxridir. Onların müharibə illərində göstərdikləri qəhrəmanlıq bu gün də böyük hörmətlə xatırlanır, həlak olan soydaşlarımızın xatirəsi ehtiramla yad olunur. Böyük Qələbənin qazanılmasından 73 il keçsə də, İkinci dünya müharibəsində misilsiz şücaət göstərmiş xalqımızın xidmətləri heç vaxt öz əhəmiyyətini itirmir.*

*Prezident, Ali Baş Komandan İlham Əliyev iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun abidəsi önünə əklil qoydu, İkinci dünya müharibəsində misilsiz qəhrəmanlıqlar göstərən cəsur sərkərdənin xatirəsini ehtiramla yad etdi.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva İkinci dünya müharibəsi veteranları ilə xatirə şəkli çəkdirdilər.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Prezident İlham Əliyevin qarşısından keçdi.*

*Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun ailə üzvləri, yaxın qohumları ilə görüşdülər, Qələbə Günü münasibətilə onları təbrik etdilər.*

*Mərasimdə Baş Nazir Novruz Məmmədov, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.*

## BEYNƏLXALQ LİMANLAR ASSOSİASİYASININ PREZİDENTİ SANTYAQO QARSİA MİLA İLƏ GÖRÜŞ

*9 may 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 9-da Beynəlxalq Limanlar Assosiasiyasının prezidenti Santyaqo Qarsia Milanı qəbul etmişdir.*

*Santyaqo Qarsia Mila Beynəlxalq Limanlar Assosiasiyasının Bakıda keçirilən illik konfransında iştirakından böyük məmnunluq hissi keçirdiyini qeyd edərək, tədbirdə 65 ölkədən 400-dən artıq nümayəndənin iştirakının böyük önəm daşıdığını vurğuladı. O bildirdi ki, bu nümayəndələr Beynəlxalq Limanlar Assosiasiyasına üzv olan və dünyanın dəniz yükdaşımalarının təxminən 70 faizini əhatə edən limanları təmsil edirlər.*

*Tədbirin Azərbaycanda yüksək səviyyədə təşkil olunduğunu vurğulayan Santyaqo Qarsia Mila paytaxtımızda gördükləri inkişaf proseslərinin onlarda böyük təəssürat yaratdığını məmnunluqla qeyd etdi. Bakının artıq beynəlxalq ticarət qovşağına çevrildiyini deyən qonaq böyük İpək yolu, «Bir kəmər–bir yol» layihələrində Azərbaycanın önəmli rol oynayacağına ümidvar olduğunu bildirdi. Santyaqo Qarsia Mila Beynəlxalq Limanlar Assosiasiyasının illik konfransının Bakıda keçirilməsinin əlamətdar hadisə olduğunu və tədbirin gələn il Çində təşkil ediləcəyini dedi.*

*Prezident İlham Əliyev Beynəlxalq Limanlar Assosiasiyasının Bakıda keçirilən illik konfransının önəminə toxunaraq, xeyli sayda ölkənin nümayəndələrinin burada iştirakından məmnunluğunu ifadə etdi. Tədbirin keçirilməsi üçün Bakını seçdiklərinə görə minnətdarlığını bildirən dövlətimizin başçısı ölkəmizdə digər sahələr kimi, nəqliyyat sektorunda da böyük*

*uğurların əldə olunduğunu məmnunluq hissi ilə qeyd edərək, Azərbaycanın artıq beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevrildiyini dedi. Ölkəmizin coğrafi mövqeyinin bu işdə rolunu qeyd edən Prezident İlham Əliyev bunun həm də Azərbaycanda müasir nəqliyyat infrastrukturuna qoyulan böyük həcmdə investisiyanın nəticəsi olduğunu bildirdi. Dövlət başçısı qeyd etdi ki, bu özünü təkcə Ələtdəki yeni limanda deyil, eləcə də müasir dəmir və avtomobil yollarında, aeroportların inşasında da göstərir. Şərq–Qərb və Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizi layihələrinə toxunan dövlət başçısı həmin layihələrin icrası nəticəsində bu istiqamətdə Azərbaycan ərazisindən mühüm beynəlxalq daşımaların həyata keçiriləcəyini qeyd etdi.*

*Nəqliyyat infrastrukturunun bu gün Azərbaycanda çox yüksək səviyyədə olduğunu bildirən Prezident İlham Əliyev yeni Bakı limanının birinci fazasının tam şəkildə yaxın zamanlarda başa çatacağını dedi və bütün bunları Azərbaycanın nəqliyyat sahəsində beynəlxalq əməkdaşlığa verdiyi töhfə kimi dəyərləndirdi.*

## DP VORLD ŞİRKƏTİNİN PREZİDENTİ SULTAN ƏHMƏD BİN SULAİM İLƏ GÖRÜŞ

*9 may 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 9-da DP Vorld şirkətinin Prezidenti Sultan Əhməd bin Sulaimi qəbul etmişdir.*

*Sultan Əhməd bin Sulaim Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş Naziri və Dubayın hökmdarı şeyx Məhəmməd bin Rəşid əl-Məktumun salamlarını Prezident İlham Əliyevə çatdırdı.*

*Beynəlxalq Limanlar Assosiasiyasının Bakıda keçirilən illik konfransında iştirakından məmnunluğunu ifadə edən Sultan Əhməd bin Sulaim bu tədbirin yüksək səviyyədə təşkil olunduğunu və beynəlxalq əməkdaşlıq işinə mühüm töhfə verdiyini vurğuladı. O hər dəfə Azərbaycana səfəri zamanı ölkəmizdə böyük inkişaf proseslərinin şahidi olduğunu, Bakıda xarici turistlərin sayının sürətlə artdığını müşahidə etdiklərini dedi.*

*Prezident İlham Əliyev Beynəlxalq Limanlar Assosiasiyasının illik konfransının Bakıda keçirilməsinin önəmini qeyd etdi və bunu beynəlxalq nəqliyyat daşımalarında ölkəmizin rolunun artmasının göstəricisi kimi dəyərləndirdi. Dövlətimizin başçısı nəqliyyat infrastrukturu sahəsində Azərbaycanın son illər böyük uğurlar qazandığını dedi. Prezident İlham Əliyev digər sahələrdə olduğu kimi, ölkəmizdə turizmin inkişaf etdirilməsi sahəsində də ardıcıl addımların atıldığını, Azərbaycana müxtəlif ölkələrdən, o cümlədən Birləşmiş Ərəb Əmirliklərindən gələn qonaqların sayının durmadan artdığını qeyd etdi.*

*Dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş Naziri və Dubayın hökmdarı şeyx Məhəmməd*

*bin Rəşid əl-Məktumun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını şeyx Məhəmməd bin Rəşid əl-Məktuma çatdırmağı xahiş etdi.*

*Söhbət zamanı Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı, əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu bildirildi.*

## FƏXRİ XİYABANDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*10 may 2018-ci il*

*Müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin mayın 10-u anadan olmasının 95-ci ildönümü günüdür.*

*Dünyasını dəyişəndən sonra xalqın yaddaşında qalmaq hər kəsə nəsib olmur. Xalq yalnız sevdiklərini yadda saxlayır və yaşadır. Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaqdır. Çünki bu dahi insan xalqımız qarşısındakı xidmətləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır.*

*İstedadlı insanlar, böyük şəxsiyyətlər üçün zaman və məkan məhdudiyyəti yoxdur. Onlar heç bir zaman və məkana sığmırlar. Bu, əsrlərin sınağından çıxan və öz təsdiqini tapan bir fikirdir. Zaman onu da sübut edir ki, dünyanın tarixi böyük şəxsiyyətlərin tərcümeyi-halıdır. Heydər Əliyevin tərcümeyi-halı isə Azərbaycanın tarixidir. Çünki onun hakimiyyətdə olduğu illərdə Azərbaycana bəxş etdiklərini tarix boyunca heç bir hakimiyyət sahibi etməyib. O, Azərbaycan salnaməsində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan kimi qalıb. Çünki o, Azərbaycanı dünyaya tanıdıb, dünyanı Azərbaycana gətirib. O, Azərbaycanı qorumaq üçün yaşayıb, Azərbaycanı yaşatmaq üçün qurub-yaradıb. Heydər Əliyevin parlaq dühası onu Azərbaycan xalqının ümummilli liderinə, üstəlik dünya siyasətinin nəhənglərindən birinə çevirib. Odur ki, Azərbaycan xalqı bu böyük övladı ilə haqlı olaraq öyünür.*

*«Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olub» – deyən Heydər Əliyev istər sovet dönəmində, istərsə də müstəqillik illərində qüdrəti və zəkası, böyük müdrikliyi və uzaqgörənliyi ilə Azərbaycanı dünya məmləkətləri sırasında layiqli yerə çıxarıb. O, keçmiş SSRİ-nin ən nüfuzlu siyasətçilərindən biri idi. Bu səbəbdən də «Azərbaycan sənin üçün kiçikdir, sən İttifaqa lazımsan» – deyə onu Moskvaya dəvət etdilər. Amma burada o, həm də onu gözü götürməyən məkrli «qorbaçovların» xəyanətinə tuş gəldi, Vətəninə döndü. Bu qayıdış isə daha möhtəşəm oldu. Ümidlə, inamla yolunu gözləyən xalqının arzusu ilə yenidən hakimiyyətə gəldi. Milyonları öz ətrafında, bir bayraq altında birləşdirə bildi. Sözünün qüdrəti ilə hər kəsi inandırdı. Əməlləri ilə sözünü gerçəyə çevirdi.*

*Azərbaycan dövlət quruculuğu prosesini sürətlə keçdi. Çünki ulu öndər Heydər Əliyevin yaratdığı təməl prinsiplər düzgün yerinə yetirilmişdi. Dahi siyasi xadimin xidmətləri sayəsində dövlətçilik, azərbaycançılıq, dünyəvilik, müasirlik kimi ideyalar cəmiyyətin dünyagörüşü sisteminin ayrılmaz hissəsinə çevrildi, müasir Azərbaycanın mövcudluğunun və inkişafının ideya əsasını təşkil etdi. Heydər Əliyev öz fəaliyyəti ilə Azərbaycanda demokratik cəmiyyətə keçid mexanizmini yaratdı, müstəqil və demokratik cəmiyyət formalaşdırmaq kimi tarixi missiyanın öhdəsindən uğurla gəldi. Ulu öndər güclü dövlət, səmərəli iqtisadiyyat və azad insan amillərinə əsaslanan konsepsiyası ilə müstəqil Azərbaycanın tarixində qızıl səhifələr yazdı. Heydər Əliyevin quruculuq salnaməsi azərbaycanlıların həyatına birdəfəlik daxil oldu. Onun Azərbaycana rəhbərlik illəri milli intibah dövrü kimi əbədiləşdi.*

*Meydana silahsız gələn bu insan qüdrətli Azərbaycan Ordusu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, ölkəmizdə böyük neft erasının əsasını qoydu. Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı. Heydər Əliyev dövrü*

*Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin «qızıl» dövrünə çevrildi. Türk dünyasının bu böyük oğlu güclü dövlətçilik məktəbi də yaratdı. Heydər Əliyev ən mürəkkəb ziddiyyətli tarixi proseslərin gərdişindən bacarıqla baş çıxaran, ən çətin vəziyyətlərdə belə, təmkinini itirməyən və dünyadakı geosiyasi dəyişiklikləri realistcəsinə qiymətləndirib mənsub olduğu xalqın, ölkəsinin çıxarlarını praqmatik ağılla və təcrübəsi ilə dəqiqliklə hesablayan bir lider idi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva, ailə üzvləri, ulu öndərin doğmaları və yaxınları xalqımızın xilaskar oğlunun doğum günündə umummilli liderin məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəldilər.*

*Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, ulu öndərin xatirəsini ehtiramla andı.*

*Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*

*Sonra dövlət başçısı və ailə üzvləri ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini yad edərək, məzarı üzərinə gül dəstələri qoydular.*

*Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzüldü.*

*Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş Nazir Novruz Məmmədov, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, nazirlər, komitə və şirkət rəhbərləri, Milli Məclisin üzvləri iştirak edirdilər.*

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN DOĞUM GÜNÜNƏ HƏSR OLUNMUŞ AĞAC ƏKMƏ AKSİYASINDA İŞTİRAK

*10 may 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri mayın 10-da Qala–Türkan magistral avtomobil yolunun ətrafında salınan yaşıllıq sahəsində ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunmuş ağac əkmə aksiyasında iştirak etmişlər.*

*Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev görülən işlərlə bağlı Prezident İlham Əliyevə məlumat verdi.*

*Dövlət başçısının tapşırıqlarına və tövsiyələrinə uyğun olaraq, 2008–2018-ci illərdə ölkənin əsas magistral avtomobil yolları boyunca 4443 hektar sahədə salınmış yaşıllıqlarda 5 milyon 436 min müxtəlif növ ağac və kol bitkiləri əkilib. Həmin ağacların əkildiyi sahələr damcılı suvarma sistemi ilə təchiz edilib. Əsasən zeytun, badam, nar, innab, püstə, qoz və fındıq ağaclarının əkilməsinə üstünlük verilibdir.*

*Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri ərazidə ağac əkdilər.*

*Ulu öndər Heydər Əliyevin doğum günündə Qala–Türkan magistral avtomobil yolunun ətrafında salınan yaşıllıq massivində Ekologiya və Təbii Sərvətlər Nazirliyi «Azərbaycan Yaşıllaşdırma və Landşaft Quruluşu» Açıq Səhmdar Cəmiyyətinin tinglik sahələrində kökübağlı şəraitdə yetişdirilən 7000-ə yaxın ağac əkildi.*

*Qeyd edək ki, ekologiya və ətraf mühitin mühafizəsi Azərbaycan dövlətinin qarşısında duran əsas istiqamətlərdən biridir. Ölkəmizin zəngin flora və faunasının qorunması, Bakının*

*yaşıllıqlar şəhərinə çevrilməsi istiqamətində xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən bütün dövrlərdə çox böyük işlər görülübdür. Ulu öndər tərəfindən əsası qoyulan ənənəni bu gün Prezident İlham Əliyev uğurla davam etdirir. Təsadüfi deyil ki, Azərbaycanda reallaşdırılan milli inkişaf strategiyasının prioritet sahələrindən biri də ətraf mühitin mühafizəsini və insanların sağlam təbii şəraitdə yaşamasını ən yüksək səviyyədə təmin etməkdir. Prezident İlham Əliyev tərəfindən 2010-cu ilin ölkədə «Ekologiya ili» elan edilməsi bunun bariz nümunəsidir.*

*Prezident İlham Əliyev neftlə və digər istehsalat tullantıları ilə çirklənmiş ərazilərin, lay suları altında qalan torpaqların ekoloji vəziyyətinin yaxşılaşdırılmasına da xüsusi diqqətlə yanaşır. Əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması ilə bağlı ölkədə ciddi əməli işlər görülüb, milyonlarla ağac əkilib, yeni park və xiyabanlar salınıbdır. Bir vaxtlar neft tullantıları ilə çirklənmiş indiki «Ağ şəhər» və digər ərazilərdə həyata keçirilən mühüm layihələr nəticəsində neft çöküntüləri təmizlənib. Hazırda bu ərazilər paytaxtın yeni yaşayış və mədəniyyət komplekslərinə, Prezident İlham Əliyevin dediyi kimi, müasir ekoloji layihələrə çevrilib. Bütün bunlar ətraf mühitin qorunmasına, xüsusilə də vətəndaşların sağlam mühitdə yaşamasına xidmət edir. Ekoloji vəziyyətin yaxşılaşdırılması üçün tədbirlərin görülməsi, həmçinin qanunsuz ağac kəsilməsinə qarşı dövlət başçısının nümayiş etdirdiyi qətiyyətli mövqenin təməlində isə yalnız bir amal dayanıb: insanların sağlamlığının qorunması.*

*Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da ölkəmizdə yeni yaşıllıqların salınmasına və mövcud yaşıllıq sahələrinin qorunmasına xüsusi diqqət yetirir. Bu məsələdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə həyata keçirilən layihələrin də mühüm rolu vardır.*

*Qeyd edək ki, müxtəlif vaxtlarda həyata keçirilən ekoloji layihələr Azərbaycanın bütün regionlarını əhatə edib. Bu gün vətəndaşların, xüsusilə gənclərin ağac əkmə aksiyalarında, yaşıllıqlar salınmasında, şəhər və rayonlarımızda təmizlik işlərində fəal iştirakı bunun əyani göstəricisidir. Ekspertlərin fikrincə, hazırda Azərbaycanda ekologiyanın qorunması, əhalinin sağlamlığının təmin edilməsi istiqamətində görülən işlər bir çox ölkələrə nümunə ola bilər.*

## AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 95 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM

*Heydər Əliyev Mərkəzi*

*10 may 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri mayın 10-da Heydər Əliyev Mərkəzində keçirilən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə iştirak etmişlər.*

*Dövlət başçısı mərasimdə nitq söylədi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar, əziz dostlar!

Bu gün ulu öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümüdür. Bu gün Azərbaycan xalqı bir daha ulu öndərin əziz xatirəsinə öz hörmət və ehtiramını bildirir.

Heydər Əliyev dahi şəxsiyyət, uzaqgörən lider, cəsarətli insan idi. O öz həyatını doğma xalqına həsr etmişdir. Bütün dövrlərdə xalqa ləyaqətlə, sədaqətlə xidmət etmişdir. Cəmiyyətin ictimai-siyasi quruluşundan asılı olmayaraq, Heydər Əliyev bütün dövrlərdə xalqın dəstəyini hiss edərək, Azərbaycanı inamla irəliyə aparırdı. Sovet dönəmində və müstəqillik dövründə Azərbaycan üçün, xalqımız üçün ən həlledici anlarda Heydər Əliyevin liderlik keyfiyyətləri, onun müdrikliyi, düşünülmüş siyasəti və cəsarətli addımları xalqımızı böyük bəlalardan xilas etmişdir. Xalq ona inanırdı, onu sevirdi və bü-

tün dövrlərdə ona arxa-dayaq olmuşdur. Sovet dövründə Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə Azərbaycan uğurla, sürətlə inkişaf edib. 1969-cu ildə o, Azərbaycan Respublikasının rəhbəri seçiləndə Azərbaycan sovet məkanında ən geridə qalmış respublikalardan biri idi. Bunu sosial-iqtisadi göstəricilər də təsdiq edir. 13 il ərzində yorulmaz fəaliyyət nəticəsində Azərbaycan sovet məkanında ən qabaqcıl respublikalardan birinə çevrilmişdir. Əgər sovet dövründə – ötən əsrin 80-ci illərində iki donor respublika var idisə, onlardan biri Azərbaycan idi. Azərbaycan ümumittifaq xəzinəsinə daha çox vəsait verirdi, nəinki alırdı.

Məhz o illərdə Azərbaycanda sənaye inkişafı böyük templərlə təmin olunurdu. Yüngül sənayedə, ağır sənayedə, neft sənayesində böyük işlər görülmüşdür. O vaxt yaradılmış infrastruktur bu gün müstəqil Azərbaycanın inkişafına xidmət göstərir. Kənd təsərrüfatına böyük diqqət göstərilirdi. Azərbaycan böyük tikinti meydançasına çevrilmişdi. Yəni 1982-ci ilin sosial-iqtisadi göstəricilərinə nəzər salsaq görərik ki, doğrudan da Heydər Əliyevin rəhbərliyi ilə 13 il ərzində böyük işlər görülmüşdür və Azərbaycan, qeyd etdiyim kimi, qabaqcıl yerlərdə idi.

Onun gördüyü işlər, prinsipiallığı, şəxsi keyfiyyətləri, əlbəttə ki, sovet rəhbərliyində də yüksək qiymətləndirilirdi. 1982-ci ildə Leonid Brejnev vəfat edəndən və Yuri Andropov hakimiyyətə gələndən sonra onun ilk təyinatı məhz Heydər Əliyevin adı ilə bağlı oldu. O, Heydər Əliyevi Moskvaya dəvət edib, ona yüksək vəzifə təklif etmişdi – Nazirlər Soveti Sədrinin Birinci müavini və Siyasi Büronun üzvü vəzifələrini.

Mən yaxşı xatırlayıram, atam bir neçə gün tərəddüd etdi, Azərbaycandan getmək istəmirdi. Onun gördüyü işlər Azərbaycanı xeyli dərəcədə inkişaf etdirmişdi və Azərbaycanın gələcək inkişafı ilə bağlı böyük planları var idi. Ancaq o vaxt, təbii ki, güclü nizam-intizam var idi və sovet dövləti qarşısında yeni vəzifələr durmuşdu və o bu yüksək məsuliyyəti öz üzərinə götürdü. 1982–1987-ci illərdə o, bir çox önəmli sahələrə

rəhbərlik edərək, sovet dövlətinin uğurlu inkişafına öz töhfəsini vermişdir. Onun bilavasitə rəhbərliyi ilə böyük infrastruktur layihəsi olan Baykal–Amur dəmir yolu uğurla inşa edilmiş, onun tikintisi tamamlanmışdır.

Daim Azərbaycana böyük diqqət, kömək göstərirdi. Əlbəttə, onun burada gördüyü işlər və fəaliyyəti imkan verirdi ki, Azərbaycanı tərk edəndən sonra da Azərbaycan inkişaf etsin. Ancaq buna baxmayaraq, respublikada sosial-iqtisadi göstəricilər getdikcə aşağı düşürdü, vəziyyət tənəzzülə uğrayırdı. Nəticədə keçən əsrin 80-ci illərinin sonlarında – 90-cı illərinin əvvəllərində Azərbaycan böyük fəlakətlə üz-üzə qaldı.

Bir sözlə, o dövrdə ulu öndər çox böyük işlər görmüşdür və sovet məkanında onun xatirəsinə bu gün çox böyük hörmət və ehtiram vardır. Mənim onunla bərabər işləyən şəxslərlə çoxsaylı görüşlərim deməyə əsas verir ki, o, sözün əsl mənasında, böyük hörmətə layiq olan insan idi.

1987-ci ildə heç bir əsas olmadan ovaxtkı sovet rəhbərliyi tərəfindən Heydər Əliyev bütün vəzifələrdən uzaqlaşdırıldı. Bunun heç bir əsası yox idi. Çünki onun peşəkarlığı, gördüyü işlərin nəticələri ona qarşı edilən ədalətsizliyə uyğun gəlmirdi. Ancaq o vaxt sovet rəhbərliyində olan adamlar, sovet dövlətinin rəhbəri ona qarşı çox mənfi münasibət göstərirdi. Heydər Əliyev çox prinsipial, sözünü deyən insan idi. O görürdü ki, ölkədə vəziyyət pisləşməyə doğru gedir. O görürdü ki, real islahat əvəzinə, boşboğazlıq, populizm hökm sürür. O görürdü ki, qəbul edilmiş qərarlar sovet dövlətinin zəifləməsinə xidmət göstərir.

1985-ci ildən başlayaraq, Sovet İttifaqında milli münasibətlər sahəsində çox böyük pozuntulara yol verilmişdir. Sovet dövlətini vahid bir dövlət kimi saxlayan, ilk növbədə, milli münasibətlərin tənzimlənməsi idi. 1985-ci ilə qədər bu münasibətlər, demək olar ki, sağlam zəmində qurulmuşdur. Bütün xalqlar rahat inkişaf edə, öz mədəniyyətini qoruya bilirdilər.

Ona görə bütün bu xoşagəlməz meyillərə qarşı Heydər Əliyev biganə qala bilməzdi, öz səsini ucaldırdı və əlbəttə ki, bu, sovet rəhbərliyinin xoşuna gəlmirdi. Heç bir əsas olmadan bütün vəzifələrdən uzaqlaşdırılandan sonra Azərbaycan böyük dayağı itirmiş oldu. Bizim mənfur qonşularımız dərhal bundan istifadə etdilər, onun istefasından 2 həftə keçməmiş erməni separatçıları və onların mərkəzdəki havadarları məsələ qaldırdılar ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə verilsin.

Heydər Əliyev amili, güclü şəxsiyyətin dövlətin mərkəzində olması imkan vermirdi ki, belə separatçı meyillər baş qaldırsın. Baxmayaraq ki, 1969-cu ilə qədər belə meyillər var idi. Ancaq Heydər Əliyev Azərbaycana rəhbər vəzifəsinə gələndən sonra bütün bu meyillərin qarşısı alınmışdı.

O vaxtdan xalqımıza, respublikamıza qarşı çox böyük ədalətsizliklər edilmişdir. Bunun nəticəsində Azərbaycan böyük fəlakətlə üzləşmişdir. Tam əminliklə deyə bilərəm ki, əgər Heydər Əliyev o vaxt Azərbaycanda olsaydı, Azərbaycan rəhbəri kimi, heç vaxt imkan verməzdi ki, separatçı meyillər baş qaldırsın və Dağlıq Qarabağ münaqişəsi başlasın. Çünki onun qətiyyəti, cəsarəti, nüfuzu heç vaxt imkan verməzdi ki, belə meyillər mövcud olsun. Ancaq ondan sonrakı rəhbərlər, əfsuslar olsun ki, zəiflik göstərmişlər, prinsipiallıq göstərməmişlər və şəxsi karyeraları xalqın mənafeyindən qat-qat böyük əhəmiyyət kəsb edirdi.

1990-cı ilə qədər Heydər Əliyev pensiyaçı kimi yaşayıbdır. Baxmayaraq ki, Heydər Əliyevə qarşı mərkəzdə təşkil edilmiş qarayaxma kampaniyaları aparılırdı, Azərbaycan xalqı isə ona olan hörmətini daim öz qəlbində yaşadırdı. 1990-cı ilin faciəvi günlərində Heydər Əliyev əsl lider kimi yenə də öz xalqının yanında yer tutdu, xalqa yol göstərdi. Mən o dəhşətli günləri yaxşı xatırlayıram, sovet hökuməti, sovet rəhbəri tərəfindən Azərbaycan xalqına qarşı böyük cinayət törədilmişdi. Qanlı Yanvar faciəsi böyük cinayətdir, öz xalqına qarşı böyük

cinayətdir. 100-dən çox günahsız insan vəhşicəsinə qətlə yetirilmiş, yüzlərlə insan yaralanmış və itkin düşmüşdür. Heydər Əliyev dərhal bu ədalətsizliyə qarşı öz səsini ucaltdı. Yanvarın 21-də Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək – mən də onun yanında idim – orada sovet rəhbərliyini, bu vəhşi aktı pislədi və Azərbaycan xalqına öz həmrəyliyini ifadə etdi. Bu, böyük cəsarət tələb edən addım idi. Çünki o vaxt Heydər Əliyev sovet təbliğatında çox böyük təzyiqlərə, böyük kampaniyalara məruz qalırdı. Ancaq xalqın ona olan sevgisini bu çirkin əməllər söndürə bilməzdi. Əksinə, xalq görürdü ki, öz liderinə qarşı böyük ədalətsizlik törədilir və onun ətrafında daha da sıx birləşməyə cəhd göstərirdi.

1990-cı il yanvarın 21-də Heydər Əliyevin Moskvada daimi nümayəndəlikdə keçirilmiş mətbuat konfransındakı çıxışı dəfələrlə dərc edilib, televiziyada göstərilibdir. Yenə də deyirəm, bu, böyük cəsarət tələb edən addım idi. Bu addım bir daha göstərdi ki, Azərbaycan xalqının problemləri, mənafeyi, dərdi onun üçün hər şeydən üstündür, hər şeydən əzizdir və ağır günlərdə o mütləq öz xalqının yanında olmalıdır. Onu da qeyd etməliyəm ki, o vaxt sovet hakimiyyəti hələ möhkəm idi, Sovet İttifaqının dağılmasına hələ 2 il vaxt qalırdı. Heç kimin ağlına gəlməzdi ki, nə vaxtsa sovet dövləti dağılacaqdır.

Ondan sonra Heydər Əliyev uzun illər xidmət etdiyi Kommunist Partiyasının sıralarından çıxdı. Çox ciddi bəyanat verdi və təbii ki, ona qarşı bundan sonra təzyiqlər, təqiblər daha da geniş vüsət aldı, hətta tam dəqiq məlumata görə, onun həbsi məsələsi də qoyulmuşdu. Moskvada qalmaq mümkün deyildi, onun bütün ailə üzvlərinə qarşı da çox ciddi addımlar atılmışdı. Bütün ailə üzvləri tutduqları vəzifələrdən – vəzifələr o qədər də böyük deyildi, adi vəzifələr idi – çıxarılmışdı. Demək olar ki, sovet hakimiyyətinin repressiya maşınının nəticələrini biz o vaxt görmüşük və hiss etmişik.

Heydər Əliyev doğma Vətənə üz tutur və Bakıya gəlir. Əfsuslar olsun ki, Bakıda da ona yaşamağa imkan vermirlər və o,

Naxçıvana – doğulduğu yerə gedib orada yaşamağa məcbur olur. Azərbaycan xalqı onun ətrafında birləşməyə başlayır. Azərbaycan xalqı açıq-aydın görürdü ki, bu ağır vəziyyətdən xalqı ancaq Heydər Əliyev çıxara bilər, ancaq o, xilas edə bilər. Naxçıvanlılar onun ətrafında sıx birləşərək, Heydər Əliyevi Ali Məclisin Sədri vəzifəsinə seçdilər və o, Naxçıvanı işğaldan qorudu. Çünki o vaxt Ermənistan Naxçıvanı da işğal etmək istəyirdi. Ancaq Heydər Əliyev buna imkan vermədi. Orada böyük səfərbərlik işləri görüldü, özünümüdafiə dəstələri yaradıldı və Naxçıvanın işğalına imkan verilmədi. Naxçıvanlılar da Heydər Əliyevi qorudular. Çünki o vaxt – 1992-ci ildə hakimiyyəti qanunsuz, dövlət çevrilişi nəticəsində zəbt etmiş AXC–Müsavat hakimiyyəti Heydər Əliyevə qarşı işlərə başlamışdı və Naxçıvanda da çevriliş etmək fikirləri var idi. Hətta o vaxt Daxili İşlər Nazirliyinin daxili qoşunlarının bir dəstəsini Naxçıvana desant göndərmək istəmişlər, naxçıvanlıları, Heydər Əliyevi hədələmişdilər, ancaq sonra bu çirkin əməllərdən əl çəkməli oldular. Çünki gördülər ki, onları çox ciddi müqavimət gözləyir və bu avantüra onlara çox baha başa gələ bilər. Yenə də – sonra da bunu dəfələrlə edəcəklər – qorxaqlıq göstərərək, öz çirkin niyyətlərindən əl çəkməli oldular.

Naxçıvan dövrü çox yaddaqalan dövrdür. Mən o dövrü çox yaxşı xatırlayıram. Mən dəfələrlə Naxçıvana atamın yanına getmişəm, onunla birlikdə olmuşam. Çox ağır vəziyyətdə olan Naxçıvanın qorunması, Naxçıvanın yaşaması üçün böyük işlər görülmüşdü. Müstəqilliyimiz üçün də çox böyük işlər görülmüşdü. Çünki uzun fasilədən – 1920-ci ildən sonra ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvanda Heydər Əliyevin təşəbbüsü ilə Ali Məclisin sessiyasında rəsmi Dövlət bayrağı kimi təsdiq olundu. Bu, müstəqilliyə gedən yolun başlanğıcı idi. Azərbaycanda vəziyyət getdikcə gərginləşirdi, torpaqlarımız Ermənistanın işğalı altına düşürdü. Ovaxtkı AXC–Müsavat hakimiyyəti xalqın ümidlərini

doğrulda bilmədi, öz yarıtmaz, xəyanətkar siyasəti ilə Azərbaycan xalqına, Azərbaycan dövlətçiliyinə böyük zərbələr vurdu və demək olar ki, ölkəni idarəolunmaz vəziyyətə gətirdi. Xaos, anarxiya, talançılıq, özbaşınalıq, siyasi, iqtisadi, hərbi böhran hökm sürürdü, torpaqlarımız işğal altına düşürdü. Azərbaycanın ovaxtkı iqtidarı isə öz laxlayan hakimiyyətini qorumaq üçün cinayətlərə, vətəndaş müharibəsinə əl atmışdı.

Biz o günləri, o illəri yaxşı xatırlayırıq. İqtidar hakimiyyəti saxlamaq üçün Gəncəni bombalamağa qərar vermişdi və Gəncənin dağılmış binalarının o mənzərəsi bu gün bizim gözümüzün qabağındadır. Azərbaycan xalqı o anti-milli hakimiyyətə yox dedi, cəmi 1 il ona dözə bildi və öz lideri ətrafında birləşdi.

Hələ 1992-ci ildə Azərbaycanın qabaqcıl ziyalıları, tanınmış insanlar, ictimai xadimlər Heydər Əliyevə müraciət edərək, partiyanın yaradılması ilə bağlı təkliflər irəli sürdülər və 1992-ci ilin noyabrında Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Bu da gənc dövlətin siyasi sisteminin yaradılması demək idi. Çünki o günə qədər Azərbaycanda siyasi sistem yox idi, siyasi münasibətlər, ümumiyyətlə, mövcud deyildi. 1993-cü ildə xalqın tələbi ilə Heydər Əliyev Bakıya gəldi. Ovaxtkı AXC–Müsavat hakimiyyəti yenə də qorxaqlıq göstərərək, kənara çəkildi, ölkə, demək olar ki, idarəolunmaz vəziyyətə düşdü. O ağır, çətin vəziyyətdə xalq bu tarixi missiyanı Heydər Əliyevə həvalə etdi.

1993-cü ildən başlayaraq, Azərbaycan bu günə qədər uğurlu inkişaf yolu ilə gedir. Baxmayaraq ki, 1994-cü və 1995-ci illərdə iki dəfə dövlət çevrilişinə cəhd göstərilmişdir, ancaq Azərbaycan xalqı imkan vermədi ki, cinayətkar ünsürlər hakimiyyəti bir daha qanunsuz zəbt etsinlər. Əlbəttə ki, Heydər Əliyevin nüfuzu, onun cəsarəti, onun siyasəti imkan vermədi ki, kimsə hakimiyyəti qanunsuz yollarla zəbt etsin.

Ondan sonra Azərbaycanda sabitlik dövrü başlandı və bu dövr bu gün də davam edir. Ölkəmiz üçün çox önəmli qərarlar qəbul edildi, siyasi islahatlara start verildi. Məhz o illərdə bizim

inkişafımızla bağlı strateji seçimlər edildi ki, Azərbaycan müasir, demokratik ölkə kimi inkişaf etməlidir. İqtisadi islahatlara start verildi, bazar iqtisadiyyatı prinsipləri əsas prinsiplər kimi tətbiq olunmağa başlandı. Azərbaycan beynəlxalq aləmlə münasibətləri qura bildi və demək olar ki, müstəqilliyimizin ilk illərində mövcud olan beynəlxalq təcriddən də çıxa bildi. Ölkəmiz üçün lazım olan beynəlxalq əlaqələr Azərbaycana investisiya cəlb edilməsinə gətirib çıxardı. 1994-cü ildə «Əsrin müqaviləsi» imzalandı. Bu müqavilənin bizim tariximizdə, iqtisadi inkişafımızda müstəsna rolu vardır. 1995-ci ildə müstəqil dövlətin Konstitusiyası qəbul edildi.

Eyni zamanda, 20 Yanvar faciəsinə siyasi və hüquqi qiymət verildi. Əfsuslar olsun ki, ondan əvvəlki hakimiyyət bu məsələyə biganə qalmışdır. Azərbaycan uğurla inkişaf etməyə başladı. 1993–2003-cü illərdə ölkə qarşısında duran vəzifələr uğurla icra edildi. Ordu quruculuğu işində böyük addımlar atıldı, uğurlu Horadiz əməliyyatı keçirildi və torpaqlarımızın bir hissəsi işğalçılardan azad edildi. Yəni 10 il ərzində Azərbaycanda dövlət quruculuğu işində çox böyük addımlar atıldı və bu addımlar bu gün bizim uğurlu siyasətimizi şərtləndirir.

2003-cü ilin oktyabr ayında Heydər Əliyev xalqa müraciətində görülmüş işlərlə bağlı öz fikirlərini bildirdi və əminliyini ifadə etdi ki, onun davamçıları onun yolu ilə gedərək, Azərbaycanı ondan sonra da uğurla idarə edə bilərlər.

2003-cü ildə Azərbaycan xalqı mənə böyük etimad göstərdi və o gündən bu günə qədər çalışıram ki, bu etimadı doğruldum. 2003-cü ildə Prezident seçkiləri ərəfəsində söz vermişdim ki, əgər xalq etimad göstərərsə, Heydər Əliyev siyasəti Azərbaycanda davam etdiriləcəkdir. Fəxr edirəm ki, sözümə əməl etdim və son 15 il ərzində Azərbaycan Heydər Əliyevin qoyduğu yolla uğurla, inamla gedir. Azərbaycanda sabitlik tam təmin olunur, sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Biz indi görürük ki, dünyanın müxtəlif yerlərində vəziyyət gərginləşir, yeni

münaqişələr, qanlı toqquşmalar, vətəndaş müharibələri, çevrilişlər baş verir. Ona görə baş verir ki, insanlar hakimiyyətdən narazıdırlar. Ona görə baş verir ki, hakimiyyət lazım olan səviyyədə, düzgün siyasət aparmır, insanları narahat edən problemləri həll etmir, iqtisadi inkişafı təmin edə bilmir, böyük pozuntulara yol verir. Azərbaycanda isə sabitliyin təminatçısı, onun qarantı Azərbaycan xalqıdır və xalq–iqtidar birliyidir. Bu gün Azərbaycan dünya miqyasında ən sabit və ən uğurla inkişaf edən ölkələrdən biridir.

Azərbaycan dövləti möhkəm əsaslar üzərində qurulubdur. Biz son 15 il ərzində milli dəyərlərimizlə bağlı çox ciddi siyasət aparırıq. Milli dəyərlərimiz, ənənəvi dəyərlər bizim üçün əsasdır. Çox şadam ki, bu gün gənc nəsil milli ruhda tərbiyə olunur və milli ləyaqət hissləri güclənir, müstəqillik ən böyük sərvət kimi cəmiyyət tərəfindən qəbul edilir və dəstəklənir.

Azərbaycan dünya miqyasında dinlərarası, millətlərarası münasibətlərin tənzimlənməsində nümunəvi ölkəyə çevrilibdir. Azərbaycanda bütün xalqların, bütün dinlərin nümayəndələri Azərbaycan səması altında bir ailə kimi, sülh, mehribanlıq, dostluq şəraitində yaşayırlar. Bu bizim böyük sərvətimizdir və bu bizim siyasətimizin böyük uğurudur.

Azərbaycan beynəlxalq aləmdə böyük nüfuza malik olan ölkədir. Bizim bir çox ölkələrlə bərabərhüquqlu, gözəl, konstruktiv münasibətlərimiz vardır. Biz prinsipial mövqemizdən heç vaxt bir addım geri atmırıq. Tərəfdaşlarımızla qarşılıqlı maraqlar üzərində qurduğumuz münasibətlər, düzgün xarici siyasət bizə imkan verir ki, həm beynəlxalq arenada öz gücümüzü, təsir imkanlarımızı artıraq, eyni zamanda, daxili problemləri, xüsusilə iqtisadi inkişafla bağlı olan problemləri həll edək.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bizim prinsipial mövqemiz dəyişməz olaraq qalır. 2003–2018-ci illərdə – 15 il ərzində bir çox beynəlxalq təşkilatlar – BMT Baş Assambleyası, «Qoşulmama Hərəkatı», Avropa Şurası, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı və digər təşkilatlar bu

münaqişə ilə bağlı bizim mövqemizi, ədaləti əks etdirən qərar və qətnamələr qəbul ediblər. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır, Azərbaycanın ərazi bütövlüyü tam bərpa olunmalıdır, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi icra edilməlidir. Bu qətnamələrdə açıq-aydın göstərilir ki, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxmalıdır. Münaqişənin digər həlli yolları yoxdur. Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil, heç vaxt olmayıb və heç vaxt da  olmayacaqdır. Azərbaycan xalqı və dövləti heç vaxt imkan verməz ki, Azərbaycan torpağında ikinci erməni dövləti yaradılsın. Əgər kimsə başqa cür fikirləşirsə, hesab edirəm ki, o, əbəs yerə illüziyalarla yaşayır. Azərbaycanın ərazi bütövlüyü tam şəkildə və qeyd-şərtsiz təmin edilməlidir. Bunu ədalət və beynəlxalq hüquq tələb edir. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Bunu tarix deyir, mədəniyyət deyir, bunu beynəlxalq hüquq deyir. Dağlıq Qarabağda keçirilmiş son qondarma referendum heç bir ölkə, heç bir beynəlxalq təşkilat tərəfindən tanınmayıb. Bu bir daha onu göstərir ki, beynəlxalq aləm, bütün ölkələr Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Biz öz prinsipial mövqemizi bundan sonra da gücləndirəcəyik. Azərbaycanın həm beynəlxalq müstəvidə, həm də regionda kifayət qədər imkanları vardır. Bizim iştirakımız olmadan bölgədə heç bir layihə icra edilə bilməz. Ermənistanda bu reallığı nə qədər tez başa düşsələr, münaqişə o qədər də tez həll edilər və bölgəmizdə sülh təmin olunar.

Biz eyni zamanda, Xocalı soyqırımı ilə bağlı dünyada çox böyük işlər görürük. Ermənilər tərəfindən törədilmiş misli görünməmiş vəhşilik olan Xocalı soyqırımını son illər ərzində 10-dan çox ölkə soyqırımı kimi tanıyıb və bu proses davam etdiriləcəkdir.

Biz güclü ordu qurmuşuq. Orduların gücünü müəyyən edən aparıcı reytinq agentlikləri Azərbaycan Ordusunu 50 güclü ordu sırasında görür. Biz bunu bilirik və bizim hərbi gücümüz gün-

dən-günə artır. 2 il bundan əvvəl Azərbaycan Ordusu Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğalçılardan azad etdi və o torpaqlarda – bizim doğma torpaqlarımızda bu gün Azərbaycan bayrağı dalğalanır. Əminəm ki, gün gələcək və Azərbaycan bayrağı bu gün hələ də işğal altında olan bütün torpaqlarda, o cümlədən Şuşada və Xankəndidə qaldırılacaqdır.

Biz ulu öndərin yolu ilə gedərək, güclü iqtisadiyyat qura bilmişik. Son 15 il ərzində iqtisadi inkişaf baxımından Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə olmamışdır. Bizim iqtisadiyyatımız 3 dəfədən çox artıbdır. Aparıcı beynəlxalq təşkilatlar, Davos İqtisadi Forumu Azərbaycanı rəqabətqabliyyətliliyinə görə dünyada 35-ci yerə layiq görübdür, inkişaf edən ölkələr arasında isə biz 3-cü yerdəyik. Bizim çox böyük iqtisadi resurslarımız vardır. Bizim valyuta ehtiyatlarımız xarici dövlət borcumuzdan 5 dəfə çoxdur. Azərbaycanda yoxsulluqla, işsizliklə mübarizə gözəl nəticələr verir. Bu sosial problemlərin həlli işində böyük uğurlar əldə edilibdir. Biz energetika, nəqliyyat sahələrində tarixi layihələr icra etmişik və onların icrası davam edir. Biz ölkə daxilində enerji təhlükəsizliyi ilə bağlı məsələləri tam şəkildə həll etmişik. Gələcəkdə Azərbaycanın enerji resurslarının dünya bazarlarına çıxarılması ilə bağlı böyük layihələrin başa çatması gözlənilir.

Azərbaycan Avrasiyanın nəqliyyat mərkəzlərindən birinə çevrilibdir. Şimal–Cənub və Şərq–Qərb nəqliyyat dəhlizləri bizim böyük sərmayələrimizlə həyata keçirilir və bu istiqamətdə hələ də həllini tapmamış məsələlər mütləq öz həllini tapacaqdır.

Biz bütün istiqamətlərdə uğurla inkişaf edirik. Bizim inkişafımızın təməlində ulu öndər Heydər Əliyev siyasəti dayanır. Biz bu siyasətə sadiqik, biz tutduğumuz yoldan dönməyəcəyik, daim irəli gedəcəyik.

Azərbaycan xalqını bir daha əmin etmək istəyirəm ki, biz bundan sonra da həmişə inkişaf və tərəqqi yolu ilə gedəcəyik. Sağ olun.

* * *

*Sonra Heydər Əliyev Fondu tərəfindən təsis edilmiş «Qızıl çinar» beynəlxalq mükafatının 2018-ci il üzrə qalibləri elan olundu.*

*Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva milli musiqi mədəniyyətimizin inkişafı və təbliği, Azərbaycan dirijorluq məktəbi ənənələrinin yüksək səviyyədə davam etdirilməsi istiqamətində göstərdiyi böyük xidmətlərə görə Azərbaycan Respublikasının Xalq artisti, Dövlət mükafatı, «Şöhrət», «Şərəf» və «İstiqlal» ordenləri laureatı Rauf Abdullayevə «Qızıl çinar» beynəlxalq mükafatını təqdim etdi.*

**R a u f A b d u l l a y e v** *(Azərbaycan Respublikasının Xalq artisti)*: Mehriban xanım, mən Sizə çox təşəkkür edirəm. Əlbəttə, Sizin işləriniz həddindən çoxdur. Sizin gördüyünüz hər bir iş biz mədəniyyət işçilərinin gözləri qarşısındadır. Mən Sizə cansağlığı, işlərinizdə uğurlar diləyirəm. Biz həmişə Sizinləyik. Biz Sizinlə fəxr edirik, çox sağ olun, bir daha təşəkkür edirəm.

*Sonra Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyeva «Qızıl çinar» beynəlxalq mükafatını Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında mədəni əməkdaşlıq və qarşılıqlı əlaqələrin möhkəmləndirilməsində, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında xüsusi xidmətlərinə görə Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini, Azərbaycan Respublikasının «Dostluq» və «Şöhrət» ordenləri ilə təltif olunmuş Mixail Qusmana təqdim etdi.*

**M i x a i l Q u s m a n** *(TASS informasiya agentliyinin baş direktorunun birinci müavini)*: Hörmətli Prezident, hörmətli Mehriban xanım! Bu mükafata görə çox sağ olun. Bu mənim üçün sadəcə, mükafat deyil. Bu, əlbəttə ki, doğulduğum bu gözəl torpağa, əhatəsində boya-başa çatdığım ailə ocağıma, ömrümün yarısını bir yerdə yaşadığım istedadlı, parlaq, qonaqpərvər, mehriban, sülhsevər Azərbaycan xalqına mənim

sonsuz məhəbbətimin əksi və ifadəsidir. Lakin bu məhəbbət hissi indi mənim Azərbaycan Respublikası ilə xüsusi qürur duymağımla tamamlandı. Onun heyrətamiz uğurları barədə bu gün İlham Heydər oğlu çox gözəl danışdı. Cənab Prezident, Sizi bu doğma torpağın məğrurluğuna görə təbrik etmək istəyirəm. Çünki Heydər Əliyevin vəsiyyətlərini yerinə yetirən Azərbaycan məhz Sizin rəhbərliyinizlə belə heyrətamiz uğurlara nail olub. Mən Sizə Heydər Əliyevin, zənnimcə, ən əsas vəsiyyətlərindən birini yerinə yetirdiyinizə görə də təşəkkür etmək istəyirəm. Bu Sizin böyük Rusiya, böyük rus xalqı ilə hərtərəfli əlaqələrin və dostluğun, strateji əməkdaşlığın möhkəmləndirilməsi naminə yorulmadan göstərdiyiniz qayğıdır.

Biz bilirik ki, bu gün Azərbaycanda rus dili əvvəllərdə olduğu kimi, milyonlarla insanın ünsiyyət dilidir. Bu Sizin və tolerant Azərbaycan xalqının böyük xidmətidir. Mən buna görə Sizə çox təşəkkür edirəm. Deməliyəm ki, Azərbaycana məhəbbət hissini yəqin hamıdan daha yaxşı 80 il bundan əvvəl unudulmaz Səməd Vurğun özünün ölməz «Azərbaycan» şeirində tərənnüm edib. Biz bu şeiri uşaqlıqdan əzbər bilirik. Lakin abidənin pyedestalında həkk olunmuş dörd sətri bizim hər birimiz dua kimi heç olmasa gündə bir dəfə təkrarlamalıyıq:

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən,
Anam doğma Vətənimsən!
Ayrılarmı könül candan?
Azərbaycan, Azərbaycan!

*Daha sonra Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyeva Azərbaycan kinosənətinin inkişafındakı böyük xidmətlərinə görə görkəmli kinorejissor və ssenarist, Azərbaycan Respublikasının Xalq artisti, «Şöhrət» və «Şərəf» ordenli Eldar Quliyevə «Qızıl çinar» beynəlxalq mükafatını təqdim etdi.*

**E l d a r  Q u l i y e v** *(Azərbaycan Respublikasının Xalq artisti)*: Mehriban xanım, mən Sizə və Heydər Əliyev Fonduna dərin minnətdarlığımı bildirirəm. Siz mənim sadə fəaliyyətimə belə yüksək qiymət verdiniz. İndi 3-4 yaş cavan olsaydım deyərdim ki, bəli, bu avansdır. Amma hər halda, bunu avans hesab edirəm. Mən hələ işləyəcəyəm.

Mən nə rəssam, nə bəstəkar, nə də yazıçı deyiləm ki, təkbaşına nə isə yarada bilim. Mən kinorejissoram. Mənimlə birlikdə bir filmin çəkilişində 40–50 nəfər iştirak edir. Onların arasında rəssamlar da, yazıçılar da vardır. Hesab edirəm ki, bu mükafatda onların da payı vardır. Çünki onlarla birlikdə yaratdığımız filmlər Azərbaycanın tarixini, onun bugünkü həyatını bütün dünyaya tanıdır. Fəxr edirəm ki, mən də onların sırasındayam.

Çox sağ olun, Mehriban xanım, Sizə bir daha təşəkkür edirəm. Söz verirəm ki, yaradıcılığımı davam etdirəcəyəm.

* * *

*Mərasim geniş konsert proqramı ilə davam etdi.*

*Sonda xatirə şəkli çəkdirildi.*

*Mərasimdən sonra Heydər Əliyev Mərkəzinin binasının üzərində videokompozisiya nümayiş etdirildi.*

*Xalqımızın ümummilli lideri Heydər Əliyevin zəngin həyat yolunun səhifələrini vərəqləmək Azərbaycan tarixinin bütöv bir qərinəsinə nəzər salmaq deməkdir. Ulu öndər Heydər Əliyev millətin taleyi üçün misilsiz əhəmiyyət kəsb edən bütün fəaliyyət sahələrini həmişə diqqətdə saxlayıb. Onun ölkəyə rəhbərliyinin hər iki dövründə Azərbaycanın taleyi ilə bağlı olan bütün sahələr dövlət səviyyəsində layiqli dəyərini alıb. Bunu ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illiyi münasibətilə təntənəli mərasimin keçirildiyi Heydər Əliyev Mərkəzinin binasının üzərində nümayiş etdirilən videokompozisiyadan da görmək olurdu.*

*Bakının simvollarından biri, dünyanın modern memarlıq abidələrindən olan Heydər Əliyev Mərkəzinin binası üzərində nümayiş etdirilən kompozisiya müasir Azərbaycanın memarı və qurucusu, ulu öndər Heydər Əliyevin Azərbaycana bağlılığını, ölkəmizdəki tərəqqini və ümummilli liderə xalq məhəbbətini əks etdirirdi. «Xalq Heydər söyləyəcək» mahnısı ilə müşayiət olunan videoinstalyasiya axşam saatlarından gecəyarıyadək davam etdi.*

## QEYDLƏR

**1. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon Sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən Prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 5, 6, 7, 98, 198, 208, 213, 244, 286, 313, 318, 320–338.

**2. Rusiya,** Rusiya Federasiyası – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon $km^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 23, 43, 55, 96–121, 105, 106, 107, 108, 110, 124, 229, 237–238, 242, 336–337.

**3. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezident Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya höku-

mətinin başçısı, 2012 və 2018-ci ildə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 23, 105, 106, 242.

**4. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə UNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin üzvü olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, geniş-

miqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 24, 32, 119, 124, 159, 168, 178, 180, 244, 302, 303, 312, 313, 320, 321, 322, 324, 335, 336, 337.

**5. Kanada** – Şimali Amerikada dövlət. Sahəsi 9,98 milyon km$^2$, əhalisi 36 milyon nəfərdir. Kanada 10 əyalətə və 3 əraziyə bölünmüş federasiyadır. Dövlət başçısı Böyük Britaniya kraliçasıdır. Onu ölkədə General-qubernator əvəz edir. Qanunverici orqanı ikipalatalı (Senat və İcmalar Palatası) parlamentdir. Paytaxtı Ottava şəhəridir. – 25.

**6. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti UNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 26, 124, 322, 335–337.

**7. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 327,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ

Konqresidir. Dövlət başçısı Prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 28, 108, 110, 228, 269.

**8. Almaniya,** Almaniya Federativ Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 82,2 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı Prezident, hökumət başçısı Federal Kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 28.

**9. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. Böyük Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 65,6 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 28, 160, 267–272.

**10. Fransa,** Fransa Respublikası – Qərbi Avropada dövlət. Sahəsi 643,8 min km$^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan ibarət parlamentdir. İcra hakimiyyəti Prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 28, 108, 305, 306.

**11. İran,** İran İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş Nazir təşkil, Prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 33–60, 107, 259.

**12. Həsən Ruhani** (d.1948) – ictimai-siyasi xadim. 2013-cü ildən İran İslam Respublikasının Prezidentidir. – 33–60.

**13. Novruz bayramı** – qədim xalq bayramı. Şimal yarımkürəsində astronomik yazın başlandığı gecə-gündüz bərabərliyi günündə (martın 21–22-də) keçirilir. Qədim zamanlardan başlayaraq, İran, Azərbaycan, Əfqanıstan, Tacikistan, Özbəkistan və bəzi Şərq ölkələri baharın – yeni ilin gəlişini şənliklərlə qarşılayırlar. Respublikamız müstəqillik qazandıqdan sonra Novruz bayramı rəsmi ümumxalq bayramı və istirahət günü elan edilmişdir.

2009-cu ildən Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə UNESKO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. BMT-nin Baş Məclisi martın 21-ni Beynəlxalq Novruz Günü elan etmişdir. – 34, 45, 54.

**14. Əbülfəs Qarayev,** Əbülfəs Mürsəl oğlu (d.1956) – fəlsəfə doktoru. 1994-cü ildən 2006-cı ilədək Azərbaycan Respublikası Gənclər, İdman və Turizm naziri, 2006-cı ildən 2018-ci ilədək Mədəniyyət və Turizm naziri, 2018-ci ildən Mədəniyyət naziridir. Gənclər, İdman və Turizm naziri işlədiyi vaxtda respublikada idmanın və bədən tərbiyəsinin inkişafına ciddi fikir verilmiş, çoxlu idman meydançaları və olimpiya kompleksləri tikilmiş, mədəniyyət və turizm sahəsində xeyli təqdirəlayiq işlər görülmüşdür. – 39, 124.

**15. Oqtay Şirəliyev,** Oqtay Kazım oğlu (d.1950) – tibb elmləri doktoru, professor. 2005-ci ildən Azərbaycan Respublikasının Səhiyyə naziridir. – 40.

**16. Şahin Mustafayev,** Şahin Abdulla oğlu (d.1965) – 2008–2013-cü illərdə Azərbaycan Respublikasının İqtisadi İnkişaf naziri, 2013–2016-cı illərdə İqtisadiyyat və Sənaye naziri olmuşdur. 2016-cı ilin yanvarından Azərbaycan Respublikasının İqtisadiyyat naziridir. – 40, 256.

**17. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil

edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min km$^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq, Dağlıq Qarabağın işğalına başladılar. Dağlıq Qarabağın və ətraf rayonların işğaldan azad edilməsi üçün BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinin olmasına baxmayaraq, Ermənistan silahlı qüvvələri hələ də Azərbaycan torpaqlarını işğal altında saxlayır. – 42, 47, 81, 108, 109, 132, 162, 202, 203, 252, 253, 260, 262, 269, 311, 327, 333.

**18. Türkiyə,** T ü r k i y ə C ü m h u r i y y ə t i – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 43, 55, 65, 124, 176, 224, 243–264.

**19. Həzrəti Əli ibn Əbu-Talib** (598–661) – Məhəmməd əleyhissəlamın əmisi oğlu və kürəkəni (qızı Fatimənin əri). İmam Əli islam dinini ilk qəbul edənlərdən olmuş, igidliyi ilə fərqlənmişdir. – 54.

**20. Gürcüstan,** G ü r c ü s t a n R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 43, 55, 124,129, 259.

**21. İçərişəhər –** Bakının qala divarları ilə əhatə olunmuş qədim hissəsi. Sahəsi 22 hektardır. Arxeoloji qazıntılar nəticəsində İçərişəhər ərazisində 2 mədəni təbəqə müəyyənləşdirilmişdir. XIV–XVII əsrləri əhatə edən üst təbəqədən düzbucaqlı və dördkünc yaşayış evlərinin qalıqları, VIII–XIII əsrlərə aid alt təbəqədən düzbucaqlı formalı kiçik otaqların

qalıqları, quyular və s. maddi mədəniyyət nümunələri aşkar edilmişdir.

İçərişəhər orta əsrlərdə Bakının əsas mərkəzinə çevrilmiş, XII əsrdə burada ilk qala divarları tikilmişdir. Bu divarlar 25–30 m dənizin içərisinə uzanaraq, İçərişəhərin qarşısında qapalı liman əmələ gətirmişdir. İçərişəhərin 3 əsas – Şamaxı, Salyan və dəniz sahilinə açılan darvazası olmuşdur. İçərişəhərdəki Sınıqqala (1078), Qız qalası və s. abidələr İçərişəhərin əvvəllər dənizə yaxın sahədə inkişaf etdiyini göstərir. XV əsrdə Şirvanşahlar sarayı tikilmişdir. XVII əsrdə İçərişəhərdə çoxlu karvansara və ticarət binası inşa edilmiş, XVIII əsrdə isə Xan sarayı tikilmiş, yeni su kəmərləri çəkilmişdir. XIX əsrdə və XX əsrin əvvəllərində İçərişəhərin plan quruluşu dəyişdirilmədən köhnə binaların yerində əsaslı daş binalar tikilmişdir. Bu zaman qala divarlarının ikinci sırası sökülmüş və yalnız Şamaxı darvazasının yanında 2-ci darvaza tikilmişdir (1888). Beləliklə, qoşa darvaza əmələ gəlmişdir. 1977-ci ildə İçərişəhər Azərbaycan memarlığı tarixi qoruğuna çevrilmişdir. – 61.

**22. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 63, 82, 109, 202, 219.

**23. Belarus,** B e l a r u s R e s p u b l i k a s ı – Avropada dövlət. Sahəsi 207,6 min km$^2$, əhalisi 9,5 milyon nəfərdir. İn-

zibati ərazisi 6 vilayətə, 117 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Minsk şəhəridir. –64, 312.

**24. Əbdülhəmid Gül** (d.1977) – Türkiyə siyasətçisi. Hal-hazırda Türkiyə Cümhuriyyətinin Ədliyyə naziridir. – 65.

**25. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş Naziri, 2014-cü ilin sentyabrında və 2018-ci ilin aprelində yenidən Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 65, 176, 224, 247–264.

**26. Misir,** M i s i r  Ə r ə b  R e s p u b l i k a s ı – Afrikanın şimal-şərqində və Asiyanın Sinay yarımadasında dövlət. Sahəsi 1 milyon km$^2$, əhalisi 97 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Qahirə şəhəridir. – 68.

**27. Əbdülfəttah əs-Sisi** (d.1954) – Misirin siyasi və hərbi xadimi. 2014-cü ildən Misir Ərəb Respublikasının Prezidentidir. – 68.

**28. Fələstin Dövləti** – BMT Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli Qərarına əsasən Böyük Britaniya mandatlığı ləğv edilərək, Fələstin ərazisində müstəqil ərəb və yəhudi dövlətləri yaradılmalı idi. Fələstin ərəb dövləti üçün ayrılmış ərazinin böyük hissəsi 1948–49-cu illərdə və 1967-ci ildə İsrail tərəfindən zəbt edilmişdir. 1988-ci ildə Fələstin Azadlıq Təşkilatı müstəqil Fələstin Dövlətinin yaranmasını elan etdi. 1994-cü ildə isə Müvəqqəti

Fələstin muxtariyyəti yaradıldı. Sahəsi 6,2 min km$^2$, əhalisi 5 milyon nəfərdir. Paytaxtı Qüds şəhəridir – 69.

**29. Mahmud Abbas** (d.1935) – Fələstin siyasətçisi, Fələstin Milli Administrasiyasının Sədri (Fələstin Dövlətinin Prezidenti) və FƏTH hərəkatının rəhbəridir. – 69.

**30. İordaniya,** İ o r d a n i y a H a ş i m i l ə r K r a l l ı ğ ı – Qərbi Asiyada dövlət. Sahəsi 92,3 min km$^2$, əhalisi 10,1 milyon nəfərdir. İnzibati ərazisi 8 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Əmman şəhəridir. – 70–71.

**31. II Abdullah,** A b d u l l a h b i n H ü s e y n (d.1962) – 1999-cu ildən İordaniya Haşimilər Krallığının Kralıdır. – 70, 71.

**32. Birləşmiş Ərəb Əmirlikləri** – Yaxın Şərqdə dövlət. Sahəsi 83,6 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir. BƏƏ-nin tərkibinə 7 əmirlik daxildir. Ali orqanı Federal Milli Şuradır ki, Prezidenti 5 il müddətinə seçir. Paytaxtı Əbu-Dabi şəhəridir. – 72–73.

**33. Şeyx Xəlifə bin Zaid əl-Nəhəyyan** (d.1948) – 2004-cü ildən Birləşmiş Ərəb Əmirliklərinin Prezidentidir. – 72, 73.

**34. Hindistan,** H i n d i s t a n R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 3,3 milyon km$^2$, əhalisi 1 milyard 330 milyon nəfərdir. Hindistan inzibati cəhətdən 22 ştata və 7 müttəfiq əraziyə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Nyu-Dehli şəhəridir. – 74–75.

**35. Suşma Svarac** (d.1952) – Hindistanın siyasi xadimi. «Bharatiya Canata» partiyasının üzvü. 2014-cü ildən Hindistan Respublikasının Xarici İşlər naziridir. – 74–75.

**36. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Enerji naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara Bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 74, 208.

**37. Venesuela,** Venesuela-Bolivar Respublikası– Cənubi Amerikanın şimalında dövlət. Sahəsi 916,4 min km$^2$, əhalisi 30,7 milyon nəfərdir. Ərazisi 23 ştata bölünür. Dövlət və hökumət başçısı Prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir (Deputatlar palatası və Senat). Paytaxtı Karakas şəhəridir. – 78–80, 91–92.

**38. Nikolas Maduro** (d.1962) – Venesuelanın siyasi və dövlət xadimi. 2013-cü ildən Venesuela Respublikasının Prezidentidir. – 78, 91, 92.

**39. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar, 613 azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 81, 82, 334.

**40. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – 1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqamətgahı Ciddədə yerləşir. Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 82, 83, 102, 109, 110, 202, 216–223.

**41. Avropa Şurasının Parlament Assambleyası** (AŞPA) – 1949-cu ildə yaradılmışdır. AŞPA-ya 47 Avropa ölkəsi daxildir. – 82, 109, 202.

**42. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay ( 1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də «Azərbaycan vətəndaşlığı haqqında» Qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 84, 110, 155, 251, 259, 263.

**43. Dünya İqtisadi Forumu,** D a v o s İ q t i s a d i F o r u m u – İsveçrənin kurort şəhəri Davosda hər il Dünya İqtisadi Forumu keçirilir. 1995-ci il yanvarın 26–30-da Azərbaycan Prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti ilk dəfə bu Forumda iştirak etmişdir. – 85, 96, 140, 207, 334.

**44. M i x a i l Q u s m a n** (d.1950) – jurnalist. TASS İnformasiya Agentliyi Baş direktorunun birinci müavini. Rusiya Federasiyası Dövlət mükafatı laureatıdır. Azərbaycan Respublikasının «Dostluq» və «Şöhrət» ordenləri ilə təltif edilmişdir. – 96–121, 336–337.

**45. M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialı** – Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində olan ali təhsil müəssisəsi. Filial 2009-cu ildən fəaliyyətə başlamışdır. Universitetdə 6 ixtisas üzrə 489 tələbə təhsil alır. Tədris müəssisəsində Moskvadan ezam olunmuş tanınmış alimlərlə yanaşı, Bakı universitetlərinin yüksək hazırlıqlı alimləri də dərs deyirlər. – 106.

**46. İ.M.Seçenev adına Birinci Moskva Tibb Universitetinin Bakı filialı** – 2015-ci ildə yaradılmışdır. Tədris rus dilindədir. Universitetin rektoru tibb elmləri doktoru, professor Əziz Əliyevdir. – 106.

**47. Türkmənistan,** Türkmənistan Respublikası – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 491,2 min km$^2$, əhalisi 5,8 milyon nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabad şəhəridir. – 107.

**48. Qazaxıstan,** Qazaxıstan Respublikası– Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon km$^2$, əhalisi 18 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Nur-Sultan şəhəridir. – 107.

**49. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna 2 sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun 3 – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 108.

**50. Danford Cozef** (d.1955) – Amerika hərbi qüvvələrinin qulluqçusu, general. ABŞ Birləşmiş Hərbi Qüvvələrinin Baş Qərargah rəisidir. – 110.

**51. Valeri Gerasimov** (d.1955) – Rusiyanın hərbi xadimi. 2012-ci ildən Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisidir. – 110, 229.

**52. Qara Qarayev,** Q a r a Ə b ü l f ə s o ğ l u (1918–1982) – dahi Azərbaycan bəstəkarı. Musiqisi ümumdünya şöhrəti qazanmış, baletləri respublikamızın və bir sıra dünya teatrlarının səhnəsində tamaşaya qoyulmuşdur. Musiqiyə gətirdiyi yeniliklər Azərbaycan və dünya musiqisinin inkişafında mühüm rol oynamışdır. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət və Lenin mükafatları laureatı. – 115.

**53. Fikrət Əmirov,** F i k r ə t C ə m i l o ğ l u (1922–1984) – görkəmli Azərbaycan bəstəkarı. Simfonik muğam janrının yaradıcısı, instrumental konsert janrında yaradan ilk Azərbaycan bəstəkarlarındandır. Əsərləri, xüsusilə simfonik muğamları Niyazi, Rojdestvenski (Rusiya), L.Stokovski (ABŞ), Ş.Münş (Fransa), Ç.Abendrot (Almaniya) kimi məşhur dirijorların repertuarlarında səslənmişdir. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı. – 115.

**54. Səttar Bəhlulzadə,** S ə t t a r B ə h l u l o ğ l u (1909–1974) – görkəmli Azərbaycan rəssamı, müasir Azərbaycan boyakarlıq sənətində mənzərə janrının yaradıcılarından biri. Azərbaycan Respublikası Əməkdar incəsənət xadimi, Azərbaycanın Xalq rəssamı. Yaradıcılığa «Kommunist» qəzetində Əzim Əzimzadənin rəhbərliyi ilə başlamışdır. Onun əsərlərində doğma torpağa və onu dəyişdirən zəhmət adamlarına hədsiz məhəbbət motivləri başlıca yer tutur. Azərbaycanın səfalı guşələri onun lirik mənzərələrində real əksini tapmışdır. S.Bəhlulzadənin mənzərələrində poetik əhval-ruhiyyə və kompozisiya quruluşu,

işlətdiyi boyalarda isə kolorit gözəlliyi çox güclüdür. Əsərlərində real mənzərə motivlərini rəssam təxəyyülünün məhsulu olan şərti təsvir formaları ilə əlaqələndirir. Mənzərələrinin koloritində açıq rənglərin vəhdəti əsas yer tutur. Azərbaycan Respublikası Dövlət mükafatı laureatı. – 115.

**55. Tahir Salahov,** T a h i r T e y m u r o ğ l u (d.1928) – böyük Azərbaycan boyakarı və qrafiki. Azərbaycan və SSRİ-nin Xalq rəssamı. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı. Rusiya Rəssamlıq Akademiyasının həqiqi üzvü. 1973-cü ildən SSRİ Rəssamlar İttifaqı İdarə Heyətinin birinci katibi olmuşdur. Yaradıcılığı mövzu və janr zənginliyi, bədii forma əlvanlığı, estetik kamilliyi ilə səciyyələnir. Bu baxımdan müasir portret sənətinin ən kamil nümunələrindən olan «Bəstəkar Qara Qarayev»in portreti, eləcə də monumental divar rəsmini xatırladan «Abşeron qadınları» əsərləri xüsusilə fərqlənir. Azərbaycan Respublikası və SSRİ Ali sovetlərinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» və «Heydər Əliyev» ordenləri ilə təltif edilmişdir. – 115.

**56. Anar,** R z a y e v A n a r R ə s u l o ğ l u (d.1938) – görkəmli yazıçı, publisist, dramaturq, ictimai xadim, Azərbaycanın Xalq yazıçısı. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı. Azərbaycan və SSRİ Ali sovetlərinin deputatı olmuşdur. 1995–2005-ci illərdə Milli Məclisin üzvü və Mədəniyyət məsələləri Komitəsinin sədri, 1987-ci ildən Azərbaycan Yazıçılar Birliyinin sədridir. Əsərləri dünyanın bir çox ölkələrində nəşr olunmuşdur. Azərbaycan Respublikasının «Heydər Əliyev» mükafatı, «Şöhrət», «Şərəf» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 115.

**57. Maqsud İbrahimbəyov,** M a q s u d M ə m m ə d i b r a h i m o ğ l u (1935–2016) – görkəmli nasir, dramaturq, ssenarist, ictimai xadim, Azərbaycanın Xalq yazıçısı. Azərbaycan Respublikası Dövlət mükafatı laureatı. Respublikada və xaricdə nəşr edilmiş onlarla povest və hekayələrin müəllifi. Onun pyesləri keçmiş SSRİ məkanında onlarla teatrlarda tamaşaya qoyulmuş,

ssenariləri əsasında bir çox filmlər çəkilmişdir. 1995–2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin üzvü olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 115.

**58. Leyla Əliyeva,** L e y l a İ l h a m q ı z ı (d.1986) – «Baku» jurnalının baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidentidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük qızı. 2006–2008-ci illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Moskvada Heydər Əliyev Fondunun filialına başçılıq edir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 124, 322–323.

**59. Giorgi Marqvelaşvili** (d.1969) – Gürcüstanın dövlət və siyasi xadimi. 2013–2018-ci illərdə Gürcüstan Respublikasının Prezidenti olmuşdur. – 129.

**60. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarını Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəql edir. – 138, 155, 208, 250, 259.

**61. Bakı–Tbilisi–Qars** – Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. 30 oktyabr 2017-ci ildə istifadəyə verilmişdir. Yolun uzunluğu 826 km-dir. – 154, 210, 250, 258, 262.

**62. Ağdərə** – Azərbaycan ərazisində (Dağlıq Qarabağ Muxtar Vilayəti) inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1993-cü ildə Ağdərə rayonunun mərkəzi və bir çox kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 162, 204, 334.

**63. Füzuli rayonu** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 km$^2$, əhalisi

125,4 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 162, 204, 334.

**64. Cəbrayıl** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1050 km$^2$, əhalisi 76,6 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 162, 204, 334.

**65. Eldar Əzizov,** E l d a r Ə z i z o ğ l u (d.1957) – tarixçi. 2000–2003-cü illərdə Bakı şəhəri Nizami Rayon İcra Hakimiyyətinin, 2003–2011-ci illərdə Gəncə Şəhər İcra Hakimiyyəti, 2011–2015-ci illərdə Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı, 2015–2018-ci illərdə Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini, 2018-ci il noyabrın 15-dən Bakı Şəhər İcra Hakimiyyətinin başçısıdır. – 168.

**66. Bibiheybət məscidi** – Bakının Şıx kəndində türbə. Rəvayətə görə, türbədə şiələrin yeddinci imamı Museyi Kazımın qızı Həkimə xanım və onun Heybət adlı nökəri dəfn olunmuşlar. «Bibiheybət» adının da buradan yarandığı güman edilir. Başqa rəvayətə görə, səkkizinci imam Rzanın qızı və bacısı Bakı yaxınlığında məskən salmış, burada da vəfat etmişlər. Onların dəfn olunduğu yerdə türbə, onun yanında isə 20 metrlik minarəsi olan məscid tikilmişdir. Məscidin XIII əsrin sonunda tikildiyi ehtimal edilir. Məscid sovetlər vaxtında yerlə yeksan edilmişdir. Respublikamız müstəqillik qazandıqdan sonra Prezident Heydər Əliyevin təşəbbüsü ilə yenidən tikilmişdir. – 170.

**67. Təzəpir məscidi** – Azərbaycan memarlıq abidəsi. 1905–1914-cü illərdə tikilmişdir (memarı Zivərbəy Əhmədbəyov). Kvadrat planlı Təzəpir məscidinin baş fasadındakı üçtağlı eyvan, cinahlarındakı minarələr və günbəz aydın və dəbdəbəli memarlıq kompozisiyası əmələ gətirir. Məscidin böyük ibadət zalı günbəzlə örtülmüşdür. İbadət zalının quruluşu yerli memarlıq konstruksiyaları ilə işlənmiş, günbəzi saxlayan çatmatağ formalarından istifadə

olunmuşdur. Təzəpir Bakı–Abşeron dini tikililəri arasında xüsusi yer tutur. – 170.

**68. Şamaxı Cümə məscidi** – 743–744-cü illərdə inşa edilmiş dini mərkəz. Cənubi Qafqazda Dərbənd Cümə məscidindən sonra ən qədim məsciddir. Orta əsrlərdə bərpa edilmiş məscid 1856 və 1902-ci illərdə Şamaxı zəlzələləri zamanı dağılmış, birinci dəfə Qasım bəy Hacıbababəyov, ikinci dəfə isə İosif Ploşko tərəfindən bərpa edilmişdir. 1918-ci ildə ermənilər tərəfindən tamamilə yandırılmışdır. 2010–2013-cü illərdə Prezident İlham Əliyevin sərəncamına əsasən, əsaslı surətdə təmir edilmişdir. Məscid Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən tarixi mədəniyyət abidəsi kimi qeydiyyata alınmışdır. – 170.

**69. Cocuq Mərcanlı –** Azərbaycan Respublikasının Cəbrayıl rayonu Çaxırlı inzibati ərazi vahidində kənd. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. 1994-cü ilin əvvəlində Azərbaycan Ordusu tərəfindən erməni işğalından azad edilmişdir. Cəbhə xəttinə çox yaxın olduğuna görə əhali kəndə qayıda bilməmişdir. 2016-cı ildə Cocuq Mərcanlı kəndinə yaxın yerləşən Lələtəpə yüksəkliyi Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilmişdir. Kənd tamamilə bərpa olunmuş, azərbaycanlılar öz doğma torpaqlarına qayıtmışlar. – 170, 204.

**70. Müstəqil Dövlətlər Birliyi**(MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları Saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə Azərbaycan, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş Nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi

iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 173–174.

**71. Sergey Lebedev** (d.1948) – Rusiyanın dövlət xadimi, RF Xarici Kəşfiyyat Xidmətinin direktoru (2000–2007), ordu generalı. 2007-ci ildən MDB-nin icraçı katibidir. – 173–174.

**72. Binəli Yıldırım** (d.1955) – Türkiyənin siyasi xadimi, 2015–2016-cı illərdə Nəqliyyat naziri, 2016–2018-ci illərdə isə Baş Nazir olmuşdur. 2018-ci il iyul – 2019-cu il fevral aylarında Türkiyə Böyük Millət Məclisinin Sədri olmuşdur. – 176, 224.

**73. Məzahir Pənahov** (d.1951) – fizika-riyaziyyat elmləri doktoru. 2000-ci ildən Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 181–185, 188, 192.

**74. Fərhad Abdullayev**, F ə r h a d S a h i b o ğ l u (d.1958) – hüquqşünas, hüquq elmləri namizədi. 2003-cü ildən Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Sədridir. Əməkdar hüquqşünas və Azərbaycan Respublikası Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın üzvüdür. – 188, 195, 196.

**75. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respub-

likası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət. Sahəsi 5,5 min km$^2$, əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 190.

**76. Quran** – müsəlmanların müqəddəs kitabı. Quranı Allah Cəbrayıl vasitəsilə Məhəmməd əleyhissəlama göndərib. Quran qafiyəli nəsrlə yazılmış 114 surə və 6200-dən çox ayədən ibarətdir. «Məkkə surələrinə» (610–622, Məkkə, 90 surə) və «Mədinə surələrinə» (622–632, Mədinə, 24 surə) bölünür. – 197.

**77.** «**Azəri–Çıraq–Günəşli**» – Xəzərin Azərbaycan sektorunda ən iri neft yataqları bloku. Bakıdan təxminən 120 km şərqdə yerləşən bu yataqlar Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) adından *bp* şirkəti tərəfindən işlənilir. – 209.

**78. Zərifə xanım Əliyeva,** Z ə r i f ə  Ə z i z  q ı z ı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, Prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksəkixtisaslı səhiyyə kadrlarının hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalının redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə

görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 213, 320.

**79. Əziz Əliyev,** Ə z i z  M ə m m ə d k ə r i m  o ğ l u (1897–1962) – görkəmli dövlət və siyasi xadim, səhiyyə təşkilatçısı. Tibb elmləri doktoru, professor. Müxtəlif illərdə Azərbaycan Klinik İnstitutunun direktoru, Bakı Səhiyyə şöbəsinin müdiri, Azərbaycan Xalq Səhiyyə komissarının müavini və Xalq Səhiyyə komissarı, Azərbaycan Dövlət Tibb İnstitutunun və Azərbaycan Dövlət Universitetinin rektoru, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, Azərbaycan KP MK-nın katibi, Dağıstan MSSR Vilayət Komitəsinin Birinci katibi, Azərbaycan SSR Nazirlər Soveti Sədrinin Birinci müavini, Azərbaycan Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahiyyə İnstitutunun direktoru, Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru vəzifələrində çalışmışdır. SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. – 213, 320.

**80. Tamerlan Əliyev,** T a m e r l a n  Ə z i z  o ğ l u (1921–1997) – Azərbaycan tibb elminin görkəmli nümayəndəsi, Əməkdar elm xadimi. Dövlət mükafatı laureatı, tibb elmləri doktoru, professor. 250-dən çox elmi əsərin, o cümlədən 12 monoqrafiyanın, dərslik və dərs vəsaitlərinin, metodiki tövsiyələrin, səmərələşdirici təklif və ixtiraların, həmçinin çoxsaylı elmi-kütləvi məqalələrin müəllifi olmuşdur. – 213, 320.

**81. İSESKO** – elm, təhsil və mədəniyyət məsələləri üzrə islam təşkilatı. 1979-cu ildə təşkil edilmişdir. Azərbaycan İSESKO ilə yaxından əməkdaşlıq edir və islam aləmində mədəniyyət abidələrinin qorunması prinsipini dəstəkləyir. – 220.

**82. Corc Volker Buş** (1924–2018) – Amerikanın görkəmli dövlət xadimi. 1980–89-cu illərdə ABŞ-ın vitse-prezidenti, 1989–92-ci illərdə ABŞ-ın 41-ci Prezidenti olmuşdur. – 228.

**83. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük

Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» Proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldə yerləşir. – 229, 230–231.

**84. Əfqanıstan,** Əfqanıstan İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,8 min km$^2$, əhalisi 31,6 milyon nəfərdir. İnzibati ərazisi 34 vilayətə bölünür. Dövlət başçısı Prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 230, 236.

**85. Kuba,** Kuba Respublikası – Amerikada, Vest-Hinddə dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 11 milyon nəfərdir. Dövlətin ali orqanı birpalatalı Milli Assambleya, dövlətin və hökumətin başçısı Dövlət Şurasının Sədridir. Paytaxtı Havana şəhəridir. – 232.

**86. Məhəmməd Qani,** Əşrəf Qani (d.1949) – Əfqanıstanın siyasi xadimi. 2014-cü ildən Əfqanıstan İslam Respublikasının Prezidentidir. – 236.

**87. Cənubi Afrika Respublikası** (CAR) – Cənubi Afrikada dövlət. Sahəsi 1,2 milyon km$^2$, əhalisi 55 milyon nəfərdir. 9 əyalətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir (Senat və Milli Məclis). Paytaxtı Pretoriya şəhəridir. – 240.

**88. Niderland Krallığı** (qeyri-rəsmi adı Hollandiya) – Qərbi Avropada, Şimal dənizi sahilində dövlət. Sahəsi 41,5 min km$^2$, əhalisi 17 milyon nəfərdir. İnzibati ərazisi 12 əyalətə bölünür.

Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Amsterdam şəhəridir. – 241.

**89. Villem-Aleksandr** (d.1967) – 2013-cü ildən Niderland Krallığının Kralıdır. – 241.

**90. Sergey Narışkin** (d.1954) – Rusiyanın dövlət xadimi. 2008–2011-ci illərdə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 2011–2016-cı illərdə Rusiya Federasiyası Dövlət Dumasının Sədri olmuşdur. Hal-hazırda Rusiya Federasiyasının Xarici Kəşfiyyat Xidmətinin direktorudur. Azərbaycan Respublikasının «Dostluq» ordeni ilə təltif edilmişdir. – 242.

**91. Mustafa Kamal Atatürk,** Q a z i M u s t a f a K a- m a l (1881–1938) –Türkiyənin dövlət, siyasi və hərbi xadimi, Türkiyə Respublikasının banisi və ilk Prezidenti (1923–1938). Birinci dünya müharibəsi zamanı Dardanel boğazının müdafiəsində (1915) şücaət göstərmişdir.

Atatürk 1919-cu ildə «Kamalçılar hərəkatı»na – milli azadlıq hərəkatına başçılıq etmişdir. 1920-ci ildə Atatürk Ankarada yeni parlament – Türkiyə Böyük Millət Məclisini (TBMM) yaratmış, məclisin və təşkil edilmiş hökumətin sədri seçilmişdir. Sakarya çayı yaxınlığında qələbəyə görə TBMM Atatürkə marşal rütbəsi və «Qazi» fəxri adını vermişdir. 1922-ci ildə Atatürkün komandanlığı ilə türk ordusu Türkiyəni xarici müdaxiləçilərdən tamamilə azad etmişdir.

Atatürk soyadı ona 1934-cü ildə TBMM tərəfindən verilmişdir. – 245.

**92. İsmayıl Qəhrəman** (d.1940) – Türkiyə siyasətçisi. 2015–2018-ci illərdə TBMM-nin Sədri olmuşdur. – 246.

**93. Qafqaz İslam Ordusu** – Azərbaycanın istiqlalı elan olunduqdan (1918, 28 may) sonra Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti hərbi yardım üçün rəsmi olaraq Osmanlı dövlətinə müraciət etmişdir. 1918-ci ildə Batumda 2 dövlət arasında bağlanan müqavilənin (Batum müqaviləsi – 1918) şərtlərinə uyğun

olaraq, Mürsəl paşanın komandanlığı altında Beşinci Qafqaz firqəsi Azərbaycana göndərilmişdir. Bu firqəyə rəhbərlik Nuru paşaya həvalə edilmişdir. Qafqaz İslam Ordusu türk və Azərbaycan hərbi qüvvələri Gəncə ermənilərini tərk-silah etmiş, Qaraməryəm, Kürdəmir, Şamaxı, Binəqədi döyüşlərində bolşevik-daşnak qüvvələrinə ağır zərbələr endirərək, bütün cəbhəboyu onları geri çəkilməyə məcbur etmişlər. Bu əməliyyat Azərbaycan dövlətinin paytaxtı Bakının azad edilməsi ilə nəticələnmişdir. Qafqaz İslam Ordusunun ən uğurlu əməliyyatlarından biri Qarabağı erməni-daşnak quldurlarından, Cümhuriyyətin şimalını isə biçeraxovçu rus müdafiəçilərindən azad etməsi idi. Birinci dünya müharibəsində (1914–1918) Osmanlı dövlətinin məğlub olması nəticəsində (Mudros barışığı, 1918) Qafqaz İslam Ordusu ləğv olunmuş və türk hərbi hissələri geri çağırılmışdır. – 251, 259, 263.

**94. Ramin Quluzadə** (d.1977) – iqtisadçı. 2005–2015-ci illərdə Heydər Əliyev Fondunda, 2015–2016-cı illərdə Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar nazirinin birinci müavini işləmişdir. 2017-ci ildən Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziridir. – 255.

**95. Mövlud Çavuşoğlu** (d.1968) – Türkiyənin siyasi xadimi. 2010–2012-ci illərdə AŞPA-nın başçısı, 2014-cü ildən Türkiyə Cümhuriyyətinin Xarici İşlər naziridir. – 256.

**96. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər, Naxçıvan Muxtar Respublikasının paytaxtı. Sahəsi 191,8 $km^2$, əhalisi 82,5 min nəfərdir. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan Antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal etmişlər. Naxçıvan Azərbaycan Atabəylər dövlətinin (1136–1225) paytaxtlarından biri olmuşdur. 1828-ci il Türkmənçay müqavi-

ləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olmuş, məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirilmiş və qəza mərkəzinə çevrilmişdir. Naxçıvan şəhəri 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtıdır. – 288, 329, 330.

**97. Elmar Məmmədyarov,** E l m a r M ə h ə r r ə m o ğ - l u (d.1960) – tarix elmləri namizədi, diplomat. 1995–98-ci illərdə Azərbaycan Xarici İşlər Nazirliyində Beynəlxalq Təşkilatlar İdarəsinin başçısı, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–2004-cü illərdə İtaliyada Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 256.

**98. Zakir Həsənov,** Z a k i r Ə s g ə r o ğ l u (d.1959) – general-leytenant. 2013-cü ildən Azərbaycan Respublikasının Müdafiə naziridir. «Azərbaycan Bayrağı» ordeni ilə təltif edilmişdir. – 256.

**99. 31 mart azərbaycanlıların soyqırımı günü,** 1918 - c i i l s o y q ı r ı m ı – çarizmin fəal köməyi ilə erməni-daşnak silahlı birləşmələrinin Azərbaycanın türk-müsəlman əhalisinə qarşı törətdiyi genişmiqyaslı qanlı aksiyalar. Ermənilərin 1905-ci ilin fevralında Bakıdan başlanan vəhşilikləri bütün Azərbaycanı və indi Ermənistan adlanan Qərbi Azərbaycan ərazisindəki yaşayış məntəqələrini əhatə etmişdir. Yüzlərlə Azərbaycan kəndi dağıdılmış, yüz minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirilmiş, xalqımıza məxsus çoxlu milli mədəniyyət abidələri məhv və talan olunmuşdur. Bütün bu vəhşiliklər ermənilərin vaxtilə yerləşdirildikləri, lakin əhalinin milli tərkibində azlıq təşkil etdikləri Azərbaycan torpaqlarını zorla erməniləşdirmək, bədnam «azərbaycanlılarsız Ermənistan» kimi qeyri-insani planlarını azərbaycanlıların soyqırımı hesabına həyata keçirmək niyyətindən xəbər verir. – 265–266.

**100.** ***bp,*** «B r i t i s h  P e t r o l e u m» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 267.

**101. Robert Dadli** (d.1955) – mühəndis. 2009-cu ildən *bp*-nin icraçı direktoru, 2010-cu ildən isə baş direktorudur. Azərbaycan Respublikasının «Dostluq» ordeni ilə təltif edilmişdir. – 267, 272.

**102. Tereza Mey** (d.1956) – Böyük Britaniya siyasətçisi. Mühafizəkarlar Partiyasının lideri. 2016-cı ildən Böyük Britaniyanın Baş Naziridir. – 267, 271–272.

**103. SOCAR,** A z ə r b a y c a n  R e s p u b l i k a s ı  D ö v l ə t  N e f t  Ş i r k ə t i (ARDNŞ) – Azərbaycan Respublikası ərazisində neft sərvətlərindən istifadəni vahid siyasət əsasında həyata keçirən, neft sənayesinin idarəetmə strukturunu təkmilləşdirən, yanacaq enerji kompleksinin inkişafını təmin edən şirkət. Respublikanın bütün ərazisində (quru və dənizdə) neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsi, emalı və nəqli, həmçinin onlardan alınan məhsulların daxili və xarici bazarlarda satışı ilə məşğul olur. 1992-ci ildə «Azərneft» Dövlət Konserninin və «Azərneftkimya» İstehsalat Birliyinin bazasında yaradılmışdır. ARDNŞ Azərbaycan Respublikasının təmsilçisi kimi, dünyanın tanınmış neft şirkətləri ilə «Hasilatın Pay Bölgüsü» Sazişi üzrə 30-a qədər neft müqaviləsi imzalamışdır.

ARDNŞ 2008-ci ildən mühasibat hesablarının beynəlxalq standartlarına keçmişdir. – 271–272.

**104. Rövnəq Abdullayev,** R ö v n ə q  İ b r a h i m  o ğ l u (d.1965) – mühəndis, 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin üzvü. 2003–2005-ci illərdə Heydər Əliyev adına Bakı Neft Emalı zavodunun direktoru olmuşdur. 2005-ci ildən

Azərbaycan Dövlət Neft Şirkətinin prezidentidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 272.

**105. Elçin Quliyev,** E l ç i n İ s a ğ a o ğ l u (d.1967) – hüquqşünas, general-polkovnik. Bakı Dövlət Universitetini və Bakı Ali Hərbi Birləşmiş Komandirlər Məktəbini bitirmişdir. 2002-ci ildən Azərbaycan Respublikası Sərhəd Qoşunları Komandanıdır. «Azərbaycan bayrağı» ordeni ilə təltif edilmişdir. – 282.

**106. Polşa,** P o l ş a R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min km$^2$, əhalisi 38,7 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 285, 312.

**107. Andjey Duda** (d.1972) – Polşanın siyasi xadimi. Hüquq elmləri doktoru. 2015-ci ildən Polşa Respublikasının Prezidentidir. – 285.

**108. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1154 km$^2$, əhalisi 199,5 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 288.

**109. İkinci dünya müharibəsi** (1939–1945) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibəyə başladı. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini tutdu. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla da İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 62 ölkə iştirak etmişdir. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdır. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağıdılmışdır. – 312–313.

**110. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Avropa İttifaqına 28 dövlət daxildir. (Böyük Britaniya hökuməti artıq qurumdan çıxmaq üzrədir).

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 310-311.

**111. Həzi Aslanov,** H ə z i Ə h ə d o ğ l u (1910–1945) – tank qoşunları qvardiya general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı. İkinci dünya müharibəsinin ilk günlərindən döyüşlərdə iştirak edən H. Aslanov Stalinqrad vuruşmasında, feldmarşal Manşteynin tank ordusunun darmadağın edilməsində xüsusi məharət göstərmişdir. 1944-cü ildə onun başçılıq etdiyi 35-ci qvardiya tank briqadası Belorusiyanı, Pribaltika respublikalarını azad etmək uğrundakı vuruşmalarda xüsusilə fərqlənmişdir. 1945-ci il yanvar ayının 24-də Latviyanın Liepay şəhəri yaxınlığındakı vuruşmada qəhrəmancasına həlak olmuşdur. – 313.

**112. Novruz Məmmədov** (d.1947) – Azərbaycanın siyasi və dövlət xadimi, filoloq. 1997-ci ildən Azərbaycan Respublikası Prezidenti Administrasiyasında Xarici Əlaqələr üzrə şöbə müdiri,

2017-ci ildən Azərbaycan Prezidentinin Xarici məsələlər üzrə köməkçisi – şöbə müdiri, 2018-ci ildən isə Azərbaycan Respublikasının Baş Naziridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 313, 320.

**113. Oqtay Əsədov,** O q t a y  S a b i r  o ğ l u (d.1955) – ictimai xadim, mühəndis. 1996–2004-cü illərdə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, 2004–2005-ci illərdə «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti olmuşdur. 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin Sədridir. Azərbaycan Respublikasının «Şərəf» və Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. – 313.

**114. Ramiz Mehdiyev,** R a m i z  Ə n v ə r  o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin birinci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Beynəlxalq Nyu York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf», «İstiqlal» və Rusiya Federasiyasının «Dostluq» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 313.

**115. Şeyx Məhəmməd bin Rəşid əl-Məktum** (d.1949) – Birləşmiş Ərəb Əmirliklərinin Baş Naziri və vitse-prezidenti, Dubay əmiri. 1971-ci ildən Ərəb Əmirliklərinin Müdafiə naziridir. – 317.

## Şəxsi adlar göstəricisi


**Abbasov Musa** – 24
**Akar Hulusi** – 256
**II Abdullah** – 70, 71
**Abdullayev Fərhad** – 188, 195, 196
**Abdullayev Rauf** – 325
**Abdullayev Rövnəq** – 272
**Axundov Emin** – 48
**Amano Yukio** – 225
**Anar** – 115
**Aslanov Həzi** – 313
**Aslanov Xəzər** – 298
**Arslan Əhməd** – 255
**Atatürk Mustafa Kamal** – 245
**Bağırov Xanmirzə** – 171
**Bak Osman** – 224
**Bermudes Migel** – 232
**Beydullayeva Zahirə** – 292
**Bəhlulzadə Səttar** – 115
**Bio Culius** – 239
**Bottas Valtteri** – 278
**Buş Corc Herbert** – 228
**Buş Barbara** – 228
**Cai-Çul Çoy** – 226–227
**Ceylan Məhmət** – 255
**Cukanoviç Mila** – 256
**Çavuşoğlu Mövlud** – 273
**Dadaşov Murad** – 180
**Daçiç İvitsa** – 88
**Dadli Robert** – 267, 272
**Danford** – 110

**David Mario** – 175
**Dəmirçiyeva Sona** – 188
**Duda Andjey** – 285
**Dunkan Alan** – 269
**Evans Devid** – 160, 268
**Əl-Maliki Riad** – 69
**Əl-Məktum Məhəmməd** – 317
**Əl-Momani Məhəmməd** – 70–71
**Əl-Nəhəyyan Xəlifə** – 72, 73
**Əl-Useymin Yusif** – 221
**Əli ibn Talib** – 54
**Əlimov Rəşid** – 164–166
**Əliyev Heydər** – 5, 6, 7, 98, 198, 208, 213, 244, 286, 313, 318, 320–338
**Əliyev Faiq** – 24
**Əliyev Fəzail** – 188
**Əliyev Əziz** – 213, 320
**Əliyev Tamerlan** – 213, 320
**Əliyeva Leyla** – 124, 322–323
**Əliyeva Mehriban** – 24, 32, 119, 124, 159, 168, 178, 180, 244, 302, 303, 312, 313, 320, 321, 322, 324, 335, 336, 337
**Əliyeva Zərifə xanım** – 213, 320
**Əmirov Fikrət** – 115
**Ərdoğan Rəcəb Tayyib** – 65, 176, 224, 247–264
**Əs-Sisi Əbdülfəttah** – 68
**Əsədov Oqtay** – 313
**Əzizov Eldar** – 168
**Feyrhed Rona** – 270
**Feyziyeva Könül** – 302–303
**Flirakers Herviq** – 31
**Gerasimov Valeri** – 110, 229
**Georganas Stiv** – 167
**Gül Əbdülhəmid** – 65

**Hamilton Luis** – 278
**Həririçi İrəc** – 40
**Həsənov Zakir** – 256
**Hüseynov Qorxmaz** – 294
**Hüseynov Turqay** – 188
**Hüseynov Zaur** – 233
**Hüseynova Hicran** – 39
**Hüseynova Fatma** – 20
**Xanbabayev Şəmsəddin** – 286
**Xəlilova Sevda** – 293
**İbrahim Xəzər** – 255
**İbrahimi-Türkman Əbuzər** – 39
**İbrahimbəyov Maqsud** – 115
**İbrahimova Aytəkin** – 188
**İbtikar Məsumə** – 39
**İsmayılov Tofiq** – 22
**Kecada Karlos** – 158
**Kərbasian Məsud** – 40
**Kərim Səyyad** – 310–311
**Qarqaş Ənvər** – 72– 73
**Qarses Maria** – 66
**Qarayev Əbülfəs** – 39, 124
**Qarayev Qara** – 115
**Qəhrəman İsmayıl** – 246
**Quliyev Elçin** – 282
**Quliyev Eldar** – 337
**Quluzadə Ramin** – 255
**Qusman Mixail** – 96–121, 336–337
**Qyavali Pradip** – 89–90
**Laloviç Nenad** – 275–276
**Layçak Miroslav** – 94–95
**Maduro Nikolas** – 78, 91, 92
**Marqvelaşvili Giorgi** – 129
**Mahmud Abbas** – 69
**Mehdiyev Ramiz** – 313

**Mila Santyaqo** – 314–315
**Mey Tereza** – 267, 271–272
**Məmmədov Saleh** – 287
**Məmmədov Natiq** – 186–187
**Məmmədov Novruz** – 313, 320
**Məmmədyarov Elmar** – 256
**Morris Devid** – 268
**Monserrat Xorxe** – 78–80, 91–92
**Moreno Lenin** – 67
**Muxtarova Arifə** – 188
**Mustafayev Şahin** – 40, 256
**Narışkin Sergey** – 242
**Nəsirov Elşad** – 188
**Olin Kxadqa** – 89
**Orban Viktor** – 157
**Oreşkin Maksim** – 237–238
**Pənahov Məzahir** – 181–185, 188, 192
**Pololikaşvili Zurab** – 76
**Putin Vladimir** – 23, 105, 106, 242
**Ramafosa Matamela** – 240
**Rəhimov Azad** – 39
**Rəhimov Mikayıl** – 188
**Rikkardo Daniel** – 280
**Ri-Yonq-ho** – 93
**Ruhani Həsən** – 33–60
**Sarabski İsfar** – 278
**Semaşko Vladimir** – 64
**Skaparotti Körtis** – 230–231
**Sulaim Əhməd** – 316–317
**Sultanifər Məsud** – 39
**Svarac Suşma** – 74–75
**Salahov Tahir** – 115
**Şahbazov Pərviz** – 40
**Şəriətmədari Məhəmməd** – 40
**Şirəliyev Oqtay** – 40

**Ünüvar Necdət** – 176
**Villem Aleksandr** *(Niderland kralı)*– 241
**Vityuk Vladimir** – 159
**Vuçiç Aleksandr** – 88
**Yonier Tomas** – 61–62
**Yonker Korin** – 63
**Yıldırım Binəli** – 176, 224
**Zarə Haşem** – 49
**Zəngənə Bijən** – 40
**Zlotovski Kozma** – 170

## Coğrafi adlar göstəricisi


**Afrika** – 37
**Afrin** – 251
**Ağdam** – 13, 288
**Ağdərə** – 162, 204, 334
**Ağstafa** – 288
**Almaniya** – 28
**Altıağac** – 298
**Amerika Birləşmiş Ştatları** – 28, 108, 110, 228, 269
**Ankara** – 243–264
**Asiya** – 37, 86, 211
**Astara** *(İran)* – 46
**Astara** *(Azərbaycan)* – 46
**Avrasiya** – 86, 211, 262
**Avropa** – 83, 86, 198, 211, 269
**Avstraliya** – 167
**Belarus** – 64,312
**Belçika** – 28
**Berlin** – 312
**Bərdə** – 6–22
**Biləsuvar** – 288
**Birləşmiş Ərəb Əmirlikləri** – 72–73
**Bolqarıstan** – 124
**Böyük Britaniya** – 28, 160, 267–272
**Brest** – 312
**Cəbrayıl** – 162, 204, 334
**Cənubi Afrika Respublikası** – 240
**Cənubi Avropa** – 86
**Cocuq Mərcanlı** – 170, 204
**Çexiya** – 124
**Çin** – 55

**Dağlıq Qarabağ** – 42, 47, 81, 108, 109, 132, 162, 202, 203, 252, 253, 260, 262, 269, 311, 327, 333
**Dominikan** – 124
**Ekvador** – 66–67
**Əfqanıstan** – 230, 236
**Fars körfəzi** – 45
**Fransa** – 28, 108, 305, 306
**Füzuli** – 162, 204, 334
**Gürcüstan** – 43, 55, 124, 129, 259
**Hind okeanı** – 45
**Hindistan** – 74– 75
**Xaçmaz** – 286–287
**Xankəndi** – 334
**Xəzər dənizi** – 38, 42, 45, 56, 210
**Xocalı** – 81, 82, 334
**Xızı** – 298–306
**İndoneziya** – 124
**İordaniya** – 70, 71
**İspaniya** – 28
**İsveç** – 28
**İsveçrə** – 124
**İtaliya** – 28, 124
**İran** – 33–60, 107, 259
**Kabil** – 236
**Kanada** – 25
**Kemerovo** – 23
**Kiyev** – 312
**Koreya Xalq Demokratik Respublikası** – 93
**Koreya Respublikası** – 226–227
**Kosta-Rika** – 158
**Kuba** – 232
**Kürdəmir** – 289

**Qafqaz** – 45, 170, 312
**Qazaxıstan** – 107
**Qəbələ** – 151
**Qobustan** – 155, 289
**Quba** – 155, 289
**Qusar** – 151, 289
**Leninqrad** – 312
**Lənkəran** – 288
**London** – 267–272
**Macarıstan** – 157
**Marazad** – 43
**Mərakeş** – 124
**Mərkəzi Asiya** – 45
**Mərkəzi Avropa** – 86
**Mingəçevir** – 11, 19, 20, 142
**Misir** – 68
**Moldova** – 159
**Monteneqro** – 273
**Moskva** – 312, 325
**Naxçıvan Muxtar Respublikası** – 190
**Naxçıvan** – 288, 329, 330
**Neftçala** – 14, 48, 142
**Nepal** – 89–90
**Niderland** – 241
**Oman dənizi** – 45
**Ordubad** – 43
**Pakistan** – 259
**Polşa** – 285, 312
**Pribaltika** – 312
**Rusiya** – 23, 43, 45, 55, 96–121, 105, 106, 107, 108, 110, 124, 229, 237–238, 242, 336–337
**Serbiya** – 88
**Simferopol** – 312
**Siyəzən** – 289

**Sloveniya** – 124
**Stalinqrad** – 312
**Syerra-Leone** – 239
**Şabran** – 289
**Şamaxı** – 170
**Şanxay** – 164–166
**Şəmkir** – 155
**Şərqi Avropa** – 45
**Şimali Avropa** – 45
**Şirvan** – 289
**Şuşa** – 170
**Tailand** – 124
**Tehran** – 43
**Türkiyə** – 43, 55, 65, 124, 176, 224, 243–264
**Türkmənistan** – 107
**Ukrayna** – 312
**Venesuela-Bolivar Respublikası** – 78–80, 91, 92
**Yaponiya** – 28
**Yuqoslaviya** – 312

# MÜNDƏRİCAT

BƏRDƏ RAYONUNDA PAMBIQÇILIĞIN İNKİŞAFINA DAİR RESPUBLİKA MÜŞAVİRƏSİNDƏ İŞTİRAK

*26 mart 2018-ci il* ........................................................................................5

YEKUN NİTQİ

*26 mart 2018-ci il* ........................................................................................12

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*26 mart 2018-ci il* ........................................................................................23

BONA DEA BEYNƏLXALQ HOSPİTALIN AÇILIŞI MƏRASİMİ

*27 mart 2018-ci il* ........................................................................................24

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ HƏSƏN RUHANİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*28 mart 2018-ci il* ........................................................................................33

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ HƏSƏN RUHANİ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*28 mart 2018-ci il* ........................................................................................34

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*28 mart 2018-ci il* ........................................................................................36

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*28 mart 2018-ci il* ........................................................................................39

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ HƏSƏN RUHANİ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*28 mart 2018-ci il ........................................................................................41*

AZƏRBAYCAN–İRAN BİZNES-FORUMU

*29 mart 2018-ci il ........................................................................................48*

BEYNƏLXALQ MEMARLAR İTTİFAQININ PREZİDENTİ TOMAS VONİERİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 mart 2018-ci il ........................................................................................61*

ATƏT-in DEMOKRATİK TƏSİSATLAR VƏ İNSAN HAQLARI BÜROSU MİSSİYASININ RƏHBƏRİ KORİN YONKER İLƏ GÖRÜŞ

*30 mart 2018-ci il ........................................................................................63*

BELARUS RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ VLADİMİR SEMAŞKONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 aprel 2018-ci il..........................................................................................64*

TÜRKİYƏ RESPUBLİKASININ ƏDLİYYƏ NAZİRİ ƏBDÜLHƏMİD GÜLÜN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 aprel 2018-ci il..........................................................................................65*

EKVADOR RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MARİA FERNANDA ESPİNOZA QARSES İLƏ GÖRÜŞ

*3 aprel 2018-ci il..........................................................................................66*

MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜL FƏTTAH ƏS-SİSİYƏ

*3 aprel 2018-ci il..........................................................................................68*

FƏLƏSTİN DÖVLƏTİNİN XARİCİ İŞLƏR
NAZİRİ RİAD ƏL-MALİKİ İLƏ GÖRÜŞ

*4 aprel 2018-ci il* ........................................................................................ *69*

İORDANİYA HAŞİMİLƏR KRALLIĞININ İNFORMASİYA
VƏ KOMMUNİKASİYA ÜZRƏ DÖVLƏT NAZİRİ MƏHƏMMƏD ƏL-MOMANİ İLƏ GÖRÜŞ

*4 aprel 2018-ci il* ........................................................................................ *70*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN XARİCİ İŞLƏR
ÜZRƏ DÖVLƏT NAZİRİ ƏNVƏR QARQAŞIN BAŞÇILIQ
ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 aprel 2018-ci il* ........................................................................................ *72*

HİNDİSTAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ
SUŞMA SVARACIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*4 aprel 2018-ci il* ........................................................................................ *74*

DÜNYA TURİZM TƏŞKİLATININ BAŞ KATİBİ
ZURAB POLOLİKAŞVİLİ İLƏ GÖRÜŞ

*4 aprel 2018-ci il* ........................................................................................ *76*

«QOŞULMAMA HƏRƏKATI»NIN NAZİRLƏR KONFRANSININ AÇILIŞI MƏRASİMİNDƏ
İŞTİRAK

*5 aprel 2018-ci il* ........................................................................................ *77*

SERBİYA RESPUBLİKASI BAŞ NAZİRİNİN BİRİNCİ
MÜAVİNİ VƏ XARİCİ İŞLƏR NAZİRİ İVİTSA DAÇİÇİN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ
*5 aprel 2018-ci il* ........................................................................................ *88*

NEPAL FEDERATİV DEMOKRATİK RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ PRADİP KUMAR QYAVALİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*5 aprel 2018-ci il* ............................................................................ *89*

VENESUELA-BOLİVAR RESPUBLİKASININ XARİCİ İŞLƏR
ÜZRƏ XALQ HAKİMİYYƏTİ NAZİRİ
XORXE ARREASA MONSERRATIN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 aprel 2018-ci il* ............................................................................ *91*

KOREYA XALQ DEMOKRATİK RESPUBLİKASININ
XARİCİ İŞLƏR NAZİRİ Rİ YONQ-HONUN BAŞÇILIQ
ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 aprel 2018-ci il* ............................................................................ *93*

BMT BAŞ ASSAMBLEYASININ 72-ci SESSİYASININ SƏDRİ
MİROSLAV LAYÇAK İLƏ GÖRÜŞ

*5 aprel 2018-ci il* ............................................................................ *94*

RUSİYANIN TASS İNFORMASİYA AGENTLİYİ BAŞ
DİREKTORUNUN BİRİNCİ MÜAVİNİ
MİXAİL QUSMANA MÜSAHİBƏ

*5 aprel 2018-ci il* ............................................................................ *96*

AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

*6 aprel 2018-ci il* .......................................................................... *122*

«AITF–2018» XVII AZƏRBAYCAN BEYNƏLXALQ TURİZM
VƏ SƏYAHƏTLƏR SƏRGİSİ İLƏ TANIŞLIQ

*6 aprel 2018-ci il* .......................................................................... *124*

GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB GİORGİ MARQVELAŞVİLİYƏ

*8 aprel 2018-ci il ........................................................................................129*
NAZİRLƏR KABİNETİNİN İLİN BİRİNCİ RÜBÜNÜN
YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ
HƏSR OLUNMUŞ İCLASINDA İŞTİRAK

*9 aprel 2018-ci il ........................................................................................130*

YEKUN NİTQİ

*9 aprel 2018-ci il ........................................................................................139*

MACARISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ CƏNAB VİKTOR ORBANA

*9 aprel 2018-ci il ........................................................................................157*

KOSTA-RİKA RESPUBLİKASININ YENİ
SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB
KARLOS ALVARADO KESADAYA

*10 aprel 2018-ci il ......................................................................................158*

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ
SEÇKİLƏRİNƏ SƏSVERMƏDƏ İŞTİRAK

*11 aprel 2018-ci il ......................................................................................159*

SEÇKİLƏRİN NƏTİCƏLƏRİ İLƏ BAĞLI
AZƏRBAYCAN XALQINA MÜRACİƏT

*11 aprel 2018-ci il ......................................................................................161*

ŞANXAY ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ
KATİBİ RƏŞİD ƏLİMOVUN RƏHBƏRLİK ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 aprel 2018-ci il ......................................................................................164*

AVSTRALİYA–AZƏRBAYCAN PARLAMENTLƏRARASI
DOSTLUQ QRUPUNUN ÜZVÜ STİV GEORGANASIN BAŞÇILIQ
ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 aprel 2018-ci il ........................................................................................167*

HACI CAVAD MƏSCİDİNİN YENİ BİNASININ AÇILIŞI
MƏRASİMİ

*12 aprel 2018-ci il ........................................................................................168*

MDB İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ-İCRAÇI KATİBİ
SERGEY LEBEDEV İLƏ GÖRÜŞ

*12 aprel 2018-ci il ........................................................................................173*

MƏRKƏZÇİ DEMOKRATLAR İNTERNASİONALININ
VİTSE-PREZİDENTİ MARİO DAVİD İLƏ GÖRÜŞ

*12 aprel 2018-ci il ......................................................................................175*

TÜRKİYƏ–AZƏRBAYCAN PARLAMENTLƏRARASI
DOSTLUQ QRUPUNUN HƏMSƏDRİ
NECDƏT ÜNÜVARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*12 aprel 2018-ci il ........................................................................................176*

AVROPA MÜHAFİZƏKARLAR VƏ REFORMİSTLƏR
QRUPUNUN AZƏRBAYCANDA SEÇKİ MÜŞAHİDƏ
MİSSİYASININ RƏHBƏRİ KOZMA ZLOTOVSKİ
İLƏ GÖRÜŞ

*12 aprel 2018-ci il ........................................................................................177*

PREZİDENT SEÇKİLƏRİNDƏ İNAMLI QƏLƏBƏ
MÜNASİBƏTİLƏ KEÇİRİLƏN KONSERT PROQRAMINDA
İŞTİRAK

*12 aprel 2018-ci il ........................................................................................178*

MƏRKƏZİ SEÇKİ KOMİSSİYASININ 3 394 898 SEÇİCİ
ETİMADI İLƏ İLHAM ƏLİYEVİN PREZİDENT SEÇKİLƏRİNİN QALİBİ
ELAN EDİLMƏSİ MƏRASİMİ

*15 aprel 2018-ci il* ........................................................................... *181*

KONSTİTUSİYA MƏHKƏMƏSİNİN İLHAM ƏLİYEVİN RƏSMİ OLARAQ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ELAN EDİLMƏSİ MƏRASİMİ

*17 aprel 2018-ci il* ........................................................................... *188*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ANDİÇMƏ MƏRASİMİ

*18 aprel 2018-ci il* ........................................................................... *196*

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*18 aprel 2018-ci il* ........................................................................... *213*

ŞƏHİDLƏRİN XATİRƏSİNƏ EHTİRAM

*18 aprel 2018-ci il* ........................................................................... *214*

DÖVLƏT BAYRAĞI MEYDANINDA

*18 aprel 2018-ci il* ........................................................................... *215*

İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATI GƏNCLƏR VƏ İDMAN NAZİRLƏRİ KONFRANSININ DÖRDÜNCÜ SESSİYASININ İŞTİRAKÇILARINA

*18 aprel 2018-ci il* ........................................................................... *216*

İSLAM ƏMƏKDAŞLIQ TƏŞKILATI GƏNCLƏR VƏ İDMAN NAZİRLƏRİ KONFRANSININ DÖRDÜNCÜ SESSİYASINDA İŞTİRAK EDƏN GƏNCLƏR VƏ İDMAN NAZİRLƏRİ İLƏ GÖRÜŞ

*18 aprel 2018-ci il* ........................................................................... *218*

TÜRKİYƏ RESPUBLİKASININ GƏNCLİK VƏ İDMAN NAZİRİ OSMAN AŞKIN BAK İLƏ GÖRÜŞ

*18 aprel 2018-ci il* ........................................................................... *224*

BEYNƏLXALQ ATOM ENERJİSİ AGENTLİYİNİN BAŞ DİREKTORU YUKİO AMANO İLƏ GÖRÜŞ

*18 aprel 2018-ci il ........................................................................225*

KOREYA RESPUBLİKASININ BEYNƏLXALQ SƏRGİLƏR BÜROSUNUN NÜMAYƏNDƏSİ, SƏFİR CAİ-ÇUL ÇOYUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 aprel 2018-ci il.........................................................................226*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ 41-ci PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CORC HERBERT VOLKER BUŞA

*19 aprel 2018-ci il ........................................................................228*

RUSİYA FEDERASİYASI SİLAHLI QÜVVƏLƏRİNİN BAŞ QƏRARGAH RƏİSİ VALERİ GERASİMOV İLƏ GÖRÜŞ

*19 aprel 2018-ci il.........................................................................229*

NATO-nun AVROPADA MÜTTƏFİQ QÜVVƏLƏRİNİN ALİ BAŞ KOMANDANI KÖRTİS SKAPAROTTİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ
*19 aprel 2018-ci il.........................................................................230*

KUBA RESPUBLİKASI DÖVLƏT ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB MİGEL DİAS-KANEL BERMUDESƏ

*20 aprel 2018-ci il.........................................................................232*

PAYTAXTA GƏTİRİLƏN YENİ METRO QATARLARINA BAXIŞ

*20 aprel 2018-ci il ........................................................................233*

ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD ƏŞRƏF QANİYƏ

*23 aprel 2018-ci il* ............................................................................. *236*

RUSİYA FEDERASİYASININ İQTİSADİ İNKİŞAF NAZİRİ MAKSİM OREŞKİN İLƏ GÖRÜŞ

*23 aprel 2018-ci il* ............................................................................. *237*

SYERRA-LEONE RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CULİUS MAADA BİOYA

*24 aprel 2018-ci il* ............................................................................. *239*

CƏNUBİ AFRİKA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MATAMELA SİRİL RAMAFOSAYA

*24 aprel 2018-ci il* ............................................................................. *240*

NİDERLAND KRALI ƏLAHƏZRƏT VİLLEM-ALEKSANDRA

*24 aprel 2018-ci il* ............................................................................. *241*

RUSİYA FEDERASİYASI XARİCİ KƏŞFİYYAT XİDMƏTİNİN DİREKTORU SERGEY NARIŞKİN İLƏ GÖRÜŞ

*24 aprel 2018-ci il* ............................................................................. *242*

TÜRKİYƏ RESPUBLİKASINA RƏSMİ SƏFƏR

*24 aprel 2018-ci il* ............................................................................. *243*

ANKARADA HEYDƏR ƏLİYEV PARKINDA ULU ÖNDƏRİN ABİDƏSİNİ ZİYARƏT

*24 aprel 2018-ci il* ............................................................................. *244*

ANITQƏBİRİ ZİYARƏT

*25 aprel 2018-ci il* ............................................................................. *245*

TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ İSMAYIL QƏHRƏMAN İLƏ GÖRÜŞ

*25 aprel 2018-ci il ........................................................................................246*

RƏSMİ QARŞILANMA MƏRASİMİ

*25 aprel 2018-ci il ........................................................................................247*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*25 aprel 2018-ci il ........................................................................................248*

AZƏRBAYCAN–TÜRKİYƏ YÜKSƏK SƏVİYYƏLİ STRATEJİ ƏMƏKDAŞLIQ ŞURASININ YEDDİNCİ İCLASINDA İŞTİRAK

*25 aprel 2018-ci il ........................................................................................249*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*25 aprel 2018-ci il ........................................................................................255*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*25 aprel 2018-ci il ........................................................................................257*

«XX ƏSRDƏ TÜRK-MÜSƏLMAN XALQLARINA QARŞI SOYQIRIMILARI» MÖVZUSUNDA BEŞİNCİ BEYNƏLXALQ ELMİ KONFRANSIN İŞTİRAKÇILARINA

*25 aprel 2018-ci il ........................................................................................265*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞINA SƏFƏR

*26 aprel 2018-ci il ........................................................................................267*

BÖYÜK BRİTANİYA PARLAMENTİNİN BİR QRUP ÜZVÜ
İLƏ GÖRÜŞ

*26 aprel 2018-ci il ........................................................................268*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ
KRALLIĞININ AVROPA VƏ AMERİKA MƏSƏLƏLƏRİ
ÜZRƏ DÖVLƏT NAZİRİ
ALAN DUNKAN İLƏ GÖRÜŞ

*26 aprel 2018-ci il ........................................................................269*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ
KRALLIĞININ TİCARƏT VƏ
İXRACIN TƏŞVİQİ ÜZRƏ DÖVLƏT NAZİRİ BARONESSA
RONA FEYRHED İLƏ GÖRÜŞ

*26 aprel 2018-ci il ........................................................................270*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ
KRALLIĞININ BAŞ NAZİRİ
TEREZA MEY İLƏ GÖRÜŞ

*26 aprel 2018-ci il ........................................................................271*

MONTENEQRONUN YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB MİLO CUKANOVİÇƏ

*27 aprel 2018-ci il ........................................................................273*

AVROPA PARLAMENTİNİN AZƏRBAYCAN ÜZRƏ DAİMİ
MƏRUZƏÇİSİ NORİKA NİKOLAİ İLƏ GÖRÜŞ

*27 aprel 2018-ci il ........................................................................274*

DÜNYA GÜLƏŞ BİRLİYİNİN PREZİDENTİ
NENAD LALOVİÇ İLƏ GÖRÜŞ

*29 aprel 2018-ci il ........................................................................275*

«FORMULA-1» AZƏRBAYCAN QRAN-PRİSİNİN AÇILIŞI MƏRASİMİ VƏ FİNAL MƏRHƏLƏSİNƏ BAXIŞ

*29 aprel 2018-ci il ........................................................................................277*

YENİ İNŞA EDİLMİŞ «TUFAN» TİPLİ SƏRHƏD GÖZƏTÇİ GƏMİSİNƏ BAXIŞ

*30 aprel 2018-ci il ........................................................................................282*

POLŞA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANDJEY DUDAYA

*30 aprel 2018-ci il ........................................................................................285*

XAÇMAZ RAYONUNA SƏFƏR

*4 may 2018-ci il.............................................................................................286*

XIZI RAYONUNA SƏFƏR

*4 may 2018-ci il .............................................................................................298*

XIZI RAYONUNA VƏ ALTIAĞAC QƏSƏBƏSİNƏ İÇMƏLİ SUYUN VERİLMƏSİ MƏRASİMİNDƏ İCTİMAİYYƏTİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*4 may 2018-ci il.............................................................................................299*

BAKI OLİMPİYA STADİONUNDAN HEYDƏR ƏLİYEV PROSPEKTİNƏ KEÇİD VƏ MÜXTƏLİF TƏYİNATLI YOL QOVŞAĞININ AÇILIŞI MƏRASİMİ

*7 may 2018-ci il.............................................................................................307*

AVROPA İTTİFAQI–AZƏRBAYCAN PARLAMENT ƏMƏKDAŞLIQ KOMİTƏSİNİN SƏDRİ SƏYYAD KƏRİMİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*7 may 2018-ci il.............................................................................................310*

9 MAY – QƏLƏBƏ GÜNÜ MÜNASİBƏTİLƏ BAKIDA KEÇİRİLƏN MƏRASİMDƏ İŞTİRAK

*9 may 2018-ci il*..........................................................................312

BEYNƏLXALQ LİMANLAR ASSOSİASİYASININ PREZİDENTİ SANTYAQO QARSİA MİLA İLƏ GÖRÜŞ

*9 may 2018-ci il*..........................................................................314

DP VORLD ŞİRKƏTİNİN PREZİDENTİ SULTAN ƏHMƏD BİN SULAİM İLƏ GÖRÜŞ

*9 may 2018-ci il* ..........................................................................316

FƏXRİ XİYABANDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*10 may 2018-ci il*..........................................................................318

ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN DOĞUM GÜNÜNƏ HƏSR OLUNMUŞ AĞAC ƏKMƏ AKSİYASINDA İŞTİRAK

*10 may 2018-ci il* ..........................................................................321

AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 95 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM

*10 may 2018-ci il* ..........................................................................324

QEYDLƏR ..........................................................................339

*Şəxsi adlar göstəricisi*..........................................................................369

*Coğrafi adlar göstəricisi* ..........................................................................374

| | |
|---|---|
| **Texniki redaktor** | ***Zoya Nəcəfova*** |
| **Yığım üzrə operator** | ***İlhamə Kərimova*** |
| **Kompüter tərtibatı** | ***Məhəbbət Orucov*** |

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından
istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 25,0. Uçot nəşr vərəqi 25,5. Tirajı 5000
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.